AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

NAZİM MƏMMƏDOV

# AZƏRBAYCAN SSR DAĞLIQ QARABAĞ BÖLGƏSİNİN ŞƏHƏR və RAYONLARININ TARİXİ

*(XX əsrin 20–90-cı illəri)*

11111
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – 2010

63.3 (5Aze-6)6
M 51

*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.*

Elmi məsləhətçi:

**Yaqub Mahmudlu**
*AMEA-nın müxbir üzvü, t.e.d., professor*

Rəyçilər:

**T.H.Musayeva**, *t.e.d., prof.*
**Q.Ə.Hacıyev**, *t.e.d.*
**V.S.Həsənov**, *t.e.d.*

**Nazim Məmmədov**
M 52 **Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi.** ***(XX əsrin 20-90-cı illəri).*** Bakı, «Təhsil», 2010, 200 səh.

Kitabda Azərbaycan SSR-in Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi kompleks şəkildə tədqiq edilir. Həmçinin Ermənistan silahlı birləşmələri tərəfindən torpaqlarımızın 20 faizinin işğal edilməsi, yeraltı və yerüstü təbii sərvətimizin qəddarcasına talan olunması, bölgənin şəhər və rayonlarının təbii landşaftına, ekologiyasına, flora və faunasına, iqliminə vurulan ağır zərər işıqlandırılır.

$M\frac{4306020600}{053}2010$

**«Təhsil», 2010**

## ÖN SÖZ ƏVƏZİ

Azərbaycanın Yuxarı Qarabağ bölgəsi dünyanın ən qədim mədəniyyət ocaqlarından biridir. Əlverişli təbii-coğrafi şərait, şirin su qaynaqlarının, bitki və heyvanlar aləminin zənginliyi, təbii mağaraların olması hələ qədim dövrlərdən burada ibtidai insanların məskən salmasına şərait yaratmışdır. Dağlıq Qarabağda Şuşa kimi ulu tarixə malik şəhər, Xocalı, Xankəndi, Xocavənd kimi qədim yaşayış məskənləri, Ağdərə, Hadrud və digər inkişaf etmiş rayonlar vardır ki, bütövlükdə onların tarixini tədqiq etmək olduqca vacib və əhəmiyyətlidir. Mövzunun aktuallığını şərtləndirən ən vacib amillərdən biri Yuxarı Qarabağın Ermənistan silahlı birləşmələri tərəfindən ələ keçirilməsi, dağıdılması, talan edilməsi ilə yanaşı, erməni «müəllifləri» tərəfindən saxtalaşdırma obyektinə çevrilməsi ilə bağlıdır.

Bu gün Azərbaycanın şəhər və rayonlarının, o cümlədən, Dağlıq Qarabağın şəhər və rayonlarının tarixi, Azərbaycan tarixinin ən az işlənmiş aktual problemlərindəndir. Dağlıq Qarabağın şəhər və rayonlarının yaranması və inkişafını öyrənməyin böyük elmi əhəmiyyəti vardır.

Bir acı həqiqəti qeyd etməliyik ki, vaxtilə Azərbaycanı tərk edən mənfur siyasət sahibləri olan ermənilər Dağlıq Qarabağın tarixinə dair mövcud mənbələri ya məhv etmiş, ya da Ermənistana aparmışlar. Bütün bunlar Dağlıq Qarabağın şəhər və rayonlarının tarixinin yazılmasında müəyyən çətinliklər törətsə də, mövcud mənbələrə, tarixi tədqiqatlara əsaslanaraq problemi obyektiv tədqiq etməyə cəhd göstərmişik. Tədqiqi elmi-təcrübəsi maraq kəsb edən bu mövzu son dövrlərə qədər fundamental monoqrafik tədqiqatın obyekti olmamışdır. Mövzunun seçilməsi də, onun aktuallığı ilə şərtlənir.

Monoqrafiya Dağlıq Qarabağın şəhər və rayonlarının 1920–1991-ci illər tarixi dövrünü əhatə edir. Müqayisələrə, təhlillərə əsaslanaraq bəhs olunan xronoloji çərçivədə Dağlıq Qarabağın rayonlarının yaranması, inkişafı və son nəticədə erməni vandalları tərəfindən işğalının hərtərəfli tədqiqi böyük elmi maraq doğurur və Dağlıq Qarabağın şəhər və rayonlarının, məhz qeyd olunan xronoloji çərçivə daxilində tədqiqi mühüm əhəmiyyət kəsb edir.

Son dövrlər Azərbaycanın şəhər və rayonlarının tarixinin tədqiqi çox ciddi xarakter almışdır. Bu, hər şeydən öncə Ümummilli liderimiz Heydər Əliyevin tövsiyələri, göstəriş və qərarları ilə bağlıdır. Onun vaxtilə irəli sürdüyü «Azərbaycanın qədim şəhərlərinin tarixi öyrənilməlidir» fikri

tarixçilər qarşısında böyük məsuliyyət qoymuş, bu səpkidə mövzuların tədqiqinə diqqəti artırmışdır.

İyirminci yüzilliyin qanlı münaqişələrindən biri olan «Dağlıq Qarabağ problemi» artıq xeyli vaxtdır ki, həll olunmamış qalır. Münaqişənin başladığı andan bu günədək çoxlu qanlı hadisələr, siyasi dəyişikliklər baş vermişdir. Əvvəlcə narazılıq kimi qələmə verilən problem böyüyərək iki dövlət arasında müharibəyə çevrilmiş, torpaqlarımızın 20 faizi işğal edilmiş, 20 min həmvətənlərimiz şəhid olmuş, köçkün və qaçqınlarımızın sayı 1 milyonu keçmiş, minlərlə ev, məktəb binaları, təsərrüfat, mədəniyyət sahələri dağıdılmış, yandırılmış və qarət edilmişdir. Təəssüf hissi ilə qeyd etməliyik ki, yuxarıda adıgedən qanlı cinayətlər, erməni işğalı heç də beşon il ərzində aparılan siyasətin nəticəsi deyil. Tarixi Azərbaycan torpaqlarının işğalı, uzun illər ərzində millətçi erməni təşkilatlarının, böyük dövlətlərin əvvəlcədən düşünülmüş və ardıcıl davam etdirilən siyasətinin nəticəsi idi. «Böyük Ermənistan» yaratmaq ideyasının müəllifləri, bu ideyanı yüz minlərlə erməninin düşüncəsinə yeridə bilmişdilər. Artıq bu ideya onların milli siyasətinə çevrilmişdir. Təəssüflər olsun ki, uzun müddət ərzində Dağlıq Qarabağ həqiqətləri dünyaya çatdırılmırdı. Yayımlanan məlumatlar isə qeyri-obyektiv idi. Sovet hakimiyyəti dönəmində dünyaya yayılan informasiyalar ermənilərin mənafeyinə uyğun verilirdi. Bütün bunlar isə Azərbaycan haqqında birtərəfli, yanlış fikrin formalaşmasına gətirib çıxarmışdır. Bəhs olunan dövrdə obyektiv və subyektiv, daxili və xarici amillər bu sahədə dürüst fikir formalaşdırmağa mane olurdu. Lakin XX əsrin 90-cı illərinin əvvəllərində xalqın təkidli tələbi ilə Ümummilli liderimiz H.Ə.Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan diplomatiyasının fəallaşmasına, mövcud ideoloji sədlərin dağılmasına gətirib çıxardı. Dünya siyasətçisi H.Ə.Əliyevin rəhbərliyi altında Azərbaycan diplomatiyasının məqsədyönlü siyasəti nəticəsində müxtəlif səviyyəli siyasi dairələrdə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı obyektiv fikir formalaşmağa başlamışdır. Azərbaycan Respublikasına qarşı informasiya blokadasının yarılması, Dağlıq Qarabağ probleminə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın dünya dövlətləri arasında özünə layiqli yer tutması, respublikamızın ərazi bütövlüyünün sülh danışıqları yolu ilə təmin edilməsi məhz Heydər Əliyevin gərgin və səmərəli işinin nəticəsində əldə edilmişdir.

Dövlətimiz müstəqillik əldə etdikdən sonra, ölkəmizdə siyasi və iqtisadi sabitlik yarandı, beynəlxalq əlaqələr genişləndi və bütün bunların nəticəsində milli və bəşəri dəyərlərə əsaslanan ideologiyanın formalaşmasına təsir göstərdi. Ölkəmizdə aparılan demokratik islahatlar milli ideologiyanın humanist, demokratik xarakterini daha da dərinləşdirdi. Xalqda öz tarixi və mədəniyyəti üçün qürur hissinin inkişaf etdirilməsi milli ideologiyanın mühüm qaynaqlarındandır. Həmçinin, xalqın mənəvi gücünün artmasına Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin öyrənilməsi mühüm təsir göstərir. Ermənilərin Azərbaycan torpaqlarını ələ keçirmək üçün azərbaycanlılara qarşı apardıqları siyasətin mahiyyətinin açılmasına, tarixi yaddaşın möhkəmləndirilməsinə xüsusi diqqət yetirilmişdir və yetirilməlidir. Ümummilli liderimiz H.Ə.Əliyevin «Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi, tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli köklərinə bağlı yeni təfəkkürlü gənc nəslin yetişdirilməsini zəruri edir... Xalqımız daim bilməlidir ki, bizim tarixi torpaqlarımız hansılar olubdur. Hansılar, nə vaxt əlimizdən gedibdir və şübhəsiz ki, bunlar qayıtmalıdır. Biz də qaytara bilməsək gələcək nəsillər bunları qaytaracaqlar!» tövsiyəsi, müraciət olunan mövzuya diqqəti artırmışdır.

Azərbaycanın şəhər və rayonlarının tarixinin müxtəlif aspektlərdə öyrənilməsi tarixşünaslığımızın bir çox problemlərinin öyrənilməsini şərtləndirmişdir. Azərbaycan tarixçiləri arasında, şəhər və rayonların tarixi probleminin öyrənilməsi baxımından tarixçi alimlərimizdən – Q.Ə.Hacıyevin «Bərdə şəhərinin tarixi», S.B.Aşurbəylinin «Bakı şəhərinin tarixi», L.H.Əliyev, F.V.Qədirovun «Qəbələ», Q.M.Əhmədovun «Orta əsr Beyləqan şəhəri», V.H.Əliyevin «Qədim Naxçıvan», Ş.F.Fərzəlibəylinin «Qubanın tarixi», A.M.Şıxəliyevin «Şamaxı şəhərinin tarixi (1859–1902)», N.Q.Cəfərovun «Lənkəran şəhərinin tarixi (XIX əsrin sonu – XX əsrin əvvəlləri)», A.M.İsmayılovun «Şəkinin tarixi» və digərlərinin əsərləri xüsusilə fərqlənir. Bu əsərlər Azərbaycan tarixşünaslığında xüsusi əhəmiyyət kəsb edir.

Dağlıq Qarabağın şəhər və rayonlarının tarixi probleminin tarixşünaslığını araşdırmağa başlamazdan əvvəl bir məsələyə xüsusi diqqət vermək lazımdır ki, müraciət olunan mövzunun tarixi dərindən öyrənilməmiş, Şuşanın, Əsgəranın, Hadrudun, Xankəndinin, Xocalının, Xocavəndin, Ağdərənin tarixi elmi ədəbiyyatda ayrı-ayrıhqda tədqiq edilməmişdir. XIX yüzillikdə Qarabağa köçürülən ermənilər vəziyyətdən çox məharətlə istifadə edərək Qarabağın guya onlara məxsus qədim yaşayış məskəni olması iddialarını irəli sürmüş və uydurma «tarixi əsərlər» çap etdirmişlər. A.Akopyan, Q.Karkaryan, M.Şaginyan, S.Yeremyan, A.Arakelyan, T.Qvendiyan və digərləri Azərbaycanın qədim tarixini saxtalaşdıraraq,

Kürdən cənubdakı ərazilərimizin tarixən Ermənistana məxsus olması konsepsiyasını irəli sürmüş və Ermənistan ərazisini üç böyük dəniz arasında təsvir etmişdilər.

Dağlıq Qarabağın sosializm quruculuğu dövrünü tədqiq edən erməni alimləri – Q.Abramyan, Q.İonesiyan, Q.Koçaryan, S.Avakyan, Ş.Mkrtıçyan və digərləri Azərbaycan SSR DQMV-nin tarixini tamamilə təhrif etmiş, öz «əsərlərində» «Böyük Ermənistan» xülyasını əsaslandırmışlar. Yuxarıda adıgedən erməni müəlliflərinin əsərlərini nəzərdən keçirərkən məlum olur ki, sonralar məqsədli şəkildə adları dəyişdirilən (Stepanakert, Mardakert Martuni) rayon və şəhərlərin adları vurğulanır, Azərbaycanın qədim yaşayış məskənləri (Xocalı, Xocavənd, Şuşa) haqqında heç bir məlumat verilmir. Bəzi erməni tarixçiləri isə öz tədqiqatlarında Dağlıq Qarabağın tarixinə dair yazdıqları əsərlərində Qarabağı Azərbaycan tarixi kimi yox, Ermənistan tarixinin bir hissəsi kimi qələmə almışlar. Belə tarixçilərə A.Akopyanı, İ.Aqayanı, Q.Qolayanı və digərlərini misal olaraq göstərmək olar.

XX yüzilliyin 80-ci illərində «yenidənqurma» və «aşkarlığın» yaratdığı imkanlardan istifadə edən erməni millətçiləri (Z.Balayan, P.Qazaryan, S.Xanzadyan, B.Ulubabyan, S.Kaptukyan, B.Hambarsumyan, A.Aqambekyan və digərləri) daha böyük bir qüvvə ilə Azərbaycana qarşı qərəzli təbliğata başlamış, öz «əsərlərində» Dağlıq Qarabağın, onun şəhər və rayonlarının tarixini saxtalaşdırmış, azərbaycanlıları təhqir etmiş, milli münaqişənin alovlanmasında müstəsna rol oynamışlar. Ümumiyyətlə, erməni müəlliflərinin yazdığı əsərlər birtərəfli, obyektivlikdən kənar, saxtakarlıqla təqdim edilmişdir. Ona görə də, yuxarıda adı gedən erməni müəlliflərinin əsərlərinə müraciət olunarkən diqqətli olmağımız, toxunulan məsələlərə tənqidi yanaşmağımız tələb olunur.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixinə dair yazılan əsərlərin sayı çox azdır. XX yüzilliyin 70–80-ci illərində problemin öyrənilməsinə təşəbbüslər göstərilmiş, müxtəlif səpkili tədqiqatlar aparılmışdır. Dağlıq Qarabağın şəhər və rayonlarının tarixi probleminə dair yalnız bir namizədlik dissertasiyası həsr edilmişdir. Belə ki, İsmayılova Gülcamal Nərman qızı 1987-ci ildə «XIX əsr – XX əsrin əvvəllərində Şuşa şəhərinin tarixi (1800–1917-ci illər)» adlı namizədlik dissertasiyası müdafiə etmişdir. Elmi tədqiqat əsərində bəhs olunan xronoloji çərçivədə Şuşa şəhərinin ərazisi, əhalisi, sərhədləri, büdcəsi, iqtisadi, ictimai-siyasi və mədəni həyatı tədqiq edilmişdir. Əsərdə əhəmiyyətli materiallar vardır ki, yeri gəldikcə həmin materiallardan bəhrələnmişik. Lakin G.İsmayılovanın elmi-tədqiqat işi Şuşanın bütöv tarixini əhatə etmir. Eyni zamanda, Sovet hakimiyyəti dövründə yazıldığından hadisələr həmin dövrün idealogiyasına uyğun təhlil olunur.



F.Şuşinskinin 1988-ci ildə yazdığı «Şuşa» adlı monoqrafiyasında Şuşa haqqında qısaca şərh edilir, Şuşa sənətkarlarından, şəhərin gözəl mənzərələrindən, burada aparılan abadlıq işlərindən məlumat verilir.

N.R.Məmmədov Şuşanın tarixinə dair iki monoqrafiya yazmışdır. Bunlardan biri 2004-cü ildə nəşr olunmuş «Şuşa və şuşalılar» adlanır. Əsərdə Şuşanın qısa coğrafiyası, qədim tarixi, XVII–XX yüzilliklərdə Şuşada baş verən sosial-siyasi proseslər, Şuşanın görkəmli şəxsiyyətləri və ən nəhayət, 1992-ci ildə erməni hərbi birləşmələri tərəfindən Şuşanın işğalı tədqiq edilmişdir. İkinci əsər isə 2005-ci ildə nəşr olunmuş «Azərbaycanın Şuşa qəzası 1900–1917-ci illərdə» adlanır. Monoqrafiyada Şuşanın qısa tarixi-coğrafi icmalı verilmiş, 1900–1917-ci illərdə Şuşada sənaye, kənd təsərrüfatı və mədəniyyətin inkişafı işıqlandırılır, bəhs olunan xronoloji çərçivədə Şuşada baş verən tətillər, 1905–1906-cı illər çarizmin Şuşada törətdiyi milli qırğın siyasəti tədqiq olunur. N.Məmmədovun yazdığı monoqrafiyalarda Şuşanın tarixinə dair maraqlı və əhəmiyyətli faktlar və materiallar var. Lakin təkcə Şuşa şəhərinin və ya rayonunun tarixini yazmaq heç də bütövlükdə Dağlıq Qarabağın şəhər və rayonlarının tarixinə tədqiqi demək deyildir.

K.Kərimli 1993-cü ildə «Ürəyimin Şüşəsi Şuşa», 1995-ci ildə isə «Hələ Şuşalıykən» monoqrafiyalarını nəşr etdirmişdir. Həmin əsərlərdə Şuşa haqqında yığcam məlumatlar var. Eyni zamanda Şuşanın işğalı, erməni vandallarının ərazidə törətdiyi cinayətlər, Şuşa şəhidləri, milli qəhrəmanlar, girovlar yuxarıda adıgedən əsərlərdə öz əksini tapır.

İ.Xudiyevin «Şuşadan şəhidlər xiyabanına» monoqrafiyası da, Ermənistanın Azərbaycana əsassız ərazi iddiaları və Şuşanın işğalı ilə bağlı əsərdir. Müəllif, əsərdə müharibənin törətdiyi fəlakətlərdən bəhs etmişdir.

Ümummilli liderimiz H.Ə.Əliyevin 15 may 1996-cı ildə «Azərbaycan» qəzetində nəşr olunmuş «Şuşa və Laçın xəyanətini xalqımız heç vaxt bağışlamayacaq» adlı dərin məzmunlu nitqində Şuşanın işğalı səbəbləri, ağır nəticələri geniş təhlil edilmişdir və «Şuşanın işğalı» fəslini işlərkən həmin əsərdən çox böyük məmnuniyyətlə istifadə edilmişdir.

M.Ağayevin «Şuşada», A.Ağakişiyevin «Şuşa», T.Zeynalovun «Şuşanın keçmişi bu günü, gələcəyi», C.Cavadlının «Şuşa», H.Dəlilinin «Şuşanın tarixi», B.Məmmədovun «Şuşanın dünəni, bu günü, sabahı», Z.Quliyevin «Şuşanın işğalı», N.Məmmədovun «Şuşa Qarabağın mərkəzi mədəniyyət

ocağıdır», Ə.Vəliyevin «Səfalı Şuşada», V.Ağamirovun «Stepanakert», Q.İsimzadənin «Martuni rayonunda yeni arxeoloji tapıntı», «Çartaz şəhərə dönür», L.Prilipkonun «Stepanakert və Şuşa rayonlarında dərman bitkiləri» və digər məqalələrdə Dağlıq Qarabağın şəhər və rayonlarının iqtisadi, siyasi və mədəni həyat həqiqətləri öz əksini tapmışdır.

Boran Əzizin «Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri» əsərində Xocalı soyqırımının baş verdiyi tarixi şərait və həyata keçirilmə üsulları, səbəbləri faktlar və sənədlər əsasında müqayisəli şəkildə araşdırılmışdır.

Yazıçı jurnalist Nəsiman Yaqublunun «Xocalı qırğını» kitabı XX əsrin ən böyük faciəsi olan Xocalı soyqırımına həsr olunub. Kitabda Xocalı faciəsində şəhid olanlar, yandırılanlar, diri-diri başları kəsilənlər, dırnaqları qoparılıb işgəncə ilə öldürülənlər haqqında geniş məlumat verilib. Ermənilərin vəhşiliyi, türk qanına hərisliyi ağrılı bir dillə yazılıb. Kitabda, həmçinin ayağı kəsilmiş, şikəst olmuş qadınlarımızın, cavanlarımızın, oğlu-qızı itkin düşmüş analarımızın faciəsi də təsvir edilib.

Erməni millətçilərinin Dağlıq Qarabağın tarixinə dair yazdıqları əsassız, saxta tədqiqatlardan fərqli olaraq Azərbaycan tarixşünaslığında, Yuxarı Qarabağın tarixi, faktlara və materiallara əsaslanaraq doğru işıqlandırılmışdır. Tarixçi alimlərimizdən H.Məmmədovanın «Dağlıq Qarabağda erməni separatizminə qarşı mübarizə (1918–1920-ci illər)», Y.Fərzəliyevin «DQMV-də kənd təsərrüfatının inkişafı və kənd əməkçilərinin həyat səviyyəsinin yaxşılaşdırılması (1966–1980)», A.Məhərrəmzadənin «Türkiyə və Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi», N.Məmmədovun «Azərbaycanın DQMV-nin siyasi, iqtisadi və mədəni inkişafı (XX yüzilliyin 20–30-cu illəri)», N.Əlizadənin «Azərbaycan Respublikası DQMV-də kitabxana işinin tarixi (1923–1988)», Y.Ağamalının «Qarabağ xanlığının qonşu xanlıqlarla və dövlətlərlə münasibətləri», A.İsmayılovanın «Azərbaycan Respublikası Dağlıq Qarabağ toponimlərinin tədqiqi», R.Babaşovanın «Memar Kərbalayi Səfixan yaradıcılığı və Qarabağda dini memarlıq», Q.Mustafayevin «Qarabağ» və Gəncə xanlıqları əhalisinin tarixi demoqrafik tədqiqi» S.Talıblının «İran İslam Respublikasının Qafqaz siyasətində «Qarabağ problemi» (1991–2005-ci illər)» və digər elmi tədqiqat əsərlərinin hər birisi öz əhatə dairəsində müəyyən problemi təhlil etməkdə əhəmiyyətlidir. Lakin həmin əsərlərin heç birisi ayrılıqda Dağlıq Qarabağın şəhər və rayonlarının tarixini əhatə etmir. Fikrimizcə, Dağlıq Qarabağın şəhər və rayonlarının tarixi nəinki ümumilikdə araşdırılmalıdır, əksinə, bölgənin hər bir rayon və şəhərinin tarixi ayrı-ayrılıqda tədqiq



edilməlidir. Gələcəkdə tariximizi tədqiq edəcək tarixçi alimlərimiz yəqin ki, bu aktual fikri nəzərə alacaqlar.

Bütün bunlarla yanaşı, görkəmli Azərbaycan ziyalıları, hörmətli alimlərimizdən R.Mehdiyevin, Y.Mahmudovun, Z.Səmədzadənin, T.Köçərlinin, C.Quliyevin, İ.Məmmədovun və digər tarixçi alimlərimizin yazdığı çox dəyərli əsərlərdə Dağlıq Qarabağın iqtisadi, siyasi və mədəni həyatı yüksək elmi səviyyədə işıqlandırılmışdır. Yuxarıda adıgedən müəlliflərin əsərlərində xeyli faydalı faktlar, materiallar, statistik məlumatlar vardır ki, bütün bunlar Dağlıq Qarabağ tarixinin tədqiqində ən mötəbər mənbələrdir və yeri gəldikcə həmin materiallardan bəhrələnmişik.

Ümumiyyətlə, Azərbaycanın şəhər və rayonlarının tarixi, Dağlıq Qarabağ tarixi tarixşünaslığının təhlilindən göründüyü kimi «Dağlıq Qarabağın şəhər və rayonlarının tarixi» problemi üzrə xüsusi tədqiqat aparılmamış, bölgənin şəhərlərinin, rayonlarının ayrı-ayrılıqda tarixi araşdırılmamışdır. Bu baxımdan təqdim olunan monoqrafiya Dağlıq Qarabağın şəhər və rayonlarının tarixinə həsr edilmiş ilk kompleks tədqiqat kimi qiymətləndirilə bilər.

Monoqrafiya yazılarkən çoxsaylı mənbələrdən, sənəd və materiallardan, külliyyatlardan, bioqrafik yazılardan, arxiv materiallardan, statistik və cari hesabatlardan, elmi-metodik ədəbiyyatdan, dövrü mətbuat materiallarından, yeddicildlik «Azərbaycan tarixi»nin bütün cildlərindən, elmi tədqiqat əsərlərindən, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivinin, AMEA Elmi Kitabxanasının, AMEA Əlyazmalar İnstitutunun, ARDA-nın, ARDSPİHA-nın və M.F.Axundov adına Respublika kitabxanasının fondlarının materiallarından istifadə edilmişdir. Bütün bunlarla yanaşı, DQMV-nin inkişafı üçün Azərbaycan hökuməti tərəfindən verilmiş rəsmi sənədlər, Azərbaycana 30 ildən artıq rəhbərlik etmiş və həmişə DQMV-nin inkişafını diqqətində saxlayan Ümummilli liderimiz H.Ə.Əliyevin nitq və çıxışları, Prezidentimiz İlham Əliyevin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində aparıcı xarici dövlətlərin başçıları ilə görüşlərdəki dərin məzmunlu nitqləri və nüfuzlu beynəlxalq təşkilatlardakı əhəmiyyətli çıxışları, rəsmi dövlət xadimləri ilə ikitərəfli və çoxtərəfli görüşlərdə problemlə əlaqədar çıxış və bəyanatları, Azərbaycanın tarixçi alimlərinin yazdığı əsərlər (R.Mehdiyev, Y.Mahmudov, Z.Səmədzadə, K.Şükürov, İ.Məmmədov, C.Quliyev, T.Köçərli, N.Vəlixanlı, Q.Hacıyev, H.Məmmədova, F.İbrahimli, O.Sultanov, X.Xəlilov və digər tarixçi alimlərin yazdığı əsərlər) monoqrafiyanın elmi bazasını təşkil edir.

Müraciət olunan mövzunun məqsəd və vəzifələri müasir dövrdə elmi və siyasi aktuallığından irəli gəlir. Tədqiqatın əsas məqsədi Dağlıq Qarabağın şəhər və rayonlarının tarixini kompleks şəkildə təhlil etməklə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ probleminin səbəbləri, gedişi və ağır nəticələrini, müqayisələr aparmaqla Dağlıq Qarabağın şəhər və rayonlarının «sosial iqtisadi geriliyi» barədə ortaya atılan tezisin əsassız olduğunu, Dağlıq Qarabağın şəhər və rayonlarının, tarixən Azərbaycanın ərazisi olduğunu, tarixin heç bir mərhələsində Azərbaycandan ayrılmadığını arxiv sənədləri, tarixi mənbələr, dövrü mətbuat və digər materiallar əsasında sübut etməkdən ibarətdir. Müəllif bu məqsədə nail olmaq üçün aşağıdakı konkret vəzifələrin həllinə cəhd göstərmişdir:

– Problemin öyrənilməsi səviyyəsini müəyyənləşdirmək və onların elmi təhlilini vermək;

– Mövzu ilə bağlı aşkara çıxarılmış arxiv materialları, çap edilmiş qaynaqları dərindən öyrənmək, yeni faktları təhlil etmək və sistemləşdirmək;

– Dağlıq Qarabağın şəhər və rayonlarının yaranma tarixini, ərazisini, təbii-coğrafi xüsusiyyətlərini şərh etmək;

– Dağlıq Qarabağın şəhər və rayonlarının coğrafi mövqeyini, sahəsini, relyefini, geoloji quruluşunu, faydalı qazıntılarını, iqlimini, daxili sularını, torpaq və bitki örtüyünü, heyvanlar aləmini, landşaftını, əsas yaşayış məntəqələrini işıqlandırmaq;

– Dağlıq Qarabağın şəhər və rayonlarının iqtisadi, ictimai-siyasi və mədəni həyatını təhlil etmək;

– Müxtəlif tarixi dövrlərdə bölgənin şəhər və rayonlarında yaşayan əhalinin sayını, etnik və milli tərkibini, miqrasiya prosesini izləmək;

– Erməni millətçilərinin, Dağlıq Qarabağ əhalisinin etnik – milli tərkibi ilə bağlı saxta mülahizələrinin əsassızlığını tarixi faktlar əsasında sübut etmək;

– Bölgədə ermənilərin sayının süni surətdə artırılması məqsədlərinə aydınlıq gətirmək;

– Erməni təcavüzkarlarının apardığı müharibənin Qarabağın şəhər və rayonlarının təbii landşaftına, ekologiyasına, bitki və heyvanlar aləminə, iqliminə və digər komponentlərinə göstərdiyi təsiri tədqiq etmək;

– Dağlıq Qarabağın şəhər və rayonlarının təsərrüfatının ümumi xarakteristikasını vermək. Bölgənin sənaye və kənd təsərrüfatının təbii resurs amillərini, başlıca sahələrini, nəqliyyatını, səhiyyə, idman, mədəni-maarif, mətbuat, elm, incəsənət, məktəb və digər sahələrin inkişafını, bu inkişafın başlıca amil kimi Azərbaycan dövlətinin bölgəyə göstərdiyi dərin qayğının nəticəsi olmasını açıqlamaq;



– Bölgədə ermənilər yaşayan kəndlərin abadlaşdırılması, böyüməsi, azərbaycanlılar yaşayan kəndlərə, vilayətin erməni rəhbərliyi tərəfindən, ögey münasibətin səbəblərinə aydınlıq gətirmək;

– Qərəzsiz statistikanın dili ilə Dağlıq Qarabağın sosial-iqtisadi durumunun Azərbaycanın digər regionlarına nisbətən yüksəkdə dayandığını göstərməklə, erməni ideoloqlarının «DQMV-də yaşayan erməni əhalisinin sosial-iqtisadi vəziyyətlərinin geriliyi» tezisinin ağ yalan olduğunu sübut etmək;

– XIX–XX yüzilliklərdə, Dağlıq Qarabağın toponimlərinin, mənfur siyasət sahiblərinin öz mənafelərinə uyğun, məqsədli şəkildə dəyişdirilməsi səbəblərini açmaqla, yaşayış məskənlərinin qədim (öz) adları ilə adlandırılmasına cəhd etmək. Bu məqsədlə qədim mənbələr əsasında toponimlərin coğrafi təfəkkürün hansı xalqa mənsub olmasının müəyyənləşdirilməsi; dəyişdirilmiş coğrafi adların dil mənsubiyyətinə görə coğrafi məzmununun açılması; toponimlərin mənşəyinin aydınlaşdırılması;

– Bəhs olunan xronoloji çərçivədə Qarabağda sənətkarlığı tarixi-etnoqrafik baxımdan tədqiq etmək, bölgədə yaşayan türklərin təsərrüfat-iqtisadi və mədəni həyatında sənət istehsalının yerini və rolunu açmaq;

– XX yüzillikdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində mədəni mühitin yaranması və inkişafı mərhələlərini öyrənmək, bu istiqamətdə Azərbaycan dövlətinin humanist siyasətinin ermənilər tərəfindən saxtalaşdırılması cəhdlərinin iftira xarakteri daşımasını sənədlər, faktlar əsasında sübut etmək;

– Tariximizi saxtalaşdıran erməni müəlliflərinin «Dağlıq Qarabağ iqtisadiyyatının Ermənistanla sıx bağlılığı» qeyri-obyektiv fikirlərinin əsassız olduğunu faktlarla açmaq;

– Mövcud arxiv sənədləri, dövrü mətbuat, elmi tədqiqat əsərləri və canlı şahidi olduğumuz hadisələrin əsasında XX yüzillik ərzində Azərbaycan xalqına qarşı ermənilərin törətdikləri kütləvi qırğmların, soyqırımı hadisələrinin, faciələrin köklərini araşdırmaq;

– XX yüzillikdə Azərbaycan hökumətinin Dağlıq Qarabağın şəhər və rayonlarında təsərrüfatın, mədəniyyətin, əhalinin sosial vəziyyəti və məişətinin yaxşılaşdırılması üçün həyata keçirdiyi tədbirlərin xronologiyasını izləmək və görülən tədbirlər nəticəsində ərazidə baş verən sosial-iqtisadi, mədəni inkişafı səciyyələndirmək;

– Mənfur siyasət sahibləri olan erməni millətçilərinin guya Dağlıq Qarabağda yaşayan ermənilərin hüquqlarının «tapdalanması», sosial iqtisadi «geriliyi», Azərbaycan rəhbərliyi tərəfindən «sıxışdırılması» və nəticədə bölgədə yaşayan əhalinin ümumi sayında ermənilərin sayının azalması kimi cəfəng konsepsiyanın əsassızlığını faktlara əsasən təhlil etmək;

Axırıncı «Qarabağ savaşı»nın iştirakçısı, şahidi kimi, Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında, torpaqlarımızın erməni təcavüzündən müdafiəsində erməni işğalçılarına qarşı mübarizədə, soyqırımı, faciələr zamanı dinc əhalinin xilas edilməsində qəhrəmanlıq göstərib, öz həyatını itirərək «ölməzlik» zirvəsinə yüksələn qeyrətli Vətən övladlarının şanlı, mərd döyüş yolunu izləmək;

– Əvvəlki illərdə olduğu kimi XX yüzilliyin 80-ci illərinin sonlarında xalqımız üçün ağır fəlakətlər törədən qondarma Dağlıq Qarabağ düyününün, sovet dövlətinin Azərbaycan xalqına qarşı yeritdiyi siyasətin davamı kimi səciyyələndirmək;

– Bütövlükdə Qarabağın, o cümlədən onun Dağlıq hissəsinin, tariximizin bütün dövrlərində Azərbaycanın tərkibində, onun ayrılmaz, üzvü bir hissəsi olduğunu mənbələrə, tarixi sənədlərə əsasən sübut etmək;

– Azərbaycanın başqa regionları ilə müqayisədə, Dağlıq Qarabağın şəhər və rayonlarına Azərbaycan dövləti tərəfindən böyük həcmdə maliyyə vəsaitinin ayrılması, lakin həmin kapitalın erməni icmasının daha çox cəmləşdiyi yaşayış məntəqələrinə istiqamətlənməsi, vilayətin erməni rəhbərliyi tərəfindən azərbaycanlılar yaşayan kəndlərə ögey münasibətin məqsədlərini aşkarlamaq;

– 1988–1994-cü illər «Qarabağ savaşı»nda torpaqlarımızın 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildi. Ermənilər «torpağı viran qoymaq» taktikasından istifadə edərək işğal olunmuş ərazilərdə evləri, müəssisələri, kommunikasiya vasitələrini, təbii sərvətləri talan edib, dağıtdılar, yandırdılar. Bu gün Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağın şəhər və rayonlarının ərazilərinin separatçı «Dağlıq Qarabağ Respublikası»nın nəzarətinə keçməsi, həmin ərazilərin beynəlxalq terrorizmin təlim meydanına, müxtəlif növ kimyəvi qırğın silahlarının sınaq meydanına, habelə nüvə tullantılarının basdırıldığı zonaya çevrildiyini, bölgənin narkotik maddələrin istehsal və ixrac edildiyi ərazi kimi istifadə olunduğunu, işğal olunmuş ərazilərdə tarix və mədəniyyət abidələrinin dağıdıldığını, təbiətin, ekologiyanın amansızcasına korlanmasına şərait yaradıldığını faktlarla sübut etmək;

– 1993-cü ildən sonra Azərbaycan iqtisadiyyatının sürətli inkişaf yoluna düşməsi, milli ordu quruculuğu sahəsində irəliləyişlər, regionla bağlı məsələlərin həllində iri dövlətlərin onunla hesablaşmağa məcbur olması, məhz Ümummilli liderimiz H.Ə.Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən daxili və xarici siyasətin nəticəsi olduğunu göstərmək;



– Heydər Əliyevin Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərinə dair fikir və ideyalarının, eləcə də həyata keçirdiyi fəaliyyət proqramının əhəmiyyətini araşdırmaq;

– Azərbaycan Respublikasının xarici siyasətində, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq nizamlanması prosesində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirmək;

– Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi və geosiyasi köklərini, mahiyyətini, xarakterini, münaqişənin həlli məsələsində beynəlxalq təşkilatların və böyük dövlətlərin fəaliyyətini öyrənmək və əldə edilən nəticələri qiymətləndirmək;

– İşğal edilmiş Azərbaycan torpaqlarından Ermənistan silahlı birləşmələrinin çıxarılması, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının Ermənistan üçün əhəmiyyətli bir addım olmasını vurğulamaq.

Müasir elmi səviyyə, aşkarlıq və demokratiya mühiti, tariximizin obyektiv şəkildə öyrənilməsinə şərait yaradır. Müraciət olunan mövzu işlənərkən tarixilik, elmilik, obyektivlik, məntiqi əsaslandırma, tənqidi yanaşma əsas tədqiqat prinsipi və üsulları seçilmişdir. Dağlıq Qarabağın şəhər və rayonlarının tarixi, həm Azərbaycanın digər şəhər və rayonlarının, həm də dünyanın bir çox şəhər və rayonlarının tarixinə dair materiallar əsasında tarixi-müqayisəli metodla araşdırılmışdır. Monoqrafiyanın mövzusu ilə bağlı olan mənbələrin hərtərəfli nəzərdən keçirilməsi, materialların diqqətlə araşdırılması, mənfur siyasət sahiblərinin əsərlərində, Dağlıq Qarabağın şəhər və rayonlarının tarixi ilə bağlı hər bir fikrə tənqidi yanaşma və təhliletmə, monoqrafiyanı faktlarla zənginləşdirmişdir. Dağlıq Qarabağın şəhər və rayonlarının tarixinə dair çıxarılan nəticələr, istifadə olunan materialların analizi və sintezi ilə mümkün olmuşdur. Müqayisələrə və təhlillərə cəlb edilən tədqiqat əsərləri, tarixi əsərlər, görkəmli tarixçi alimlərin elmi-fikir və mülahizələri monoqrafiyanın elmi-nəzəri bazasını təşkil edir.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixinin hərtərəfli, obyektiv tədqiq edilməsinin böyük elmi və praktik əhəmiyyəti vardır. İlk növbədə oxucu Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz üzvü, bir hissəsi olduğunu, tarixin heç bir mərhələsində ondan ayrılmadığını dərk edir. Bu baxımdan tədqiq olunan mövzu tarixi diyarşünaslıq və vətənpərvərlik baxımından əhəmiyyətə malikdir. Dağlıq Qarabağın şəhər və rayonlarınm təbiəti, tarixi abidələri, iqtisadiyyatı, mədəniyyəti ilə tanışlıq gənclərdə vətənə məhəbbət ruhunu gücləndirir.

Monoqrafiyanın materiallarından, əldə olunmuş elmi nəticələrdən Azərbaycanın şəhər və rayonlarının tarixinin, eləcə də Azərbaycanın tarixinin, Qarabağın tarixinin bütün dövrlərini özündə əks etdirən «Qarabağ» adlı biblioqrafik nəşrlərin və salnamələrin tərtibində, Dağlıq Qarabağın tarixinin tarixşünaslığının yazılmasında istifadə edilə bilər. Tədqiqat əsasında ilk dəfə elmi dövriyyəyə daxil edilmiş materiallar milli özünüdərketmənin və siyasi təfəkkürün formalaşmasında faydalıdır. Monoqrafiyanın materialları Azərbaycan tarixinin tədrisində ali və orta ixtisas məktəblərinin müəllim və tələbələri, elmi işçilər, şəhər və rayon tarixi problemləri ilə məşğul olan tədqiqatçılar üçün də əhəmiyyətlidir. Bütün bunlarla yanaşı, monoqrafiyanın materiallarından Ermənistan–Azərbaycan Dağlıq Qarabağ probleminin sülh yolu və ədalət prinsipi əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etməklə məşğul olan beynəlxalq təşkilatlar da istifadə edə bilərlər.



# I FƏSİL

## AZƏRBAYCANIN AĞDƏRƏ RAYONUNUN İQTİSADİ-MƏDƏNİ İNKİŞAFI və TƏBİİ-COĞRAFİ MÖVQEYİNİN QISA TARİXİ İCMALI

*(1930–1992)*

Azərbaycan Respublikasının qərbində, Xankəndi şəhərindən 62 kilometr şimalda yerləşən Ağdərə rayonu 1930-cu ildə yaradılıb. Aparılan tədqiqatlardan məlum olur ki, Ağdərənin ilkin adı «İsfahancıq», XIX əsrdə «Hunaşin» və ya «Xonaşen» adlandırılıb. XIX əsrdə Qarabağ düzünün 36 min desyatin hissəsini əhatə edən Xonaşen ərazisi maldar ellər üçün qışlaq yeri idi. Xonaşen toponimi «hun» və «şen» sözlərindən ibarətdir. Vizantiya tarixçisi Feofan yazır ki, 624-cü ildə Vizantiya çarı İrakli Albaniyada «Hun ölkəsi» adlı yerdə xəzərlərlə görüşmüşdü [5, s.108]. Güman etmək olar ki, «Hun ölkəsi» adlı həmin yer məhz Xonaşendir. Məkrli niyyət sahibləri olan erməni «tədqiqatçıları» «şen» sözünün erməni dilinə məxsusluğunu əldə rəhbər tutaraq ərazinin ermənilərə aid olduğunu iddia edirlər. Lakin araşdırmalardan məlum olur ki, «şen» sözü qədim türk mənşəlidir. Belə ki, XIII əsrə aid «Türk-ərəb lüğəti»ndə «şen» sözünün, «məskun», «əhali yaşayan yer», «əhalisi sıx olan yer» mənasında olduğu göstərilmişdir. L.Z.Budaqovun, İ.M.Dyakonovun, M.Kaşkarinin, H.A.Abelovun tədqiqatlarında göstərilir ki, «şen» sözü sırf türk-müsəlman sözüdür və bu söz «yaşayış yeri», «kiçik məntəqə», «məhəllə», «abad yer» mənasındadır [5, s.109]. Ağdərə oronimi «ağ» («kiçik», «qısa», «dayaz») və «dərə» («çay yatağı», «iki dağ arası», «dərin çuxur») sözlərindən düzəlib, «kiçik çay yatağı», «dayaz çuxur» deməkdir. Bu toponimə Azərbaycanın müxtəlif yerlərində rast gəlmək mümkündür. Belə ki, Ağsu rayonu Bico kəndi ərazisində, Şamaxıda, Zəngilanda dərə, Tərtər rayonunda dağ oronimləri, Xızı, Ordubad, Şamaxı, Tovuz, Laçın, Daşkəsən kənd oykonimləri, Girdimançay hövzəsində çay hidronimi Ağdərə adını daşıyır. Hətta Əfqanıstan, İran ərazisində də Ağdərə toponiminə rast gəlmək mümkündür [5, s.20].

Ağdərə Qarabağ düzünü dağlıq hissəsi ilə birləşdirən keçidin adı olmuşdur. Sonra bu ərazidə Qasabad kəndindən çıxmış ailələr məskunlaş-

mışdılar. XIX yüzillikdə məqsədli şəkildə Ağdərəyə köçürülmüş ermənilər qədim Oğuz-Türk diyarının adını öz mənafelərinə uyğun dəyişdirmişdir. Belə ki, 1923–1930-cu illərdə Ağdərənin adı Ceraberd, 1930–1992-ci illərdə isə Mardakert adı ilə əvəzləşdirilmişdir. Nəhayət, 1992-ci ildə Ağdərənin keçmiş adı yenidən bərpa edilmişdir [12]. Ağdərəyə 1960-cı ildə şəhər tipli qəsəbə, 1985-ci ildə şəhər statusu verilmişdir. 1992-ci il oktyabrın 13-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Ağdərə bir rayon kimi ləğv edilmiş və ərazisi Ağdam, Tərtər, Kəlbəcər rayonlarına verilmişdir [11]. Ağdərə rayonu 7 iyul 1993-cü ildə Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmişdir.

Ağdərə keçmiş DQMV-nin ən böyük rayonu olmuşdur. 1981-ci il məlumatına görə Ağdərənin ərazisi 1705 kv. km, əhalisi 44400 nəfər idi. Rayonun bir şəhəri, iki şəhər tipli qəsəbəsi, 57 kəndi, 22 kənd sovetliyi olub. Rayonun mərkəzi Ağdərə şəhəri idi. Rayonun Madagiz qəsəbəsi 1959-cu ildə, Marağa qəsəbəsi isə 1967-ci ildə yaradılmışdır. 1981-ci il məlumatına görə Ağdərə rayonunda 44,4 min nəfər əhali yaşayırdı ki, bundan 5,7 mini Ağdərə şəhərində, 5,8 mini qəsəbələrdə, 33,2 mini kənddə məskunlaşmışdı. Ağdərə rayonunda yaşayan ümumi əhalinin 13,1 min nəfərini azərbaycanlılar, 30,2 minini ermənilər, yerdə qalanını isə digər millətlər təşkil edirdi [12]. Ağdərə rayonunda bir kvadrat kilometrə 26 nəfər əhali düşürdü. Bu göstərici istər ümumrespublika səviyyəsində, istərsə də DQMV-i səviyyəsində ən yüksək göstərici idi. Belə ki, 1985-ci il məlumatına görə bir kvadrat kilometrə Füzuli rayonunda 58 nəfər, Bərdə rayonunda 84,6 nəfər, Ağdam rayonunda 92,9 nəfər, Tərtər rayonunda 121 nəfər, Dağlıq Qarabağda 34,4 nəfər əhali düşürdü [3]. Bütün bunlar isə bütövlükdə, Dağlıq Qarabağda, o cümlədən Ağdərə rayonunda əhalinin yaxşı yaşamasına şərait yaradırdı. Ağdərə rayonunda əhalinin 1000 nəfər hesabı ilə təbii artımı 18,5 nəfər idi ki, bu göstərici ümumi respublika səviyyəsində ən yaxşı hal kimi qiymətləndirilə bilər.

Ağdərə rayonunun səthi əsasən dağlıq, şərq hissəsi isə düzənliklərdən ibarətdir. Ağdərədə 75059 hektar meşə sahələri var ki, bu da ərazinin 44%-ni təşkil edirdi [12]. Şimalda Murovdağ silsiləsi (Qamış dağ 3724 m) uzanır. Bundan cənubda Tərtər çayının dərəsi və Aterk çökəkliyi, daha cənubda Qarabağ silsiləsinin qolu Oxuaxpur silsiləsi (hündürlüyü 1743 m) yerləşir. Səthi dağlıq hissəsində Yura və Təbaşir vulkanik çökmə və çökmə süxurlarından, düzənlikdə Antropogenin çağıldaşı və gilcələrindən təşkil olunmuşdur. Ağdərə rayonu ərazisində Tərtər çayının sol sahilində Murovdağ silsiləsində Keçəldağ yerləşir ki, dağın hündürlüyü 2232 metrdir. Keçəldağ tabaşir sisteminin əhəngdaşlarından təşkil olunmuşdur və subalp çəmənlikləri var [1, s.330]. Yuxarıda qeyd etdiyimiz kimi Ağdərə ərazisindən Tərtər çayı axır ki, çay öz başlanğıcını Qarabağ yaylasından (3120 m hündürlükdən) başlayır. Əsasən yeraltı sularla qidalanır. Yeri gəlmişkən onu da qeyd edək ki, Kürün sağ qolunda yerləşən Tərtər çayının uzunluğu 184 km, hövzəsinin sahəsi 2650 km, 2 orta illik su səthi 23,2 m³/san., illik axın həcmi 729 mln. m³-dir [1, s.331]. 1976-cı ildə Ağdərə rayonunun Sərsəng dərəsində Tərtər çayı üzərində Sərsəng Su Anbarı istifadəyə verilmişdir. Bu nəhəng qurğunun tikilib başa çatdırılması Ümummilli liderimiz H.Ə.Əliyevin diqqət və böyük qayğısı ilə bağlı olmuşdur. Dövlət başçısı tikinti işlərinə özü nəzarət etmiş və hətta 70-ci illərdə «Tərtər çayında magistral kanallarla birlikdə su anbarı tikintisini sürətləndirmək tədbirləri haqqında» xüsusi qərar da vermişdir. Tikintiyə əsaslı vəsaitin həcmi artırılmış, yeni texnika, işçi qüvvəsi cəlb edilmişdir. Hətta Moskvadan, Kiyevdən, Volqaqraddan gətirilən mütəxəssislər Sərsəng SES-ə cəlb edilmişdir. Tikintiyə sərf olunan vəsaitin ümumi həcmi 95 milyon manata çatdırıldı ki, bu da altıncı beşillik ərzində respublikamızda su təsərrüfat qurğuları tikintisinə sərf edilən bütün vəsaitə təxminən bərabər idi. Tezliklə 20 milyon kubmetrdən çox torpaq qazılıb daşındı, təqribən 300 min kub metr beton və sement beton töküldü, 2800 ton metal konstruksiya və texnoloji avadanlıq quraşdırıldı və uzunluğu 1 km-dən çox olan yeraltı tunellər çəkildi. Dövlət başçısı H.Ə.Əliyev Sərsəng su anbarının açılışında iştirak etmiş və çıxışında göstərmişdir ki, Ağdərə rayonunda Sərsəng adlı yerdə 130 metrlik tökmə bənd Avropada ən hündür bəndlərdən biridir. Su anbarı 560 milyon kubmetr su tutur. Bu su, ümumi uzunluğu təxminən 100 km olan kanallar vasitəsilə DQMV-nin və respublikamızın qonşu rayonlarının tarlalarına axıdılacaqdır. Sərsəng SES-nin hər il istehsal etdiyi 125 milyon kilovat-saat elektrik enerjisi Zaqafqaziyanın vahid energetika sisteminə daxil olacaqdır [8].

Ağdərə rayonu ərazisindən Xaçın çayı da axır. Yeri gəlmişkən qeyd edək ki, bu çayın uzunluğu 119 km, hövzəsinin səthi 657 km²-dir. Qarabağ silsiləsindən (Uyuxlu dağından cənubda, 2100 m hündürlükdən) başlanır. Mühüm qolu Kolataqdır. Əsasən, yağış suları ilə qidalanır. Suvarmada istifadə olunur. Məcarasında Xaçınçay su anbarı yaradılmışdır. Rayon ərazisindən axan Torağay çay Tərtər çayının sol qolu olmaqla başlanğıcını Camış dağından alır. Uzunluğu 35 km, hövzəsinin sahəsi 172 km²-dir. Suvarmada istifadə olunur [6, s.287].



Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Ağdərə rayonu ərazisindən Gülyataq çayı, Qabartı çayı, Qanıq çayı, Yenşərəgəl çayları da axır. Bu çaylar öz başlanğıcını qar, yağış və yeraltı sulardan alır.

Ağdərə rayonunda zəngin faydalı qazıntı yataqları var idi. Qızılbulaq qazıntı yatağında 13,5 vahid sənaye ehtiyatı olan qızıl, 47,9 milyon ton mis, Mehmana yatağında sənaye ehtiyatları 37,3 milyon ton olan qurğuşun, 40,4 milyon ton olan sink, 100 milyon ton olan Dəmirli mis yatağı, Canyataq-Gülyataq qızıl yatağı vardı. Sənaye ehtiyatları 38080 min kub metr olan Ağdərə, 6423 min kub metr olan Şorbulaq – I, 2129 min kub metr olan Şorbulaq – II mişar daşı yatağı, 200 min kub metr olan Ağdərə gəc yatağı təcavüzkar Ermənistan tərəfindən işğal edildi [11]. Təəssüflər olsun ki, 1993-cü ildən bu günə qədər işğal olunmuş ərazilərimizin tükənməz təbii sərvətləri Rusiya, Kanada, İsveçrə, Fransa, Almaniya iş adamları tərəfindən talan olunur. Gəlirin çox hissəsi isə mənfur siyasət sahibləri olan ermənilərə çatır.

Ağdərə rayonu ərazisində kiçik dağ gölləri var (Qara göl və s.). Yağış, qar, bulaq suları ilə qidalanan bu göllərdən bölgəyə cəmləşən ermənilər bəhrələnirlər.

Ağdərənin iqlimi çox yerdə qışı quraq keçən mülayim-isti, yüksək dağlarda isə soyuqdur. Orta temperatur yanvarda 1-dən – 10°C-dək, iyulda 10–25°C olur. Burada illik yağmtının miqdarı 400–900 mm-dir [3].

Rayonda dağ-şabalıdı, qəhvəyi, dağ-meşə, dağ-çəmən və s. torpaqlar yayılmışdır. Rayon ərazisinin 75,6 min hektarını və yaxud 44%-ni meşələr tuturdu. Meşələrdə palıd, fısdıq, vələs, saqqızağacı, ardıc, qoz, fındıq, çinar və s. qiymətli ağaclar bitir. Ağdərə rayonundakı Tərtər çayı vadisindəki Şərq çinarı meşəliyi xüsusi olaraq qorunurdu. İşğal olunmuş ərazidə 8036 hektar sanitariya-gigiyena və sağlamlaşdırma funksiyalı meşələr mövcud idi ki, bunun 628 hektarı şəhərətrafı yaşıllıq zonası, 7408 hektarı isə su təchizatı mənbələrinin sanitar mühafizə zonalarına aid meşələr idi. Ekaloji sistemlərin qorunub saxlanması bəşəriyyətin qarşısında kəskinliyi ilə durduğu bir şəraitdə yüz illər ərzində əmələ gələn Ağdərə meşələri bu gün qəddarcasına doğranaraq mebel düzəltmək məqsədilə xarici dövlətlərə satılır və ya Ermənistana aparılır. Təbiidir ki, meşə olmayanda meşə heyvanları da məhv olur. Keçmişdə Ağdərə meşələrində yaşayan ayı, dağkeçisi, dovşan, çöldonuzu və s. heyvanlar, qırqovul, turac kimi nadir quşlar meşələrin məhv olması və ya ovlanması ilə tələf olaraq ekosistemdən çıxmışdır.



Ağdərə Dağlıq Qarabağın mühüm kənd təsərrüfatı rayonlarından idi. İqtisadiyyatda üzümçülük, taxılçılıq, tütünçülük və heyvandarlıq əsas yer tuturdu. 1988-ci il məlumatına görə Ağdərə rayonunda kənd təsərrüfatına yararlı torpaqlar 53324 hektar idi. Bunun 21189 hektarı əkin yeri, 5931 hektarı çoxillik bitkilər, 1892 hektarı biçənəklər, 22863 hektarı örüş yeri, 0,4 min hektarı dincə qoyulmuş torpaqlar idi. Torpaqlarm 15,3 min hektarını əkin sahəsi, 9,7 hektarını dənli-paxlalı bitkilər (buğda, arpa, qarğıdalı) və kartof, 11,3 min hektarını yem bitkiləri, 3,4 min hektarım üzümlüklər, 2%-ni bostan tərəvəz bitkiləri tuturdu. 1985-ci il məlumatına görə, rayonun təsərrüfatlarından 12 milyon ton taxıl, 75 min ton üzüm yığılmışdır. Azərbaycan hökuməti rayonda heyvandarlığın inkişafı üçün hər cür şərait yaratmışdı. Belə ki, yeni tipli heyvandarlıq formaları yaradılmış, cins heyvan növləri, güclü yem bazası ilə təmin edilmiş, xəstəliklərə qarşı mübarizə tədbirləri həyata keçirilmişdi. Nəticədə, heyvanların sayında çox böyük irəliləyiş olmuşdur. Aparılan hesablamalara görə, keçən əsrin 80-ci illərinin ortalarında rayonda 20 min qaramal, 39 min davar, 18 min donuz var idi. Ağdərə rayonunda əhali quşçuluq, arıçılıq və baramaçılıqla da məşğul olurdu.

Keçən əsrin 70–80-ci illərində Ağdərə sakinlərinin rifahi xeyli yaxşılaşmışdır.1986-cı ildə Ağdərədə əhalinin adambaşına düşən pul gəlirləri 1114 manatdan çox olmuşdur ki, bu da bütövlükdə Azərbaycan üzrə olduğundan 98 manat, Naxçıvan MR-dən 171 manat çoxdur. Bu dövrdə mənzil tikintisinin də inkişafı yüksələn xətlə xarakterizə olunmuşdur. Aparılan araşdırmalara görə, Ağdərədə bir sakinin mənzillə təminatı 15 kv.m-ə çatdığı halda, respublika üzrə bu göstərici 11kv.m-ə çatırdı.

1970–1985-ci illərdə Ağdərədə yaşayış məntəqələrinin abadlaşdırılması sürətlə davam etmişdi. Tədqiqatlardan məlum olur ki, Ağdərədə abadlıq işləri ümumrespublika səviyyəsini üstələmişdir. Belə ki, 1987-ci ildə Respublikamızın şəhərlərində mənzillərin su kəməri ilə təchizatı 30,5% idisə, Xankəndində 45,5%-ə, kanalizasiya ilə təminat 6,4%-ə qarşı 11,6%, qazla təminat 96%-ə qarşı 100%, vanna ilə təminat müvafiq olaraq 4,7%-ə qarşı 10,4% olmuşdur (6, s.381).

Sovet hakimiyyəti illərində Ağdərə rayonunda mədəni quruculuq sahəsində çox böyük nailiyyətlər əldə edilmişdir. 1982-ci ildə rayonda 27 məktəbəqədər uşaq müəssisəsi var idi ki, bu müəssisələrdə 1225 uşaq tərbiyə olunurdu. Aparılan araşdırmalardan məlum olur ki, bəhs olunan dövrdə Cəbrayılda 8, Qubadlıda 1, Ağcabədidə 10, Zəngilanda 9,

Bərdədə 17, Tərtərdə 13 məktəbəqədər uşaq müəssisəsi fəaliyyət göstərirdi. Aparılan araşdırmalardan məlum olur ki, 1987-ci ildə Ağdərə rayonunda məktəbəqədər uşaq müəssisələri ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Belə ki, respublikamızda məktəbəqədər uşaq müəssisələri ilə təminat 20%, Naxçıvanda 12% olduğu halda, Ağdərədə 35%-ə çatmışdı. Təəssüflər olsun ki, Ağdərədə azərbaycanhlar yaşayan 15 kənddən yalmz ikisində məktəbəqədər uşaq müəssisəsi fəaliyyət göstərirdi ki, onlar da yarıtmaz vəziyyətdə idi (6, s.365). Bu dövrdə Ağdərənin 50 məktəbində 9800 şagird təhsil alırdı. Bəhs olunan dövrdə Zəngilanda 15, Tərtərdə 42 məktəb var idi. Ağdərədə hər məktəbə 196 şagird düşürdüsə, Zəngilanda bu göstərici 419-a, Ağdamda 354-ə çatırdı. Həmçinin Ağdərənin bir texniki peşə məktəbində 420, yeddiillik musiqi məktəbində 135 şagird təhsil alırdı. 1983-cü ildə Ağdərə rayonunda 63 klub müəssisəsi fəaliyyət göstərirdisə, bu göstərici Cəbrayılda 49-a, Qubadlıda 23-ə, Ağdamda 27-ə, Ağcabədidə 23-ə, Bərdədə 43-ə, Tərtərdə 23-ə çatırdı. Bəhs olunan dövrdə Ağdərə rayonunda 225 min kitabı olan 51 kitabxana var idisə, Qubadlıda 47, Tərtərdə 30, Zəngilanda 35, Ağcabədidə 34 kitabxana fəaliyyət göstərirdi. Aparılan araşdırmalardan məlum olur ki, 80-ci illərin sonlarında Ağdərə rayonunda hər bir sakinə 10 kitabxana kitabı düşdüyü halda, respublikamızda bu göstərici 5,8 idi. Ağdərə rayonunun kütləvi kitabxanalarla təmin edilməsi 100% olduğu halda, bütün Azərbaycan üzrə bu göstərici 94%-ə çatırdı. Araşdırmalardan bir acı həqiqət də aşkar edilmişdir ki, Ağdərədəki, azərbaycanlılar yaşayan kəndlərdəki, kitabxanalardakı kitab fondunun 80%-i erməni dilində, 10-%-i rus və 10%-i Azərbaycan dilində idi. (3)

1985-ci ildə Ağdərədə 17 kinoqurğu fəaliyyət göstərirdi. Yeri gəlmişkən onu da qeyd edək ki, əhalinin mədəni-maarif müəssisələri ilə təminatına görə, 80-ci illərin ortalarında Ağdərənin göstəricilərinin əksəriyyəti istər ümumrespublika, istərsə də Ermənistan və Ümumittifaq göstəricilərini üstələmişdi. Məsələn, hər 10 min nəfərə düşən klub və mədəniyyət evlərinin sayı Azərbaycanda 5, Ermənistanda 3,8, keçmiş SSRİ-də 4,8 olduğu halda, Ağdərədə 15 olmuşdur. Həmçinin hər 10 min nəfərə düşən kinoqurğuların sayı Azərbaycanda 3, Ermənistanda 2,9, SSRİ-də 5,4, olduğu halda, Ağdərə rayonunda bu göstərici 11 idi [3].

Azərbaycanın qədim tarixə malik Ağdərə ərazisi memarlıq abidələri ilə zəngindir. Rayonun Dovşanlı kəndindən 9 km Cənub-Şərqdə Xaçın çayının sağ sahilində ilk tunc dövrünə aid Xaçınçay kurqanları aşkar edilmişdir. Kurqanların hündürlüyü təxminən 1–2,5 metr, diametri 10–20 metrdir. Buradakı dəfn adəti biri-birindən fərqlənirdi. Kurqanlardan qızıl bəzək əşyaları, arxaik tipli xəncərlər, daş toppuz, dəvəgözündən bıçaq və bir ədəd bütöv saxsı qab tapılmışdır [9.s.19].

Azərbaycanın əhəmiyyətə malik abidələrindən biri də Tərtər çayının dərəsində, Ağdərə rayonunun Çardaxlı kəndində tikilmiş Carabert («Su ilə əhatə olunan») qalasıdır. Qalaya Caraberti (car çəkilən yer) də deyirlər. Qalanın adı VII əsr mənbələrində çəkilmişdir. Qala Toraqay çayının Tərtər çayma töküldüyü yerdə, çay səthindən təxminən 1500 m yüksəklikdə, sıldırım qayalıqdan ibarət bir yüksəklikdə bina edilmişdir. Azərbaycan arxeoloqları 1963-cü ildə Carabert qalasmı tədqiq etmişdilər. Qalanın yuxarısı ikiqat qala divarları və bürclərlə möhkəmləndirilmişdir. Qala hərbi məqsədlə istifadə olunmuşdu. Təsadüfi deyildir ki, son dövrlərə qədər məhz bu qalanın adı ilə Yuxarı Qarabağın bir hissəsi Carabert adlanırdı.

Ağdərə rayonu ərazisində XIII–XIX əsrlərdə alban katalikoslarının iqamətgahı olan Xəzinədağ məbədi var. Tarixçi Kirakos Gəncəlinin məlumatına görə Xəzinədağ məbədi 1216–1238-ci illərdə Xaçın knyazı Həsən Cəlal tərəfindən tikilmişdir. Məbədin daxili müxtəlif naxışlar, həmçinin rəngarəng freskalarla bəzədilmişdir. Məbəd günbəzli formadadır. Xəzinədağ məbədi xüsusi zal, cübbəxanalar, mehrab və zəngxanadan ibarət tağbənd örtüklü böyük kompleksdir [10, s.71].

Rayonun ərazisində Vəngli kəndində Xanabad qalası, Gülüstan kəndi yaxınlığında qala qalıqları, Ağdərə şəhəri yaxınlığında Cermux qalası, Kolataq kəndində 635-ci ildə inşa edilmiş məbədi, Ağdərənin 1 km şimal-qərbində dağ ətəyində XIII əsrə aid memarlıq abidələri, XII–XIII əsrlərə aid qala qalıqları, Maqavuz kəndində orta əsrlərə aid arxeoloji abidə, körpü, XII əsrə aid Yegeş-Arakül məbədi, Talış kəndi ərazisində memarlıq abidələri, XIII əsrə aid Ürək məbədi, Tərtər çayı üzərində körpü, Tərtər çaymın yuxarı axarında (Murovdağın ətəyində) XIII əsrə aid məbəd, Kasabet («Dağ yamacı») kəndində Hətəm-Məlik qalası, körpü və digər qədim mədəniyyət abidələri var idi. Təəssüflər olsun ki, Azərbaycanın yuxarıda adları qeyd olunan və qeyd etmədiyimiz qədim tarixi abidələri Ermənistan silahlı birləşmələri tərəfindən dağıdılmışdır.

Yeri gəlmişkən onu da qeyd edək ki, Ağdərə rayonu ərazisində yaradılmış abidələrdən biri də bölgənin erməni icmasının xahişi ilə 1978-ci ildə Marağa kəndində ermənilərin Ağdərəyə köçürülməsinin 150 illiyi münasibətilə inşa edilmişdir. Abidənin üzərinə böyük rəqəmlərlə «1828–

1978» və «150» rəqəmləri həkk olunmuşdu. Lakin bu abidə bəzi məsələlərə aydınlıq gətirdiyi üçün ermənilər 1985-ci ildə həmin abidəni məhv etdilər [6].

Azərbaycanın Ağdərə rayonunda 1932-ci ildən erməni dilində «Barekamutyun» («Dostluq»), 1966-cı ildən «Sosializmin uğı» («Sosializm yolu») qəzeti nəşr olunurdu. Rayonda 1966-cı ildən yerli radio verilişləri redaksiyası fəaliyyət göstərirdi [1, s.331].

1985-ci ildə Ağdərə rayonunda 340 çarpayılıq 8 xəstəxana müəssisəsi, 50 həkim məntəqəsi, sanitariya-epidemioloji stansiya, 50 həkim, 400 orta tibb işçisi var idi. Halbuki, bəhs etdiyimiz dövrdə qonşu Tərtər rayonunda 6 xəstəxana, 18 həkim məntəqəsi, 293 orta tibb işçisi və həkim, Qubadlıda 4 xəstəxana, 21 həkim məntəqəsi, 151 orta tibb işçisi və həkim, Şuşada 2 xəstəxana, 11 həkim məntəqəsi, 193 orta tibb işçisi və həkim, Cəbrayılda 6 xəstəxana, 18 həkim məntəqəsi, 347 orta tibb işçisi və həkim fəaliyyət göstərirdi [3]. Aparılan hesablamalara görə Ağdərə rayonu əhalinin 10 min nəfərinə düşən həkimlərin və çarpayıların sayına görə ümumrespublika səviyyəsində öndə getmişdir. Belə ki, 1987-ci ildə 10 min nəfər hesabilə xəstəxana çarpayıları ilə təminat ümumrespublika üzrə 97,8, Ağdərədə 101,7, bütün ixtisaslardan olan həkimlər və orta tibb işçiləri ilə təmin ümumrespublika üzrə 132,4, Ağdərədə 151,8 olmuşdur (6, s.355). Bütün yuxarıda göstərilən obyektiv tədqiqatlar məkrli niyyət sahibləri olan erməni tədqiqatçılarının «sosial-iqtisadi gerilik» konsepsiyasının ağ yalan olduğunu təsdiqləyir.

1992-ci il oktyabrın 13-də Azərbaycan Respublikası Milli Məclisi tərəfindən Ağdərə rayonu ləğv edilərək üç qonşu rayon – Kəlbəcər, Tərtər və Ağdam rayonları arasında bölüşdürüldü. 7 iyul 1993-cü ildə isə Ağdərə rayonu Ermənistan silahlı birləşmələri tərəfindən ələ keçirildi. Rayonun 14 kəndində (Sırxavənd, Bəşirlər, Qaraşlar, Qaralar, Baş Güneypəyə, Orta Güneypəyə, Xatınbəyli, Manikli, Tellibinə, Narınclar, Çərəktar, İmarət-Qərvənd, Umudlu, Yeni Qaralar) və Gəncxana sovxoz qəsəbəsində yaşayan 14 mindən çox azərbaycanlı öz dədə-baba yurd-yuvalarından didərgin düşdü [12].

Ağdərənin ləğvini o zaman həm rayon əhalisi, həm bütövlükdə Dağlıq Qarabağın azərbaycanlı icması, həm də ayrı-ayrı ictimai-siyasi dairələr narazılıqla qarşılamışdılar. Üstündən ötən 16 il ərzində bu məsələ dəfələrlə gündəmə gətirilmişdir. Milli Məclisin regional məsələlər üzrə daimi komissiyasının sədri Arif Rəhimzadənin, millət vəkili Qənirə Paşayevanın Xankəndi seçki dairəsindən deputat Həvva Məmmədovanın, Şuşa Rayon



İcra Hakimiyyəti aparatının rəhbəri Vəzir Səfixanovun, deputat Aqil Abbasın, ağdərəli hüquqşünas Yalçın İmanovun, ağdərəli jurnalist, Qarabağ müharibəsi veteranı Xəqani Rzaquliyevin fikirlərinə görə Ağdərə rayonunun statusunun bərpası bu gün olduqca vacibdir. Biz inanırıq ki, tezliklə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə həll ediləcək, Ermənistan silahlı birləşmələrinin nəzarəti altında olan bütün Qarabağ torpaqları işğaldan azad olacaq, eyni zamanda Ağdərənin rayon statusu bərpa ediləcək və bütün məcburi köçkünlərimiz, o cümlədən 14 minlik ağdərəli məcburi köçkünlər öz doğma el-obalarına qayıdacaqlar.

# II FƏSİL

## AZƏRBAYCANIN XANKƏNDİ ŞƏHƏRİNİN TARİXİ

Xankəndi Azərbaycanın qədim yaşayış məskəni, inkişaf etmiş 11 respublika tabeli şəhərlərindən biridir. Xankəndi şəhəri Bakı–Tbilisi dəmiryolunun Yevlax–Xankəndi qolunun son məntəqəsi, Yevlax–Laçın–Naxçıvan yolu kənarında, Qarqar çayı sahilində, Qarabağ silsiləsinin şərq ətəyində, Bakıdan 329 km aralıda yerləşir. İqlimi mülayim istidir. Orta temperatur – 0,20, iyulda 22,40, illik yağıntı 535 mm-dir. Xankəndi Azərbaycanın müasir inkişaf etmiş sənaye kompleksinə, nəqliyyata, təkmilləşdirilmiş mədəniyyətə malik şəhərlərindəndir. Xankəndində pedaqoji institut, müəllimləri təkmilləşdirmə institutu, kənd təsərrüfatı texnikomu, tibb, 2 musiqi, orta, texniki peşə, uşaq incəsənət məktəbləri, texniki məktəb, tarix-ölkəşünaslıq muzeyi, dram teatrı, konsert zalları, Azərbaycan Yazıçılar İttifaqının Dağlıq Qarabağ filialı, Vilayət kitabxanası, qış və yay kitabxanaları, mədəniyyət sarayı, idman meydançası, istirahət parkı, istirahət evi, mahnı və rəqs ansamblı, satış, ictimai-iaşə müəssisələri və digər mədəni-məişət obyektləri var. Xankəndində erməni dilində «Sovetakan Karabak» («Sovet Qarabağı»), «Sovetskiy Karabax» vilayət qəzetləri nəşr olunmuş, yerli radio verilişləri studiyası fəaliyyət göstərirdi [1].

Xankəndində 800 çarpayılıq 8 xəstəxana, 35 uşaq-ana məntəqəsi, 2 dəri-zöhrəvi, vərəm dispanseri, sanatoriya-epidemioloji stansiyası, 250 həkim, 550 orta tibb işçisi, onlarla yaraşıqlı və uca inzibati idarə binaları, fəaliyyət göstərirdi. 1979-cu il məlumatına görə Xankəndi şəhərinin əhalisi 38948 nəfər olmuşdur [9]. Azərbaycan Dövlət Statistika Komitəsinin 1 yanvar 2008-ci il məlumatına görə Xankəndi şəhərində 53,1 min nəfər, Kərkicahan qəsəbəsində isə 1,8 min nəfər əhali yaşayır.

İnzibati cəhətdən Xankəndi şəhər əhatə dairəsinə Xankəndi şəhəri və Kərkicahan qəsəbəsi daxildir. Xankəndi şəhərinin ərazisi 8 kvadrat kilometrdir. Xankəndi dəniz səviyyəsindən 830 metr yüksəklikdə yerləşir. Məlum olduğu kimi məşhur Kislovodski kurortu da bu yüksəklikdədir. Xankəndi özünün həm havası, həm də iqlim şəraitinə görə dünyanın ən gözəl kurortları ilə müqayisə edilə bilər. Lakin təəssüflər olsun ki, Azərbaycanın tükənməz təbii sərvətlərə, böyük infrasturuktura, kurort turizm ehtiyatlarına malik, elm, mədəniyyət mərkəzi olan Respublika



tabeli Xankəndi şəhəri (şəhər əhatə dairəsi) Ermənistan tərəfindən işğal edilmişdir.

Azərbaycanın DQMV-nin zəngin, unudulmuş, təhrif olunmuş, ziddiyyətlərlə dolu olan tarixinin tədqiqi bu gün olduqca şərəfli, əhəmiyyətli və son dərəcə zəruridir. Bu tədqiqatı zəruriləşdirən ilkin amil Azərbaycanın Dağlıq Qarabağ torpaqlarının erməni vandalları tərəfindən işğalı və bu işğala dünya miqyasında haqq qazandırmaq məqsədilə bölgənin vaxtilə Ermənistana aid olması fikrinin bütün dünyaya yayması ilə bağlıdır. Ermənilər öz məkrli niyyyətlərini reallaşdırmaq üçün sovet hakimiyyəti illərində mərkəzdəki havadarlarına arxalanaraq bölgənin qədim Azərbaycan–Türk mənşəli yer adlarını ya erməni köklü yer adları ilə əvəz etmiş, ya da passiv fonda keçirmişlər. Ermənilərin Azərbaycan kəndlərində məskunlaşdıqdan sonra adları tamamilə dəyişdirilən kəndlərə misal olaraq göstərə bilərik: Ağdərə–Mardakert, Qozlu–Vaquas, Bazarkənd–Tsmagahoq, Şıxarx–Marquşavan, Daşbaşı–Karaqlux, Cagadüz–Sarkisaşen, Cəmiyyət–Ninki, Ağbulaq–Msmına, Quzumkənd–Kert, Ballıqaya–Kican, Ağkənd–Stepakşen və s. XX yüzillik ərzində Dağlıq Qarabağ toponimlərinin saxtalaşdırılması prosesi davam etmişdir. Aparılan tədqiqatlardan məlum olur ki, son 100 il ərzində mənfur siyasət sahibləri olan ermənilər Dağlıq Qarabağdakı yer adlarının 25 faizini erməniləşdirmişlər. Halbuki, XIX yüzilliyin 80-ci illərində Qarabağ yaylaqlarım öyrənən M.A.Skibitiski Qarabağın dağlıq hissəsində 567 yaylaq və yurd yeri qeydə almışdır ki, bundan yalnız 2 toponim erməni dilinə uyğun gəlmişdir [6]. Bəhs etdiyimz dövrdə təkcə adının deyil, həm də əhalisinin milli tərkibi məqsədli şəkildə erməniləşdirilmiş Dağlıq Qarabağın qədim yaşayış məskənlərindən biri də Xankəndi şəhəri olmuşdur. Bu gün, Azərbaycan dövlətinin başçısı dərin düşüncəyə, orijinal təfəkkür tərzinə malik gənc və istedadlı Prezidentimiz İ.H.Əliyevin «Azərbaycan tarixi üçün həlledici hadisələr – iqtisadi, siyasi, tarixi cəhətdən önəmli hadisələr düzgün araşdırılmalıdır, bu bizim üçün lazımdır, gələcək üçün vacibdir» [10] devizini əldə rəhbər tutaraq, dövlətimizin yaratdığı əlverişli vəziyyətdən istifadə edərək, tarixi mənbələrə, faktlara əsaslanaraq Dağlıq Qarabağ tarixini obyektiv tədqiq edib, tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdırmalıyıq.

Dağlıq Qarabağ erməni icmasının tələbi və mərkəzin diktəsilə Azərbaycan İcraiyyə Komitəsinin 1923-cü il 10 avqust tarixli qərarına əsasən Xankəndinin adı Stepan Şaumyanın şərəfinə (Stepanakert) adlandırıldı və 18 sentyabr 1923-cü ildə DQMV-nin mərkəzinə çevrildi [1]. Bundan sonra bölgədə yaşayan azərbaycanlıların çətin və məşəqqətli günləri başlandı.

Yalnız 68 ildən sonra (1991-ci ildə) Xankəndinin tarixi adı özünə qaytarılmışdır. Dünyanın aparıcı dövlətlərinin mətbuatına «Oğuz-Türk məkanı olan Xankəndinin Ermənistana aid olması və ermənilərin sayının üstünlüyü» kimi saxta konsepsiyalar yol tapdı. Xankəndinin qədim tarixini tədqiq və təhlil etməklə məkrli niyyət sahiblərinin dediklərinin tamamilə ağ yalan olduğunu sübut etmiş olarıq. Xankəndi oykonimi «Xana məxsus kənd» mənasındadır. «Azərbaycan toponimlərinin ensiklopedik lüğəti»ndə göstərilir ki, Oğuz–Türk mənşəli Xankəndi adına Azərbaycanın digər ərazilərində də rast gəlmək mümkündür. Belə ki, İsmayıllı rayonunun Xankəndi çayı sahilində, dağətəyi ərazidə Xankəndi kəndi var ki, bu kəndin *əsası XIX əsrin əvvəllərində* Şirvan xanı Mustafa xana məxsus ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. Digər bir Xankəndi kəndi Şamaxı rayonunun Mədrəsə qəsəbəsində Ləngəbiz silsiləsi ətəyindədir. Bu kənd keçən əsrin 30-cu illərində S.Şaumyanın adına «Şaumyanabad» adlandırılmışdır. 1990-cı ildə isə kəndin keçmiş adı bərpa edilmişdir [s. 238]. Xankəndi Azərbaycanın qədim yaşayış məskənidir. 1938–1939-cu illərdə Qarabağın Xankəndi ərazisində aparılan arxeoloji tədqiqatlar Eneolit və Tunc dövrünə aid kurqanlar aşkar edilmişdir. Kurqanaltı dəfn kameraları dairə formalı (diametri 4,5 metrədək) olub, dayaz xəndəklə əhatələnmişdir. Kameraya enli sal daşla örtülmüş giriş yolu var. Kameralar e.ə. V–III minilliklərdə Zaqafqaziyada geniş yayılmış yaşayış binalarını xatırladır. Çoxtəbəqəli Xankəndi kurqanları kollektiv dəfn adəti ilə səciyyələnir. Ölülərin üstü gil və xırda çay daşları ilə örtülmüşdür. E.ə. III minilliyin əvvəllərinə aid təbəqədə uşaq və yaşlılar birgə dəfn edilmişdir. Bu, kurqanların ailəvi və ya qəbiləyə məxsus dəfn yeri olduğunu göstərir. Ailənin üzvləri sol və ya sağ yanı üstə bükülü, yaxud oturulmuş, ağsaqqallar, qəbilə başçıları isə arxası üstə uzadılmış vəziyyətdə dəfn olunmuşdur. Xankəndi kurqanlarından daş gürzlər, mis xəncər tiyələri, daş həvəng, ox ucları, sümük alətlər, qızıl muncuq, müxtəlif keramika nümunələri, heyvan sümükləri və sair aşkar edilmişdir [14]. Bütün bunlar onu göstərir ki, yaşayış üçün əlverişli şəraiti olan Azərbaycanın Xankəndi ərazisi dünyanın qədim insan məskənlərindən biridir.

Kiçik yaşayış məskəni olan Xankəndi Qarabağlı İbrahimxəlil xanın şəxsi malikanəsi olmuşdur. Kəndin abadlaşması və inkişafında İbrahim xanın qardaşı Mehdiqulu xanın xidmətləri böyük olmuşdur. İbrahim xana məxsus cins atlar və sağılan heyvanlar Xankəndində saxlanılırdı. Mirzə Camalın yazdığına görə mərhum İbrahim xandan 6 imarət qalmışdır ki, bunlardan biri də Şuşadan bir az aralıda Xan Bağının tikintisidir [3, s.48].



Təsadüfi deyildir ki, Qarabağ Rusiya tərəfindən ilhaq edildikdən sonra İbrahimxəlil xan öz ailəsi ilə birlikdə Xankəndində yaşamalı olmuşdur. Çox təəssüflər olsun ki, əldə heç bir əsas olmadan İbrahimxəlil xan Şuşa qalasındakı rus qarnizonunun rəisi Cavad xanın qatili Lisaneviç tərəfindən vəhşicəsinə qətlə yetirildi. Mehdiqulu xan (1807–1822) Xankəndini özü üçün yaşayış məskəni seçsə də erməni generalı V.Mədətovun fitvası ilə 1822-ci ildə öz doğma yurdundan didərgin düşdü. Bundan sonra Xankəndindəki çar hökumət idarələri Mehdiqulu xanın arvadı Pəricahan bəyimə verilmişdi [3, s.159]. 1847-ci ildə Xankəndində rusların Sunja polku yerləşdirilmiş və ona görə də burada kazarmalar, xəstəxana, səhra kilsəsi, inzibati binaların tikintisinə başlanmışdır. Bundan sonra Zəngəzurdan erməni ailələri məqsədli şəkildə çar hökuməti məmurlarının köməyi ilə Xankəndinə köçürülərək orada məskunlaşmışdılar. 1898-ci ildən sonra çar hökuməti Xankəndini hərbi qərargaha çevirdi. Xankəndinin bəzən «Ştab» adlandırılması da məhz kəndin hərbi qərargaha çevrilməsi ilə bağlıdır. 1918–1920-ci illərdə Xankəndində Azərbaycan Demokratik Cümhuriyyətinin hərbi hissələri yerləşdirilmişdi [1, s.49].

Qarabağda 1920-ci il may çevrilişindən sonra ermənilər Azərbaycana qarşı yenidən əsassız ərazi iddiaları irəli sürdülər və 7 iyul 1923-cü ildə Azərbaycan SSR tərkibində Dağlıq Qarabağda Muxtar Vilayət yaratdılar. Xankəndi şəhərinin adı dəyişdirilərək Vilayət mərkəzinə çevrildi. Sovet hakimiyyəti illərində Xankəndinin inkişafı Vilayət rəhbərliyinin xüsusi diqqət mərkəzində dayandı. Azərbaycan rəhbərliyinin Xankəndi şəhərinin inkişafına qayğısını M.C.Bağırovun 13 iyun 1948-ci il «Kommunist» qəzetindəki çıxışından da aydın görmək olar: «Keçmişdə Xankəndi adlanan, bir neçə malikanədən və çoxlu daxmalardan ibarət olan bugünkü sovet Stepanakertinə bir nəzər salın. Doğrudur, onun əhalisi o qədər də çox deyil, cəmi 15 min əhalisi var, ancaq mən arzu edərdim ki, İsveçrənin ən gözəl şəhərləri Stepanakerə bənzəyəydi» [8]. Mərkəzin diktəsi və Azərbaycan rəhbərliyinin dərin qayğısı nəticəsində Xankəndi şəhəri tezliklə sənaye, elm, mədəniyyət mərkəzinə çevrildi. Sovet hakimiyyəti illərində Xankəndində yeni sənaye mərkəzləri yaradıldı. Burada həm yüngül sənaye, həm də yeyinti sənayesi inkişaf edirdi. Xankəndi sənaye müəssisələri DQMV-nin ümumi sənaye məhsullarının 60 faizini verirdi. Qarabağ İpək Kombinatı, ayaqqabı fabriki, tikiş fabriki, xalça emalatxanası, şərab zavodları, süd və ət kombinatları, kirəmid, kərpic, əhəng zavodları, taxta-şalban, inşaat materialları, kəsici alətlər zavodları, yağ zavodu, elektrik avadanlıqları istehsalı zavodu, avtomobil təmiri və asfalt-beton zavodları, sənaye, istehsalat

və tədris istehsalat kombinatları, elektrik şəbəkəsi və digər obyektlər Xankəndində yaradılmış sənaye sahələri idi. Bir məsələni xüsusi olaraq qeyd etməliyik ki, Xankəndində yuxarıda adıgedən sənaye müəssisələrinin xammal mənbələri DQMV-nin ərazisindəki tükənməz xammal ehtiyatları hesabına ödənilirdi. Sənaye sahələrində işləyənlərin say göstəricilərinə görə (əhalinin hər min nəfərinə hesabı ilə) Xankəndi şəhəri Azərbaycanın Bakı və Sumqayıt şəhərlərindən sonrakı yeri tutmuşdur.

Yeri gəlmişkən onu da qeyd edək ki, erməni millətçiləri xalqımıza qarşı yalan və böhtan kampaniyası apararaq 80-ci illərin sonlarında DQMV-də baş verən hadisələri Vilayət əhalisinin «sosial geriliyi» ilə əlaqələndirmişlər. Halbuki, təkcə 1971–1975-ci illər DQMV-nin iqtisadiyyatına kapital qoyuluşunun həcmi 483 milyon manat və ya əvvəlki beşilliklərdəkindən 2,8 dəfə çox olmuşdur [9, s.93]. Son 20 ildə DQMV-də adambaşına düşən kapital qoyuluşunun həcmi 4 dəfə artmışdır. Tədqiqatlardan məlum olur ki, Respublika rəhbərliyi tərəfindən DQMV-ə ayrılan vəsaitin təxminən 50 faizi Xankəndinin inkişafına istiqamətlənmişdi. Çünki «DQMV-nin əsas qanunu»nda ayrılmış vəsaitin istiqamətini Vilayət rəhbərliyi müəyyənləşdirirdi. Təsadüfi deyildir ki, 1970–1988-ci illərdə Xankəndi şəhəri sənaye istehsalının inkişaf sürətinə görə Azərbaycanın şəhərlərini 0,23 dəfə ötüb keçmişdir. Burada adambaşına 1,4 min manatlıqdan çox sənaye məhsulu istehsal olunmuşdur ki, bu da Bakı və Sumqayıtdan sonrakı yeri tutmaq deməkdir. Müqayisələrə əsaslanaraq deyə bilərik ki, Xankəndi sənaye müəssisələri istehsal göstəricilərinə görə respublikamızın şəhərləri arasında öndə getmişdir. Belə ki, Xankəndi ipək istehsalına görə Azərbaycanda ikinci mərkəz hesab olunurdu. Respublikamızda ipəkçilik sənayesi məhsullarının təxminən 25 faizi Xankəndinin payına düşürdü. Eyni zamanda respublikamızda istehsal olunan ayaqqabının beşdə biri Xankəndi ayaqqabı fabrikində istehsal olunurdu. Xankəndi Süd Kombinatında respublikamızda quru süd zərdabı hazırlayan yeganə sex işləyirdi. 1987-ci il məlumatına görə adambaşına düşən yeyinti məhsullarımn ən mühüm növlərinin istehsal səviyyəsinə görə Xankəndi şəhəri Azərbaycanın şəhərləri arasında ilk yerlərdən birini tuturdu. Xankəndi Azərbaycanın inkişaf etmiş nəqliyyat təsərrüfatına malik şəhərlərindən biridir. Aparılan tədqiqatlardan məlum olur ki, Xankəndindəki nəqliyyat sahəsindəki göstəricilər ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Məsələn, 1970–1988-ci illərdə Xankəndi şəhərində avtomobil nəqliyyatı ilə yüklərin daşınması həcmi 4,8 dəfə (ümumrespublika üzrə 3,6 dəfə), taksilərlə daşınma 4,2 dəfə (respublika üzrə 2,4 dəfə), sərnişinlərin avtobuslarla daşınması 2,6 dəfə (respublika üzrə 2,2 dəfə), yük avtomobilləri parkı 2 dəfə (respublikada 1,7 dəfə), avtobus parkları 2,6 dəfə (respublika üzrə 1,6 dəfə), taksi parkları 2,7 dəfə (respublika üzrə 1,8 dəfə) artmışdır [9, s.38]. Xankəndində güclü bazaya malik dəmiryol nəqliyyatı və hava nəqliyyatı da vardır.

1960–1980-ci illərdə Xankəndi şəhərində rabitənin inkişafına xüsusi diqqət yetirilmişdir. Araşdırmalardan məlum olur ki, bəhs olunan illərdə Xankəndində rabitənin inkişafına ayrılan vəsait Ağdam, Tərtər, Şuşa, Naxçıvan və digər şəhərlərə ayrılan vəsaitdən 2 dəfə çox olmuşdur. Əhalinin hər 100 nəfərinə düşən rabitə məhsullarının həcminə, ailələrin mənzil telefonları ilə təminatına, şəhərlərarası və şəhər daxili telefon danışıqlarının sayına görə Xankəndi şəhəri ümumrespublika göstəricilərini orta hesabla 2 dəfə üstələmişdir [2].

Faktlara, materiallara əsaslanaraq deyə bilərik ki, Xankəndi şəhərində əhalinin həyat səviyyəsinin yüksəldilməsi, onların artan tələbatlarının təmin olunması Azərbaycanın digər şəhərləri ilə müqayisədə həmişə yüksəkdə dayanmışdır. Belə ki, 1988-ci il (yanvar) məlumatına görə Xankəndində pərakəndə mal dövriyyəsinin həcmi 1960-cı illə müqayisədə 5,1 dəfə (ümumrespublika üzrə 4,6 dəfə), adambaşına düşən mal dövriyyəsinin inkişaf sürəti 3,7 dəfə (ümumrespublika üzrə 2,7 dəfə), mağazalarda hər 10 min nəfərə düşən ticarət sahəsi 2,6 dəfə (ümumrespublika üzrə 1,9 dəfə), əhalinin hər 10 min nəfərinə düşən ictimai iaişə müəssisələrində yerlərin sayı 3 dəfə (ümumrespublika üzrə 2,1 dəfə) artmışdır. Bəhs olunan illərdə Xankəndində məişət xidmətlərinin həcmi 17 dəfə artmışdır ki, bu da orta respublika göstəricilərindən 2 dəfə çoxdur. Eyni zamanda Xankəndi şəhərində əhalinin hər 10 min nəfərinə düşən emalatxana və məişət xidməti işçilərinin sayı ümumrespublika səviyyəsini 2,5 dəfə üstələmişdir [9, s.409].

Tariximizi saxtalaşdırmağa çalışan erməni millətçiləri, yəqin ki, yuxarıdakı qərəzsiz faktlardan bixəbərdilər. Keçən əsrin 80-ci illərindən başlayaraq Azərbaycan xalqına qarşı yalan və böhtan kampaniyasına başlayan erməni millətçiləri ilk vaxtlar vəziyyəti son dərəcə gərginləşdirməyə, ictimai rəyi öz tərəflərinə çəkməyə, ənənəvi əzabkeş obrazı yaratmağa cəhd edərək diqqəti ona yönəltdilər ki, guya respublika rəhbərliyinin qərəzli siyasəti nəticəsində DQMV-nin iqtisadi inkişaf səviyyəsi bütün Azərbaycan üzrə olduğundan xeyli aşağıdır və bu fakt erməni əhalisinin narazılığına səbəb olmuşdur. Halbuki, erməni icmasının daha çox cəmləşdiyi Xankəndi şəhərinin sosial-iqtisadi inkişaf göstəriciləri yuxarıdakı

deyilənlərin ağ yalan olduğunu təsdiqləyir. Başqa sahələrdə olduğu kimi Xankəndi şəhərində mənzil tikintisinin də inkişafı yüksələn xətlə xarakterizə olunur. Təkcə 1970–1987-ci illərdə Dağlıq Qarabağda 1400,4 min kvadrat metr yeni abad mənzillər istifadəyə verilmişdir ki, bunun təxminən 60 faizi Xankəndinin payına düşmüşdür. 1987-ci ildə Xankəndi şəhərində hər bir sakinə 14,6 kvadrat metr mənzil düşdüyü halda, Naxçıvan şəhərində bu göstərici 11,4 $m^2$-ə, ümumrespublika şəhərlərində isə 12,2 $m^2$-ə çatırdı.

1970–1987-ci illərdə Xankəndi şəhərində abadlaşdırma işi sürətlə davam etmişdir. Təkcə su kəməri ilə təchizat göstəricilərinə görə Xankəndi şəhəri 46 faiz təşkil etdiyi halda, Naxçıvan şəhərində 7,4 faiz, Ağdamda 15,5 faiz, Tərtərdə 13,5 faiz, ümumrespublika üzrə 30,5 faizə çatmış, abadlaşmanın digər sahələrdə də Xankəndi şəhəri öndə getmişdir. Belə ki, 1987-ci il məlumatına görə Xankəndi şəhərinin kanalizasiya ilə təminatı ümumrespublika göstəricilərini 2 dəfə, qazla təminatda isə 3,8 faiz öndə getmişdir [13, s.275].

Bəhs olunan dövrdə Xankəndi şəhərində xalq təhsilinin və mədəni xidmətin bütün sahələri daha da təkmilləşdirilmişdir. 1923-cü illə müqayisədə 1980-ci ildə Xankəndi şəhərində məktəblərin sayı 3 dəfə, şagirdlərin sayı 7 dəfə, müəllimlərin sayı 15 dəfə artdı. Aparılan tədqiqatlardan məlum olur ki, istər hər məktəbə düşən şagirdlərin sayına, istərsə də hər müəllimə düşən şagirdlərin sayına görə Xankəndi şəhəri Azərbaycanın digər şəhərlərini geridə qoymuşdur. Məktəbəqədər uşaq müəssisələri ilə təminata gəldikdə isə ümumrespublika üzrə bu göstərici (1987-ci il məlumatına əsasən) 20 faiz, Naxçıvan şəhərində 18 faiz, Bərdə şəhərində 19 faiz təşkil etdiyi halda, Xankəndi şəhərində 40 faizə çatmışdır [13, s.81].

Dəniz səviyyəsindən 830 metr yüksəklikdə yerləşən Xankəndi şəhərində sanatoriya və istirahət müəssisələri, turbaza fəaliyyət göstərirdi. Gözəl iqlimə malik Xankəndi şəhərində yayın isti günü ərzində belə günəş otları qurutmur, bulaqların və kiçik çayların suyu azalmır, şəhərin hər tərəfi çoxillik bitkilərlə əhatə olunmuşdur. Xankəndinin küçələri qurtaran kimi üzümlüklər, meyvə bağları, tut ağacları sahələri başlanır. Əhalinin sağlamlığı üçün bütün bunların əhəmiyyəti çox böyük olsa da bu sahədə infrastrukturun inkişafına xüsusi diqqət yetirilmişdir. 1961–1981-ci illərdə Xankəndində xəstəxana çarpayılarının sayı 2 dəfə artmış və əhalinin hər 10 min nəfərinə 102 çarpayı düşmüşdür. Hansı ki, bu göstərici ümumrespublika səviyyəsində 98-ə çatmışdır [9, s.211]. Bu dövrdə əhalinin həkim və orta tibb işçiləri ilə artım sürətinə görə Xankəndi şəhəri ümumrespublika göstəricilərini qabaqlamışdır.



1960–1988-ci illər ərzində Xankəndi şəhərində mədəni-maarif müəssisələrinin şəbəkəsi genişlənmişdi. Belə ki, 1960-cı illə müqayisədə 1988-ci ildə Xankəndi şəhərində kütləvi kitabxanaların sayı 1,5 dəfə, kitab fondu 2 dəfə, klub müəssisələrinin sayı 1,6 dəfə, kino qurğuların sayı 3 dəfə, qəzetlərin tirajı 2,5 dəfə artmışdır ki, bu göstəricilər ümumrespublika səviyyəsindən xeyli artıqdır [13].

XX yüzilliyin 80-ci illərində erməni millətçiləri məqsədli şəkildə vəziyyəti gərginləşdirmək məqsədilə guya «ermənilərin hüquqlarının tapdalanması, onların Azərbaycanda» sıxışdırılması ilə «Zaqafqaziya respublikalarının, Azərbaycanın, DQMV-nin əhalisinin ümumi sayında azərbaycanlıların payının artması, ermənilərin payının azalması müşahidə edilmişdir» kimi saxta fikirlərini bütün dünyaya yaymışdılar. Əhalinin siyahıya alınması materiallarından, arxiv sənədlərindən, sosioloji tədqiqatların nəticələrindən, rəsmi statistikadan istifadə etməklə tam qətiyyətlə deyə bilərik ki, «yuxarı»larda möhkəm arxaları olan ermənilər istər Azərbaycanda, istərsə də Azərbaycanın DQMV-də heç vaxt sıxışdırılmayıb, onların hüquqları tapdalanmayıb. Əksinə, istər Ermənistanda, istərsə də Azərbaycanın DQMV-də sıxışdırılan, hüquqları tapdalanan azərbaycanlılar olmuşdur. Bakı və İrəvan şəhərlərindəki statistik göstəricilər deyilənləri sübut edir. Belə ki, 1980-ci ildə Bakı şəhərində əhalinin ümumi sayının 14,1%-ni ermənilər, 55,7%-ni azərbaycanlılar təşkil edirdisə, İrəvan şəhərində ermənilər 95,8%, azərbaycanlılar 0,2% idi. Hansı ki, 1897-ci il siyahıya alınmasında İrəvan şəhərində azərbaycanlılar ümumi əhalinin 42,8%-ni, ermənilər 43,1%-ni təşkil etmişdir [12, 13, 9]. Bu gün Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmayıb.

Azərbaycanın DQMV-ə gəldikdə isə 1988-ci il məlumatına görə burada 182,4 min nəfər əhali yaşayırdı. 1979-cu il əhalinin ümumi siyahıya alınması məlumatına görə Azərbaycanda yaşayan ermənilərin ümumi sayının 25,9%-i DQMV-nin payına düşürdü. DQMV-də əhalinin 75,9%-ni ermənilər, 23%-ni azərbaycanlılar təşkil edirdi. Təhlillərdən məlum olur ki, bölgədə 1979-cu il əhalinin siyahıya alınma məlumatına görə Xankəndində yaşayan 38948 nəfər əhalinin 4303 nəfərini (11,04%) azərbaycanlılar, 33,898 nəfərini (87,03%) ermənilər, 747 nəfərini (1,9%) digər millətlər təşkil etmişdir [9, s.433].

Diqqətinizi maraqlı bir fakta yönəltmək istərdim. 1939–1979-cu illərdə DQMV-də əhalinin sayı 30,2 min nəfər artmışdır ki, bu artımın 28,4 mini Xankəndi şəhərinin payına düşmüşdür. Tədqiqatlardan məlum olur ki, Xankəndi şəhərindəki artan əhalinin 95%-ni ermənilər təşkil etmişdir.

1939–1979-cu illərdə Xankəndi şəhərində əhalinin sayı 3 dəfə artdığı halda, Şuşa şəhərində bu göstərici 1,04 dəfəyə çatmışdır (5,4 mindən 7,9 minə). 21 sentyabr 1989-cu ildə Xankəndində yaşayan bütün azərbaycanlılar ermənilər tərəfindən qovularaq şəhərdən çıxarıldılar [9]. Azərbaycan Dövlət Statistika Komitəsinin 1 yanvar 2008-ci ilə olan məlumatına görə Xankəndi şəhərində 53,1 min nəfər, inzibati cəhətdən Xankəndi şəhərinə bitişik Kərgicahan qəsəbəsində 1,8 min nəfər əhali yaşayır. Təəssüflər olsun ki, Oğuz–Türk məkanı olan Xankəndi şəhərində bu gün bir nəfər də olsun azərbaycanlı qalmayıb. Müxtəlif ərazilərdən, xüsusi olaraq Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə ermənilər köçürülür və süni surətdə burada əhalinin sayı artırılır.

Qarabağ münaqişəsi, ermənilərin silahlı hücumu Azərbaycanın demoqrafik vəziyyətinə böyük ziyan vurmuşdur. Bu gün Dağlıq Qarabağ ərazisində faktiki olaraq azərbaycanlı əhali qalmayıb, əsrlər boyu azərbaycanlılar yaşayan yüzdən çox kənd yoxdur. Yüz minlərlə azərbaycanlı öz qohumlarını və yaxmlarını, ev-eşiklərini, illər boyu yığdıqları mülkiyyəti itirərək öz doğma torpaqlarından qaçqın və köçkünə çevrilmişlər. Erməni millətçi-separatçılarının mənfur siyasəti belə bir ağır vəziyyət yaratmışdır.

Xan babalarımızın əli ilə ilk bünövrə daşları düzələn, Azərbaycan xalqının varı-dövləti hesabına tikilib müasir şəhər görkəmi olan Xankəndi Qarabağın başqa yaşayış məntəqələri kimi Ermənistan ordusunun torpağı altındadır. Keçən əsrin 90-cı illərinin əvvəllərinə qədər Xankəndində yüzlərlə azərbaycanlı ailəsi yaşayırdı, yurd-yuvasından didərgin düşən soydaşlarımız orada Kərkicahan yaratmışdılar. Bütün Azərbaycan xalqı inanır ki, Dağlıq Qarabağ problemi ən yaxın zamanlarda birdəfəlik və ədalətlə həll ediləcək, Xankəndi də, Kərkicahan da, Xocalı da, Şuşa da, Laçın da – bir sözlə işğal altında olan bütün torpaqlarımız əsl sahiblərinə – azərbaycanlı övladlarına qovuşacaq.

Ümummilli liderimiz H.Ə.Əliyev çıxışlarından birində göstərmişdir ki, «Azərbaycanın tarixi torpaqları qayıtmalıdır... Biz də qaytara bilməsək, gələcək nəsillər bunları qaytaracaqdır» [2]. Biz tam əminik ki, tezliklə ədalət zəfər çalacaq – torpaqlarımız düşmən əsarətindən azad ediləcək, qaçqın və köçkünlərimiz öz doğma ata-baba yurdlarına qayıdacaqlar!!! Azərbaycan dövlətinin bugünkü sosial-iqtisadi inkişafı, dövlət başçısının uğurlu xarici siyasəti Azərbaycanın ərazi bütövlüyünün bərpa olunacağından xəbər verir.



# III FƏSİL

## AZƏRBAYCANIN HADRUD RAYONUNUN QISA TARİXİ İCMALI

## *(1930–1991)*

Məqalədə 1930–1991-ci illərdə Azərbaycanın Hadrud rayonunda baş verən sosial-siyasi proseslər yeni konsepsiya əsasında tədqiq olunur. Faktlara, materiallara əsaslanaraq müqayisələr, təhlillər aparılır, Hadrud rayonunda yüksək iqtisadi-mədəni inkişaf amilləri açıqlanır. XX yüzilliyin 80-ci illərinin sonlarında Ermənistanın Azərbaycana qarşı başladığı müharibənin səbəbləri, gedişi və xalqımız üçün ağır nəticələri təhlil olunur.

Erməni tarixşünaslığına Azərbaycanın Kür–Araz çayları arasındakı ərazisinin, o cümlədən Dağlıq Qarabağın tarix boyu Ermənistanın tərkib hissəsi olması konsepsiyası hakimdir. Ermənistan silahlı birləşmələri isə bu saxta, tarixi gerçəkliklərdən uzaq konsepsiyaya əsaslanaraq Azərbaycanın ərazi bütövlüyünü pozaraq «Böyük Ermənistan» dövləti yaratmaq məqsədilə tarixi torpaqlarımızın 20 faizini işğal etmişdilər [7, s. 481]. Heç bir elmi əsası olmadan, tariximizi saxtalaşdıran xudbin niyyətli Z.Balayan, S.Yeremiyan, B.Ulubabayan, Q.Svazyan, A.Akopyan, Ş.Smbatyan və digər erməni alimlərinə tutarlı cavab vermək üçün faktlara, materiallara əsaslanaraq tariximizi obyektiv təhlil etməli, erməni fitnəkarlığını, xəyanətini, böhtanını bütün dünya ictimaiyyətinə çatdırmalıyıq. Bu baxımdan Azərbaycanın Hadrud rayonunun tarixinin obyektiv tədqiqi çox böyük əhəmiyyət kəsb edir.

Hadrud Azərbaycanın qədim yaşayış məskənidir. 1964-cü ildə ərazidə aparılmış arxeoloji tədqiqatlar nəticəsində Paleolit dövrünə aid maddi-mədəniyyət qalıqları aşkar edilmiş və Hadrud ərazisinin Azərbaycanın ən qədim mədəniyyət ocaqlarından biri olması aşkarlanmışdır. Əlverişli təbii-coğrafi şərait hələ qədim dövrlərdən burada ibtidai insanların məskən salmasına imkan yaratmışdır.

Hadrud oykonimi «iki çay arası» mənasındadır. Həqiqətən də, Hadrud Güneyçay və Quzeyçay çayları arasında yerləşmişdir. M.Barxudaryana görə, buraya ermənilər Bərguşaddan, Cənubi Azərbaycanın Qarabağ mahalından, Naxçıvandan və Tiflisdən gəlmişdilər [8, s. 222]. Hadrudun keçmiş adı Dizaq, XVIII əsr və XIX yüzilliyin əvvəllərinədək Ağoğlan, XIX yüzilliyin əvvəllərindən 1939-cu ilin sentyabrınadək yenidən Dizaq olmuşdur.

Yeri gəlmişkən, qeyd edək ki, Dizaq vaxtilə Qarabağın Dağlıq hissəsində bir mahal adı olub. N.Gəncəvinin «Xosrov və Şirin» poemasında bu ad «Dizknak» formasında işlənmişdir. Dizaq torpaqları Bərdə hakiminə mənsub olmuşdu. Dizak, «dizək» – «qala» mənasını verir.

Hadrud rayonu 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildən Hadrud qəsəbəsi rayon mərkəzinə çevrilmişdir. Azərbaycan Respublikası Ali Sovetinin 26 noyabr 1991-ci il qərarı ilə Hadrud rayonu ləğv edilmiş və ərazisi Xocavənd rayonuna birləşdirilmişdir.

1986-cı il məlumatına görə, Hadrud rayonunun sahəsi 679 km², əhalisi 14,2 min nəfər olmuşdur. Rayonda 1 qəsəbə, 41 kənd, 13 kənd sovetliyi mərkəzi var idi. Əhalinin 3,8 min nəfəri Hadrud qəsəbəsində, 10,4 min nəfəri isə kəndlərdə yaşayırdı. Bir kvadrat kilometrə 21 nəfər əhali düşürdü [5, s. 222]. Bu göstərici isə istər DQMV-də, istərsə də ümumrespublika səviyyəsində birinci yeri tutmaq demək idi. Belə ki, bəhs edilən dövrdə bir kvadrat kilometrdə əhalinin yerləşməsi – Şuşada 63,3 nəfər, Ağdərədə 26 nəfər, Ağdamda 92,9 nəfər, Bərdə rayonunda 84,6 nəfər, Tərtər rayonunda 92,9 nəfər, ümumilikdə DQMV-də 34,4 nəfər idi [3, i. 70, v. 23]. Bütün bunlar isə Hadrud rayonunda əhalinin yaxşı yaşamasına şərait yaradırdı. Burada əhalinin 80 faizini ermənilər, 18 faizini azərbaycanlılar, 2 faizini isə digər millətlər təşkil edirdi [1]. Halbuki XIX yüzilliyin əvvəllərində burada ermənilər əhalinin cüzi bir hissəsini təşkil edirdi.

Hadrud rayonunun relyefi, əsasən, dağlıq şərq və cənub şərqdə dağətəyi düzənlikdir. Hündürlüyü təqribən 500 metrdən 2725 metrə qədərdir [13]. Yura, Tabaşir, Neogen çöküntüləri yayılmışdır. Rayonun faydalı qazıntıları zəngindir. Belə ki, burada dünya əhəmiyyətli qranit, pirit, qalenit, qızıl, molibden, İslandiya şpatı yataqları var. Hadrud ərazisi faydalı qazıntılarla yanaşı, tikinti materialları, meşə zolaqları, şirin su ehtiyatları, qədim təbiət abidələri, 100 illik yaşı olan ağacları ilə də zəngindir [13]. Çox təəssüflər olsun ki, Qarabağın digər əraziləri kimi, Hadrud rayonu da Ermənistan silahlı birləşmələri tərəfindən ələ keçirilmiş, buradakı tükənməz yeraltı və yerüstü qiymətli təbii sərvətlərimiz qəddarcasına mənimsənilir.

Hadrud rayonunda, əsasən, qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Bitki örtüyündə kollu və seyrək meşəli çəmənlər üstündür. Rayonun 22 min hektar meşə sahəsi var [12, s. 27]. Bütün çayların sahilləri boyunca tut, üzüm, alma, qoz, fındıq, zoğal bağları uzanır. Çox yerdə isə meşələr bağlarla birləşir.

Hadrud respublikamızın mühüm kənd təsərrüfatı rayonlarından biridir. Kənd təsərrüfatının inkişafı üçün rayonda təsərrüfatların idarəetmə mədəniyyəti artırılmış və maddi-texniki bazası ardıcıl olaraq möhkəmləndirilmişdir. Hadrudun iqtisadiyyatında üzümçülük, heyvandarlıq və taxılçılıq əsas yer tuturdu. Kənd təsərrüfatına yararlı torpaqlar 33 min hektar idi. Bunun 9,4 min hektarım şum yeri, 3,4 min hektarını çoxillik bitkilər, 0,5 hektarını biçənəklər, 19,7 min hektarını otlaqlar təşkil edirdi. Əkinə yararlı torpaqların 0,8 min hektarı suvarılırdı. 7,6 min hektar əkin sahəsinin 40%-də dənli və dənli-paxlalı bitkilər 1%-də kartof və tərəvəz, 59%-də yem bitkiləri əkilirdi. Hadrudun üzüm plantasiyaları 3,1 min hektar olmuşdu. 1986 (yanvar) məlumatına görə, rayonda 12,7 min ton üzüm yığılmışdı. Rayonun bütün təsərrüfatlarında müxtəlif növ meyvələr yetişdirilirdi. Hadrudun təbii-coğrafi şəraiti heyvandarlığın inkişafına imkan verirdi. 1987-ci ildə Hadrud rayonunda 9,2 min qaramal, 29,2 min davar, 9,4 min donuz var idi [4, i. 30, v. 52].

Bütün bunlarla yanaşı, Hadrud rayonunun təsərrüfatlarında quşçuluq və baramaçılıqla da məşğul olurdular. Yeri gəlmişkən, qeyd edək ki, baramaçılıq və heyvandarlıq Hadrud əhalisinin qədim peşəsi idi. Hadrud ipəyi həmişə beynəlxalq sərgilərin bəzəyinə çevrilmişdir. Hələ 1882-ci ildə Filadelfiyada keçirilmiş beynəlxalq sərgidə Hadrud ipəyi Təşkilat Komitəsinin qızıl medalına layiq görülmüşdür [12, s. 28]. Təsadüfi deyildir ki, Parisin Yelisey sarayının pəncərələri Hadrud ipəyindən hazırlanmış pərdələrlə bəzədilmişdir. Təəssüflər olsun ki, dövlətimizin dərin qayğısı nəticəsində yaradılmış irimiqyaslı və əhəmiyyətli təsərrüfatlar Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş və Ermənistan iqtisadiyyatı üçün baza rolunu oynayır.

Hadrud rayonunda kənd təsərrüfatının inkişafı, yeraltı təbii sərvətlərin bolluğu və əsrarəngiz meşə örtüyü sənayenin də inkişafına şərait yaratmışdır. Çünki burada sənayeni xammalla təchiz edən böyük həcmli mənbələr var idi. Rayonda üzüm emalı zavodları, yerli sənaye kombinatları, aqrar sənaye birliyi, Respublika Dövlət Kənd Təsərrüfatı İstehsal-Texniki Təminat Komitəsi şöbəsi, elektrik şəbəkəsi və digər iri sənaye kompleksləri yaradılmışdır. Azərbaycan dövlətinin bölgəyə ayırdığı vəsait hesabına 1970–1987-ci illərdə sənaye dinamik inkişaf etmişdi. 1980-ci illə müqayisədə, 1987-ci ildə Hadrudda sənaye-istehsal fondlarının dəyəri 55% artmışdır ki, bu da ümumrespublika üzrə olan göstəricilərdən 46% çoxdur.

1970–1987-ci illərdə, Hadrud sənaye istehsalının inkişaf sürətinə görə ümumrespublika səviyyəsini 0,23 dəfə ötüb keçmişdi. 1940-cı illə müqayisədə 1987-ci ildə rayonda sənaye istehsalının həcmi 25 dəfə artmışdır

[7, s.106]. Aparılan araşdırmalardan məlum olur ki, yuxarıda adı gedən sənaye müəssisələri ermənilərin daha çox cəmləşdiyi kəndlərdə inşa edilmişdi. Məkrli niyyət sahibləri olan rayonun erməni rəhbərliyi azərbaycanlılar yaşayan kəndlərdə nəinki sənaye müəssisəsi, heç onun filialını da yaratmağa imkan verməmişdir. Bu gün xalqımızın zəhməti ilə yaradılmış həmin müəssisələr yağı düşmənə xidmət edir.

Hadrudun ərazisində çoxlu və əhəmiyyətli mineral su mənbələri var. Domı, Tuğ, Arpagədik, Arpayurd, Hadrud ərazilərindəki sular xüsusi diqqətə layiqdir. Buradakı sular təkcə dadı və təmizliyi ilə fərqlənmir, bu sular, həm də müalicəvi əhəmiyyət kəsb edirdi. Ərazidəki «Gəncəsər» bulağı təkcə özünün müalicəvi əhəmiyyəti ilə fərqlənmirdi, həm də bol sululuğu ilə diqqəti cəlb edirdi. Bulağın suyundan suvarmada istifadə olunurdu.

Hadrud rayonu ərazisində xalqımızın çoxlu qədim abidələri var. Bunların içərisində Tağlar mağarası özünün stratiqratik planına, tapılmış maddi-mədəniyyət qalıqlarına görə keçmiş sovetlər birliyində və yaxın şərqdə mustye abidələri içərisində xüsusi olaraq fərqlənirdi. Bundan əlavə, Hadrudun memarlıq abidələrindən Quruçayın sağ sahilində Metstağlar kəndində 1241-ci ildə inşa edilmiş Qotik məbədini, Dolanlar kəndindəki XII–XIV əsrlərə aid məbəd, türbə, sərdabələri, Tuğ kəndində X əsrə aid Qırmızı məbədi göstərmək olar [6, s. 61].

Azərbaycanın yuxarıda adıgedən qədim memarlıq abidələrinin dövlət tərəfindən qorunmasına baxmayaraq, Hadrudun işğalından sonra erməni vandalları tərəfindən dağıdılmış və yandırılmışdır.

Azərbaycan dövlətinin dərin qayğısı nəticəsində sovet hakimiyyəti illərində Hadrud rayonunda mədəni quruculuq sahəsində çox böyük müvəffəqiyyətlər əldə edilmişdir. 1987-ci il məlumatına görə, Hadrud rayonunda 280 uşağın tərbiyə olunduğu 12 məktəbəqədər uşaq müəssisəsi fəaliyyət göstərirdi. Hansı ki, 1940-cı ildə rayonda yalnız 61 uşağın tərbiyə olunduğu 2 məktəbəqədər uşaq müəssisəsi var idi. 1987-ci ildə ümumilikdə DQMV-də 8,3 min uşağı birləşdirən 98 məktəbəqədər uşaq müəssisəsi var idisə, Naxçıvan MR-da 5,1 min uşağın tərbiyə olunduğu 80 məktəbəqədər uşaq müəssisəsi, Qubadlıda 1, Zəngilanda 9, Tərtərdə 13, Cəbrayılda 8, Bərdədə 17 məktəbəqədər uşaq müəssisəsi fəaliyyət göstərirdi [5, s. 127]. Aparılan araşdırmalardan məlum olur ki, Hadrud rayonunun məktəbəqədər uşaq müəssisələri ilə təminatı ümumrespublika səviyyəsində yüksəkdə dayanmışdır. Belə ki, respublikamızda məktəbəqədər uşaq müəssisələri ilə təminat 20%, Naxçıvan MR-da 12% olduğu halda, Hadrud 33%-ə çatmışdır. Lakin araşdırmalardan məlum olur ki, Hadrud rayonunun azərbaycanlılar yaşayan kəndlərindən heç birində məktəbəqədər uşaq müəssisəsi yox idi.



1987-ci ildə Hadrudda 2650 şagirdi olan 28 ümumtəhsil məktəbi, 220 şagirdi olan 1 texniki peşə məktəbi, 81 şagirdin təhsil aldığı 1 yeddiillik məktəbi fəaliyyət göstərirdi. Hadrudda hər məktəbə 94 şagird düşürdüsə, Naxçıvan MR-da bu göstərici 288-ə, Ağdamda 354-ə, Zəngilanda 419-a çatırdı. Tədqiqatlardan məlum olur ki, Hadrud rayonunda hər bir müəllimə 14 şagird düşdüyü halda, Naxçıvan MR-da 23, Ağdamda 30, Zəngilanda 33 şagird düşürdü ki, bu göstərici tədrisin keyfiyyətinə çox böyük təsir göstərirdi [3, i.70, v. 22].

1987-ci il yanvarın 1-ə olan məlumata görə, Hadrud rayonunda 11 mədəniyyət evi, 22 klub, 218 min kitabı olan 41 kitabxana, 33 kinoqurğu var idi. Araşdırmalardan məlum olur ki, keçən əsrin 80-ci illərinin sonlarında Hadrud rayonunda hər bir sakinə 10 kitabxana kitabı düşdüyü halda, ümumrespublika üzrə bu göstərici 5,8-ə çatırdı. Eyni zamanda Hadrud rayonunun kütləvi kitabxanalarla təmin edilməsi 100% idisə, ümumrespublika üzrə bu göstərici 94%-ə bərabər idi [9, s. 91]. Tədqiqatlardan bir acı həqiqət də aşkar edilir ki, Hadrudun azərbaycanlılar yaşayan kəndlərdəki kitabxanaların kitab fondunun təxminən 80-i erməni dilində, 10%-i rus dilində, 10%-i Azərbaycan dilində idi.

Müqayisələr və təhlillərə əsaslanaraq deyə bilərik ki, keçən əsrin 80-ci illərində Hadrudda mədəni-maarif müəssisələrinin inkişafı istər ümumittifaq və ümumrespublika səviyyəsində, istərsə də qonşu Ermənistanla müqayisədə birinci yerdə dayanmışdır. Belə ki, hər 10 min nəfərə düşən klub və mədəniyyət evlərinin sayı keçmiş SSRİ-də 4,8, Respublikamızda 5, Ermənistanda 3,8 olduğu halda, Hadrudda 14-ə çatmışdı.

Eyni zamanda hər 10 min nəfərə düşən kinoqurğuların sayı Azərbaycanda 3, Ermənistanda 2,9, keçmiş SSRİ-də 5,4 olduğu halda, Hadrud rayonunda bu göstərici 10 idi [5, s.126].

1930–1980-ci illərdə Hadrud rayonunda əhalinin sağlamlığının qorunması işində müsbət dəyişikliklər baş vermişdir. 1960–1988-ci illərdə Hadrud rayonunda xəstəxana çarpayılarının sayı 2 dəfəyə yaxın artaraq 185-ə çatmışdır. Rayonda əhalinin hər 10 min nəfərinə 100 çarpayı düşürdü. Hansı ki, bəhs olunan dövrdə ümumrespublika üzrə bu göstərici 97,8-ə bərabər idi [7, s. 316]. 1987-ci ildə Hadrud rayonunda 6 xəstəxana müəssisəsi, 19 «feldşer-mama» məntəqəsi, sanitariya epidemioloji stansiya, 22 həkim, 173 orta tibb işçisi fəaliyyət göstərirdi [13]. Bu müddət ərzində Hadrudda bütün ixtisaslar üzrə olan həkimlərin sayının artımı 2,5 dəfə,

həmçinin orta tibb işçilərinin sayının artımı 1,8 dəfə, əhalinin hər 10 min nəfərinə düşən həkimlə təminat səviyyəsini 14-dən 29-a, orta tibb işçiləri ilə təminat səviyyəsini 83-dən 120-yə qədər artırmağa imkan vermişdir.

Dövlətimizin Hadrud rayonu əhalisinin sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi tədbirlər, yeni sanatoriya, istirahət müəssisələrinin istifadəyə verilməsi, bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının inkişafı və möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər, təmiz hava, su və münbit, məhsuldar torpaqların mövcudluğu burada yaşayan əhalinin sağlamlığına çox böyük təsir göstərmişdir. Təsadüfi deyildir ki, Hadrudda hər 25 nəfərdən birinin 100-dən yuxarı yaşı olmuşdur. Maraqlıdır ki, ABŞ-da hər 100 min nəfərə 1,5 nəfər yüz yaşlı, DQMV-də isə 114 nəfər yüz yaşlı düşürdü [12, s. 28].

Bəhs olunan dövrdə Hadrud rayonunda çıxan (ermənicə) «Koltiteskan» («Kolxozçu») qəzeti 1933-cü ildən nəşrə başlamışdır. Yerli radio verilişlər redaksiyası 1962-ci ildən fəaliyyət göstərirdi. Eyni zamanda yerli əhali televiziya verilişlərinə də baxırdı [5, s. 128].

Azərbaycanın Hadrud rayonu ərazisinin 300-dən 500-ə qədər adam yaşayan bütün yaşayış məntəqələri klub müəssisələri ilə təmin edilmişdi. Bu, təxminən 90% demək idi, hansı ki, bu göstərici ümumrespublika üzrə 40%-ə yaxın idi [4, i. 30, v. 54].

Hadrud rayonunda mənzil tikintisinin də inkişafı yüksələn xətlə davam etmişdir. Belə ki, 1970–1980-ci illərdə Azərbaycanın bütün maliyyə mənbələri hesabına Hadrud rayonunda ümumi sahəsi 360,3 min kv.m. olan yeni abad mənzillər istifadəyə verilmişdir. Hadrudun bir sakininin mənzillə təminatı 14,5 kv.m. olduğu halda, ümumrespublika üzrə bu göstərici 10,9 kv.m., Naxçıvan MR-da 9,5 kv.m. idi. Bütün bunlarla yanaşı, Hadrudda yaşayış məntəqələrinin abadlaşması işi sürətlə davam etdirilmiş, yeni su xətləri, qaz kəməri, kanalizasiya xətləri çəkilmişdir. 1987-ci ildə rayonda qazlaşdırma 100% (ümumrespublika üzrə 96%), su kəməri ilə təminat 45% (ümumrespublika üzrə 30,5%, Naxçıvanda 7,4%), kanalizasiya ilə təminat 12% (ümumrespublika üzrə 6,5%) təşkil edirdi [7, s.199].

Hadrud Azərbaycanın inkişaf etmiş nəqliyyat təsərrüfatına malik rayonlarından biri idi. Dövlətimizin dərin qayğısı nəticəsində Hadrudda nəqliyyat təsərrüfatının bütün sahələri sürətlə inkişaf etmişdir. Keçən əsrin 60–80-ci illər inkişafını xüsusi qeyd etmək lazımdır. Aparılan hesablamalara görə rayonun nəqliyyat göstəriciləri ümumrespublika səviyyəsini üstələmişdir. Belə ki, 1970–1985-ci illərdə Hadrud rayonunda avtomobil nəqliyyatı ilə yüklərin daşınması həcmi 4,8 dəfə (Resp. 3,6 dəfə), sərnişinlərin daşınması 3,4 dəfə (Resp. 2,3 dəfə), avtomobil parkları 2,3 dəfə (Resp. 1,7 dəfə) çoxalmışdı. Rayonda rabitə vasitələrinin də inkişafına xeyli diqqət yetirilmişdir. Təkcə 1970–1988-ci illər ərzində Hadrud rayonunda bu sahə üzrə əsas fondların və vəsait qoyuluşunun inkişaf sürəti ümumrespublika üzrə olduğundan 2 dəfə çox idi. Nəticədə 1987-ci ildə Hadrudda adambaşına düşən rabitə məhsulunun həcmi 29,5 manat təşkil etmişdir ki, bu göstərici ümumrespublika üzrə 21 manata çatırdı. Rayonda əhalinin hər 100 nəfərinə 12 telefon düşmüş (Resp. 8), telefonlaşdırma 42% (Resp. 31%) artmış, şəhərlərarası telefon danışıqları adambaşına 7,8% (ümumrespub. 4,1%) təşkil etmişdir [3, f.1, s. 232, i. 70, v. 22].

Bəhs etdiyimiz dövrdə Hadrud rayonunda əhalinin rifahı xeyli yaxşılaşmışdır. Təkcə 1987-ci ildə rayonda əhalinin adambaşına düşən pul gəlirləri 1113,5 manat olmuşdur ki, bu da Naxçıvan MR ilə müqayisədə 170,4 manat, bütövlükdə ümumrespublika üzrə olduğundan 97,8 manat çoxdur. 1960-cı illə müqayisədə 1987-ci ildə Hadrud rayonunda pərakəndə mal dövriyyəsinin həcmi 5 dəfə (Resp. 4,5 dəfə), adambaşına düşən mal dövriyyəsinin inkişaf sürəti 3,5 dəfə (Resp. 2,7 dəfə), mağazalarda hər 10 min nəfərə düşən ticarət sahəsi 2,5 dəfə (Respublika üzrə 1,9 dəfə) artmışdı. Bütün bunlarla yanaşı, 1970–1980-ci illərdə rayonda ictimai-iaşə xidməti sahəsində də böyük nailiyyətlər əldə edilmişdir.

Belə ki, 1987-ci ildə rayonun ictimai-iaşə müəssisələrində əhalinin hər 10 min nəfərinə 805 yer düşdüyü halda, ümumrespublika üzrə bu göstərici 731-ə çatırdı. 1987-ci ildə Hadrudun hər bir sakininə düşən məişət xidmətinin həcmi 41 manata çatırdı ki, bu göstərici Naxçıvan MR-dan 50%, ümumrespublika üzrə olduğundan 35% çox idi. Həmçinin rayonda məişət xidməti emalatxanalarının sayında da böyük artım müşahidə edilmiş və 1987-ci ildə əhalinin hər 10 min nəfərinə 35 məişət xidməti emalatxanası düşmüşdür. Bu göstərici Naxçıvan MR-da 29-a, ümumrespublika üzrə 17-yə çatırdı. Təhlillərdən göründüyü kimi Hadrud rayonu iqtisadi və mədəni inkişafın bütöv göstəriciləri üzrə ümumrespublika səviyyəsini ötüb keçmişdir. Bütün bu və digər müqayisəli faktlar və materiallar isə erməni siyasətçilərinin «DQMV-nin sosial-iqtisadi və mədəni inkişaf geriliyi» konsepsiyasının böhtan olduğunu göstərir [1, f. 411. s.9, i. 73, v. 283].

Azərbaycanın digər rayonları kimi, Hadrud rayonu da Ermənistan silahlı birləşmələri tərəfindən 1992-ci ilin 2 oktyabrında işğal edildi. Burada yaşayan bütün azərbaycanlılar əsir və girov götürüldü, soyqırıma, deportasiyaya məruz qaldı. Çətin və məşəqqətli köçkünlük həyatını yaşamalı oldu.

Ərazidəki qiymətli və tükənməz təbii sərvətlərimiz Ermənistan tərəfindən qəddarlıqla mənimsənilməyə başlandı. İşğal altındakı Hadrud rayonunun ərazisi bütövlükdə ekoloji terrora məruz qaldı. Qədim tarixə malik mağaralarımız ermənilərin silah anbarına çevrildi. Rayondakı palıd meşələri qırılaraq Ermənistana daşındı. 100 illik tarixə malik və adı «Qırmızı kitab»a düşən ağaclar, çay kənarında bitən təbii meşələr erməni quldurları tərəfindən məhv edildi.

Ümumiyyətlə, Qarabağ müharibəsində Azərbaycan 20 mindən çox övladını itirdi, 100 min nəfər yaralandı, 5 min nəfər əlilə çevrildi, 4861 nəfər azərbaycanlı girov götürüldü. Hərbi təcavüz nəticəsində Azərbaycanın 17 min $km^2$ ən məhsuldar torpağı Ermənistan tərəfindən işğal edildi. Bir milyondan artıq azərbaycanlı öz doğma yurdundan köçkünə və qaçqına çevrildi [7, s. 479]. Lakin biz bir həqiqətə inanırıq ki, tezliklə ədalət zəfər çalacaq, qaçqın və köçkünlərimiz öz doğma torpaqlarına qayıdacaqlar!!!



# IV FƏSİL

## ƏSİRLİKDƏ QALAN ŞƏHƏR: XOCALI DÜNƏN, BU GÜN və SABAH

Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il (№ 279–XII) Qanunu ilə yaradılmış Xocalı rayonu, 1930–1978-ci illərdə Xankəndi rayonunun, 1978–1991-ci illərdə isə Əsgəran rayonunun tərkibində olmuşdu. Azərbaycan Respublikasının Xocalı rayonunun mərkəzi Xocalı şəhəridir. Xocalı şəhəri Xankəndindən 14 km şimal-şərqdə yerləşir. Xocalı Kiçik Qafqazda, Qarabağ silsiləsinin şimal-şərq yamacındadır. Xocalı yaşayış məntəqəsini Xocalı nəslinə mənsub ailələr saldığı üçün belə adlandırılmışdır. Xocalı adına Azərbaycanın digər ərazilərində də rast gəlmək mümkündür. Belə ki, Salyan rayonu ərazisində kənd, Xocavənd rayonu ərazisində çay, Füzuli rayonu ərazisində dağ adları Xocalı adını daşıyır [2, s. 248]. 2006-cı il 1 yanvar məlumatına görə, Xocalı rayonunun sahəsi 936 kvadrat kilometr, əhalisi 25 min nəfər olmuşdu [1, s. 859].

Xocalı rayonuna – Xocalı şəhəri, Əsgəran qəsəbəsi, Xocalı, Cəmilli, Meşəli, Dağyurd, Seyidbəyli, Ballıca, Xanyurdu, Mehdibəyli, Harov, Dağdağan, Daşbulaq, Qayabaşı, Badara, Xanyeri, Suncinka, Qarabulaq, Dəmirçilər, Mədədkənd, Quşçubaba, Qızıloba, Haçmaç, Aşağı Yemişcan, Cəmilli, Kosalar, Başkənd, Cavadlar, Yalobakənd, Canhəsən, Naxçıvanlı, Daşkənd, Muxtarkənd, Şuşakənd, Sığnaq, Çanaxçı, Daşbaşı, Fərrux, Pirlər, Qarakötük, Almalı, Aşağı Qılıncbağ, Ağgədik, Xanabad, Şəlvə, Qışlaq, Sərdarkənd, Təzəbinə, Dəhrəz, Ağbulaq, Aranzəmin, Pircamal kəndləri daxildir.

Xocalı rayonunun relyefi, əsasən, dağlıq, mərkəzi hissədə isə düzənlikdir. Düzənlik hissədə Xankəndi çökəkliyi, dağlıq hissədə Qızqala (2843 m) və Qırxqız (2827 m) dağları yerləşir. Ərazidə Yura, Tabaşir, dağətəyi çökəkliklərdə və dağətəyi düzənliklərdə antropogen çöküntüləri yayılmışdır. Rayon ərazisində gil, qum, çınqıl, gillicə, mərmər və digər faydalı qazıntı yataqları var. Rayonun yüksək əraziləri istisna olmaqla, iqlimi mülayim istidir. Orta temperatur yanvarda – 0–2 selsi, iyulda + 20 +22 selsi dərəcədir. İllik yağıntının miqdarı 600–800 millimetrdir. Qarqar, Badara, İlis, Xocalı çayları rayon ərazisindən keçir. Rayonda, əsasən, dağ-meşə, dağçəmən torpaqları yayılmışdır. Meşələri vələs, palıd, fısdıq, çökə, ağcaqayın, göyrüş, qarağac və digər ağaclarla zəngindir. Rayonun yüksək dağlıq

sahələrində subalp və alp çəmənlikləri yayılmışdır. Ərazinin 40 faizi meşələrdən ibarətdir. Ərazidə ayı, qaban, vaşaq, canavar, meşə pişiyi, tülkü, dovşan, cüyür, dağkeçisi və digər heyvanlar, kəklik, turac, qırqovul, göyərçin, qartal, quzğun və başqa quşlar yaşayır. Çox təəssüflər olsun ki, rayonun erməni vandalları tərəfindən işğalı ilə faydalı qazmtılar qəddarcasına mənimsənilir, nəsli kəsilməkdə olan heyvanlar ovlanır, adı «Qırmızı kitab»a düşən nadir ağaclar doğranaraq Ermənistana daşınır.

Xocalı, əsasən, kənd təsərrüfatı rayonudur. Rayonda heyvandarlıq, üzümçülük, taxılçılıq, tərəvəzçilik, meyvəçilik inkişaf etmişdir. Burada dənli və dənli-paxlalı bitkilər (buğda, arpa və s.), tərəvəz, kartof, yem bitkiləri əkilirdi. Təsərrüfatlarda üzüm, meyvə yetişdirilir, əhali quşçuluq və baramaçılıqla məşğul olurdu. Rayonda 11 orta məktəb, 1 ibtidai məktəb, uşaq yaradıcılıq mərkəzi, 3 musiqi məktəbi, tarix-diyarşünaslıq muzeyi, 20 klub, 29 kitabxana, mərkəzi rayon xəstəxanası, 13 tibb müəssisəsi var idi [1, s. 859]. Bu gün xalqımızın zəhməti ilə dövlətimizin böyük maliyyə vəsaiti hesabına yaradılmış nəhəng infrastruktur erməni vandalizminin qurbanına çevrilmişdir. Azərbaycanın qədim tarixə malik Xocalı ərazisi, Şuşadan sonra ermənilərin müxtəlif ərazilərdən köçürülərək məskunlaşdıqları kəndlərin əhatəsində yerləşən ən böyük və qədim türk yaşayış məskəni olmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, Zaqafqaziya Statistika Komitəsinin 1886-cı il siyahıyaalınmasına görə Xocalıda 34 ev olmuşdur ki, bu ailələrdə 192 nəfər əhali yaşayırdı. Məlumatda göstərilir ki, Xocalıda yaşayan əhalinin hamısı şiə məzhəbinə mənsub tatarlar (türklər) olmuşdur.

Azərbaycanın qədim yaşayış məskəni olması, azərbaycanlıların bölgədə say üstünlüyü ilə yaşaması, mühüm çayların ərazidən axması, Dağlıq Qarabağın yeganə hava limanının məhz burada yerləşməsi, arandan dağlara gedən köç sürülərinin Xocalıdan keçməsi, rayonun Əsgəranla Xankəndi arasında yerləşməsi Xocalının strateji əhəmiyyətini artırmış və bu, mənfur siyasət sahiblərinin diqqətindən yayınmamışdır. Bütün bunlarla yanaşı, erməni cəlladlarınm məkrli bir niyyəti də var idi ki, bu da «dənizdən-dənizə Böyük Ermənistan» yaratmaq idi. Xocalı kimi qədim türk diyarının mövcudluğu isə bu «plan»a mane olurdu. Məhz bütün bunlara görə, erməni vandalları Xocalı şəhərində tarixdə misli görünməyən soyqırımı törətdilər. Qədim türk diyarını dünya xəritəsindən silmək məqsədilə xalqımızın başına müsibətlər gətirildi. Şəhər yerlə yeksan edildi, 700-ə yaxın azərbaycanlı ağır işgəncələrlə öldürüldü, Xocalı əhalisi qaçqınlıq, köçkünlük, didərginlik həyatını yaşamalı oldu.



Xocalı Azərbaycanın qədim yaşayış məskənidir. Ərazinin əlverişli təbii coğrafi şəraitə malik olması uzun bir dövrdə ulu əcdadlarımızın burada düşərgə salmasına, yaşamasına imkan yaratmışdır. Ərazidə aparılan arxeoloji tədqiqat işləri nəticəsində son tunc və ilk dəmir dövrünə (e.ə. XIII–VII əsrlərə) aid arxeoloji abidə nekropol, daş qutu və kurqanlar, 1356–1357-ci illərə aid Dairəvi Türbə, XIX əsrə aid memarlıq abidələri «Xocalı Qəbiristanı» və oradakı müxtəlif tipli saxsı qablar, silahlar, qızıl və tuncdan hazırlanmış bəzək əşyaları, tunc alətlər və digər qədim maddi-mədəniyyət nümunələri aşkar edilmişdir ki, bütün bunlar ulu əcdadlarımızın Xocalı ərazisində qədimdən yaşadığını sübut edir [10, s. 61].

Yeri gəlmişkən, onu da qeyd edək ki, Xocalıda qədim abidələrin öyrənilməsi işi XX yüzilliyin əvvəllərinə təsadüf etmişdir. Qarabağ abidələrini öyrənən alman tədqiqatçısı Emil Resler, rus şərqşünası M.Xankov, ingilis alimi F.Bajer, fransız şərqşünası A.Berje buradakı arxeoloji abidələrlə tanış olmuş və təəssüflər olsun ki, buradan tapılmış eneolit, tunc və dəmir dövrünə aid əşyaları öz ölkələrinə aparmışlar. Azərbaycanlı tədqiqatçı alim Ə.Ələkbərovun ərazidə apardığı tədqiqat işləri böyük əhəmiyyət kəsb etmişdir. Azərbaycanın görkəmli aliminin qənaətinə görə, Xocalı abidələri bütün Azərbaycan abidələrini öyrənmək üçün açar rolunu oynayır. Ümummilli liderimiz H.Ə.Əliyevin təşəbbüsü ilə keçən əsrin 70-ci illərində Xocalı abidələri tədqiq edilmiş və ərazidə qədim və orta əsrlərə aid 28 abidənin olması aşkar edilmişdir. Tədqiqatlar nəticəsində tunc dövrünə aid 8 kurqan və nekropol, dəmir dövrünə aid 5 qəbir və kurqan, orta əsrlər dövrünə aid 9 məbəd, IX–XVIII əsrlərə aid 5 qala, XIV əsrə aid türbə aşkarlanaraq öyrənilmişdir ki, bütün bunlar Vətənimizin siyasi tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edirdi. Lakin çox təəssüflər olsun ki, 1992-ci ilin fevralmda erməni və rus ordusunun birləşmiş qüvvələri Xocalıda əhalini vəhşicəsinə qırarkən bəşəriyyət üçün nadir abidələr toplusu olan zəngin Xocalı abidələrini də dağıtdılar.

Dünyanın müxtəlif bölgələrinə səpələnmiş ermənilərin Azərbaycana köçürülməsi ilə burada yaşayan xalqların çətin və məşəqqətli günləri başlamışdır. Azərbaycanın qədim İrəvan xanlığında erməni vilayəti yaradıb, sonralar tarixi torpaqlarımızı müxtəlif yol və vasitələrlə həmin qondarma quruma birləşdirib Ermənistan adlı «dövlət» yaradan ermənilər və havadarları təəssüflər olsun ki, bununla kifayətlənmədilər. Bütün XX yüzillik ərzində Azərbaycanm tükənməz və təbii yeraltı və yerüstü təbii sərvətlərə malik Qarabağ bölgəsinə əsassız ərazi iddiasında olan Ermənistan 80-ci illərin sonlarında ölkəmizə qarşı açıq tətil, nümayiş və ən nəhayət, irimiq-

yaslı hərbi əməliyyatlara başladı. Azərbaycanda yaranmış dərin siyasi böhrandan məharətlə istifadə edən arxalı düşmən xalqımızın başına tarixdə misli-bərabəri olmayan müsibətlər gətirdi. Bu dövrdə erməni terroru çoxsaylı, miqyaslı xarakter aldı. Türk qanına susayan erməni kafirləri elan olunmamış «Qarabağ savaşı»nda ağsaqqal qocaya, ağbirçək anaya, süd-əmər körpəyə də aman vermədi. Erməni vandalları xalqımızın soykökünü kəsmək üçün tarixdə analoqu olmayan faciələr törətdilər. Belə faciələrdən biri də, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə vəhşi erməni cəlladları tərəfindən törədilən Xocalı qırğını idi. Xocalı soyqırımını erməni quldurları Rusiyanın 366-cı atıcı alayı ilə əlbir olaraq törətmişdilər. Belə ki, bəhs etdiyimiz dövrdə Rusiyanın Xankəndindəki 366-cı mexanikləşdirilmiş atıcı alayının tərkibindəki zabitlərin fikirləri, gündəliklərindəki «qeydləri» bir daha deyilənləri sübut edir. Rus zabiti mayor Yuriy Girçenko dekabr, 1991-ci ildə öz gündəliyində yazmışdır: «Hərbi hissələrimiz döyüş sursatlarını ermənilərə qoyub gedirdilər. Ermənilərə müharibəni davam etdirmək lazım idi. Biz isə yalançı «döyüş aktı» tərtib edib ağır hərbi texnikanı ermənilərə satırdıq. Bu işdən Zaqafqaziya Hərbi Komissarlığı da xəbərdar idi» [12, s. 140]. 366-cı alayın zabiti podpolkovnik Azarov isə gündəliyində yazmışdı: «Biz çox səhv olaraq dinc əhalini də qırdıq». Marşal Sapajnikovun «qeydləri»ndə isə göstərilirdi ki, «Xocalı soyqırımının izini itirmək üçün ruslara məxsus 366 Alay dərhal, faciədən sonra Gürcüstana köçürüldü və alayın tərkibi 02 mart 1992-ci il tarixli «Əmr»lə müxtəlif hərbi hissələrə verildi» [12, s.144]. Eyni zamanda xarici dövlətlərdən gətirilmiş muzdlu quldurlar da bu qırğında nankor düşmənə köməkçi olmuşdu. Xocalı şəhəri üzərinə hücum planını milliyətcə erməni olan mayor Seyran Ohanyan hazırlamışdı. Plana görə, fevralın 25-də, gecə şəhərə 6 istiqamətdə qəfil, sürətlə hücum etməli, əhalinin şəhərdən çıxmasına imkan verməməli, hamını bir nəfər kimi güllələməli və şəhər yandırılmalı idi [13, s. 7–9]. Xocalı üzərinə 366-cı rus alayının 180 hərbi mütəxəssisi ağır texnikası ilə birlikdə ermənilər tərəfindən hücuma hazır edilmişdi. 366-cı alayın batalyonlarına rəhbərlik edən mayor Ohanyan, mayor Nabogixin, mayor Lixodiya, mayor Yuri Girçenko, podpolkovnik Azarov və digər 50-dən çox qəddar, təcrübəli erməni zabiti öz dəstələri ilə 1992-ci il fevralın 25-də Xocalı ətrafında cəmləşdilər [15]. Düşmənin hücum edəcəyini Xocalı şəhər rəhbərliyi əvvəlcədən bilirdi. Belə ki, Xocalı şəhər prokuroru Atakişi Atakişiyevin Azərbaycan Respublikası prezidenti A.Mütəllibova və Respublikanın Baş prokuroru M.Balayevə 25 fevral 1992-ci ildə, gündüz saat $12^{00}$-da ünvanladığı növbəti teleqram yuxarıda deyilənləri sübut edir. Teleqramı olduğu kimi diqqətinizə çatdırırıq: «Əziz rəhbərlərimiz! Xocalı rayonu artıq əldən gedir. Bütün bu hadisələr Xocalının üstündədir. Xocalı gedərsə, DQMV-i ermənilərin olacaq. Biz Xocalını saxlasaq DQMV-i bizim olacaq. Ona görə də Əsgəran aradan götürülməlidir. Artıq 25 gündür Xocalıya heç bir vertolyot işləmir. Hazırda Xocalı şəhərində 7 min əhali yaşayır. Arvad, uşaq, qoca və s. Əgər siz bizə kömək etməsəniz, 4 illik zəhmətimiz hədər gedəcək. Biz sizdən təxirəsalınmaz kömək gözləyirik. Xocalı Azərbaycanın taleyini həll edir» [13, s. 9–10].

Elə həmin gün Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Elman Məmmədov mərkəzdən və qonşu rayonlardan kömək istəmişdi. Lakin çox təəssüflər olsun ki, nə həmin gün, nə həmin gecə, nə də sonrakı günlər dinc, silahsız Xocalı sakinlərinə kömək gəlmədi. Xocalı şəhərinin müdafiəsi olduqca zəif təşkil olunmuşdu. 80 nəfərdən ibarət Xocalı özünümüdafiə taborunun heç bir zirehli texnikası yox idi. Onlara Şıx briqadasının ikinci taboru (cəmi 20 nəfərdən ibarət minaatanlar batareyası) kömək edirdi. 60 nəfərlik milis dəstəsi isə Xocalı təyyarə meydanını qoruyurdu. Beləliklə, hər cür müasir silahlarla və texnika ilə silahlanmış güclü, təcrübəli, birləşmiş rus-erməni ordusu qarşısında cəmi 160 nəfərlik heç bir texnikası olmayan Azərbaycanın müdafiəçi dəstəsi dayanmışdı [8].

Erməni faşistlərinin Xocalıya hücumu 1992-ci il fevralın 25-də saat $21^{00}$-da başladı [9]. Düşmən ilk zərbəni hava limanına vurdu. Xocalının müdafiəçiləri az sayda olmalarına və pis silahlanmalarına baxmayaraq, mərdliklə vuruşurdular. Xocalı təyyarə meydanını Xüsusi Təyinatlı Milis Dəstəsinin komandiri, milis mayoru Əlif Hacıyevin 22 nəfərlik dəstəsi qoruyurdu [7]. Qüvvələr nisbətinin qeyri-bərabərliyi Xocalı hava limanının düşmən əlinə keçməsinə şərait yaratdı. Lakin Ə.Hacıyev çox cəsarətlə və planlı hərəkət edərək Xocalı hava limanının dispetçer məntəqəsini düşmən əlinə keçməməsi üçün partlatdı. İgid döyüşçü Ə.Hacıyev Xocalıda 2 vəzifəni həyata keçirirdi. O həm təyyarə meydanının milis rəisi, həm də hərbi komendantı idi. Qorxmaz döyüşçü Ə.Hacıyev təyyarə meydanını partladarkən bir neçə düşmən maşınını, tankını, canlı qüvvəsini məhv etdi. Əfsanəvi qəhrəman Ə.Hacıyev qolundan yaralanmasına baxmayaraq, dinc xocalıların şəhəri tərk etməsinə kömək edərkən Şelli istiqamətində düşmən mühasirəsinə düşmüş və qəhrəmancasına həlak olmuşdur. Ölümündən sonra, milis mayoru Ə.L.Hacıyevə dövlətimizin suverenliyi, ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə «Azərbaycanın Milli Qəhrəmanı» adı verilmişdir [7; 8].

Xocalı hava limanı ələ keçirildikdən sonra türk-müsəlman qanına susayan erməni faşistləri tankların, zirehli maşınların gücü ilə Mehdikənd, Qaraguh və Daşbulaq istiqamətindən Xocalıya soxuldular. Artıq Xocalı şəhərində küçə döyüşləri gedirdi. Xocalının müdafiəsi uğrunda ərazi özünümüdafiə taborunun döyüşçüləri düşmənə qarşı qəhrəmanlıqla vuruşdular. Bu döyüşlərdə Tofiq Hüseynovun rəhbərlik etdiyi 60 nəfərlik batalyon ölüm-dirim mübarizəsində igidliklə vuruşmuş, yüzlərlə Xocalı sakininin mühasirədən çıxmasına şərait yaratmışdır. T.Hüseynovun batalyonundakı döyüşçülərdən 49 nəfəri qəhrəmanlıqla həlak olmuş, qalanları isə yaralanaraq girov düşmüş və erməni quldurları tərəfindən qəddarlıqla öldürülmüşdür [14, s. 98]. Ayağından yaralanan Tofiq, düşmənin təslim olmaq çağırışına məhəl qoymayıb saxladığı sonuncu qumbara ilə özünü öldürmüşdür. Ölümündən sonra göstərdiyi şücaətə görə T.M.Hüseynova «Azərbaycanın Milli Qəhrəmanı» adı verildi [8].

Xocalı şəhəri uğrunda gedən döyüşlərdə göstərdikləri igidlik və şücaətə görə Adil Sahib oğlu Quliyevə və Hikmət Baba oğlu Nəzərliyə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə «Azərbaycanın Milli Qəhrəmanı» adı verilmişdir [14]. Xocalı əhalisinin təhlükəsizliyinin təmin edilməsində, onların əksəriyyətinin ərazidən çıxarılmasında öz həyatlarını qurban vermiş igid döyüşçülərdən Canpolad Rzayevin, Adil Quliyevin, İlqar Musayevin, Tofiq Bədirovun, Cəbrayıl Rəcəbovun, Hafiz Nuriyevin, Fikrət Əzimovun, Mübariz Şaxmurovun, İlham Mehdiyevin, Mikayıl Əliyevin, Elçin Quliyevin, Elçin Şəmiyevin və başqalarının adlarını fəxrlə çəkmək olar [11]. Vətənin azadlığı, ərazi bütövlüyü uğrunda həyatını itirən şəhidlərimiz öz ölümləri ilə ölümsüzlüyə qovuşur və qədirbilən xalqımızın qəlbində əbədilik yaşayırlar.

1992-ci il fevralın 25-də axşam saat $9^{00}$-da Xocalı şəhərinin yaxınlığından keçən BMP-lər manevr xarakterli gediş etdi. Bu zaman Xocalı Rayon İcra Hakimiyyətinə çatdırıldı ki, Ağdamdan 4 tank sizə köməyə gəlir, onlara güllə atmayın [13, s. 14]. Ancaq bu yalan məlumat idi. Bu tanklar Ağdamdan yox, Xankəndi tərəfdən gəldi. Şəhər mühasirəyə alındı. Altı istiqamətdə hücuma keçən erməni silahlıları 2 saat Xocalını bombardman etdi. Mühasirə həlqəsi daraldıqca Xocalıdan hər yana həyəcan dolu «Bizi qırırlar kömək göndərin» gizli çağırışı göndərildi [6, s.29]. Lakin təəssüflər olsun ki, nə həmin gün, nə də sabahsı Xocalıya kömək gəlmədi.

1992-ci il fevralın 25-də gecə saat 10–11 radələrində təpədən-dırnağadək silahlanmış erməni quldurları rus hərbçilərinin köməyi ilə Xocalı şəhərinin içərilərinə yeriməyə başladılar. Qüvvələr nisbətinin düşmən tərəfində olmasına baxmayaraq, Xocalı sakinləri doğma torpaqlarını mərdliklə müdafiə edirdilər. Birləşmiş erməni, rus və muzdlu ordu böyük həcmli texnikanın gücündən istifadə edərək Xocalı şəhərinə daxil oldu. Şəhər erməni vandalları tərəfindən yandırıldı [6, s. 152]. Dinc əhalinin başına olmazın müsibətlər gətirildi. Əslində, bu hücumda erməni vandallarının əsas məqsədi təkcə strateji əhəmiyyətə malik Xocalını almaq deyildi. Bu hücumda vəhşi ermənilər qatil rus hərbçilərinin köməyi ilə həm də nifrət etdikləri Azəri türklərini qırır, ürəklərindəki nifrət alovunu söndürürdülər. Xocalı faciəsi bizim üçün ağır dərd olsa da, bu faciə bir acı həqiqəti üzə çıxardı: Erməni bizə düşməndir. Onlar xalqımızı bütövlükdə məhv etməyə hazırdır və heç zaman onlara inanmaq olmaz.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə heç bir yerdən kömək almayan xocalılara kafir ermənilər tərəfindən amansız divan tutuldu. Şəhər yandırıldı. Sağ qalanların bir hissəsi, əsasən, qadınlar, qocalar və uşaqlar gecənin qaranlığında, güllə, mərmi yağışının dəhşətində ayaqyalın, başıaçıq hara gəldi – dağlara, meşələrə və xüsusi olaraq şəhərin şimal-şərq istiqamətində Ağdama tərəf qaçmağa başladılar. Bu dəhşətli gecədə, qorxu içində qaçan xocalıları qabaqda daha böyük faciələr gözləyirdi. Havanın qarlı-şaxtalı olması səbəbindən ayaqyalın, başıaçıq insanları don vurdu. Yaralılar isə heç bir təbii yardım almadıqlarından məhv oldular. Çox çətinliklə Ağdamın 6 kilometrliyinə çatan xocalılar pusquda dayanan erməni faşistlərinin hücumuna məruz qaldılar [5, s. 23]. Qaraqaya adlanan həmin yerdə quduzlaşmış ermənilər kimi gəldi – 2 yaşlı körpəni də, 80 yaşlı qocanı da, sürünə-sürünə buraya çatan yaralını da gülləboran etdilər. Burada yüzlərlə köməksiz qadın, qoca, uşaq həlak oldu [9, s. 4]. Erməni quldurları yaralılara işgəncə verir, meyidləri eybəcər hala salır, qadın və qızları təhqir edirdilər. Həmin dəhşətli gecədə ağlayan körpə güllələndi, ağsaçlı ana təpikləndi, əliəsalı ağsaqqal odda yandırıldı. Ananın gözləri qarşısında əziz övladının dərisini soydular, atanın gözləri qarşısında qızını təhqir etdilər, diri-diri insanların dişlərini çıxardılar, dırnaqlarını çəkdilər. Əlbəttə, bütün bunları, humanistlikdən dəm vuran, insanpərvərlikdən ağız dolusu danışan qatil, qəddar və nankor ermənilər törətdilər, özü də çörəyini yediyi, suyunu içdiyi insanlara qarşı. Bir gün gələcək həmin naxələf, nankoru bu çörək tutacaq.

Beləliklə, XX yüzilliyin sonlarında erməni faşistləri tərəfindən azərbaycanlılara qarşı Xatın və Sonqmi faşistlərini geridə qoyan Xocalı soyqırımı törədildi. Xocalı müsibəti ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi genosiddir – soyqırımıdır. Vəhşiləşmiş erməni cəlladlarının məqsədi

şəhərin bütün əhalisini məhv etmək idi. Ancaq sırf təsadüflər nəticəsində xeyli Xocalı sakini tarixə şahidlik etmək üçün sağ qaldı.

Ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri genosid – Xocalı soyqırımı nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 83 azyaşlı uşaq, 70 qoca, 76 nəfər yetkinlik yaşına çatmayan oğlan və qız öldürüldü, 1000 nəfərdən artıq dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst oldu. Həmin dəhşətli gecədə 1275 nəfər əsir götürüldü, hansı ki, həmin əsirlərin 150 nəfərinin taleyi bu gün də məlum deyil [6, s.152].

Erməni quldur dəstələrinin xüsusi qəddarlıqla törətdikləri bu hərbi cinayət nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynlərini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Şəhid olanlardan 56 nəfəri xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, başları kəsilmiş, gözləri çıxarılmış, dişləri və dırnaqları çəkilmiş, hamilə qadınların qarnı deşik-deşik edilmişdir [13, s. 42]. Bütün bu qeyri-insani əməllər XX əsrin sonlarında dünyanın gözü qarşısında özlərini «mədəni» və «məzlum» xalq kimi tanıtmağa çalışan vəhşi ermənilər tərəfindən törədilmişdir.

Çox təəssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və etnik təmizləmə siyasəti Xocalı soyqırımı ilə başa çatmadı. Ermənilər xarici havadarlarının köməyi və fitvası ilə Azərbaycan torpaqlarının 20 faizini işğal etdilər, bir milyondan artıq azərbaycanlını öz tarixi dədə-baba yurdlarından didərgin saldılar. Lakin biz bir həqiqəti də bilirik ki, hər bir qaranlıq gecənin sabaha açılan aydın, günəşli bir gündüzü də olur. Biz inanırıq ki, tezliklə bütün Qarabağımız, tarixən bütün itirdiyimiz torpaqlar düşmən tapdağından azad olacaqdır. Qaçqın və köçkünlərimiz öz doğma yurd-yuvalarına qayıdacaqlar. Yalnız sıx birliyimiz bu gözəl günü reallaşdıra bilər.

Xocalıda azərbaycanlılara qarşı törədilmiş bu amansız və kütləvi qırğına, tarixi cinayətə ilk hüquqi, siyasi qiymət ümummilli liderimiz H.Ə.Əliyev tərəfindən verilmişdir. Prezident H.Ə.Əliyev 25 fevral 1997-ci ildə «Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında fərman» imzaladı. Həmin «Fərman»da göstərilirdi: «1992-ci il fevral ayının 26-da Ermənistan silahlı qüvvələri Azərbaycan xalqına qarşı misli görünməmiş Xocalı soyqırımını törətmişlər. Bu kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycan dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı cinayətdir və bəşər tarixində qara ləkə kimi qalacaqdır.



Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədilə qərara alıram:

Hər il fevral ayının 26-sı saat 17[00]-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilsin» [3].

1997-ci il fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin imzaladığı digər Fərman «Xocalının müdafiəsində fərqlənmiş şəxslərin təltif edilməsi haqqında» idi. Həmin «Fərman»la 4 nəfər «Azərbaycanın Milli Qəhrəmanı» adına layiq görülmüş, 15 nəfər «Azərbaycan Bayrağı» ordeni, 56 nəfər isə «İgidliyə görə» medalla təltif edilmişdir.

Bu gün xalqımızın mənəvi gücünün artırılması üçün Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin öyrənilməsi, tədqiqi və dünya ictimaiyyətinə çatdırılması vacibdir. Eyni zamanda, ermənilərin tarixi Azərbaycan torpaqlarını ələ keçirmək üçün azərbaycanlılara qarşı apardığı siyasətin mahiyyətinin açılmasına, tarixi yaddaşların möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir. Bu baxımdan ümummilli liderimiz H.Ə.Əliyevin 25 fevral 2002-ci ildə «Xocalı soyqırımı ilə əlaqədar Azərbaycan xalqına müraciəti»nin öyrənilməsi çox böyük elmi, siyasi, ideoloji əhəmiyyət kəsb edir. Prezident H.Ə.Əliyev həmin «Müraciət»də demişdi: «Əziz həmvətənlər, hörmətli soydaşlar! Bu gün mən xalqımızın tarixində kədərli və faciəli bir səhifə olan Xocalı soyqırımı münasibətilə sizə müraciət edirəm. Bu qəddar və amansız soyqırımı aktı insanlığın tarixinə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi daxil olmuşdur.

Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist – millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir. Bir sıra dövlətlərin hakim dairələri tərəfindən himayə olunan bu mənfur siyasət çar Rusiyası və sovet hakimiyyəti dövründə ardıcıl davam etdirilmiş, SSRİ-nin süqutundan sonra xalqımızın doğma torpaqlarından qovulması, qaçqın və köçkünə çevrilməsi kütləvi qırğınlarla müşayiət olunmuşdur. Təcavüzkar erməni millətçilərinin və sərsəm «Böyük Ermənistan» ideoloqlarının etnik təmizləmə və soyqırımı siyasətinin nəticələrini bütövlükdə iki milyon azərbaycanlı müxtəlif vaxtlarda öz üzərində hiss etmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra erməni separatçılarının Dağlıq Qarabağda başladıqları təcavüzkar siyasət yüzlərlə kənd və qəsəbənin dağılması, on minlərlə günahsız insanın qanının axıdılması, yüz minlərlə insanın öz evindən, elindən didərgin salınması ilə nəticələnmişdir. Lakin Xocalı faciəsi bunların ən dəhşətlisi olmuşdur. Bütün bu qanlı

hadisələrin qarşısının alınmamasında, o cümlədən Xocalı faciəsinin baş verməsində, şəhərin təpədən dırnağa qədər silahlanmış amansız düşmənlə üz-üzə müdafiəsiz qalmasında erməni qəsbkarları ilə bərabər, Azərbaycanın o zamankı rəhbərliyi, habelə hakimiyyət uğrunda hər cür yolverilməz vasitələrlə mübarizə aparan müxalifət qüvvələri də birbaşa məsuliyyət daşıyırlar. Əslində, o zaman respublikaya rəhbərlik edən şəxslər şəhərin müdafiəçilərinə təcili kömək göstərmək, faciə barədə dünya ictimaiyyətinə geniş məlumat vermək, beynəlxalq aləmə həyəcan təbili çalmaq əvəzinə, Xocalı dəhşətlərinin həqiqi miqyasını xalqdan gizlətməyə cəhd etmiş, tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik nümayiş etdirmişlər. Hətta sonralar da Xocalı faciəsinin mahiyyətini açmaq, onun günahkarlarını ifşa etmək, dünya ictimai fikrinə çatdırmaq üçün heç bir iş görülməmiş, əksinə, bu faciə hakimiyyətlə müxalifətin qarşılıqlı ittihamları və siyasi mübarizəsi vasitəsinə çevrilmişdi.

Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu az olan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri və ideoloqları uzağa gedən məqsəd güdürdülər. Məqsəd Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi. Lakin mənfur düşmən öz niyyətlərinə çata bilmədi. Doğrudur, faciə bütün Azərbaycan xalqını sarsıtmış, Xocalı sakinlərinə sağalmaz yaralar, mənəvi zərbələr vurmuşdur. Lakin xocalılar, hətta amansız soyqırım günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktlarm gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir.

Hazırda Azərbaycan dövləti, vətəndaşlarımız, xaricdəki soydaşlarımız tərəfindən Xocalı faciəsi haqqında həqiqətlərin dünyaya çatdırılması, onun əsl soyqırımı aktı kimi tanıdılması istiqamətində mühüm addımlar atılır, kitablar yazılır, jurnalist tədqiqatları aparılır. Ayrı-ayrı ölkələrin parlamentlərində, beynəlxalq təşkilatlarda bu faciə müzakirəyə çıxarılır, dünya ictimaiyyətinin diqqəti bu məsələyə cəlb edilir.

Bu kədərli onuncu ildönümü günündə Xocalı şəhidlərinin əziz xatirəsini bir daha dərin hüznlə yad edir, onlara Allahdan rəhmət diləyir, həlak olanların yaxınlarını, doğmalarını, bütün Azərbaycan xalqını bir daha əmin edirəm ki, haqq-ədalət yerini tapacaq, Xocalı şəhidlərinin və qəhrəmanlarının uğrunda mübarizə apardığı ideallar – azad və müstəqil Azərbaycan Respublikası daim yaşayacaqdır» [4]. Müdrik siyasətçi H.Ə.Əliyevin çox uzaqgörənliklə söylədiyi məzmunca kiçik, mənaca dərin yuxarıdakı çıxışı Xocalı soyqırımı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün dəyərli bir mənbədir.

Hazırda ermənilər işğal altındakı Xocalı ərazisində təbiətə vəhşicəsinə ziyan vururlar. Meşələrdəki qiymətli ağaclar kütləvi surətdə doğranaraq Ermənistana daşınır. Torpaqlarımızda gizli şəkildə narkotik maddələr əkilib-becərilir, terrorçu dəstələr hazırlanır.

Xeyli vaxtdır ki, Qarabağ torpaqlarının düşmən tapdağından azad edilməsi üçün danışıqlar aparılır. Bu danışıqlarda iri dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar iştirak edirlər. Azərbaycan dövləti torpaqlarımızda yenidən müharibə başlamasını, qan tökülməsini istəmir, çalışır ki, sülh danışıqları nəticə versin. Danışıqlarda Azərbaycanın nümayiş etdirdiyi mövqe haqq-ədalət mövqeyidir. Azərbaycan dövləti heç bir ölkəyə qarşı ərazi iddiası irəli sürmür, eyni zamanda öz torpaqlarımızın bir qarışının da düşmən tapdağında qalmasına imkan verməyəcəyik. Lakin ermənilər hər vəchlə sülh danışıqlarını yubatmağa çalışır, BMT-nin çıxartdığı qətnamələri yerinə yetirməkdən yaymırlar. Ermənilərin tutduqları belə qeyri-ciddi mövqeyinin sonu yoxdur. Sülh danışıqları baş tutmayacağı təqdirdə xalqımız bir nəfər kimi ayağa qalxıb torpaqlarımızı mənfur düşməndən azad etməyə hazırdır. İndi düşməni torpaqlarımızdan çıxarmağa qadir olan ordumuz formalaşıb. Ölkəmizin iqtisadi qüdrəti artdıqca ordumuz da güclənir. Dövlət büdcəsindən ordunun ehtiyacları üçün ayrılan vəsaitin həcmi ildən-ilə artır ki, bu da Azərbaycan silahlı qüvvələrinin maddi-texniki təminatının daha da möhkəmlənməsi, kadr hazırlığının daha da yaxşılaşması deməkdir. Nizami Ordumuzun möhkəmlənməsi, beynəlxalq miqyasda Azərbaycanın haqq mövqeyinin dəstəklənməsi, insanlarda düşmənə nifrət hislərinin artması, yekdil əhvali-ruhiyyənin yaranması onu deməyə əsas verir ki, Qarabağ torpağı tezliklə düşmən əsarətindən azad ediləcək. Ordumuzun, xalqımızın düşmən üzərində zəfər yürüşünə çıxacağı, üçrəngli bayrağımızı doğma Qarabağ torpağına sancacağı günə az qalıb. O gün mütləq gələcək!

# V FƏSİL

## AZƏRBAYCANIN ƏSGƏRAN RAYONUNUN TARİXİ

### *(1930–1991)*

Azərbaycanın şəhər və rayonlarının tarixinin tədqiqi son dövrlər ciddi xarakter almışdır. Bu, hər şeydən öncə ümummilli liderimiz H.Ə.Əliyevin tövsiyələri, göstəriş və qərarları ilə bağlıdır. 1974-cü ildə AMEA-nın aparıcı alimləri ilə görüşü zamanı H.Ə.Əliyev çox uzaqgörənliklə söyləmişdir ki, «Azərbaycanın qədim şəhərlərinin və rayonlarının tarixi öyrənilməlidir... xalq, gərək daim öz kökünü xatırlasın... tariximizin hər bir səhifəsi bizim üçün əzizdir... Tarixçilərimiz, tariximizi olduğu kimi qəbul etməli, dərk etməli, qiymətləndirməli və obyektiv tədqiq etməlidir». Eyni zamanda Azərbaycanın tarixi torpaqlarının Ermənistan tərəfindən işğalı, tariximizin erməni millətçiləri tərəfindən saxtalaşdırma obyektinə çevrilməsi Dağlıq Qarabağın rayon və şəhərlərinin tarixini tədqiq etməyi zəruriləşdirdi. Bu baxımdan Əsgəran rayonunun tarixinin tədqiqi böyük əhəmiyyət kəsb edir.

Əsgəran Azərbaycanın inkişaf etmiş rayonlarından biri olmuşdur. Rayonun yaranma tarixi 1930-cu ilə təsadüf edir. Belə ki, Əsgəran rayonu 1930–1978-ci illərdə Xankəndi rayonu (ermənilərin Stepanakert adlandırdıqları rayon) adlandırılmışdır. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 15 may 1978-ci il qanunu ilə Xankəndi rayonunun adı Əsgəran rayonu ilə əvəzləşdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 26 noyabr 1991-ci il Fərmanına görə, Əsgəran rayonu ləğv edilmiş və ərazisi Xocalı rayonunun tərkibinə verilmişdir [27].

Əsgəran rayonunun mərkəzi Əsgəran qəsəbəsi olmuşdu. Qəsəbə Xankəndindən 17 km şimal-şərqdə, Yevlax–Laçın şose yolu kənarında, Qarqar çayının sol sahilində, Qarabağ silsiləsinin şimal-şərq ətəyində yerləşir. Yeri gəlmişkən, qeyd edək ki, Əsgəran qəsəbəsində şərab-spirt və pivə zavodları, orta məktəb, kitabxana, kinoteatr, uşaq bağçası, dispanser, tibb və baytar məntəqəsi, rabitə şöbəsi, XVIII əsrə aid qala var. 1980-ci il məlumata görə Əsgəran qəsəbəsində 783 nəfər əhali yaşayırdı [15, s. 233].

Əsgəran toponimi burada yerləşən Əsgəran qalasının adından götürülmüşdür. Tədqiqatlara görə, Əsgəran toponimi qədimdən mövcud olmuşdur.



Yerin adı qədim mənbələrdən məlum olan «Əski» (köhnə, qədim) və «Aran» komponentlərindən ibarət olub, «Köhnə Aran», «Qədim Aran» deməkdir. «Alban tarixi» əsərində bu yerin adı «Mets Aran» (Böyük Aran) kimi çəkilmişdir [19, s. 188].

1980-ci il (yanvar) məlumatına görə, Əsgəran rayonunun sahəsi 920 kvadrat kilometr, əhalisi 19,7 min nəfər olmuşdur. Həmin vaxt rayonda 1 fəhlə qəsəbəsi, 53 kənd var idi. Rayonun mərkəzi Əsgəran qəsəbəsi olmuşdur. Rayonun səthi, əsasən, dağlıqdır. Ərazinin qərb sərhədi boyu Qarabağ silsiləsi uzanır. Mil düzünə qədər alçalan şimal yamacları dərin çay dərələri ilə parçalanmış və erozion dağ qolları əmələ gəlmişdir. Əsgəran rayonunun ən yüksək zirvələri Qızqala (2843 m) və Qırxqızdır (2827 m). Ərazidə Yura, Tabaşir, dağarası çökəkliklərdə və dağətəyi düzənliklərdə Antropogen çöküntüləri yayılmışdır [15, s. 233].

Qarabağ ərazisi faydalı qazıntılarla olduqca zəngindir. Bölgənin Əsgəran rayonu ərazisində tikinti materialları, gil, qum, gillicə, meşə zolaqları və şirin su ehtiyatları var. Çox təəssüflər olsun ki, Azərbaycanın digər əraziləri kimi, Əsgəran rayonu da Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş və bütövlükdə ekoloji terrora məruz qalmışdır. Ərazidəki bütün tarixi abidələr erməni vandalları tərəfindən dağıdılmış və ya ermənilərin silah anbarına çevrilmişdir. Rayon ərazisində bitən qiymətli və nadir ağaclar qırılaraq Ermənistana daşınmış, çay kənarında bitən təbii meşələr isə tamamilə məhv edilmişdir. Rayonun yol kənarında mühafizə məqsədilə əkilmiş ağaclar da doğranmışdır.

Azərbaycanın XVIII əsrə aid tarixi abidələrindən biri, Əsgəran qalası da erməni silahlı birləşmələri tərəfindən dağıdılmışdır. Yeri gəlmişkən, qeyd edək ki, Əsgəran qalası Əsgəran qəsəbəsində Qarqar çayının sağ və sol sahillərində yerləşirdi. Qala Qarabağ xanı Pənahəli xan tərəfindən tikilmişdir. Çay daşından tikilən qala 2 istehkamdan ibarət idi [25].

Qarqar çayının sağ sahilindəki qala bürcü ikiqat daş divarlardan, sol sahildəki qala isə dördkünc bürclü olmuşdur. Divarlarının qalınlığı 2–3 metr olan Əsgəran qalası 1804–1813-cü illər Rusiya–İran müharibəsi zamanı Rusiya qoşunlarının düşərgəsi olmuşdur. Eyni zamanda Əsgəran qalası Rusiya ilə İran arasında sülh danışıqlarına «şahidlik» etmişdir. Azərbaycan tarixinə «şahidlik» edən Əsgəran qalası Ermənistanın ağır artilleriyasının tapdağı altında dağıdılmışdır [26, s.16].

Azərbaycan Respublikasının Əsgəran rayonunun relyefi kimi, iqlim şəraiti də çox müxtəlifdir. Rayonun yerləşdiyi coğrafi enlik, günəş radiasiyası, mürəkkəb relyef quruluşu, müxtəlif mənşəli hava kütlələri iqlimin

yaranmasında böyük rol oynayır. Rayonda havanın temperaturu çox yerdə qışı quraq keçən mülayim istidir. Yüksək dağlıqda isə soyuqdur. Havanın mütləq minimum temperaturu düzənliklərdən dağlara doğru artır. Rayonda havanın orta temperaturu -10°-dən +10°C-dək, iyulda +22-24°C arasında dəyişir. Rayonda illik yağıntı 500-700 mm təşkil edir [2, i.162, v.22].

Bütün bunlar isə ərazidə meşələrin zənginliyinə şərait yaratmışdır. Təsadüfi deyildir ki, Əsgəran rayonunun ərazisinin təxminən 40%-i palıd və fıstıq meşələri ilə əhatə olunmuşdur və bu gün 390 kvadrat kilometrlik qiymətli ağaclar qəddarcasına doğranaraq mebel düzəltmək və tikinti materialı kimi istifadə edilmək üçün Ermənistana daşınır [1, i. 161, v.1].

Əsgəran rayonunun çayları Kür və qismən Araz hövzələrinə aiddir. Rayonun əsas çayı Qarqardır. Yeri gəlmişkən, qeyd edək ki, Qarqar çayı öz başlanğıcını Qarabağ sıra dağlarından alır. Uzunluğu 111 km, sahəsi 1,5 min kvadrat kilometr, mənbəyinin mütləq hündürlüyü 2080 metrdir. Çayın qidalanma mənbələri 22% qar suları, 47% yağış, 31% isə yeraltı sular və yağıntı suları ilə ödənilir. Rayonun alçaq dağlıq və dağətəyi sahələrində çəmənlər və ksorolit kolluqlar var. Rayonun təbii şəraitinin müxtəlifliyi heyvanlar aləminin də zənginliyinə səbəb olmuşdur. Burada çoxlu nadir, nəsli kəsilməkdə olan heyvanlar yaşayırdı. Rayonun meşələrində çöl donuzu, kaftar, ayı, canavar, dovşan, çaqqal, vaşaq, meşə pişiyi, süleysin və s. heyvanlar; kəklik, göyərçin, bildirçin, sərçə və digər quşlar; müxtəlif növ sürünənlər, gəmiricilər yaşayırdı. Əsgəran rayonu ərazisində yaşayan nadir, nəsli kəsilməkdə olan heyvanlar Azərbaycan təbiətinin ən qiymətli nemətlərindən biri idi [8]. Azərbaycan dövləti rayon ərazisində yaşayan və nəsli kəsilməkdə olan (ayı, çöl donuzu, dovşan nadir quşlar və s.) heyvanları «Qırmızı kitab»a daxil edərək qoruyurdu. Təəssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı apardığı müharibə nəticəsində rayon ərazisində bitki örtüyü məhv edilmiş, atmosfer, torpaq, sular çirklənmiş və təbii ki, bütün bunların nəticəsində adı «Qırmızı kitab»a düşən heyvanların da nəsli kəsilmişdir. Əsgəran rayonunda qəhvəyi dağ-meşə, dağ-çəmən və çimli dağ-çəmən torpaqları yayılmışdır. Torpaq təbiətin güzgüsü, ən qiymətli sərvətdir. O, insanlardan həmişə qayğı gözləyir. Onu qorumaq, düzgün becərmək lazımdır. Böyük şairimiz N.Gəncəvi çox gözəl demişdir: «Torpağa mərhəmət gərəkdir inan, lütf etsən gül verər, zülm etsən tikan». Təəssüflər olsun ki, bu gün Azərbaycan torpaqlarının 20%-i Ermənistan tərəfindən işğal edilmiş, torpaq örtüyünün çoxu erroziyaya məruz qalmış, müxtəlif növ tullantılarla çirklənmiş, terrorçuların cəmləşdiyi erməni hərb maşınının sınaq meydanına çevrilmişdir [17].



1979-cu il məlumatına görə, Əsgəran rayonunda 5069 təsərrüfatı birləşdirən 1 qəsəbə, 53 kənd var idi. Əsas yaşayış məskənləri Əsgəran qəsəbəsi, Ballıca, Xanabad, Ağbulaq, Qarabulaq, Çanaxçı, Kosalar, Daşbulaq və digər kəndlərdir. Əhalinin 96%-i kənddə yaşayırdı [14]. Aparılan tədqiqatlara əsasən müəyyən edilmişdir ki, XIX yüzilliyin əvvəllərində bölgədə bir nəfər də olsun erməni ailəsi yaşamadığı halda, köçürülmə hesabına XX yüzilliyin 70-ci illərində artıq ermənilər faiz etibarilə 70%-i keçmişdilər. Rayonda əhalinin orta sıxlığı 1 kvadrat kilometrə 21 nəfər düşürdü [8]. Tədqiqatlardan məlum olur ki, Əsgəran rayonu ərazisində əhali digər rayonlarla müqayisədə daha seyrək yerləşmişdi. Belə ki, bəhs olunan dövrdə bir kvadrat kilometrə Ağdamda 93 nəfər, Füzulidə 58 nəfər, Bərdədə 85 nəfər, Zəngilanda 40 nəfər, Ağcabədidə 37 nəfər, DQMV-də 34 nəfər əhali düşmüşdü [9]. Bütün bunlar isə bütövlükdə DQMV-də, o cümlədən Əsgəran rayonunda əhalinin güzəranının yaxşılaşdırılmasına əhəmiyyətli təsir göstərmişdir.

Əsgəran Azərbaycanın dinamik inkişaf edən sənayeyə, çoxcəhətli kənd təsərrüfatına, geniş sosial struktura malik yüksək inkişaf etmiş rayonlardan biridir. Azərbaycan hökuməti rayonda sosial-iqtisadi inkişaf üçün əsaslı vəsait qoyuluşunu ilbəil artırmışdır. Təkcə bir faktı qeyd edək ki, 1970-1980-cı illər ərzində rayonda adambaşına düşən əsaslı vəsaitin həcmi təxminən 4 dəfə artmışdır. Əsgəran rayonunun sənayesi, əsasən, kənd təsərrüfatı məhsullarını emal edir. Rayonda şərab, spirt, pivə, tikinti materialları, toxuculuq, ət-süd sənayesi, məişət xidməti kombinatı müvəffəqiyyətlə inkişaf etmişdi. Təsadüfi deyildir ki, 1970-1986-cı illərdə Əsgəran sənaye istehsalının inkişaf sürətinə görə ümumrespublika səviyyəsini təxminən 0,25 dəfə ötüb keçmişdir. Rayonda adambaşına 1,4 min manatdan çox sənaye məhsulu istehsal olunmuşdur ki, bu da Bakı və Sumqayıt istisna olmaqla respublikamızın bütün iqtisadi regionlarının göstəricilərindən yüksəkdir. Yeri gəlmişkən, qeyd edək ki, DQMV-i ipək istehsalına görə respublikamızda ikinci, quru süd istehsalına görə isə birinci mərkəz olmuşdur.

DQMV-i Azərbaycanın inkişaf etmiş kənd təsərrüfatı potensialına malik regionu olmaqla, ümumrespublika kənd təsərrüfatı məhsullarının 5%-ni istehsal edirdi. Azərbaycanın Əsgəran rayonunda aqrosənaye kompleksinin maddi-texniki bazası müntəzəm olaraq təzələnir və möhkəmləndirilirdi. Rayonda əməyin fond təchizatının səviyyəsi orta respublika göstəricilərindən 1,6 dəfə yüksəkdə dayanmışdı. Rayonda kənd təsərrüfatının əsas aparıcı sahələri – heyvandarlıq, üzümçülük və taxılçılıq əsas yer tuturdu. Burada kənd təsərrüfatına yararlı torpaqlar 46,6 hektar təşkil edirdi ki, bunun

19 min hektarı şum yeri, 3,2 min hektarı çoxillik bitkilər, 1,4 min hektarı dincə qoyulmuş torpaqlar, 23 min hektarı biçənək və otlaqlar idi. Torpaqların 3,7 min hektarı suvarılırdı. Əsgəran rayonunda, 17 min hektar əkin sahəsinin 60%-də dənli və dənli-paxlalı bitkilər (əsasən, buğda, arpa), 4%-ində kartof və tərəvəz-bostan bitkiləri, 36%-ində isə yem bitkiləri əkilirdi. Əsgəran rayonunda üzümlüklərin sahəsi 1965-ci ildəki 533 hektardan, 1978-ci ildə 2,3 min hektara çatdırılmışdır [15].

Azərbaycan dövləti Əsgəran rayonunda kənd təsərrüfatının inkişafına diqqəti artırmışdır. Belə ki, kənd təsərrüfatında texniki təchizat səviyyəsi yaxşılaşmış, təsərrüfatların mexanikləşməsi sürətlənmişdi. Suvarma şəbəkəsi genişlənmiş, aqrar islahatlar həyata keçirilmiş, zərərvericilərə qarşı mübarizə artırılmış, yeni növ toxum növləri verilmişdir. Nəticədə, 1970–1980-ci illərdə rayonda kənd təsərrüfatı məhsulu istehsalı 2 dəfə artmışdı. Əsgəran rayonunun təsərrüfatlarından 1978-ci ildə 17,8 min ton taxıl, 6,8 min ton üzüm yığılmış, meyvə yetişdirilmişdir. Rayonda iri heyvandarlıq kompleksləri tikilmiş, təsərrüfatlararası heyvandarlıq müəssisələri yaradılmış, yem bazası genişləndirilmişdir. 1950-ci illə müqayisədə 1970-ci illərdə heyvandarlıq təsərrüfatı 2,5 dəfə artmışdır. 1978-ci ildə rayonun təsərrüfatlarında 114,9 min baş qaramal, 4,1 min baş inək və camış, 26,8 min baş qoyun, 18,3 min donuz, 88 min quş, 3,4 min arı ailəsi vardı [10]. Aparılan araşdırmalardan məlum olur ki, ümumilikdə DQMV-də, eləcə də Əsgəran rayonunda kənd təsərrüfatı ilə məşğul olan əhalinin iqtisadi faydalılıq səviyyəsi bütövlükdə ümumrespublika səviyyəsini üstələmişdir. Təkcə 1970-ci il göstəricilərini nəzərdən keçirərkən, məlum olur ki, Əsgəran rayonunda kənd təsərrüfatı ilə məşğul olan kəndlinin aylıq əmək haqqı 161 manat idisə, bu göstərici Muğan–Salyan zonasında 136 manata, Lənkəran–Astara zonasında 77 manata, Gəncə–Qazax zonasında 123 manata, Naxçıvan MR-da 129 manata, Şirvan zonasında 149 manata, ümumrespublika üzrə 143 manata çatırdı [11]. Bəhs etdiyimiz dövrdə hər bir adambaşına günə düşən ümumi məhsul respublikamızın kolxozlarında 4,7 manat təşkil etmişdirsə, bu, Əsgəran rayonunda 5,9 manat, Naxçıvan MR-da 3,5 manat, Lənkəran–Astarada 1,9 manata çatmışdır [20].

Müharibədən sonra Əsgəran rayonunda təhsil sürətlə inkişaf etdirildi. Yeddiillik, səkkizillik və orta ibtidai təhsilə keçid baş verdi. Ali təhsil şəbəkəsi genişləndirildi. Yeni təhsil ocaqları yaradıldı. Xüsusi olaraq XX yüzilliyin 70–80-ci illərində Azərbaycan üçün SSRİ-nin ali məktəblərində ən zəruri ixtisas sahələri üzrə on minlərlə kadrlar hazırlandı. Təkcə 1970–1982-ci illərdə ümummilli liderimiz H.Əliyevin böyük qayğısı sayəsində



SSRİ-nin ən mühüm ali məktəblərində Azərbaycan üçün 17 mindən çox yüksəkixtisaslı mütəxəssis hazırlanmışdı.

Keçən əsrin 60–70-ci illərində Azərbaycan dövlətinin dərin qayğısı nəticəsində Əsgəran rayonunda mədəni quruculuq sahəsində böyük nailiyyətlər əldə edildi. Artıq 80-ci illərin əvvəllərində rayonda 15 məktəbəqədər uşaq müəssisəsi, 1 ibtidai, 17 səkkizillik və 14 orta məktəb var idi ki, bu məktəblərdə 4108 şagird təhsil alırdı. Azərbaycanın digər regionlarından fərqli olaraq, Əsgəran rayonunun bütün məktəblərində birnövbəli təhsil sistemi tətbiq olunurdu. Araşdırmalardan belə məlum olur ki, rayonun məktəbəqədər uşaq müəssisələri ilə təminatı təxminən 36% təşkil edirdi ki, bu da bütövlükdə Azərbaycan üzrə olduğundan təxminən 2 dəfə çoxdur. Eyni zamanda 1970–1985-ci illərdə rayonda uşaqların məktəbəqədər müəssisələrə cəlb olunmasının artım sürəti ümumrespublika göstəricilərini 2 dəfədən artıq keçmişdir [22,s.193].

Tədqiqatlardan aşkar edilir ki, Dağlıq Qarabağda təhsil idarələrinə rəhbərlik edən erməni «hakim» dairələri «Azərbaycan dilində təhsilin gələcəyinin olmayacağı» ideyasını vurğulayaraq dilimizi, ədəbiyyatımızı, tariximizi sıxışdırıb aradan çıxarırdılar. «SSRİ tarixi» adı altında Rusiyanın tarixi və cəfəng, yalançı, mövcud olmayan «Ermənistan tarixi» tədris olunur, qədim tarixə malik «Azərbaycan tarixi» isə müstəqil fənn kimi tədris edilmirdi. Eyni zamanda azərbaycanlılar yaşayan kəndlərdə tədris müəssisələri, dərs ləvazimatları, ixtisaslı kadrlar, dərsliklər çatışmırdı. Mövcud məktəblər isə yarıtmaz vəziyyətdə olmaqla təmirə ehtiyacı var idi.

XX yüzilliyin 60–80-ci illərində Əsgəran rayonunda mədəni-maarif müəssisələrinin sayı da kifayət qədər artmışdı. Rayonda 12 mədəniyyət evi, 23 klub, 42 kitabxana, 34 kinoqurğu var idi. Bəhs olunan illərdə rayonda kütləvi kitabxanaların sayı 1,5 dəfə, kitab fondu 2 dəfə, klub müəssisələri 1,7 dəfə, kinoqurğuların sayı 3 dəfə, qəzetlərin birdəfəlik tirajı 2,3 dəfə artmışdı [22].

Faktlara, materiallara əsaslanaraq deyə bilərik ki, Əsgəran rayonunda mədəni-maarif müəssisələrinin inkişafı ümumrespublika səviyyəsini üstələmişdi. Belə ki, Əsgəran rayonunda əhalinin hər 10 min nəfərinə 13 kitabxana, 15 klub, 11 kinoqurğu düşdüyü halda, ümumrespublika üzrə bu göstərici kitabxanalar üzrə 6, klub üzrə 5, kinoqurğusu üzrə 3-ə bərabər idi [23, s.94]. Həmçinin Əsgəran rayonunun 300–500 nəfərlik əhalisinin yaşadığı bütün yaşayış məntəqələrinin 95%-dən çoxu klub müəssisələri ilə təmin olunmuşdu. Ümumrespublika üzrə isə klub müəssisələri ilə təmin edilməmiş belə yaşayış məntəqələri 40%-ə çatırdı. Təəssüflər olsun ki,

Əsgəran rayonunun azərbaycanlılar yaşayan kəndlərindən heç birində klub müəssisəsi yox idi [22, s.265].

Azərbaycan dövlətinin dərin qayğısı nəticəsində Əsgəran rayonunda əhalinin sağlamlığının qorunması işində müsbət dəyişikliklər baş vermişdi. 1960–1980-ci illərdə rayonda xəstəxanaların, ambulatoriyaların, sanitar epidemioloji stansiyaların sayı artmışdı. Bu dövrdə rayonda xəstəxanaların sayı 2-dən 5-ə, çarpayıların sayı 40-dan 90-a çatdı. Aparılan hesablamalara görə, Əsgəran rayonunda əhalinin hər 10 min nəfərinə düşən çarpayıların sayı ümumrespublika səviyyəsini 5 çarpayı üstələmişdi.1985-ci ildə Əsgəran rayonunda 30 feldşer-mama məntəqəsi müəssisəsi, epidemoloji stansiya, 350 həkim və tibb işçisi fəaliyyət göstərirdi [12].

Bəhs olunan dövr ərzində Əsgəran rayonunda bütün ixtisasdan olan həkimlərin və orta tibb işçilərinin sayı artımına görə ümumrespublika səviyyəsini 2 dəfə qabaqlamışdır. Rayonda sanatoriya, istirahət müəssisəsi, idman məktəbləri də fəaliyyət göstərirdi [13].

Bu illərdə dövlətimizin maliyyə mənbələri hesabına Əsgəran rayonunda mənzil tikintisi xeyli genişlənmişdi. Təsadüfi deyildir ki, rayonun bir sakininin mənzillə təminatı 15 kvadrat metrə çatdığı halda, ümumrespublika üzrə bu göstərici 10,9 kvadrat metr idi [22, s.98]. Yaşayış məntəqələrində abadlıq işlərində də böyük irəliləyişlər diqqəti cəlb edirdi. İqtisadiyyatı inkişaf etmiş Əsgəran rayonunun yaşayış məntəqələrinin siması çox dəyişmişdi. Rayonun kəndlərində ağ daşdan, aynabəndli, müasir evlər inşa olunmuşdu. Lakin rayonun azərbaycanlılar yaşayan kəndlərinə qayğı göstərilmirdi.

Əsgəran rayonunun yaşayış məntəqələrinin enerji, su və qaz yanacağı ilə təchizi yaxşılaşmışdı. Belə ki, 1970–1985-ci illərdə rayonda yeni sərbəst elektrik xətti çəkilmiş, əhalinin su ilə təchizini yaxşılaşdırmaq üçün əsaslı işlər görülmüş, qazlaşdırma işi başa çatdırılmışdır. 1987-ci ildə rayonun təxminən 45,5%-i su kəməri ilə, 12%-i kanalizasiya ilə, 100%-i qazla təmin olunmuşdu. Halbuki ümumrespublika üzrə şəhərlərdə su kəməri ilə təchizat 30,5%, kanalizasiya ilə təminat 6,4%, qazla təminat 96,2% (ümumilikdə şəhər və kəndlər birlikdə 76%) idi.

Əsgəran rayonunda televiziya verilişlərinin qəbulu və telefonlaşdırma sahəsində də mühüm işlər görülmüşdü. Artıq 80-ci illərin II yarısında rayon əhalisinin 95%-nin Respublika televiziyasının verilişlərinə baxmaq imkanı vardı. Şəhər və kəndlərin telefon şəbəkəsi xeyli inkişaf etmişdi. 1971–1987-ci illərdə rayonda rabitə vasitələrinə vəsait qoyuluşunun inkişaf sürəti respublika üzrə olduğundan 2 dəfə çox olmuşdur. 1987-ci ildə



adambaşına düşən rabitə məhsulunun həcmi ümumrespublika üzrə 21 manat, Əsgəran rayonunda isə 30 manat təşkil etmişdi. Həmçinin rayonda ailələrin mənzil telefonları ilə təminatı 43%, Azərbaycan üzrə 31% olmuşdur. Bütün bunlarla yanaşı, şəhərlərarası telefon rabitəsinin inkişafı nəticəsində adambaşına düşən şəhərlərarası telefon damşıqlarının sayına görə Əsgəran rayonu ümumrespublika səviyyəsini 2 dəfə üstələmişdi [22, s.111]. Lakin hələ də Əsgəran rayonunda yaşayan yüzlərlə azərbaycanlı ailə telefon növbəsinə dayanmışdı və təəssüflər olsun ki, heç bir müsbət nəticə olmadı.

1960–1980-ci illərdə Əsgəran rayonunda mühüm təsərrüfat əhəmiyyəti olan kommunikasiya vasitələrinin inkişafı Azərbaycan rəhbərliyinin daim diqqət mərkəzində olmuşdur. Dövlət başçısı H.Ə.Əliyevin təşəbbüsü ilə Əsgəran rayonundan keçmək şərtilə Ağdamdan Xankəndinə dəmir yolu xətti çəkilmiş və 1979-cu ildə istifadəyə verilmişdir. Yerli avtomobil yollarma, körpülərə lazımi diqqət yetirilirdi. Artıq 80-ci illərin sonlarında Əsgəran rayonu inkişaf etmiş nəqliyyat təsərrüfatına malik bir rayona çevrilmişdi. Araşdırmalardan məlum olur ki, Əsgəran rayonu nəqliyyat təsərrüfatı sahəsində bütün göstəricilərinə görə ümumrespublika səviyyəsini həmişə üstələmişdir. Belə ki, 1971–1985-ci illərdə Əsgəran rayonunda yüklərin daşınması həcmi təxminən 4 dəfə, ümumrespublika üzrə isə 2,7 dəfə artmışdı. Avtomobil nəqliyyatı müəssisələrinin maddi texniki bazası sürətlə möhkəmləndirilmişdi. Rayonda nəqliyyat parkları 2,4 dəfə (respublika üzrə 1,7 dəfə), marşrutların uzunluğu 8,2% (respublika üzrə 4,8%) artmışdı [23,24].

Bəhs olunan illərdə Əsgəran rayonunda əhalinin rifahı xeyli yaxşılaşmışdı. 1986-cı ildə rayonda əhalinin adambaşına düşən pul gəlirləri təxminən 1114 manat olmuşdur ki, bu da bütövlükdə Azərbaycan üzrə olduğundan 98 manat, Naxçıvan MR-dan isə 170 manat çoxdur. Bununla yanaşı, rayonda əhalinin həyat səviyyəsinin yüksəldiyini, onların bütövlükdə artan tələbatının tam ödənilməsində də görmək olar. Rayonda ticarət dövriyyəsinin həcmi, pərakəndə ticarət müəssisələrinin və məişət xidməti emalatxanalarının miqdarı sürətlə inkişaf etmişdi. Rayonda 1987-ci ildə pərakəndə mal dövriyyəsinin həcmi 1960-cı illə müqayisədə 5 dəfə (respublika üzrə 4,6 dəfə), mal dövriyyəsinin inkişaf sürəti 3,7 dəfə (respublika üzrə 2,7 dəfə), mağazalarda hər 10 min nəfərə düşən ticarət sahəsi 2,6 dəfə (respublika üzrə 1,9 dəfə) artmışdır. Bəhs olunan dövrdə məişət xidmətinin həcmi 17 dəfə artmışdır ki, bu da ümumrespublika səviyyəsindən 2 dəfə çox demək idi [22].

Bütün bu və ya digər real faktlar erməni millətçilərinin ortaya atdıqları sosial-iqtisadi gerilik konsepsiyasının tamamilə bəhanə olduğunu göstərir. Çox təəssüflər olsun ki, Azərbaycanın digər regionları kimi, Əsgəran rayonu da Ermənistan silahlı birləşmələri tərəfindən ələ keçirildi. Bütövlükdə torpaqlarımızın 20%-i işğal edildi. Erməni vandalları torpağı viran qoymaq «taktikası»ndan istifadə edərək, işğal olunmuş ərazilərdəki evlər, müəssisələr, kommunikasiya vasitələri, təbii sərvətlər talan edildi, dağıdıldı, yandırıldı. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 5 min nəfər əlilə çevrilmiş, 4861 nəfər əsir və girov götürülmüş, 1 milyondan artıq həmvətənimiz qaçqın və köçkünə çevrilmişdi [16,18]. Lakin biz inanırıq ki, tezliklə haqq-ədalət zəfər çalacaq, əsarət altındakı bütün torpaqlarımız azad ediləcək, qaçqın və köçkünlərimiz öz doğma yurd-yuvalarına qayıdacaqlar. Ümummilli liderimiz H.Ə.Əliyev çıxışlarından birində qeyd etmişdir: «Xalqımız daim bilməlidir ki, bizim tarixi torpaqlarımız hansılar olubdur. Hansılar nə vaxt əlimizdən gedibdir, nəyə görə əlimizdən gedibdir və şübhəsiz ki, bunlar qayıtmalıdır. Biz də qaytara bilməsək, gələcək nəsillər bunları qaytaracaqlar!!!» [16,17].



# VI FƏSİL

## AZƏRBAYCANIN XOCAVƏND RAYONUNUN İQTİSADİ-MƏDƏNİ İNKİŞAFI və TƏBİİ-COĞRAFİ MÖVQEYİNİN QISA TARİXİ İCMALI

## *(1930–1992)*

Ermənistan silahlı birləşmələri tərəfindən Azərbaycanın tarixi torpaqlarının 20 faizinin işğal edildiyi, həmvətənlərimizin 20 mindən çoxunun həlak olduğu, 100 min nəfərin yaralandığı, 5 minə qədər azərbaycanlının əsir və girova çevrildiyi, 1 milyondan artıq insanın öz doğma el-obasından didərgin düşdüyü [5. V. 10.], bütün bunlarla yanaşı, tariximizin erməni millətləri tərəfindən saxtalaşdırma obyektinə çevrildiyi bir şəraitdə, faktlara, materiallara əsaslanmaqla, Dağlıq Qarabağ tarixini obyektiv tədqiq etmək zərurətini yaratdı. Bu baxımdan, Azərbaycanın qədim yaşayış məskəni olan Xocavənd rayonunun tarixinin tədqiqi çox böyük əhəmiyyət kəsb edir.

Xocavənd Azərbaycanın Yuxarı Qarabağ bölgəsində inzibati rayondur. Araşdırmalardan məlum olur ki, Xocavəndin ilk adı Küznüt, əhalisi isə azərbaycanlılar olmuşdur. Küznüt toponimi qədim türk dillərindəki «Küz» – «payız otlağı» və «nüt» şəkilçisindən ibarətdir. Sonralar, bu toponim «Qaranluq» adı ilə əvəzləşdirilmişdir. Obyektiv tədqiqatlar nəticəsində, məlum olur ki, 1828-ci ilədək bu kənddə bir nəfər də olsun erməni yaşamamışdır. 1828-ci ildə Ermənistanın qərbindən – Baqrevanddan 40 ailə Qaranluq kəndinə köçürülmüş, bundan sonra kəndin adını dəyişib Karaqlux – «Daş təpə» adlandırmışlar. Məkrli niyyət sahibləri qədim Oğuz–Türk mənşəli yer adlarını tamamilə yaddaşlardan silmək üçün tarixi toponimlərimizi öz mənafelərinə uyğun qısa bir müddətdə dəfələrlə dəyişmişlər. 1860–1880-ci illərdə Xocavəndin adı Xonaşen, XIX yüzilliyin sonlarında Türkiyədən köçüb gəlmiş ermənilər həmin ərazidə yerləşdikdən sonra Nijni Qaranluq, ardıcıl olaraq Cümə bazarı, bir müddət yenidən Xonaşen və ən nəhayət, 1940-cı ildən A.F.Myasnikovun təxəllüsü ilə Martuni adlandırılmışdır. 1991-ci il 26 noyabr tarixli prezident Fərmanı ilə Xocavəndin tarixi adı özünə qaytarılmışdır [3, s. 33]. Eyni zamanda həmin fərmanla Hadrud rayonunun ərazisi də, Xocavənd rayonuna daxil edilmişdir.

Xocavənd sözünün mənası «Xocalı nəsli» deməkdir və ərazidən keçən Xocalı çayının adı ilə adlandırılmışdır. Xatırladaq ki, bu çay, həm də Xocalı rayonu ərazisindən keçir [4, s. 242]. Xocavənd rayonu Azərbaycan SSR tərkibində inzibati rayon kimi 1930-cu ildə təşkil edilmişdir. Rayon Kiçik Qafqazda, Qarabağ silsiləsinin cənub şərqində, Bakı şəhərindən 334 km aralıda, Ağdam–Füzuli avtomobil yolunun kənarında yerləşir. 2009-cu il məlumatına görə, Xocavənd rayonunun sahəsi 1458 $km^2$, əhalisi 41,5 min nəfər, əhalinin sıxlığı 1 $km^2$-ə 28 nəfər idi. Rayonun relyefi, əsasən, dağlıq və düzənlikdir (Mil düzünün dağətəyi hissəsi). Hündürlüyü təqribən 500 metrdən 2725 metrə (Böyük Kirs dağı) qədərdir. Rayonun bir şəhəri (Xocavənd şəhəri), 2 şəhərtipli qəsəbəsi (Hadrud, Qırmızı bazar), 38 kəndi var [8, s. 860]. Səthi Yura və Tabaşirin Vulkanogen çökmə, Oliqosen və Antropogen çökmə süxurlarından təşkil olunmuşdur.

Yeri gəlmişkən, bir acı həqiqəti diqqətinizə çatdıraq ki, vaxtilə Xocavənd ərazisində bir nəfər də olsun erməni ailəsi yaşamadığı halda, XIX yüzillik ərzində ermənilərin məqsədli şəkildə bölgəyə köçürülməsi, azərbaycanlıların süni surətdə sıxışdırılması ilə ermənilərin sayı sürətlə artmış, azərbaycanlıların sayı isə azalmışdır. Artıq XX əsrin 70-ci illərində Xocavənd rayonunda ermənilər əhalinin təxminən 80%-ni, azərbaycanlılar isə 20%-ni təşkil edirdi. Bu gün Xocavənd rayonu ərazisində faktiki olaraq, azərbaycanlı əhali qalmayıb. Əsrlər boyu azərbaycanlılar yaşayan onlarla kənd «yox» olub.

Azərbaycanın qədim yaşayış məskənlərindən sayılan Xocavənd ərazisi təbii sərvətlərlə – tikinti materialları və faydalı qazıntılarla, meşə zolaqları və şirin su ehtiyatları ilə zəngindir. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində diametri 600 sm, hündürlüyü 25 m olan 1 ədəd 1000 və 1 ədəd 2000 il yaşlı Şərq çinarları qədim təbiət abidəsi kimi qorunurdu. Rayonun Qarakənd kəndində adı «Qırmızı kitab»a düşən, üçüncü dövrün relikt növü olan orta diametri 24 sm, hündürlüyü 12 metr, yaşı 100 illik azat ağacları da mühafizə olunurdu.

Burada qiymətli, tükənməz və dünyada analoqu olmayan mərmər yataqları və digər qiymətli daşlar vardır. Azərbaycanı qədim yaşayış məskəni kimi dünyada tanıdan abidələrdən biri, dəniz səviyyəsindən 900 metr yüksəklikdə yerləşən, uzunluğu 190 metr, əhəng daşları oksfordkimeric dövrünə aid olan Azıx mağarası Xocavəndin Füzuli rayonuna yaxın, Azıx kəndinin 1 kilometr cənubi-şərqində yerləşir [15]. Həmin kəndin Mets-Tağlar kəndindən cənubda, dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşən, uzunluğu 22 metr, əhəng daşları oksfordkimeric dövrünə aid olan Tağlar mağarası da tarixi abidə kimi xüsusi əhəmiyyətə malikdir. Bütün bunlarla yanaşı, Xocavənddə Nərgiztəpə adlanan qədim yaşayış məskəni də vardır ki, həmin yaşayış məskəni 1 hektar sahəni əhatə edirdi. Şəhər mərkəzindən 5 km şərqdə, dəniz səviyyəsindən 800 m yüksəklikdə yerləşən Nərgiztəpə yaşayış məskənindən tapılmış maddi-mədəniyyət nümunələri e.ə. II–I minilliklərə məxsus olmuşdur [14, s.10].

Xocavənd rayonu, həm də tükənməz və əhəmiyyətli yeraltı su ehtiyatları ilə də zəngindir. Xocavənd ərazisində istifadəyə yararlı su ehtiyatlarını qiymətləndirmək məqsədi ilə XX əsrin 70-ci illərində kompleks hidrogeoloji tədqiqatlar aparılmışdır. Nəticədə 9 perspektiv sahə seçilib və həmin sahələr üzrə IV dövr, Tabaşir və Yura sulu komplekslərinin 83 min kubmetr/gün həcmində yeraltı su ehtiyatları aşkarlanıb. Bundan başqa, bulaq axımı moduluna əsasən 7,34 min kubmetr/gün həcmində yeraltı su ehtiyatı hesablanıb. Beləliklə, Xocavəndin ərazisində istifadəyə yararlı yeraltı sular 90,34 min kubmetr/gün təşkil edir. Təəssüf ki, 2 oktyabr 1992-ci ildə Xocavənd rayonu Ermənistan silahlı birləşmələri tərəfindən ələ keçirilmiş və işğal altında olan Xocavəndin ərazisi bütövlükdə ekoloji terrora məruz qalmışdır. Erməni vandalları ərazidəki mağaraları silah anbarına çeviriblər. Rayon ərazisindəki ümumi sahəsi 25,5 min hektar olan meşədəki palıd ağacları doğranaraq Ermənistana daşınmış, çay kənarlarında bitən meşələr isə tamamilə məhv edilmişdir [15]. Xocavəndin Yelli-Gədik sahəsində Füzuli rayonuna gedən yolun sağ və sol tərəflərində avtomobil yollarının mühafizəsi məqsədilə əkilmiş ağaclar da kəsilmişdir. Ərazidəki yeraltı, qiymətli və tükənməz, faydalı qazıntı yataqları Ermənistan tərəfindən xarici dövlətlərə satmış və həmin iş adamları tərəfindən talan olunur.

Xocavənd rayonunun relyefinin müxtəlifliyi iqliminin də dəyişkən olmasma şərait yaratmışdır. Rayonun iqlimi çox yerdə yayı quraq keçən mülayim istidir. İyul ayının orta temperaturu 24–26°C arasında dəyişir. Yanvar ayında isə orta temperatur –10–20°C-də olur. Rayonun dağətəyi düzənliklərində quru-subtropik iqlim, dağlıq ərazilərdə isə mülayim dağ iqlimi hakim olmaqla yağıntılarm illik miqdarı 400–500 mm-ə çatır. Buna görə rayonun düzənlik hissəsində suvarma əkinçiliyi, dağlıq hissələrində dəmyə əkinçiliyi, bağçılıq və heyvandarlıq inkişaf etmişdir [12, s. 149].

Xocavənd rayonunun çayları Araz hövzəsinə aiddir. Rayon ərazisindən axan Ağcaqoşunçay, Xonaşençay, Köndələnçay, Qozluçay, Quruçay, Xocalıçay və digər kiçik çaylar yağış, qar və yeraltı sularla qidalanır. Həmin çaylar yazın ikinci yarısında gursulu olur, suvarmada istifadə olunur. Rayondakı

Köndələnçay Arazın sol qolunda yerləşir. Uzunluğu 89 km, hövzəsinin sahəsi 594 $km^2$ olmaqla Qarabağ silsiləsindən (1780 m yüksəklikdən) başlayır. Çayın illik axın həcmi 50 milyon $m^3$-dir. Maraqlı cəhət ondan ibarətdir ki, Köndələnçayın hövzəsində son Tunc və antik dövrə aid arxeoloji abidələr aşkar edilmişdir. Yeri gəlmişkən, qeyd edək ki, Köndələnçayın suyundan səmərəli istifadə etmək məqsədilə, 1950, 1962, 1980-ci illərdə çayın Füzuli rayonu ərazisindən keçən hissələrində 3 bənd tikilmişdir [15].

Xocavənd rayonunun relyef və iqlim şəraitinin qarşılıqlı təsirindən burada torpaq örtüyünün də müxtəlifliyinə şərait yaranmışdır. Burada torpaq üzvi maddələrlə zəngindir. Belə ki, rayonda şabalıdı və qəhvəyi dağmeşə torpaqları yayılmışdır ki, bu torpaqlarda hümusun tərkibi 10–12% təşkil edirdi. Bu torpaqlar qida elementləri ilə yaxşı təmin olunduğu üçün çox böyük təsərrüfat əhəmiyyəti kəsb edir. Bütün bunlar ərazidə meşə örtüyünün zənginliyinə şərait yaratmışdır. Rayonda yarımsəhra və quru ot bitkiləri üstün olsa da, kolluq və enliyarpaqlı meşələr də zəngindir.

Xocavənd rayonunun təbii şəraitinin müxtəlifliyi heyvanlar aləminin də zənginliyinə səbəb olmuşdur. Rayon ərazisində tülkü, çaqqal, dovşan, çöldonuzu, çölsiçanı, canavar və s. heyvanlar, kəklik, göyərçin, sərçə, qırqovul və s. quşlar, müxtəlif sürünənlər – ilan, kərtənkələ və s. yaşayır. Lakin bir acı həqiqəti qeyd etməliyik ki, Yuxarı Qarabağın, o cümlədən Xocavəndin Ermənistan silahlı birləşmələri tərəfindən ələ keçirilməsi meşələrin qəddarlıqla qırılması və heyvanların ovlanması ərazidə yaşayan nadir heyvanların da nəslinin kəsilməsinə səbəb olmuşdur.

Xocavənd rayonu, əsasən, kənd təsərrüfatı rayonudur. Rayonun kənd təsərrüfatının aparıcı sahələri üzümçülük, taxılçılıq, heyvandarlıq, bağçılıq, bostançılıq, arıçılıqdır. Rayonda üzümçülük, taxılçılıq, bağçılıq və heyvandarlıq kənd təsərrüfatının əsas ixtisaslaşmış sahələridir. Üzüm plantasiyaları rayonun, demək olar ki, bütün kəndlərində salınmışdır. Əlverişli təbii şərait burada əhalinin arıçılıqla da məşğul olmasına şərait yaratmışdır. Geniş yayılmış tut bağları baramaçılığın inkişafına səbəb olmuşdur. Rayonun kənd təsərrüfatına yararlı torpaqlar 50 min hektar təşkil edirdi (1985-ci il məlumatı). Bunun 22 min hektarı şum yeri, 66 min hektarı çoxillik bitkilər, 0,5 min hektarı biçənəklər, 20,9 min hektarı otlaqlardır. Rayonun suvarılan torpaqları 3,4 min hektar təşkil edirdi. Xocavənd rayonunun 18,4 min hektar əkin sahəsinin 54%-də dənli və dənli-paxlalı bitkilər (buğda, arpa və s.), 1%-də tərəvəz bostan bitkiləri və kartof, 45%-də yeni bitkilər əkilirdi. Rayonun 4,3 min hektar torpaq sahəsində üzüm əkilmişdir. 1984-cü il məlumatına görə, təsərrüfatlardan 43 min ton üzüm yığılmışdır [13, s.277].



Araşdırmalardan məlum olur ki, Xocavənd rayonunda kənd təsərrüfatının ümumi gəlirinin 45%-i üzümçülüyün payına düşürdü. Təsadüfi deyildir ki, 1960-cı ildə Budapeştdə keçirilmiş ümumdünya sərgisində Xocavənddə istehsal olunmuş qırmızı «Martuni» şərabı qızıl medala layiq görülmüşdür [15, s. 23]. Taxıl istehsalı isə 1960-cı illə müqayisədə, 80-ci illərin ortalarında 2 dəfə artaraq 22,1 min tona çatmışdır. 1985-ci ildə Xocavənd rayonunun təsərrüfatlarında 14,3 min baş qaramal, 40,9 min baş davar var idi. Rayonda quşçuluq və baramaçılıq da inkişaf etmişdi. Təəssüf ki, dövlətimizin dərin qayğısı nəticəsində yaradılmış yuxarıda adıgedən təsərrüfatlar və oradakı infrastruktur «qonşu» bildiyimiz Ermənistan tərəfindən işğal edilmiş və mənimsənilir. Tədqiqatlardan məlum olur ki, inkişaf etmiş kənd təsərrüfatı potensialına malik olan Xocavənd rayonu ümumrespublika kənd təsərrüfatı məhsullarının 1,8 faizini istehsal edirdi. Rayonda, aqrosənaye kompleksinin maddi texniki bazasının, müntəzəm olaraq, dövlətimiz tərəfindən təzələnməsi, möhkəmləndirilməsi hesabına əməyin fond təchizatı səviyyəsi əvvəlki illərdə olduğu kimi, 1971–1985-ci illərdə də orta respublika göstəricilərindən 1,6 dəfə yüksəkdə dayanmışdır. Eyni zamanda keçən əsrin 80-ci illərində Xocavənd rayonunda kənd təsərrüfatına yararlı torpaqlardan hər bir kolxozçuya 925 hektar əkin yeri düşmüşdür. Bu göstərici ümumrespublika üzrə 891 ha, Naxçıvan MR-da 925 ha, Gəncə–Qazax zonasında 622 ha, Lənkəran–Astara zonasında 423 ha idi. Həmçinin hər kənd təsərrüfatı ilə məğul olan kəndlinin əsas istehsal vasitələri ilə təminatı ümumrespublika üzrə 312 min manat, Naxçıvanda 281 min manat, Şirvan zonasmda 315 min manat, Lənkəran–Astarada 117 min manat təşkil etmişdirsə, Xocavənd rayonunda bu göstərici 493 manata çatmışdı [11, s. 82]. Bütün bunlar kənd əhalisinin əmək gününə də öz müsbət [15] təsirini göstərmişdir. Belə ki, bəhs edilən dövrdə kənd təsərrüfatı ilə məşğul olanlara aylıq düşən əmək haqqı ümumrespublika üzrə 143 manat, Naxçıvan MR-da 129 manat, Şirvanda 149 manat, Gəncə–Qazaxda 123 manat, Lənkəran–Astarada 77 manat, Muğan–Salyanda 136 manat düşdüsə, Xocavənd rayonunda bu göstərici 161 manata çatırdı. Həmin ildə hər bir adam günə düşən ümumi məhsul respublikanın kəndlərində 4,7 manat təşkil etmişdisə, bu, Xocavənddə 5,9 manat, Muğan–Salyan zonasında 5,2 manat, Şirvan zonasında 4,8 manat, Gəncə–Qazaxda 3,8 manat, Naxçıvan MR-da 3,5 manat, Lənkəran–Astarada 1,9 manat təşkil etmişdi [11, s. 93]. Bütün bunlar isə dövlətimizin bölgəyə göstərdiyi dərin qayğının nəticəsi idi.

XX yüzilliyin 60–80-ci illərində Xocavəndin sənayesi də dinamik inkişaf etmişdir. Rayonun sənaye sahələri, əsasən, yerli xammala əsaslanırdı.

Burada şərabçılıq zavodları, Respublika Dövlət Kənd Təsərrüfatı İstehsalat-Texniki Təminat Komitəsinin şöbəsi, Süd emalı müəssisəsi, inqibatorquşçuluq stansiyası, xalça sexləri, ağac emalı sexləri, taxta-şalban zavodu, yağ-pendir zavodu, çörəkbişirmə sexləri və digər sexlər var idi. Təkcə 1981–1985-ci illərdə, DQMV-də 15 sənaye müəssisəsi yaradılmışdır ki, bundan 4-ü Xocavəndin payına düşmüşdür. Dövlətimizin dərin qayğısı nəticəsində 1970–1987-ci illərdə Xocavənddə sənaye dinamik inkişaf etdi. 1980-ci illə müqayisədə 1987-ci ildə rayonda sənaye istehsal fondlarının dəyəri 56% artmışdır ki, bu da ümumrespublika üzrə olduğundan 47 faiz çox demək idi. Bəhs etdiyimiz dövrdə Xocavənddə sənaye istehsalının inkişaf sürəti ümumrespublika səviyyəsini təxminən 0,25 dəfə ötüb keçmişdir [12, s. 71].

Xocavənd Azərbaycanın inkişaf etmiş nəqliyyat təsərrüfatına malik rayonlarından biridir. Əsas nəqliyyatı avtomobil yolları ilədir. Ağdam–Füzuli və Xankəndi–Füzuli yolları Xocavənd rayonundan keçir. 1971–1985-ci illərdə rayonda nəqliyyat təsərrüfatı çox sürətlə inkişaf etmişdir. Araşdırmalardan məlum olur ki, bəhs olunan illərdə Xocavənd rayonu yolların uzunluğuna görə ümumrespublika səviyyəsini 2 dəfə, yüklərin daşınma həcminə görə 3,4 dəfə, avtomobil parklarının sayına görə 1,9 dəfə üstələmişdir [13, s. 276].

1970–1980-ci illərdə Xocavənd rayonunda rabitə vasitələrinin də inkişafı dövlətimizin diqqət mərkəzində olmuşdur. Həmin məqsədlə ayrılan vəsait respublika üzrə olduğundan 2 dəfə çox idi. Xocavənd rayonu 1987-ci ildə adambaşına düşən rabitə məhsullarının həcminə görə ümumrespublika səviyyəsindən – 9 manat (21 manata qarşı 30 manat), əhalinin hər 100 nəfərinə düşən telefonların sayına görə 4 ədəd (8-ə qarşı 12 telefon), ailələrin mənzil telefonları ilə təminatına görə 11,3%, adambaşına düşən şəhərlərarası telefon danışıqlarının sayına görə 3,54% (4,15%-ə qarşı 7,69%) öndə getmişdir [9, 13]. Təhlillərdən göründüyü kimi, Xocavənd rayonunun iqtisadi inkişaf göstəricilərinə görə ümumrespublika səviyyəsini həmişə ötüb keçmişdir. Eyni zamanda 1960–1980-ci illərdə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması sahəsində də çox böyük irəliləyişlər əldə edilmişdir. Aparılan hesablamalara görə 1986-cı ildə Xocavənd rayonunda əhalinin adambaşına düşən pul gəlirləri orta hesabla 1114 manat olmuşdur ki, bu da ümumrespublika üzrə olduğundan 98 manat, Naxçıvan MR-dan 170 manat çoxdur. Bəhs olunan illərdə Xocavənd rayonunun sosial inkişaf göstəriciləri ümumrespublika səviyyəsini həmişə üstələmişdir: belə ki, adambaşına düşən ümumi kənd təsərrüfatı məhsullarının həcminə



görə 104 manat, 10 min nəfər hesabatla pərakəndə ticarət müəssisələrinin miqdarı 12 ədəd, 10 min nəfər hesabilə mağazaların ticarət sahəsi 639 kv. km, 1 sakinə düşən məişət xidmətinin həcminə görə 11,14 manat, 10 min nəfər hesabilə məişət xidməti emalatxanalarının miqdarı 2 dəfə – Xocavənd rayonu ümumrespublika səviyyəsindən öndə getmişdir [10, s. 205].

Əvvəlki illərdə olduğu kimi, 1970–1987-ci illər ərzində də Azərbaycanın maliyyə mənbələri hesabına Xocavənd rayonunda mənzil tikintisinin də inkişafında böyük irəliləyiş müşahidə edilmişdir. Bəhs olunan dövr ərzində rayonda ümumi sahəsi 300 min $m^2$ olan yeni abad mənzillər tikilib, rayon əhalisinin istifadəsinə verilmişdir. 1987-ci il statistik məlumatına görə, Xocavənd rayonunda 1 sakinə 14,6 $m^2$ mənzil sahəsi düşürdü, hansı ki, bu göstərici ümumrespublika üzrə 10,9 $m^2$, Naxçıvan MR-da 9,5 $m^2$ idi [9, 10,14]. Həmçinin rayonun yaşayış məntəqələrinin abadlaşması işi də uğurla davam etdirilmişdir. Belə ki, 1987-ci ildə Xocavənd rayonunda şəxsi mülkiyyətdə olan mənzil fondlarının abadlıq su kəməri ilə təchizatı 46% (ümumrespublika üzrə 30,5%, Naxçıvanda 7,4%), kanalizasiya ilə təminatı 12% (ümumrespublika üzrə 6,3%), qazla təminatı 100% (ümumrespublika üzrə 96,2%) yerinə yetirilmişdir [10, s.402–406].

Bəhs olunan dövrdə, Xocavənd rayonunda xalq təhsilinin və mədəni xidmətin bütün sahələri getdikcə daha da təkmilləşdirilmişdir. 1961–1987-ci illərdə rayonda yeni məktəbəqədər uşaq müəssisələri və ümumtəhsil məktəbləri tikilərək istifadəyə verilmişdir. Rayonda 365 uşağın tərbiyə olunduğu 12 məktəbəqədər uşaq müəssisəsi, 7450 şagirdi olan 40 səkkizillik və orta məktəb, 350 tələbənin təhsil aldığı texniki peşə məktəbi, 100 şagirdi olan musiqi məktəbi fəaliyyət göstərirdi. Rayonun bütün məktəblərində birnövbəli təhsil tətbiq olunurdu. Halbuki bütövlükdə respublika üzrə məktəblərdə növbəlik əmsalı 1,3-dür. Rayonda məktəbəqədər uşaq müəssisələri ilə təminat 35% təşkil edirdi ki, bu da bütövlükdə Azərbaycan üzrə olduğundan 1,8 dəfə çoxdur. 1970–1987-ci illərdə rayonda uşaqların məktəbəqədər uşaq müəssisələrinə cəlb olunmasının artım sürəti ümumrespublika göstəricilərini 2 dəfə üstələmişdir [1,v. 287].

1961–1987-ci illərdə Xocavənd rayonunda əhalinin sağlamlığının qorunması işində müsbət dəyişikliklər baş vermişdi. Bəhs olunan dövrdə, rayonda çarpayıların sayı 1,7 dəfə artaraq 250-yə çatmışdır. Əhalinin hər 10 min nəfərinə 100 çarpayı düşmüşdür ki, bu da ümumrespublika səviyyəsini ötmək demək idi. 1985-ci ildə rayonda 6 xəstəxana müəssisəsi, 30 feldşer-mama məntəqəsi, sanatoriya-epidemoloji stansiya, 35 həkim, 210 orta tibb işçisi fəaliyyət göstərirdi. Araşdırmalardan məlum olur ki, bu müddət

ərzində bütün ixtisaslar üzrə olan həkimlərin sayı 2,6 dəfə, orta tibb işçilərinin sayı 1,9 dəfə artmışdır. Bütün bunlarla yanaşı, rayonun zəngin təbiət gözəlliklərinə malik olması, təmiz havası, suyu, iqlimi, torpağı yeni sanatoriya və istirahət müəssisələrinin istifadəyə verilməsi, bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində müsbət dəyişikliklərin baş verməsi əhalinin sağlamlığına yaxşı təsir göstərmiş, uzunömürlülüyə səbəb olmuşdur.

1961–1987-ci illərdə Xocavənd rayonunda mədəni-maarif müəssisələrinin şəbəkəsi genişləndirilmişdir. 1987-ci ildə rayonda 11 mədəniyyət evi, 22 klub, 41 kitabxana, 33 kinoqurğu var idi. Aparılan hesablamalara görə, bəhs etdiyimiz illərdə rayonda kütləvi kitabxanaların sayı 1,4 dəfə, kitab fondu 2 dəfə, klub müəssisələrinin sayı 1,6 dəfə, kinoqurğuların sayı 2,9 dəfə artmışdır. Müqayisələrə və təhlillərə əsaslanaraq deyə bilərik ki, Xocavənd rayonunda mədəni-maarif müəssisələrinin inkişafı ümumrespublika səviyyəsini üstələmişdir. Belə ki, 1987-ci ildə Şuşa rayonunda 6 mədəniyyət evi, 12 klub, 20 kitabxana, 20 kinoqurğu; Kəlbəcər rayonunda 9 mədəniyyət evi, 17 klub, 35 kitabxana, 17 kinoqurğu; Zəngilan rayonunda 8 mədəniyyət evi, 35 kitabxana, 27 kinoqurğu fəaliyyət göstərirdi [2, v. 55]. Bütün bunlar, dövlətimizin, ümumilikdə DQMV-ə; xüsusilə, onun rayonlarından biri olan Xocavənd rayonuna göstərdiyi dərin qayğının nəticəsi idi.

Təəssüf ki, Dağlıq Qarabağın erməni rəhbərliyi burada yaşayan azərbaycanlılara ögey münasibət bəsləyirdilər. Ermənilərin yaşadığı kəndlər abadlaşdırılır, azərbaycanlılar yaşayan kəndlər isə xarabazara çevrilirdi. Nəticədə qayğısızlıq üzündən yüzlərlə azərbaycanlıların yaşadığı kəndlər boşalıb dağıdılırdı.

Xocavənd rayonu memarlıq abidələri ilə zəngindir. Belə ki, rayonun Metstağlar kəndində, Quruçayın sağ sahilində 1241-ci ildə inşa edilmiş Qotik məbədini, Dolanlar kəndindəki XII–XIV əsrlərə aid məbədi, türbəni, sərdabəni, Tuğ kəndində X əsrə aid Qırmızı məbədi, Xocavənddə e.ə II–I minilliklərə aid Nərgiztəpə yaşayış məskənini göstərə bilərik. Lakin təəssüflər olsun ki, xalqımızın yuxarıda adıgedən qədim maddi-mədəniyyət nümunələri, Ermənistan silahlı birləşmələri tərəfindən rayonun işğalı zamanı dağıdıldı, yandırıldı və ya ermənilərin silah anbarlarına çevrildi. Xocavənd rayonunda erməni dilində «Koltitesakan» («Kolxozçu») qəzeti 1933-cü ildən nəşr olunurdu. Aparılan hesablamalara görə, 1960–1980-ci illərdə rayonda qəzetlərin birdəfəlik tirajı 2,2 dəfə artmışdır [13, s.275]. 1962-ci ildən Xocavənd rayonunda yerli radio verilişləri redaksiyası fəaliyyətə başlamışdır. Eyni zamanda rayonda yaşayan əhali televiziya verilişlərinə də baxırdı.



Xocavənd rayonu 2 oktyabr 1992-ci ildə Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildi. İşğal olunmuş ərazidə xalqımızın yüz illər ərzində yaratdığı hər şey – evlər, müəssisələr, kommunikasiya vasitələri, təbii sərvətlər, maddi-mədəniyyət abidələri talan edildi, dağıdıldı, yandırıldı. Rayonda yaşayan yüzlərlə azərbaycanlı şəhid oldu, yaralandı, əlillər girova, qaçqın və köçkünə çevrildi. Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş və separatçı «Dağlıq Qarabağ Respublikası»nın nəzarətində olan əraziləri beynəlxalq terrorizm təlim düşərgələrinə və müxtəlif növ kimyəvi qırğın silahlarının sınaq meydanına, habelə nüvə tullantılarının basdırıldığı zonaya çevrilmişdir. Xocavəndin Qırmızı Bazar ərazisində suriyalıların «Xalq Azadlıq Cəbhəsi» (başçısı Zamir Əl-Qisse) adlı terrorçu qrupu yerləşdirilmişdir. «ASALA» erməni terrorçu təşkilatının radikal qanadı üçün Xocavəndin Kiş yaşayış məntəqəsində təlim düşərgəsi təşkil edilmişdir. Rayonun Kurapatkin ərazisində nüvə terrorizmi, Kiş kəndində bioloji terrorizmi, Xocavənddə kompyuter terrorizmi üzrə qruplar fəaliyyət göstərir [7, 15.01]. Xocavənd ərazisi bu gün, həm də narkotik maddələrin istehsal və ixrac edildiyi əraziyə çevrilmişdir.

Biz bir həqiqətə inanırıq ki, tezliklə haqq-ədalət zəfər çalacaq, Azərbaycanın Xocavənd ərazisi və bütün işğal altında qalan ərazilərimiz düşmən əsarətindən xilas ediləcəkdir. Ümummilli liderimiz H.Ə.Əliyev ATƏT-in 1996-cı ilin dekabrında keçirilmiş Lissabon Sammitindəki çıxışında demişdir: «Dağlıq Qarabağ müstəqilliyi barədə qanunsuz iddialar beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç vaxt razılaşmayacayıq. Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik».

## VII FƏSİL

# MƏNFUR SİYASƏTİN QURBANINA ÇEVRİLMİŞ MÜQƏDDƏS ŞUŞANIN ACI TALEYİ

XX yüzilliyin 80-ci illərində Azərbaycanda milli özünüdərk prosesi gücləndi və xalqın, hüquqlarının tapdalanmasına, sərvətlərin talan olunmasına etirazı artdı. Mərkəz iflasdan yaxa qurtarmaq üçün müxtəlif manevrlər etdi. Azərbaycanın Yuxarı Qarabağ bölgəsində milli-münaqişə ocağı alovlandırıldı. Qarabağ müharibəsi maraqlı dövlətlərin Azərbaycanda mənafelərinin toqquşması, həmçinin Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi səbəbindən baş verdi və xalqımızı faciəyə düçar etdi. Xalqımız müharibədə 20 mindən çox övladını itirdi. Ərazilərimizin 20%-i düşmən əlinə keçdi. Bir milyondan artıq soydaşımız öz vətənində qaçqın həyatını yaşadı [15]. Bütün bunlar azmış kimi xain, saxta erməni təbliğat maşını Azərbaycan əleyhinə iş aparır və dünyada öz mənafelərinə uyğun fikir formalaşdırırdılar. Ona görə də faktlara, materiallara əsaslanaraq Dağlıq Qarabağ tarixini təhlil etməliyik. O cümlədən, qədim Şuşanın zəngin tarixini qısa şərh etməklə dünyada obyektiv fikir formalaşdırmalıyıq.

Azərbaycanın hər bir kəndi, qəsəbəsi, şəhəri onun keçmiş əzəmətini özündə əks etdirən silinməz izlərlə zəngindir. Dövlətimiz müstəqillik əldə etdikdən sonra Azərbaycan tarixinin öyrənilməsində alimlərimizin göstərdikləri gərgin səylərə baxmayaraq, hələ də tədqiq edilməsi vacib olan bir çox açılmamış maraqlı səhifələr vardır. Belə səhifələrdən biri də qədim və şanlı tarixə malik, əsrlər boyu mürəkkəb hadisələrin şahidi olmuş və xarici işğalçılara qarşı qəhrəmanlıq mübarizəsi ilə zəngin olan, öz gözəlliyi və təbii şəraiti ilə dünya şöhrəti qazanmış Qarabağımızın tacı Şuşadır.

Şuşanın bir-birinə bənzəməyən mədəniyyət abidələri onun keçmişindən xəbər verir. Şuşadakı qüllələrin şiş ucları, məscidlərin təkrarsız naxışları, qala divarlarının daş qüdrəti bizim üçün təkcə təəccüb, heyrət, həzz obyekti olmamalıdır. Buradakı «danışan» daş heykəllər bizim keçmişimizin, bu günümüzün, mövcudluğumuzun sübutu, gələcəyimizə təminatdır. Şuşa, xalqımızın yaratdığı və fəxr etdiyi «Daş poemadır». Bu «poema» bizim milli özünütəsdiqimizə, ölməzliyimizə sübutdur. Buradakı hər bir daş xalqımızın milli varlıq rəmzidir.



1992-ci il mayın 8-dən, basılmazlıq, əyilməzlik rəmzi olan Qala divarları, igidlər oylağı Cıdır düzü, gözəllik çələngi Topxana meşəsi, həzin zümzüməli Daşaltı çayı, məşhur İsa bulağı, min bir dərdin dərmanı olan yaylaqlarımız, təbiətin möcüzəsi hesab olunan Xarıbülbül – Qala adı ilə tanınan qədim Şuşamız yad əllərdədir [16]. Şuşanın Ermənistan silahlı birləşmələri tərəfindən işğalı xalqımıza, dövlətimizə vurulan ən ağır zərbə oldu. Çünki Şuşa təkcə şuşalıların vətəni deyil, vətənini, xalqını, torpağını sevən hər bir Azərbaycan vətəndaşının, bütün azərbaycanlıların vətənidir. Azərbaycanın böyük bir tarixi abidəsi, incisi olan Şuşa şəhəri təkcə işğal edilmədi, xain qonşularımız tərəfindən dağıdıldı, yandırıldı və yerlə yeksan edildi. Artıq xeyli vaxtdır ki, Şuşanın tarixi erməni müəlliflərinin açıq və həyasız saxtalaşdırma obyektinə çevrilmişdir. Sərt, amansız, hiyləgər və məkrli düşmənə qarşı gərgin və kəskin mübarizə aparmağımız lazımdır. Erməni yalanı və böhtam bütün dünyanı gəzməkdədir. Türk diyarımız haqda erməni saxtakarlığının qarşısını almaq, əsl həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün Şuşa haqqında sənədli məcmuələrə, tarixi mənbələrə, tədqiqat əsərlərinə, arxiv materiallarına əsaslanaraq, çətin, məsuliyyətli, şərəfli və əhəmiyyətli tariximizi tədqiq və təhlil etməliyik. Şuşanı «erməni şəhəri» hesab edən və ərazidə ermənilərin say çoxluğu ilə çox yaşaması fikrini iddia edən Z.Balayana, Vartanyana, Hambarsumyana, Aqambekyana və başqa obyektivlik hissini itirənlərə tutarlı cavab verməyimiz üçün Şuşanın yaranması, inkişafı, əhalisinin say tərkibi haqda «faktlara doğru – geriyə» qayıtmağımız lazımdır.

XVIII əsrin ikinci yarısından Şuşa şəhəri Qarabağ xanlığının paytaxtı olmuşdur. Mənbələrin tədqiqi ilə aşkar olunur ki, şəhərin ilk adı «Şuşakənd» olmuş və sonralar dəyişərək Azərbaycan dilinin ahəng qanununa uyğunlaşaraq «Şuşa» adlandırılmışdır [38]. «Şuşa» sözü isə ərazinin təbii şəraiti ilə bağlı seçilmiş addır. Əgər müxtəlif ensiklopediyalara və lüğət kitablarına müraciət edərsək, «Şuşa» sözünün mənasının – düzənlik sahədə ucalan hündürlük, qabarıq yer, daşlı – qayalı təpə, piramida, qala kimi izah edilməsinin şahidi olarıq. Bir çox etibarlı tarixi mənbələrdə «Şuşa» adını daşıyan qalalara təsadüf olunur. Məsələn XVI əsrdə qələmə alınan Şəmsəddin Bidlisin «Şərəfnamə» əsərində, Ələkbər Dexuda və Rezmara Əlinin tədqiqatlarında İranda «Şuşa», «Şuş», «Şuştər» adlarının qalalara, şəhərlərə verilməsi haqda maraqlı məlumatlar vardır. XX əsrdə yaşamış rus alimi E.İ.Vasiliyev apardığı tədqiqatlardan belə nəticəyə gəlmişdir ki, «Orta əsrlərdə Şərq müsəlman ölkələrində qüdrətli və alınmaz qalalara «Şuşa» qalaları deyilirdi», o dövrdə tikilən qalalar şiş qayalar üzərində inşa

edildiyindən «Şuşa» sözünün «Şiş» sözündən götürülməsi güman edilir. «Şiş» sözü isə «Şuş» kimi formalaşmışdır [45].

Görkəmli rus alimi İrina Rakşa apardığı tədqiqatlarda daha da dərinə gedərək sübut etmişdir ki, «Şuşa» adı alınmaz qalalara verilən adlardır. Bu adda təkcə bütün Şərq ölkələrində deyil, hətta Avropada, Sibirdə yaşayan türklərin yaşayış məskəni olmasını, tarixçi alim Rakşa faktlarla sübut etmişdir. Bütün bunlarla yanaşı [49], «Şuşa» sözünü kök və şəkilçiyə ayırarıqsa, sözün kökünün sırf türk sözü olduğunun şahidi olur və Zori Balayanların «Şuşanın erməni ərazisi və «Şuşa» sözünün erməni mənşəli olması» fikrinin tamamilə yalan və böhtan olduğunu sübut edirik.

1988-ci ildə Ermənistan Elmlər Akademiyasının 19 akademik və professor müəllim heyətinin iştirakı ilə yazılmış «Dağlıq Qarabağ tarixi arayış» kitabında «Şuşanın əsasının ermənilər tərəfindən qoyulması, bir ovuc gəlmə «köçərilər»in (Pənahəli xan və İbrahim xan nəzərdə tutulur) isə həmin ermənilərə kömək etməsi» iddiaları tarixçi adını daşıyan erməni ziyalılarının ən böyük yalanlarından biridir [83]. Əsl həqiqət isə aşağıdakı kimidir: Mirzə Camal Cavanşir Qarabağiyə, Mirzə Yusif Qarabağiyə, Həsən İxfa Əlizadəyə istinadən deyə bilərik ki, Şuşa şəhərinin əsasını Pənah xan qoymuşdur. Şəhərin əvvəlki adı «Pənahabad», «Qala», «Şəhri-Şişə», «Şişə» və ən nəhayət, «Şuşa» adlandırılmışdır. Şuşanın inşa edilməsində Pənahəli xan təkcə Azərbaycandan olan sənətkarları deyil, həm də Ərdəbil, Təbriz və başqa şəhərlərdən də ustalar gətirmişdir. Belə sənətkarlardan M.M.Nəvvabın, Məmmədyarın, Usta Qənbərin, Məşədi Əliqulunun, Qarabağlı Kəblə Əkbərin, Məşədi Xaspoladın, Kərbəlayi Səfixanın, Kərbalayi Qarabağinin və başqalarının adlarını çəkə bilərik. Nədənsə arxivdən götürülmüş bu siyahıda bir dənə də olsun erməni familiyası yoxdur və bütün bunlar bədxah, dələduz «qonşularımız»ın məntiqsiz «cızmaqaraları»nın tamamilə ağ yalan olduğunu göstərir.

A.A.Bakıxanovun «Gülüstani-İrəm» əsərində Şuşa şəhərinin yaranması haqda fikirləri daha obyektivdir. Həmin əsərdə göstərilir ki, Pənahəli xan Qarabağda hakimiyyəti ələ aldıqdan sonra Bayat, Şahbulaq qalalarının əsasını qoymuş və Şuşa qalasını təmir etdirmişdir. XIX əsrdə Şuşanı gəzən Qərbi Avropa səyyahları da, A.A.Bakıxanovun fikrini təsdiqləmişlər. Belə ki, ingilis səyyahı Ceyms Morye özünün «Səyahətnamə»sində göstərmişdir ki, Şuşadakı maddi mədəniyyət abidələri burada eramızdan əvvəl yaşayışın olduğunu təsdiqləyir. İngilis səyyahı Robert Burter yazırdı: «Şuşada Qafqazın başqa şəhərlərində olmayan, Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr və qədim Roma hamamlarını



xatırladan gözəl hamam qalıqları vardır. Bütün bunlar Şuşanın qədim şəhər olması haqqında fikir söyləməyə imkan verir». Fransa arxeoloqu Jak de Morqan, ingilis səyyahı Robert Ker Porter Şuşanın qədim şəhər olması haqda dəyərli fikirlər irəli sürmüşdülər [29, s.6].

XVIII əsrin 20-ci illərinə aid mənbələrdə isə Şuşanın Daşaltı mağarasının «Ğar» adlanması qeyd edilmişdir. «Ğar» sözü isə qədim Azərbaycan dilində «mağara» deməkdir. Bu mağaradan ərazidə yaşayan Qarqar tayfaları müdafiə məqsədilə istifadə etmişdilər. «Qar» sözü həm də Qarqar sözünün kökü ilə eyni mənalıdır.

1971-ci il iyul ayında «Ğar» mağarasında AMEA-nın Tarix İnstitutunun əməkdaşlarının M.Hüseynovun rəhbərliyi altında aparılan arxeoloji tədqiqat işləri nəticəsində burada Qədim Daş dövründən yaşayışın olduğunu təsdiqlədi [70]. Bütün bunlar isə erməni və ermənipərəst «tədqiqatçıların» fikirlərinin qondarma, saxta olduğunu sübut edir.

Tarixi mənbələri ciddi təhrif edərək «Şuşanı erməni şəhəri» adlandıran erməni müəllifləri Şuşa əhalisinin milli tərkibi məsələsinə də qərəzli, qeyri-obyektiv yanaşmış və məqsədli şəkildə, öz mənafeləri xatirinə tariximizi saxtalaşdırmışdılar.

Belə ki, Z.Balayan yazır ki, XIX əsrin əvvəllərində ermənilər Qarabağda, o cümlədən Şuşada əhalinin 98 faizini, hətta 1913-cü ildə 96 faizini təşkil etmişlər. 19 nəfər erməni «tarixçisinin» yazdıqları «Dağlıq Qarabağ tarixi arayış» kitabından isə oxuyuruq: «XVIII əsrin ikinci yarısında Pənah xan və İbrahim xan dövründə Şuşaya «köçəri» müsəlmanlar köçürülməsinə və hətta müsəlmanlar içərisində doğumun yüksək olmasına baxmayaraq, XX yüzilliyin əvvəllərində onlar Şuşa əhalisinin yalnız 5 faizini təşkil etmişlər». Piter Ford isə saxtakarlığın sonuncu zirvəsinə çataraq qeyd edir ki, Şuşa erməni şəhəri olub, buraya azərbaycanlılar yalnız 1921-ci ildən sonra köçərək məskunlaşıblar [29, s.20].

Bütün yuxarıda göstərilən qeyri-elmi, tarixi həqiqətə zidd fikirlər ən aşağısı Azərbaycan xalqına qarşı cinayətdir. Qarabağ və Şuşa əhalisinin milli tərkibi haqqında sənədli arxiv materialları, statistik külliyyatlar «nə deyir?»

XIX əsrdə Şuşa şəhəri əhalisinin sayı və tərkibi haqqında ən etibarlı və mötəbər mənbə Yeremolov və Moqiloviski tərəfindən 1823-cü ildə hazırladıqları «Qarabağ əyalətinin təsviri (Tiflis, 1866)» kitabıdır. Bununla yanaşı, N.Şavrov, S.Qlinka, V.Veliçko və başqa XIX əsr müəlliflərinin, həmçinin Y.Mahmudov, X.Xəlilov, T.Köçərli, M.İsmayılov, İ.Əliyev və digər Azərbaycan alimlərinin tədqiqatlarında Qarabağ və Şuşa əhalisinin milli tərkibi haqqında dəyərli məlumatlar vardır.

*Yuxarıda göstərdiyimiz* materiallara əsaslanaraq müəyyənləşdirilmişdir ki, 1823-cü ildə Qarabağda 20.095 ailə yaşayırmış, bundan 15.729-u azərbaycanlı ailəsi (78,3 faiz), 4.366-sı erməni ailəsi olmuşdur (21,7 faiz) [62, 31].

1823-cü ildə ermənilərin daha çox məskunlaşdığı Şuşa şəhərində 1532 ailə yaşayırdı. Bundan 1111-i azərbaycanlı ailəsi (72,5 faizi) və 421-i erməni ailəsi olmuşdur (27,5 faiz). Biz, əgər yuxarıda göstərdiyimiz tarixi tədqiqatları bir az geri, 1804-cü ilə aid aparsaq Şuşada ermənilərin sayının dəfələrlə az olduğunun şahidi olarıq. Çünki 1805–1823-cü illərdə Qarabağda və o cümlədən Şuşada yaşayan azərbaycanlılar ərazidən məqsədli şəkildə qovulmuş və ermənilərin buraya axını başlamışdır [34]. Rusiyanın rəsmi dövlət siyasəti olaraq ermənilər müxtəlif dövlətlərdən 1828-ci ildən kütləvi şəkildə Zaqafqaziyaya köçürülməyə başladılar. 1828–1832-ci illərdə *Zaqafqaziyaya İrandan 40 min*, Türkiyədən 84600 erməni köçürülmüşdü. 1877–1879 və 1893–1894-cü illərdə köçürülmə prosesi daha da artmışdır. Nəticədə XX əsrin əvvəllərində gəlmələrin hesabına Zaqafqaziyada ermənilərin sayı 300 mindən 1 milyon 300 minə çatmışdır [62]. Bəhs edilən dövrdə Çarizm Qarabağda öz dayaqlarım möhkəmləndirmək üçün, oraya 700 erməni ailəsi köçürmüşdür [33]. Zubov və Paskeviçin «məlumatlarına» görə Qarabağa köçürülmüş ermənilərin böyük bir hissəsi Qarabağın aran hissəsində yerləşdirildiyindən yerli şəraitə uyğunlaşa bilməmiş və taun xəstəliyinə tutularaq həlak olmuşdular. Əslində, bu «taun» xəstəliyi deyildi, bol təbii sərvətlərə yiyələnmək «xəstəliyi» idi. Qarabağın dağlıq hissəsindəki iqlimi, yeraltı və yerüstü sərvəti görən ermənilər Çar hökumətindən oraya köçürülmələrini xahiş etmiş və yeni kəndlər (Marağa, Marquşavan, Seysulan, Yarımca və sair) yaratmışdılar. Baxmayaraq ki, Qarabağa bəhs edilən dövrdə xeyli erməni ailəsi köçürülmüşdü, yenə də onların sayı azərbaycanlılarla müqayisədə aşağı idi. Faktlara müraciət edəriksə, bir daha əsl həqiqətin şahidi olarıq.

1897-ci il əhalinin siyahıya alınmasına görə Qarabağda yaşayan 54.841 ailədən 35.701 ailə azərbaycanlı, 18.616 ailə erməni, 193 ailənin rus, qalanlarm isə müxtəlif millətlərə malik olduğunu görürük [72]. Azərbaycanlı ailələrində çoxuşaqlılığı nəzərə alsaq, belə nəticəyə gəlmək olar ki, XIX əsrin sonlarında əhalinin böyük əksəriyyətini azərbaycanlıların təşkil etdiyinin şahidi oluruq.

XIX əsrin əvvəllərinə aid elə bir tarixi mənbə, sənəd yoxdur ki, orada Qarabağda və Şuşada əhalinin «5 faizini azərbaycanlılar təşkil etməsi»nə rast gələk. Beləliklə, tarixi mənbələrə əsaslanaraq, deyə bilərik ki, müasir erməni tarixçilərinin mülahizələri tamamilə saxta, ağ yalan və uydurmadır.

Aparılan dərin tədqiqatlar nəticəsində belə qənaətə gəlmək olar ki, erməni millətçiliyinin «Böyük Ermənistan» dövləti yaratmaq cəhdlərinin tarixi kökləri dərindi və bir neçə mərhələdən keçərək bu gün də davam etməkdədir. Tarix boyu terrorçuluqdan istifadə edən hiyləgər erməni şovinizmi müasir dövrdə bütün daha təhlükəli, qorxulu və dəhşətli bir qüvvəyə çevrilmişlər. Odur ki, bütün dünyanı erməni terrorundan xilas etmək, erməni ekstremizminin xarakter xüsusiyyətlərinin saxta mövqelərinin və ideyalarının həqiqi mahiyyətini açmaq, Şuşamızı və bütün işğal edilmiş torpaqlarımızı əsarətdən xilas etməyimiz üçün canlı və namuslu bütün qüvvələrin birliyi tələb olunur.

Azərbaycanın 289 kvadrat kilometrlik kiçik bir hissəsini təşkil edən, qədim və şanlı tarixə malik olan Şuşa torpağı özünün təbii, maddi və mənəvi sərvətləri ilə həmişə zəngin və səxavətli olmuşdur [45]. Şuşanın bitib tükənməyən və min bir dərdin dərmanı olan təbii suları, sərin, səfalı yaylaqları, dadlı-bərəkətli meyvələri hamını heyrətə gətirmişdir. Təbiət bu torpaqdan bolluğu, səxavəti əsirgəmədiyi kimi, insanlarına da məğrurluq, qəlbigenişlik, dostluqda möhkəmlik, qonaqpərvərlik və sair kimi müsbət insani keyfiyyətləri də bəxş etmişdir. Lakin çox təəssüf ki, təbiət qonşu xəyanət payını da bu torpaqdan əsirgəməmişdir. Qarabağımızın, Şuşamızın sərvətindən vaxtaşırı istifadə edən, çörəyimizi yeyib, suyumuzu içən, üzdə özünü dost kimi göstərən, daxildə isə türkə qənim kəsilən, alçaq xislətli erməniləri tanımamış, onların xəbis niyyətlərindən xəbər tutmamışıq. XX əsrin istər əvvəllərində, istərsə də sonlarına yaxın, Azərbaycana qarşı ermənilərin törətdikləri vəhşiliklərlə ilk üzləşənlərdən biri həmişə Qarabağın cənnət məkanı olan Şuşa, onun maddi mədəniyyət abidələri, kurort turizm ehtiyatları, meşələri, təbii sərvətləri və eyni zamanda qəlbigeniş, qonaqpərvər şuşalılar olmuşdur. «Böyük Ermənistan» xülyasına qapılan ermənilər Rusiya imperiyasına arxalanaraq Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş, Qarabağımız, Cıdır düzümüz, İsa bulağımız əsirlikdə qalmışdır [3.10.05.1994].

Son 200 ilə yaxın bir vaxtdır ki, milyonlarla azərbaycanlı öz doğma torpaqlarında qaçqına, köçkünə, didərginə çevrilir. Düşünülmüş və planlı şəkildə həyata keçirilən siyasət nəticəsində Azərbaycan xalqı deportasiya və soyqırımına məruz qalır. Zaman-zaman tarixi torpaqlarımız hissə-hissə xain qonşularımız tərəfindən özününküləşdirilir. Çox təəssüflər olsun ki, biz vaxtilə xalqımızın başına gətirilən bu müsibətləri açıqlamağa çətinlik

çəkmişik. Sevindirici haldır ki, bu gün Azərbaycan dövləti müstəqillik əldə etmiş və xalqımızın başına gətirilən fəlakətlərin dünya ictimaiyyətinə çatdırılması üçün yeni imkanlar açılmışdır.

1988-ci ildən başlayaraq Azərbaycan tarixi, xüsusilə Dağlıq Qarabağ və onun gözəl guşəsi olan Şuşanın tarixi erməni müəllifləri tərəfindən qəddarlıqla saxtalaşdırılır. Tariximizin erməni «alimləri» tərəfindən yalan, böhtan və uydurmalarla dünyanın 70-dən çox aparıcı dövlətində məqsədli şəkildə öz mənafelərinə uyğun qələmə alınması canlı və namuslu Azərbaycan övladını dinc buraxmamalıdır. Təəssüf və təəccüb doğuran bir məsələni xüsusilə qeyd etməliyik ki, vaxtilə Dağlıq Qarabağ tarixinin tədqiqi nədənsə erməni tarixçilərinə «qismət» olmuşdur. Əlbəttə, vaxtilə tariximizi istədikləri kimi «yazanlar» bu gün həmin «qismətdən» bəhrələnirlər. Böhtan, yalan və uydurmaların əksəriyyəti həmin «əsərlərə» əsaslanır. Biz Dağlıq Qarabağ və Şuşa tarixi haqqında nə yazmışıqsa, hələ də azdır. Yazılanlarla kifayətlənmək olmaz. Şuşanın hər bir qayası, daşı, qəsri, kəndi canlı bir tarixdir. Ona görə də bu gün Şuşanın tarixinin fakt və materiallara əsaslanaraq obyektiv qələmə alınması, onun qaranlıq səhifələrinin işıqlandırılması günün ən önəmli məsələsidir və hər birimizin müqəddəs borcu, vəzifəsidir. Düşmənimiz güclü və ayıq olmaqla yanaşı, həm də mərhəmətsiz, fitnəkar və qəddardır. Ona görə də biz xalqımızı bir yerə elə yığmalı, gücümüzü elə birləşdirməliyik ki, düşmənlə mübarizə aparıb, qalib gələ bilək. Əsarətdə olan Şuşamızı qəhrəman oğullarımız, qeyrətli qızlarımız xilas edəcək. Koroğlu cəsarətini, Babək vüqarını düşmənə göstərərək Qarabağımızı azad etməliyik.

Azərbaycanın ən gözəl diyarı Qarabağ, Qarabağın isə ən səfalı guşəsi Şuşadır. Şuşa füsunkar təbiəti, uca dağları, yaşıl yamacları, min bir dərdin dərmanı olan bulaqları, qıvrılıb axan çayları, gül-çiçəkli düzənləri, bərəkətli tarlaları, bağları, qalın meşəlikləri ilə insanın diqqətini cəlb edir.

1988-ci il məlumatına görə Şuşanın sahəsi 289 kvadrat kilometr olmuşdur. Burada 30 kənd, bir şəhər və başqa yaşayış məntəqələri var [36, s.160]. Hansı ki, XIX əsrdə Qarabağ kəndlərinin mənşəyini öyrənməyə səy göstərən A.Q.Dekonski Şuşada 68 kəndin olmasını qeyd etmişdir. Bu kəndlərdən 32-si sırf əkinçiliklə məşğul olur, 24-ü oturaq həyat sürür, 12 kənd isə sırf maldarlıqla məşğul olurdu [62, s.19]. XIX əsrdə Şuşada əhalinin 96 faizi əkinçi (kəndli) kimi siyahıya alınmış, 4 faizi isə varlılar (ağalar, bəylər, məliklər, tacirlər, sənayeçilər) idi. Şuşanın kəndlərinin yarıdan çox azalması həmin kəndlərin Şuşadan alınıb erməni icmasının daha çox məskunlaşdığı Xankəndinə verilməsi ilə bağlı olmuşdur [58].



Kiçik Qafqaz dağlarının şərq hissəsində, şimal eninin 39°21′ dərəcəsi ilə 40°24′ dərəcəsi və Qrinviçdən şərq uzunluğunun 46°18′ dərəcəsi ilə 47°21′ dərəcəsi arasını əhatə edən Şuşa, Bakıdan 403 kilometr uzaqda yerləşir [26]. Şuşanın əhalisi 1988-ci il məlumatına görə 19 min nəfərdir. Şuşanın hər bir kvadrat kilometr sahəsinə orta hesabla 63,3 nəfər əhali düşür. Bu ümumi Vilayət göstəricisindən təqribən 2 dəfə çoxdur (Dağlıq Qarabağda hər kvadrata 34,5 nəfər) [29, s.71]. Şuşanın ən böyük yaşayış məntəqələri Şuşa şəhəri, Malıbəyli və Daşaltı kəndləridir. Aparılan tədqiqatlara əsasən onu da qeyd edək ki, son 50 il ərzində Şuşa əhalisi burada yaşayan azərbaycanlıların deportasiyası hesabına xeyli azalmışdır. «Kafqaziskiy kalendar»da göstərilir ki, 1917-ci ildə Şuşada 43 mindən çox əhali yaşayırdı, hansı ki, yuxarıda göstərdiyimiz kimi 1988-ci ildə bu rəqəm 19 minə enmişdi [59, s.95].

Qarabağ dağ silsiləsində yerləşən Şuşanın ərazisi dağlıqdır. Şuşanın şimal, şimal-şərq və şimal-qərbi qayalı dağlarla əhatə olunubdur. Şəhərin cənub-şərq tərəfi isə dərinliyi 500 metr, eni 250 metr olan sıldırım qayalı dərin dərə ilə sərhədlənib [70]. Şuşanın cənub tərəfində Kirs dağı yerləşmişdir ki, bu dağdan baxanda şəhər «mis qazan»ı xatırladır. Nəhəng sıldırım qayalarla əhatə olunmuş Şuşa alınmaz qala idi. Hələ vaxtilə Azərbaycanın görkəmli yazıçısı Cəlil Məmmədquluzadə Şuşa haqqında belə yazırdı: «Axşamlar Şuşa şəhəri məğrib tərəfdən behişti xatırladır. Şvetsariyanı görənlər isə Şuşanı Şvetsariyaya oxşadırlar. «Çin yaylaqları» ilə Şuşanın «Xan sarayı» arasında oxşarlıq vardır. Mən isə cürət edib deyərdim ki, Şuşanın axşamçağı məğrib tərəfdən sehirgahı o qədərdir ki, bura insana ürək şadlığı verir, dünyanın az-az yerlərində bu cür səadət ələ düşə bilər. Şuşanın ən yüksək zirvəsi Böyük Kirs dağıdır ki, onun hündürlüyü 2725 metrdir. Həmçinin Keçəldağ aşırımı da Şuşa ərazisindədir. Şuşanın dəniz səviyyəsindən orta hesabla hündürlüyü 1358 metrdir. Öz başlanğıcını Qarabağ sıra dağlarından alan və ümumi uzunluğu 111 kilometrə çatan Qarqar çayı Şuşa ərazisindən keçir. Burada, eyni zamanda Daşaltı və Xəlfəli çayları da vardır ki, bu çaylar dərin dərələrdən axır [82, 06.03].

Şuşanın əsas torpaqları Qarabağ sıra dağlarının meşələrlə örtülü şərq qollarındadır. Torpaqları çimli dağ-çəmən, qonur dağ-meşə, qəhvəyi dağ-meşə tiplidir. Ərazinin 58 kvadrat kilometrini (20 faizini) meşələr əhatə etmişdir. Meşədə, əsasən, fısdıq, bəzi yerlərdə palıd, cökə, vələs, qoz, armud, alça, zoğal və sair bitir. Yüksək dağlıq sahələr subalp və alp çəmənlikləri ilə örtülüdür. Şuşa meşələrinin Quba və Lənkəran meşələrin-

dən fərqi ondadır ki, Şuşa meşələrində *həmişəyaşıl meşəaltı örtüyü yox*dur. Bu isə Şuşa meşəsinin sıx olması ilə bağlıdır. Hətta bəzi mənbələrdə Qarabağ sözünün mənasının «qara meşəlik» kimi təqdim edilməsi, burada meşənin sıx olması və yayın ortasında belə yerə günəş düşməməsi ilə əlaqələndirilmişdir. Enerjinin olmaması isə Şuşa meşələrində epititlərin və həmişəyaşıl meşəaltı örtüyünün zəifliyinə səbəb olmuşdur. Alçaq dağlıq və dağətəyi sahələrdə meşələr qırılmışdır. Həmin kəsilmiş meşələrin yerində kserofit kolluqlar yaranmışdır. Subalp çəmənliklər ən yaxşı otlaqlar və biçənəklərdir. Eyni zamanda həmin çəmənliklərdə tək-tək ağaclar da bitir. Təbiətimizin təkrar olunmaz sərvəti olan meşələrimizi heç bir varlıqla müqayisə etmək olmaz. Çünki meşələr həm heyvanların yaşayış məskəni, həm günəş enerjisinin, istiliyin, rütubətin bərabər nizamlayıcısı olmaqla yanaşı, həm də insan həyatı üçün zəruri olan hava təbəqəsini oksigenlə təmin edir. Şuşa meşələri özünün ağac və kol bitki növləri ilə zəngindir. Lakin təəssüflə qeyd etməliyik ki, Azərbaycanın 200 min hektardan artıq meşə sahələri, o cümlədən 50 kvadrat kilometrlik Şuşa meşələri işğal altında qalmışdır [90]. Mebel və parket üçün əvəzi olmayan meşələrimiz vəhşicəsinə doğranaraq İrana və başqa xarici ölkələrə satılır. Ən başlıcası isə meşə örtüyünün həyatımız üçün oksigen təminatçımız olduğunu unutmamalıyıq. Biz bu gün həmin məhv edilmiş meşə sahələrini qorumalıyıq. Bu məsələ ilə bağlı beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırmalıyıq. Əks halda hava çatışmazlığına görə gələcək nəsil bizi bağışlamaz. Azərbaycan meşələrini, Qarabağ və Şuşa meşələrini qorumaq üçün bütün imkanlardan maksimum istifadə etmək bu gün ən başlıca vəzifəyə çevrilmişdir.

Şuşanın coğrafi şəraitinin müxtəlifliyi və iqtisadi şəraitinin xüsusiyyətləri ərazinin heyvanlar aləminin də zənginliyinə səbəb olmuşdur. Buradakı meşələrdə cüyür, vaşaq, meşə pişiyi, tülkü, boz dovşan yaşayır. Şuşa meşələrində ayıya və nəsli kəsilməkdə olan qabana, İran sincabına da rast gəlinir. Meşə – steplə həmsərhəd olan yerlərdə əkinlər üçün qorxulu olan çöl siçanları yaşayır. Bütün bunlarla yanaşı, Şuşa meşələrində süleysin və meşə süleysininə təsadüf edilir. Çılpaq və pulcuqlu sürünənlərdən – qayalıqlarda yaşayan kərtənkələ, koramal, uzun qıçlı Qafqaz qurbağası və başqaları burada yaşayır. Şuşa meşələrində yaşayan quşlar, adətən, yaşıl və əlvan ağacdələnlərdən, kəklik, göyərçin, sərçə və başqa xırda quşlardan ibarətdir. Şuşa meşələrində yaşayan adlarını çəkdiyimiz və çəkmədiyimiz heyvanların kökləri, məlum hadisə ilə bağlı kəsilmişdir. Aydın məsələdir ki, Şuşa meşələrində yaşayan bu çöl heyvanları təbiətimizin



gözəllik sərvəti olmaqla yanaşı, ilin müxtəlif vaxtlarında onların ovlanması iqtisadiyyatımıza müsbət təsir edir. Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın təbii sərvətlərindən özümüz, lazımi qaydada istifadə edəriksə, ölkəmizin iqtisadiyyatını yüksəldər, xalqımızın güzəranını yaxşılaşdırarıq. Hələ vaxtilə sovet quruluşu dövründə vilayət rəhbərliyi Şuşa meşələrinə biganə yanaşmış və heyvandarlığın inkişafı məqsədilə Şuşa meşələri tədricən qırılaraq aşağı enməsilə get-gedə meşə mənzərələrini dəyişib seyrəkləşmiş və otlaqlara çevrilmişdir.

Şuşada bir neçə seysmik ocaq müşahidə edilmişdir ki, bunların zəlzələ gücü 5–6 baldan artıq olmur. Lakin 1903 və 1932-ci illərdə Şuşada gücü 7 bala çatan zəlzələlər baş vermişdir [82].

Şuşa özünün təbii mənzərəsi, gözəl havası, saf suyu, tərifli İsa bulağı, Turş suyu ilə bütün dünyada tanınmışdır. Narzana oxşar bir neçə mədən suları içərisində Şuşa şəhərindən 19 kilometr cənub-qərb tərəfdə olan Lisaqor aşırımı yaxınlığındakı lisaqor mədəni daha böyük müalicəvi əhəmiyyətə malikdir. Təbiətinin gözəlliyinə, iqliminin saflığına görə Şuşa Qafqazın yaraşığı hesab edilmişdir. Sağlamlıq və istirahət məskəni, Qarabağın ən gözəl guşəsi olan Şuşa uzunömürlülər diyarıdır. Ərazidə yaşamış 157 yaşlı Qabil kişinin, 146 yaşlı Həsən Qambalıyevin və başqalarının adlarını fəxrlə çəkmək olar. Müalicəvi əhəmiyyətə malik Şuşa iqlimi dünya alimləri tərəfindən öyrənilmişdir. Professor Fiqroviskiyə görə Şuşa – Kislovodsk və Abastumani kurortlarına bərabər, İsveçdəki Davos kurortlarından üstündür [84].

Şuşanın iqlimi yayı quraq keçən mülayim isti və qışı quraq keçən soyuq iqlim tipinə aiddir. İqlim nisbətən mülayim və mötədildir. Şuşada yay sərin, qış isə mülayim keçir. Ərazidə daim zəif şərq küləyi əsir. Şuşada həm yayda, həm də qışda günəşli gün çox olur. Havanın ortaillik temperaturu 8°C-dir. Orta yanvar temperaturu –1,5°C (–1–4°C), orta iyul temperaturu 18,5°C-dir (+16–19°C). Şuşada yağıntının orta illik miqdarı 700–800 millimetrdir (yanvarda 32 millimetr, iyulda 49 mm) [60]. Qafqazın başqa yerlərində olduğu kimi yalnız yağış çox olduğundan günəşin istiliyi zəifləyir. Dumanlar ən çox payızda və yazda olursa da, Şuşada hava quru keçir. Duman ən çox səhərlər olduğundan bu insan orqanizminə müsbət təsir edir və bəzi xəstəliklərin müalicəsi üçün əhəmiyyətlidir. Professor K.A.Yeqorov qeyd edirdi ki, Şuşa iqlimi – vərəm xəstəliklərinin, qan azlığının, ağır qızdırmanın, göy öskürəyin, ciyər iltihabının, həddindən artıq yorğunluğun, plevrit xəstəliyinin və başqa xəstəliklərin dərmanıdır. Şuşa iqlimi burada yaşayan insanların bədəninin möhkəmliyini yaxşılaş-

dırır. Bütün bunlarla yanaşı, «Şuşa mənzərələri» – «Qız qayası», «Yuxarı Daşaltı», «Qırx pilləkən», «Şırşır» və başqa gözəl mənzərələr insanın şəfa tapmasına kömək edir və yorğunluğunu çıxarır.

Şuşa həm də tariximizin yadigarı olan abidələr diyarıdır. Şuşa abidələrini öyrəndikcə yaddaşımız daha da möhkəmlənir və Şuşa şəhərinə olan məhəbbətimiz artır. Belə abidələrə misal olaraq, Şuşanın 5 kilometr cənubunda Zarıslı (Daşaltı) çayının (Qarqar çayının qolu) sol sahilində, Qarabağ dağ silsiləsi ətəyində Daşaltı kəndində müdafiə qalasını, XVIII əsrdə İbrahim Xəlil xanın tikdirdiyi sığınacaq evini, lövhəni, hamamı; uzunluğu 125 metr, eni və hündürlüyü 10 metr olan (e.ə. IV–II minilliyə aid) Şuşa mağarasını; Şuşanın 15 kilometrliyində yerləşən Malıbəyli kəndindəki tunc dövrünə aid kurqanları, Qarqarların və Albaniya dövlətinin adının saxlanmasına aid toponimləri (Qarqar çayı, Ağvan çayı, Ağvan düzü) və başqalarını göstərə bilərik [64, s.21]. Şuşa abidələri, əsrlər boyu müxtəlif dövrlərdə torpaqlarımıza basqın etmiş yağılar tərəfindən dağıdılmış və xarabalıqlara çevrilmişdir.

Şuşanın təbii gözəlliyini daha da artıran onun meyvə bağlarıdır. Belə ki, «Aşağı Daşaltındakı» tut bağları, «Şuşa albuxarası», «Məleykə armudu», «Çanaxçı xiyarı», «Zarışlı qaymağı», «Xəlfəli moruğu» və başqaları Şuşanın qiymətini daha da artırır. Şuşa meşələrindəki dərman bitkiləri – itburnu, bağayarpağı, ağtikan, üskükotunun hər bir yarpağı müəyyən xəstəliklərin məlhəmidir. Vaxtilə Şuşa şəhərində yaşamış Məşədi Əkbərin yuxarıda adlarını çəkdiyimiz bitkilərlə müalicəsi bütün Dağlıq Qarabağda, Azərbaycanda məşhur idi. Suyu turş olan və suyu mədə xəstəliklərinin, iştahasızlığın dərmanı olan «Turşsu» Şuşanın 18 kilometrliyində yerləşir. «Turşsu»yun xüsusi ürəkaçan mənzərəsi vardır. Həmçinin yel xəstəliklərinin dərmanı olan «Dəmirsu» da burada yerləşir. Şuşada belə sular çoxdur. Məsələn, Şırlan kəndi yaxınlığında «Köhnə şir» dağının ətəyində «Xəlfəti» çayı ilə «Sarı Baba» bulağının görüşdükləri yerdə mədə və bağırsaq xəstəliklərinin dərmanı olan daha bir turş su çıxır. Həmin suyun başqa sulardan fərqi ondadır ki, Şırlan suyu digər tərkibli suya qarışdıqda rəngi dərhal dəyişir. Şuşanın kaliumlu və karbonatlı bulaqları 12 saat ərzində 500 min litr su verir [84].

Şuşanın hər yeri – «İsa bulağı» da, «Turşsu»yu da, «Fındıqlı gölü» də, «Cıdır düzü» də, «Qırx pilləkən»i də şəhərə gözəllik verir, onun qiymətini birə min artırır. Şuşanın «Sarı Baba» adlanan ərazisində asbest yataqları vardır ki, bu yataqlardan təkcə Azərbaycanda deyil, bütün İttifaq miqyasında istifadə edilirdi.



Beləliklə, Şuşa zəngin və tayı bərabəri olmayan kurort-turizın ehtiyatlarına malikdir. Onların əsasını isə ərazinin səfalı, təmiz dağ havası, meşələri, müalicəvi əhəmiyyətli mineral suları, bulaqları, mənzərələri, alp çəmənlikləri, tarixi abidələri, yerli əhalinin qonaqpərvərliyi və sair təşkil edir. Çox təəssüf ki, bunlar tamamilə dağıdılıb erməni faşistləri tərəfindən məhv edilmiş, talanmış, azərbaycanlılar isə öz ata-baba məskənindən qovulmuşlar. Hər halda gec-tez torpaqlarımızdan erməni cəlladlarının qovulacaqlarına, həmvətənlərimizin öz doğma el-obasına qayıdacağına inanırıq.

Şuşanın iqtisadiyyatında kənd təsərrüfatı üstünlük təşkil edir. Şuşa çoxsahəli kənd təsərrüfatına malikdir. Əsas kənd təsərrüfatı sahələri heyvandarlıq, tütünçülük, bağçılıq, tərəvəzçilik, arıçılıqdır. Şuşada kənd təsərrüfatına yararlı torpaq sahəsi 20 min hektardır (1988-ci il məlumatı). Şuşada 25 kolxoz, 5 sovxoz fəaliyyət göstərir. Kənd təsərrüfatına yararlı torpaqlardan 3,8 min hektarı əkin sahələridir. Əkin sahələrindən yalnız 0,1 min hektarı suvarılır. 3,4 min hektar əkin sahəsinin 1,5 min hektarında dənli və paxlalı bitkilər – xüsusilə buğda, arpa, qarğıdalı əkilir. Ərazidə quraqlığa davamlı, bərk buğda sortları əkilir. «Arandəni», «Şirvandəni», «Şərq», «Sevinc» sortları buna misaldır. Əkin sahəsinin 0,1 min hektarında çoxillik bitkilər əkilir [10]. Şuşanın çoxillik bitkiləri arasında Şah-tut ağacları görkəmli yer tutur. Çox qulluq tələb etməyən bu ağac Şuşada qədimdən becərilir. Şah-tut spirt istehsalında əsas xammaldır. Bundan başqa, ondan az miqdarda bəhməz hazırlanır, təzə halda yeyilir. Tut sahələri ildən-ilə genişləndirilir. Çünki tut ağacı həm də ipəkçiliyin əsas yem bazasıdır. Əkin sahələrinin 6 faizində tərəvəz-bostan bitkiləri və kartof əkilir. Kartof yerli əhalinin tam tələbatını ödəyir. Hətta həyətyanı təsərrüfatlarda da kartof əkilir. Şuşanın kənd təsərrüfatına yararlı torpaqlardan 0,3 min hektarı biçənəklər, 16,7 min hektarı otlaqlardır. Şuşanın iqtisadiyyatında heyvandarlıq əsas yer tutur. Ona görə də təsərrüfatın 53 faizində heyvandarlıq üçün əhəmiyyətli olan yem bitkiləri əkilir. 1987-ci il məlumatına görə Şuşanın təsərrüfatında 5,2 min qaramal, 15,2 min baş davar var idi. Burada həmçinin quş da saxlanılır [29, s.36].

Şuşada kənd təsərrüfatı texnikası təmiri müəssisəsi, Şərq musiqi alətləri fabriki, Elektrik şəbəkəsi, Qarabağ ipək kombinatı, istehsalat kombinatı, çörəkbişirmə müəssisəsi, Bakı radioqayırma birliyinin 1 saylı filialı fəaliyyət göstərirdi. Çox təəssüflər olsun ki, yuxarıda adlarını sadaladığımız və adları çəkilməyən müəssisələrimiz xain qonşularımız tərəfindən ələ keçirilmişdir.

*1932*-ci ildən Şuşada «Şuşa» qəzeti çap edilməyə başlamışdır. *Həmin* qəzetin adı dəyişdirilərək 1938-ci ildən «Sosialist maldarlığı», 1963-cü ildən «Kolxoz bayrağı», 1966-cı ildən «Şuşa kurortu» adlandırılmağa başlamışdır. 1965-ci ildən isə Şuşada yerli radio verilişləri redaksiyası fəaliyyətə başlamışdır [73, s.16].

1987-ci il məlumatına görə, Şuşada 22 ümumtəhsil məktəbində (bunlardan 1-i ibtidai, 4-ü səkkizillik, 17-si orta məktəb idi) 4075,7 məktəbəqədər müəssisəsində 565 uşaq, 1 orta texniki peşə məktəbində 324, 2 musiqi məktəbində 451 şagird, Mədəni maarif məktəbində 643, Kənd Təsərrüfatı Tenxnikumunda 530 tələbə təhsil alırdı. Bunlardan başqa, Şuşada 6 mədəniyyət evi, 12 klub, 20 kitabxana, 20 kinoqurğu da fəaliyyət göstərirdi. Bütün bunlarla yanaşı, iqlimi kurort olduğundan ərazidə 135 çarpayılıq 2 xəstəxana müəssisəsi, 11 feldşer-mama məntəqəsi, sanitariya-epidemioloji stansiya, sanatoriya, istirahət evləri, pioner düşərgələri, turbaza var idi [74, s.78].

Təəssüf doğuran bir həqiqəti qeyd etməliyik ki, «Alınmaz qala» adlandırılan Şuşamız xəyanətin, biganəliyin qurbanı oldu. Hər şey dağıdıldı, yandırıldı. Şuşanın günahsız insanları isə öz doğma vətənində qaçqına, köçkünə, didərginə çevrildi.

Şuşanın yaranma tarixi və etimologiyası barədə müxtəlif mülahizələr var. Elmi ədəbiyyatda Şuşanın ərazisinin 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, son tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu sübut edir [72, s.106]. Pənahəli xan isə çox mühüm hərbi strateji mövqedə yerləşən həmin yaşayış məntəqəsinin ətrafına müdafiə divarı çəkdirmiş və oranı abadlaşdırmışdır.

«Qala» adı ilə tanınmış Şuşa özü boyda canlı tariximizdir. Buradakı abidələr isə tariximizin yadigarı və səhifələridir. Şuşa abidələri xalqımızın keçdiyi şanlı və böyük həyat yolundan xəbər verir. Bu abidələrin öyrənilməsi keçmişimizə, torpaqlarımıza olan məhəbbətimizi daha da dərinləşdirir. Hələ vaxtilə Əhməd bəy Cavanşir «Qarabağ xanlığının siyasi vəziyyətinə dair» əsərində yazırdı ki, Şuşanın cənub-şərqində dərin dərənin üstündə gözəl bir bürc var idi. Bu bürc Şuşanın o biri tərəfində olan qaya üzərində ətrafında bir cığır belə olmayan yuva kimi görünür. Lakin qayanın eninə dağıdılmış olan hissəsi vaxtilə bu qalaya yol olduğunu və həm də burada yaşayışın mövcudluğunu sübut edir. «Xəzinə qayası» adlanan həmin bürc XIX əsrin ikinci yarısında macəra və dəfinə axtaranlardan Kərbəlayi Məhəmməd adlı birisi dağıtmışdır. Kərbəlayi Məhəmməd isə yerli ağsaqqallara bildirmişdir ki, həmin bürcdə yastı və uzun mis pullar, daş və mis alətlər, insan sümükləri və sair tapmışdır. «Xəzinə qayası»nın aşağısında, ona bitişik, keçmiş tariximizin daha bir yadigarı aşkar edilmişdir ki, həmin qəsrdə qədimdən burada yaşayışın mövcud olduğundan «xəbər verən» dəlillər aşkar edilmişdir. Bu qəsr ən qorxulu düşmənlərdən müdafiə məqsədilə sığınacaq yeri idi. Hətta uzun müddət müqavimət göstərmək məqsədilə qəsrdə bulaq da var idi. Həmin qəsrin ön hissəsində isə «Şahnəzər kahası» adlanan bir kaha da vardır ki, bu kahanın ətrafı hasara alınmışdır. Deyilənlərə görə həmin kahanın ucu dərinliklərə gedir və yeraltı yol vasitəsilə başqa bir kaha ilə birləşir. Belə məlum olur ki, Şuşa mühasirə olunarkən həmin kahadakı yol vasitəsilə ətraf kəndlərdən ərzaq gətirmək mümkün olurmuş. «Şahnəzər kahası» və oradakı yol xalqımızın lap qədim zamandan bacarıqlı, bilikli bir xalq olduğunu sübut edir. Şuşadakı abidələrimizin çoxu isə müxtəlif dövrlərdə torpaqlarımıza basqın etmiş yağılar tərəfindən dağıdılmış və xarabalıqlara çevrilmişdir.

Şuşanın iqlim şəraiti əlverişli olduğu üçün burada ibtidai insanların məskunlaşmasına səbəb olmuşdur. Burada yaşayan ibtidai insan ən çox mağaralarda, bəzi hallarda isə açıq havada məskən salıb yaşamışdılar. Şuşadakı hər şey – alət və silah düzəltmək üçün keyfiyyətli daş materiallarının bolluğu, daldalanmaq üçün dərin dərələr, təbii mağaralar, yaxşı iqlim şəraiti, zəngin yem və su ehtiyatı, qalın meşəliklər və sair ibtidai insanların diqqətini cəlb etmiş və onların burada yaşamasına səbəb olmuşdur.

Uzaq keçmişimizdən xəbər verən Şuşanın hər bir daşı qiymətli bir kitabdır. Şuşadan baxanda vüqarlı görünən «Dotələb təpəsi» öz görünüşünü bu gün də qoruyub saxlamışdır. Bu təpə zəmanəmizə qədər qəhrəmanlıqla dolu bir «dastan» gətirib çıxarmışdır. Ağsaqqalların dediklərinə görə lap qədimdən Şuşa torpağına qədəm qoyan hər bir pəhləvan «Dotələb təpəsi»nə qalxar və buradan nərə çəkərək özünə qənim istərmiş. Həmin meydan pəhləvanların yarış meydanına çevrilmişdir. O dövrdən belə bir qanun qoyulmuşdu ki, qalib gələn pəhləvana qiymətli bəxşişlər verib şəhərə buraxarmışlar, məğlub olanları isə yarış meydanından geri qaytararmışlar. Bu dastan ulu babalarımızın igidliyindən, mərdliyindən, qorxmazlığından xəbər verir.

Tariximizin mürəkkəb və keşməkeşli inkişaf dövründə Şuşa xalqı özünəməxsus yüksək maddi və mənəvi mədəniyyət yaradaraq, Azərbaycan mədəniyyət xəzinəsinə qiymətli töhfə vermişdir. Zəngin tarixi hadisələrlə dolu olan «Cıdır düzü» xalqımızın istirahət mərkəzi olmaqla yanaşı, həm də ziyarətgahımız hesab edilir. Çünki xalqımızm sevimli şairi Molla Pənah

Vaqifin, görkəmli alimimiz Mir Mövsün Nəvvabın ruhları burada uyuyur. Eyni zamanda «Cıdır düzü» ətrafında tariximizin qədim yadigarları – «Ağzı yastı kaha», «Xəzinə qayası», «Üç mıx» yerləşmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda və onun ən möhtəşəm abidələrindən olan Şuşada aparılan arxeoloji tədqiqat işləri nəticəsində ərazidə qədim insanın meydana gəlmәsi və formalaşmasını sübut edən zəngin elmi məlumatlar və maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. XX əsrin ikinci yarısında Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqat işləri respublikamızın ərazisinin qədim insanın yaranma və formalaşması ərazilərindən biri olmasını elmi faktlarla sübuta yetirmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, Şuşadakı təbii mağaralar, iqlim şəraiti, meşəliklər və heyvanlar aləmi ərazidə qədimdən yaşayışın mövcudluğunu şərtləndirən amillər idi.

Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının əməkdaşları, hörmətli alimimiz M.M.Hüseynovun rəhbərliyi altında 1971-ci ildən başlayaraq Şuşa ərazisindəki mağaralarda elmi tədqiqat işlərinə başladılar. Mağaralarda iş aparmaq həm çətin, həm də təhlükəli idi. Çünki ulu babalarımızın yaşayış məskəni olmuş mağaralarımız yüz illər boyu insan ayağı dəyməyən daşlı-kəsəkli bir səhraya çevrilmişdi. Uzun müddət Şuşa mağarasının sirri insanlardan gizli qalmışdır. Bəziləri mağaranın ucsuz-bucaqsız olması, digərləri isə buranın müqəddəs yer olduğunu söyləyirdilər. Mil-Qarabağ ekspedisiyası 1971-ci ilin iyulunda Cıdır düzündəki Zarışlı (Daşaltı) çayının dərəsindən işə başlamışdılar. Həmin mağara («Şuşa mağarası») dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşirdi [69, s.101]. «Şuşa mağarası»nın girəcəyində çoxlu daş yığılmışdı. Bu da onu deməyə imkan verir ki, qədim insanlar qonşu tayfaların hücumlarından müdafiə olunmaq üçün mağaraya girir və həmin daşlarla özlərini müdafiə edirmişlər. Maraq doğuran cəhətlərdən biri də ondan ibarətdir ki, mağaranın kənarında içməli su da olmuşdur. Şuşa mağarasının uzunluğu 120 metr, eni 20 metr idi. Mağaranın başlanğıcında qədim və orta əsrlərə aid qalın daş istehkamlar, qala və bina divarlarının qalıqları var idi [70, s.5].

Şuşada aparılan arxeoloji qazıntı tədqiqat işləri nəticəsində mağaranın içərisində 2 metr dərinlikdən Paleolit (qədim daş) dövrünə aid 2 ədəd kobud çapacaq aşkar edilmişdir. Həmin alətlərdən biri Şuşa muzeyinə verilmiş, ikincisi isə Azərbaycan Milli Elmlər Akademiyasının «Daş əsri» şöbəsində saxlanılır. Bundan əlavə, Şuşa mağarasındakı qazıntı işləri nəticəsində burada bizim eradan əvvəl V–IV minilliklərə aid torpaq və gil qarışığından hazırlanmış qab məmulatları, enolit, tunc və dəmir dövrlərinə aid saxsı məmulat qırıqları, mezolitə aid mikrolit bıçaqlar aşkar edilmişdir [55, s.42]. Mağarada tapılmış əmək alətlərinin zəngin tarixə malik olduğu sübut edilmişdir. Şuşa mağarasında tapılmış maddi mədəniyyət qalıqları Azıx mağarasının və Quruçay dərəsində yaranan daha qədim mədəniyyətin davamı idi. Burada tapılmış alətlərlə Azıx mağarasındakı kobud daş alətlər arasında bir uyğunluq, oxşarlıq vardır. 240 kvadrat metrlik Şuşa mağarasında müasir insanların əcdadları uzun illər boyu ömür sürmüşlər. Paleolitin erkən və orta dövrlərində Azərbaycan ərazisində insanlar kollektiv əməyə əsaslanmış və kiçik qruplar şəklində yaşamışlar. Onların əsas məşğuliyyəti yığıcılıq və ovçuluq olmuşdur. Şuşa mağarasında yuxarı paleolitə aid çaxmaq daşından bıçaqvari lövhələr və habelə kəsicilər tapılmışdır [64, s.70].

Dağlıq Qarabağ ərazisində mis yataqları olduğu üçün ulu əcdadlarımızın hazırladığı alətlərin çoxu misdən idi. Burada metal məmulatlar – bıçaqlar, bizlər, iynələr, ox ucluqları tapılmışdır. Bu alətlər döymə üsulu ilə hazırlanmışdır. Şuşa mağarasında azacıq cilalanmış, naxışlarla bəzədilmiş kobud və saxsı qablara da təsadüf edilirdi. Qabların rəngli boyalarla naxışlanması Azərbaycanda eneolit dövrünün başlandığını sübut edirdi. Eyni zamanda qablara naxışvurma Azərbaycanın Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrinin olmasını da göstərirdi. Şuşada tapılmış mikrolit alətlərdən bıçaqlara, bizlərə Qobustanda da rast gəlmək mümkün idi. Həmin alətlər daş dövrünün firuz mərhələsinə aiddir.

Şuşa mağarasında eramızdan əvvəl III–II minilliklərə aid əşyalar tapılmışdır ki, bu əşyalar misə qalay, arsen qatmaqla yaranmışdır. Qədim və Orta tunc dövrünə aid olan əmək alətləri, silah və bəzək əşyaları eynilə I Kültəpədə, Babadərvişdəki əşyalara oxşayırdı. Şuşa mağarasındakı əşyalar üzərində gözəl əl işləri var idi ki, həmin şəkilləri «addımlayan möhürlər» və ya «oyulmuş qıfıl yerləri» adlandırırdılar [64]. Bütün bunlar isə qədim Şuşa sakinlərində şüurun inkişafını, incəsənətin və mədəniyyətin tərəqqisini göstərən amillər idi. Ağdamın Üzərliktəpə adlanan ərazisindəki əşyalar üzərindəki şəkillərlə Şuşa mağarasındakı əşyalar arasında tamamilə bir uyğunluq vardır. Eyni zamanda Şuşa mağarasındakı əşyalara bütün Quruçay və Köndələnçay arasındakı ərazilərdə də rast gəlinmişdir. Ərazidə eramızdan əvvələ aid əşyalar tapılmışdır ki, bu əşyalar dəmir dövrünə aid idi.

Beləliklə, aparılan tədqiqatlar nəticəsində məlum olur ki, gözəl Qarabağımızın cənnət yaylağı, Oğuz–Türk diyarımız olan barlı-bərəkətli, min bir nemətli Şuşamız dünyada ilk insanların yaşadığı ərazilərdən biri

olmuşdur. Dağlıq Qarabağımızın hər bir qarış torpağında, daşında ulu babalarımızın nəfəsi duyulur. Məsələn, Xocalı arxeoloji abidələri (e.ə. XIII–VII əsrlərə aid), Tağlar mağarasındakı əmək alətlərinin zəngin tarixi (100 min il bundan əvvələ aid), Xankəndindəki kurqanlar (e.ə. V–III minilliklərə aid), Hadrutdakı memarlıq abidələri və başqa maddi mədəniyyət nümunələri nəinki Dağlıq Qarabağda ibtidai insanların yaranmasını göstərir, hətta bu ərazidə yaşayan ən qədim insanların uzun müddət məskən salaraq formalaşmasını, xalqımızın lap qədimdən mədəni, bilikli, bacarıqlı bir xalq olduğunu sübut edir [55, s.101].

Azərbaycanın İrəvan xanlığında özlərinə dövlət yaradan ermənilər bu gün tariximizi saxtalaşdırmağa çalışırlar. Hətta onlar tarixi abidələrimizi özününküləşdirmək üçün bütün yollardan (cinayət işlətməkdən belə) istifadə edirlər. Belə müəlliflərdən biri Ş.Mkrtıçyandır. Onun 1986-cı ildə İrəvanda çap edilmiş «Dağlıq Qarabağın tarixi memarlıq abidələri» adlı əsəri heç bir elmi əsası olmayan, boş bir cəfəngiyyatdır. Ermənilərin «alimi» hesab edilən Ş.Mkrtıçyan Qarabağdakı bütün abidələrin ermənilərə aid olmasını öz kitabında geniş şərh etmişdir. Ş.Mkrtıçyan erməni xalqının tarixinin başlanğıcını aşöl dövrünə aid edir (350–550 min il bundan əvvəl). Əvvəla, Ş.Mkrtıçyan bir həqiqəti bilməlidir ki, 550 min il bundan əvvəl, aşöl dövründə müasir insanın heç bir yerdə əcdadı yaşamayıb. Eyni zamanda həmin dövrdə ptikantrop, sinantrop tipli ibtidai insanlar yaşamışdır. Bütün bunlarla yanaşı, «hörmətli uzaqgörən alim» bir həqiqəti də yaddan çıxarır ki, 350–550 min il bundan əvvəl yer kürəsində heç bir millət və xalq olmayıb.

Erməni yazıçısı Sero Xanzadyan isə Ş.Mkrtıçyanın kitabına geniş həcmli məqalələr həsr etmişdir. Ş.Mkrtıçyanı erməni xalqının «tacı» hesab edən S.Xanzadyan 1986-cı il «Avanqard» jurnalının 5-ci sayında və 1989-cu il (aprel) «Kommunist» qəzetində, həqiqətən, Şuşa, Xocalı, Xankəndi, Azıx və başqa tarixi abidələrimizdəki maddi dəlillərin ermənilərə aid olması fikrini təsdiqləyir. Eyni zamanda S.Xanzadyan erməni «aliminə» məsləhət görür ki, onun tutduğu yol yaxşı yoldur, təkcə Qarabağ ərazisi yox, həm də Qazax-Şamxor, Şəki-Zaqatala əraziləri də Ermənistana aid olmuşdur və bu sahədə tədqiqat işini genişləndirmək lazımdır. Erməni «alimi» V.Ulubabayan isə «Kommunist» qəzeti 18 avqust 1988-ci il sayında Dağlıq Qarabağın Ermənistanın Şərq hissəsi olmasını yalançı faktlarla açıqlamağa çalışır. Müəllif Şuşa qalasını «Şoş qalası» adlandırır və həmin qalanın Pənahəli xana erməni Məlik Şahnəzər tərəfindən bağışlanılması fikri açıqlanmışdır. Elmə, fakta əsaslanmayan tarix, əsası, bünövrəsi olmayan binaya bənzər. Bu dəfəki erməni yalanı da «ayaq tutsa da, yerimədi». Görünür, Ulubabayanlar, Xanzadyanlar, Mkrtıçyanların «Qarabağnamələr»dən xəbərləri yoxdur. Dünyanın 70-dən çox ölkəsində öz naxələf, haqsız işlərinə haqq qazandırmaq üçün təbliğat aparan erməni müəllifləri vaxt gələcək ki, yalançı, saxta, cəfəng uydurmalarına görə xalqımız və dünya ictimaiyyəti qarşısında cavab verəcəklər. Qərəzsiz elmi araşdırmalara əsaslanaraq, qəti surətdə deyə bilərik ki, İrəvan xanlığı da daxil olmaqla, tarixin heç bir mərhələsində Azərbaycan ərazisində heç vaxt ermənilər ayrıca bir dövlət təşkil etməmiş, nə də ermənilər say çoxluğuna qətiyyən malik olmamışlar. Azərbaycanın ərazi bütövlüyü həmişə qorunub saxlanılmışdır.

1992-ci il fevralın 25-dən 26-a keçən gecə erməni faşistləri xalqımıza qarşı XX əsrin ən böyük faciələrindən biri olan Xocalı soyqırımını törətdilər. Həmin dəhşətli gecədə həmvətənlərimizdən 613 nəfər öldürülmüş, 487 nəfər yaralanmış, 1275 nəfər əsir götürülmüş, 6 ailə tamam məhv edilmiş və Xocalı şəhəri bütövlükdə yandırılmışdır [3.22.02.1997]. Xocalı faciəsi Azərbaycanda siyasi gərginliyi daha da artırdı. Düşmənin növbəti hücumu qədim Oğuz-Türk diyarımız Şuşaya istiqamətlənmişdi.

1992-ci ilin martında Şuşa istisna olmaqla, Yuxarı Qarabağda azərbaycanlılar yaşayan 55 yaşayış məntəqəsi 366-cı alayın və erməni silahlı birləşmələrinin birgə fəaliyyəti nəticəsində işğal edilmişdi. Olduqca böyük hərbi-strateji və mənəvi-siyasi əhəmiyyətə malik Şuşa şəhəri mühasirəyə düşmüşdü. Şəhərə güclü hücum gözlənilirdi. Bu zaman MDB-nin 366-cı alayının 180 hərbi mütəxəssisi və 90 ağır hərbi texnikası ermənilər tərəfinə keçmişdi [53,12.03.1992].

Düşmənin hücuma keçəcəyi məlum olsada, şəhərin müdafiəsi çox zəif qurulmuşdu. Şuşanın müdafiəsində cəmi 24 ağır hərbi texnika dururdu. Bunların isə çoxu işlək vəziyyətdə deyildi. Hərbi rabitənin işi, Şuşanın müdafiəçilərinin hazırlıq səviyyəsi, orduda nizam-intizam çox aşağı səviyyədə idi. Şəhəri müdafiə edən silahlı qüvvələr arasında ziddiyyətlər dərinləşmiş, parçalanma baş vermiş və bununla da güc zəifləmişdi.

1992-ci ilin aprelində düşmən diplomatiyası məharətli bir manevr etdi. Guya İranın vasitəçiliyi ilə danışıqlar aparılmış, xarici dövlətlərin nümayəndələri bölgədə «sabitlik» yaratmaq üçün Şuşaya dəvət olunmuşdur. Ona görə də Şuşanın ətrafında minalanmış sahələr zərərsizləşdirilmiş, xeyli döyüşçü qısa müddətli «məzuniyyətə» buraxılmışdı. Hətta bu zaman Şuşa Taboru ştatında 1500 döyüşçüdən 500 nəfər qalmışdı. Şuşa şəhərinin müdafiəsində dayanan 200 nəfər könüllü öz silahları ilə şəhəri tərk etmiş-

dilər. *Hərbi texnika*, «Qrad» qurğuları şəhərdən çıxarılmış, xüsusi Milis Taborunun 120 nəfərlik *döyüşçüsü ilə 1992-ci il* mayın 4-də Şuşanı tərk edib Böyük Kirsdə mövqe tutmuşdular [91]. Təsadüfi deyildir ki, Rusiya *televiziyasının* «Vesti» proqramı «Kirs mövqeləri»ndən Azərbaycan əsgərlərinin «müsahibələri»ni təqdim etmişdi. Bu «müsahibə», əslində, ordumuzun hərbi sirrinin düşmənə satılması demək idi. Vəziyyətdən istifadə edən erməni hərbi rəhbərliyi gecə vertalyotlar vasitəsilə yanan şarlardan istifadə edərək bütün Şuşa ətrafındakı mövqelərimizin şəklini çəkib hücum planını asanlaşdırmışdı. Beləliklə, Şuşa ətrafında arxayınçılıq yaradılmış, şəhərin işğalı üçün tam zəmin hazırlanmışdı.

Yaranmış əlverişli vəziyyətdən çox məharətlə istifadə edən düşmən 1992-ci il mayın 7-dən 8-nə keçən gecə Şuşanı güclü artilleriya atəşinə tutdu. Şuşanın müdafiəsində az adam və çox da güclü olmayan hərbi texnika var idi. Düşmən isə hücumda 80 T–72 tankdan, 6000 döyüşçüdən, xarici muzdlu əsgərlərdən istifadə etdi. Şuşaya hücum zamanı 366-cı alayın döyüş texnikası və əsgəri qüvvəsi öz «xidmətlərini» əsirgəmədilər [91, 05.06.1992].

1992-ci il mayın 8-də səhərə yaxın erməni hərbi birləşmələri Şuşa ətrafındakı mövqelərimizin əksəriyyətini ələ keçirdilər. Yalnız bəzi mövqelərdə milli qüvvələr düşmənə qarşı qəhrəmanlıqla vuruşdu. «Qayabaşı» adlanan yerdə mövqe tutmuş əsgərlərimiz son nəfəslərinədək döyüşüb, 40 nəfər şəhid versələr də güclü hücumun qarşısını almaq mümkün olmadı [91]. Təssüflər olsun ki, şəhəri müdafiə edənlərə yaxın bölgələrdən kömək gəlmədi. Axşama yaxın köməyə göndərilmiş vertalyotlarımız isə səhvən şəhərin müdafiəçilərinin mövqeyini atəşə tutmuş, piyadalar üçün döyüş maşınlarını məhv etmişdi. 1992-ci il mayın 8-də, axşam Şuşanı müdafiə edən 40 nəfər müdafiəçi şəhəri tərk etmək məcburiyyətində qalmışdı [51]. Beləliklə, 1992-ci il mayın 8-də erməni faşistləri, 366-cı alayın və xaricdən muzdla tutulmuş qüvvələrin gücündən və hərbi texnikasından istifadə edərək 289 kvadrat kilometr ərazisi, 24 min nəfər əhalisi, 1 şəhəri, 30 kəndi olan Şuşa rayonunu işğal etdilər. Şuşa uğrunda gedən döyüşlərdə şəhərin 155 müdafiəçisi şəhid olmuş, 167 nəfər yaralanmış, 49 nəfər itkin düşmüşdü [16]. Hansı ki, həmin itkinlərin çoxunun sonrakı taleyi barədə bu gün də məlumat yoxdur.

Şuşa uğrunda gedən döyüşlərdə Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdikləri şəxsi igidlik və şücaətə görə qədim tarixə malik, igidlər vətəni Şuşada dünyaya göz açmış Teymurov Rizvan



Rəhman oğluna və Qəmbərov Ramiz Bulud oğluna Azərbaycan Respublikası Prezidentinin 1992-ci il fərmanı ilə «Azərbaycanın Milli Qəhrəmanı» adı verilmişdir [61,s.27]. Ramiz Qəmbərov, Rizvan Teymurov və bütün milli qəhrəmanlarımız doğma torpaq, müqəddəs yurd uğrunda canlarını qurban verdilər. Onlar şəhidlik zirvəsinə ucalaraq ölümsüzlüyə qovuşdular. Vətənini sevən, onun uğrunda canından keçən qəhrəmanlar heç vaxt unudulmur, xalqın qəlbində əbədi yaşayırlar. Onlar gənc nəslə həmişə örnək və nümunədirlər.

Şuşada Azərbaycan Ordusunun müvəqqəti məğlubiyyəti səbəblərini təhlil edərkən məlum olur ki, erməni hərb və təbliğat maşını müharibəyə daha ciddi hazırlaşmış, Azərbaycandakı 366-cı rus alayından onun canlı qüvvə və silahlarından öz məqsədləri üçün istifadə etmişdilər. Azərbaycan isə «Qarabağ savaşı»na hazır deyildi. Orduda səriştəsizlik, hərc-mərclik, özbaşınalıq, əlaqəsizlik var idi. Ölkəmiz iqtisadi, siyasi və sosial böhran içində idi. Əlbəttə, bütün bu və ya digər daxili və xarici, obyektiv və subyektiv səbəblər «Qarabağ savaşı»nda müvəqqəti məğlubiyyətimizə gətirib çıxardı.

Şuşanın işğalında iştirak etmiş iki rus zabitinin gündəliyini nəzərdən keçirməklə 366-cı alayın millətimizə qarşı necə mövqe tutmasını aydın görmək olar. Belə ki, rus zabiti mayor Yuriy Qirçenko öz gündəliyində yazırdı ki, «20 may 1992-ci il. Xocalı və Şuşanın işğalından sonra 366-cı motoatıcı alayın bütün hərbi texnikası ermənilərə qaldı. Buradakı əsgər və zabitlərimiz ancaq vertalyotlarla əvvəlcə «Gəncəyə, sonra isə Tiflisə daşındılar». Podpolkovnik Azarov isə yazırdı ki, «biz Şuşada dinc əhalini də qırdıq» [29, s.71]. Bu da acı bir tarixi faktdır ki, Şuşa erməni quldurları tərəfindən işğal edilərkən 1 yaşlı Abbasov Coşqun Süleyman oğlu və 102 yaşlı Zeynalova Nubar Kərim qızının adları da həmin şəhidlər sırasında var idi [59, s.112].

Beləliklə, Şuşanın süqutu ilə erməni faşistləri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalı başa çatdı. Bundan sonra hücumlarını davam etdirən erməni faşistləri bütövlükdə Azərbaycan torpaqlarının 20 faizini işğal etdilər. Azərbaycan bu müharibədə 20 mindən çox övladını itirdi. 1 milyondan artıq Azərbaycan vətəndaşı öz vətənində qaçqınlıq həyatını yaşamalı oldu. Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında 900 yaşayış məntəqəsi, 2389 sənaye və kənd təsərrüfatı obyekti, 131 min ev 1025 məktəb, 798 səhiyyə ocağı təcavüzün qurbanı olmuş, 280 min hektar meşə, 1 milyon hektar məhsuldar torpaq, 1200 km irriqasiya sistemi, 220 min baş iribuynuzlu mal-qara düşmən əlinə keçmişdir. Erməni

vandalları mədəni irsimizə dağıdıcı zərbə vuraraq 927 kitabxananı, 100 arxeoloji abidəni, 454 tarixi abidəni və muzeyi, 40 min muzey eksponatını qəddarcasına məhv etmişlər. İlkin hesablara görə işğal nəticəsində Azərbaycan öz iqtisadi potensialının 16 faizini itirmiş və ölkəmizə 60 milyard ABŞ dollarında ziyan dəymişdir [89, s.11]. Lakin biz inanırıq ki, qeyrətinə arxalandığımız, ümidimizi bağladığımız Koroğlu, Babək, Nəbi nəslinin davamçıları olan mərd oğullarımız Oğuz–Türk diyarımız, gözəl Qarabağımızın cənnət torpağı, əfsanəvi və tükənməz sərvətlər xəzinəsi, alınmaz Qala-Şuşamızı və bütün Qarabağımızı tezliklə əsarətdən xilas edəcəklər. Eyni zamanda müstəqil Azərbaycan dövlətini ilk tanıyan və müdafiə edən Türkiyə kimi super dövlətin xarici strategiyasının ana xəttini Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə təşkil edir. Təsadüfi deyildir ki, Türkiyənin dəstəyi ilə qısa bir müddətdə Azərbaycanı 116 dövlət tanıdı və 14 beynəlxalq təşkilata üzv qəbul olundu, dünyanın 57 dövləti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü pislədi. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Türkiyənin rolunu xüsusi qeyd etməliyik. Təkcə bir faktı qeyd edək ki, münaqişənin dinc yolla həlli üçün 1993–2003-cü illərdə ABŞ rəhbərliyi ilə 18 dəfə, Fransa ilə 16 dəfə, Rusiya ilə 28 dəfə görüş keçirilmişdirsə, qardaş Türkiyə dövləti ilə 78 dəfə müzakirə edilmiş və problemin həlli yolları araşdırılmışdır [90]. Türkiyə Böyük Millət Məclisi isə Azərbaycana qarşı öz mövqeyini «Bir millət iki dövlət» prinsipi üzərində qurmuşdur. Beynəlxalq təzyiqlərə baxmayaraq, Türkiyənin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ probleminə münasibəti dəyişməz olaraq qalmışdır. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ probleminə Türkiyənin rəsmi və dəyişməz mövqeyi Türkiyənin nüfuzlu mətbu orqanlarında, radio və televiziya verilişlərində həmişə müsbət münasibət göstərilmişdir. Bu gün Türkiyə diplomatiyasının Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması istiqamətində gərgin səyləri öz bəhrəsini verməkdədir.

Dünya ictimaiyyəti artıq Azərbaycan həqiqətlərinə daha çox yaxındır. Azərbaycana Türkiyənin birmənalı mövqeyi dövlətimizi sürətlə Avroatlantika inteqrasiya olunmasına şərait yaratmışdır. İşğalçı Ermənistan isə daha çox dünya birliyindən, dünyada və bölgədə gedən proseslərdən kənarda qalmaqdadır.

Bu gün Azərbaycan dövləti etibarlı əllərdədir. Heydər Əliyevin zəngin idarəçilik və siyasi məktəbini keçmiş, layiqli davamçı, xalqın və dünyanın razılıqla qarşıladığı istedadlı dövlət xadimi, yüksək idarəetmə qabiliyyətinə



malik gənc və istedadlı lider İlham Heydər oğlu Əliyev atasının siyasi xəttini inamla davam etdirir. İ.H.Əliyev prezident seçildiyi vaxtdan keçən dövr ərzində Azərbaycan həm siyasi, həm sosial-iqtisadi, həm də beynəlxalq münasibətlərdə yeni-yeni nailiyyətlər qazanmışdır. Həmçinin İlham Əliyevin xarici siyasət sahəsində fəaliyyətinin əsas istiqamətlərindən birini «Dağlıq Qarabağ problemi»nin sülh yolu ilə həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda mübarizə təşkil edir. İlham Əliyev çıxışlarında dəfələrlə bəyan etmişdir ki, «Azərbaycan dövləti və xalqı Dağlıq Qarabağ məsələsinin ədalətlə, sülh yolu ilə həll edilməsinin tərəfdarıdır. Lakin sülh imkanlarının tükənməsi Azərbaycanı silahlı yolla torpaqlarını azad etmək hüquqlarından istifadə etmək məcburiyyətində qoya bilər. Güclü orduya malik Azərbaycan dövləti buna qadirdir. Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan ərazisində ikinci bir Ermənistan dövləti yaransın. Nicatımız birlikdədir». Azərbaycan xalqı Prezidentinin ətrafında sıx birləşməklə, Türkiyənin dəstəyindən səmərəli istifadə edərək ərazi bütövlüyümüzü tam bərpa edə bilər və edəcəkdir!!!

# VIII FƏSİL

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA MİLLİ-MƏDƏNİ DİRÇƏLİŞ SİYASƏTİ VƏ ŞUŞA ŞƏHƏRİNİN MADDİ-MƏDƏNİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİ

1969-cu ildə Azərbaycanın müasir tarixində dönüş mərhələsinin təməli qoyuldu. Ağlı və işgüzarlığı sayəsində general-mayor rütbəsinədək yüksəlmiş görkəmli tarixi şəxsiyyət H.Ə.Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçildi [12]. Həmin ilin avqustun 5-də H.Ə.Əliyev Azərbaycan KP MK Plenumunda çıxış edərək Respublikamızın iqtisadiyyatının dərin və hərtərəfli təhlilini vermiş, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanlar olduğunu qeyd edərək onun aradan qaldırılması yollarını göstərmişdi [11].

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan KP-nın qurultaylarında, MK-nın plenumlarında, vaxtaşırı çağırılmış müşavirələrdə dövlətimizin iqtisadi, mənəvi və sosial-mədəni inkişafının konkret vəzifələri müəyyən edilmişdi. Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanda milli özünüdərk prosesi xeyli güclənmiş, yaradıcı ziyalılarımız üçün sərbəst düşüncə və iş şəraiti yaradılmışdır.

1970-ci illərdə DQMV-nin iqtisadi və mədəni tərəqqisinə diqqət daha da artırılmışdır. Şuşa şəhərinin inkişafı Ümummilli liderimiz H.Əliyevin daim diqqət mərkəzində olmuşdur. Belə ki, o çıxışlarından birində göstərmişdir: «Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qayğı ilə qorumaq, buradakı qədim tikililəri bərpa etmək lazımdır» [10]. Gözəl memarlıq abidələri ilə zəngin olan Şuşa şəhərinin kompleks inkişafı üçün Azərbaycan hökuməti, dövlət başçısının təşəbbüsü ilə bir neçə xüsusi qərar qəbul etmişdir. Bunlardan biri, «Şuşa şəhərində kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında» Azərbaycan KP MK-nın və Respublika Nazirlər Sovetinin 4 noyabr 1976-cı il qərarı idi [8]. Həmin qərara uyğun olaraq, Azərdövlətlayihə İnstitutu tərəfindən şəhərin «Baş planı» layihələşdirildi. Layihədə Şuşa şəhərində 2000-ci ilədək olan dövrdə görüləcək işlər öz əksini tapmışdı. «Baş plan»da – 2 doqquz mərtəbəli, 45 mənzilli yaşayış evi, 300 yerlik turist bazası, məişət evi, 400 yerlik uşaq sanatoriyası, Şuşanın cənub-qərbində 40 mənzilli «Azərqaznəqliyyat» Nazirliyinin binası, Cıdır düzü – Topxana, Şuşa – Xankəndi



kanat yolunun çəkilməsi və digər tikinti abadlıq işlərinin aparılması nəzərdə tutulmuşdur [6]. Lakin təəssüf hissi ilə bir məsələni xüsusi qeyd etməliyik ki, DQMV-nin erməni rəhbərliyi öz səlahiyyətlərindən istifadə edərək türkçülüyü, müsəlmançılığı öz üzərində əks etdirən Xurşudbanunun, Gövhər ağanın, Cəfərqulu xanın, Uğurlu bəyin, Fərzəlibəyin, Nəcəfqulu ağanın, Hacı Qulunun, Səfibəyin, tikdirdikləri saray və imarətlər, məscid və hamamlar, Camxarov, Mirsiyabov, Fayazovların tikdirdikləri ticarət-sənaye mərkəzlərini «Şuşa şəhərinin Kurort kompleksini inkişaf etdirmək» adı altında dağıtmağa başladılar. Bu acı həqiqətdən məlumat tutan dövlət başçısı H.Əliyev dərhal məsələyə öz münasibətini bildirmiş və 10 avqust 1977-ci ildə Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin 280 №-li qərarı ilə «Şuşa şəhəri Tarixi Arxitektura qoruğu» elan edilmişdir [13].

Doğrudan da, dağlar diyarı Şuşa şəhəri əsrlərin yadigarı gözəl memarlıq abidələri ilə zəngindir. Şuşa özü boyda canlı abidədir desək yanılmarıq. Çünki burada tarixi keçmişimizi özündə əks etdirən gözəl sənət inciləri – «Alaqapı», «Canqqala», «Gəncə qapısı», «Gövhərağa məscidi», «Xan qızı bulağı», «Böyük meydan bulağı», «Rasta-Bazar», «Hacıqulularm malikanəsi», «Zöhrabbəyovun malikanəsi», «Bülbülün ev muzeyi», «Saatlı Məscidi», «Mirsiyabovun karvansarası», «Heydər türbəsi» qala divarları şəhərə xüsusi gözəllik verir. Qədim Şuşanın memar və nəqqaşlarından Mir Möhsün Nəvvab Qarabaği, Məmmədyar, Usta Qənbər Qarabaği, Məşədi Əliqulu, Qarabağlı Kəblə Əkbər, Məşədi Xaspolad, Kərbəlayi Səfixan Qarabaği və digər azərbaycanlı sənətkarlarının əllərinin məhsulu olan bu sənət əsərləri öz milliliyinə və forma müxtəlifliyinə görə Azərbaycan memarlıq mədəniyyəti tarixində özünəməxsus yer tutmuşdur. Başdan-başa tarixi abidələrlə zəngin olan Şuşa şəhərində hər kvadrat kilometrə 327 tarixi abidə düşürdü. Şəhərin 190 hektar sahəsini əhatə edən 198 Respublika dərəcəli köhnə tarixi abidə 1977-ci ildən tarixi memarlıq qoruğu elan edilmiş, Azərbaycan SSR Mədəniyyət Nazirliyinin uçotuna alınmışdır. Azərbaycan SSR Nazirlər Sovetinin 1977-ci il yuxarıda adıgedən «Qərar»ından sonra Şuşa şəhərinin qoruq zonasına daxil edilən 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 18 məhəllə bulağı, 15 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr, kilsə, qala divarları və bürcləri, 21 sovet dövründə tikilmiş tarixi abidə dövlət tərəfindən qorunmağa və bərpa edilməyə başlandı [7].

Doğrudan da, Heydər Əliyevin uzaqgörənliyi olmasaydı Şuşanın qədim abidələrindən, təkrarsız sənət incilərindən bir dənə də olsun əsər-əlamət

qalmazdı. H.Əliyevin təşəbbüsü ilə 1977-ci ilin sentyabrında Şuşadakı Tarixi Memarlıq Abidələrinin qorunub saxlanılması işini daha da yaxşılaşdırmaq məqsədilə Azərbaycan SSR Elmlər Akademiyasının İncəsənət və Memarlıq İnstitutu tərəfindən geniş «Tədbirlər planı» işlənib hazırlandı. Planın icrasına mütəxəssislər, alimlər, mədəniyyət Nazirliyinin idarə, müəssisə və ictimai təşkilatları cəlb edildi. 1977-ci ilin oktyabrında Şuşa şəhərində Dövlət Tarixi Memarlıq Qoruğu İdarəsi yaradıldı. Hətta mədəniyyət abidələrinin bərpa və inkişafı, kurort kompleksini inkişaf etdirmək məqsədilə yerli əhalidən ibarət «Şuşa Mədəniyyət Abidələrinin Mühafizəsinə Könüllü Yardım Cəmiyyəti» də təşkil edildi. «Cəmiyyət»in 40-a yaxın ilk təşkilatı var idi. Beləliklə, H.Əliyev Şuşanın mədəniyyət abidələrinin erməni vandalları tərəfindən dağıdılmasının qarşısını böyük uzaqgörənliklə aldı və bölgədəki 236 tarixi memarlıq abidəsi qeydə alınaraq mühafizə olunmağa, şəhərin kurort kompleksi inkişaf etdirilməyə başlandı [14].

1976–1982-ci illərdə Şuşa şəhərində bir neçə tarixi abidə tamamilə bərpa olundu. Bunlardan biri öz gözəlliyi və möhtəşəmliyi ilə diqqəti cəlb edən «Gəncə qapısı»nın bərpasıdır. Bərpa vaxtı şəhərin girəcəyində yerləşən «Gəncə qapısı»nın milli xüsusiyyətləri qorunub saxlanmışdır. «Gəncə qapısı»nın mühafizə zonasında Azərbaycanda birinci dəfə olan «açıq muzey» təşkil olunmuşdur. Muzeydə ulu-babalarımızdan bizə yadigar qalan milli naxışlı bəzək daşları, qapı və pəncərə üstü karnizlər, müxtəlif daşlardan yonulmuş kitabələr, sütunlar və digər memarlıq nümunələri nümayiş etdirilmişdir.

Bəhs etdiyimiz illərdə Şuşada Şorbulaq, Meydan, Hamamqabağı məhəlləsinin bulaqları, Saatlı məhəlləsindəki məscid, keçmiş realnı məktəbinin binası, qala divarlarının bir hissəsi, «Şirin su» hamamı qazılıb üzə çıxarılaraq bərpa olunmuşdur. Təsadüfi deyildir ki, 12 yanvar 1979-cu ildə ümummilli liderimiz H.Əliyev Şuşaya gəlmiş, burada bərpa olunmuş bir sıra abidələrin açılışında iştirak etmiş və gələcək işlər üçün özünün dəyərli məsləhətlərini vermişdir [13]. Qısa bir müddətdə Şuşanın gözəl memarlıq nümunələrinin, tarixi abidələrinin bərpasında ciddi irəliləmələr müşahidə edildi. Zöhrabbəyovun və Hacı qulunun imarətləri, Aşağı məscid, qala divarlarının bərpası, Vaqifin, Natəvanın, Nəvvabın və başqa tarixi şəxsiyyətlərin ev muzeylərinin açılışı 70-ci illərin sonları 80-ci illərin əvvəllərinə təsadüf edilmişdir. Bu dövrdə Ü.Hacıbəyovun ev muzeyində yenidənqurma və yeni tərtibat işləri aparılmış, Natəvanın evinin qarşısında şairin heykəli qoyulmuş, vaxtilə Şuşanı düşmənlərdən qoruyan qədim «Qala divarları» bərpa olunmuşdur.



XX yüzilliyin 70-ci illərində Şuşada 1176 yerlik orta məktəb binası, 600 yerlik «Azərbaycan» kinoteatrı, yay kinoteatrı, 9 mərtəbəli 100 nəfərlik mehmanxana, 36 və 40 mənzilli yaşayış binaları, hər biri 70 çarpayıdan ibarət 2 pansionat və digər mədəni-məişət obyektləri tikilib istifadəyə verilmişdir. Bu dövrdə Daşaltı su kəməri ilə şərq milli-musiqi alətləri fabriki yanında «Hədiyyələr korpusu», «Kommunalar bağı», «Pionerlər», «Gənclik», «Natəvan» adına parklar tikilib yerli əhalinin istifadəsinə verilmişdir [14]. «Baş plan»a uyğun olaraq 70-ci illərdə Şuşada xeyli quruculuq və abadlıq işləri görülmüşdür. Məşhur «İsa Bulağı»nın, «Turş su» mineral bulağının abadlaşdırılması, sanatoriya ərazisində «Su qaleriyası»nın tikilməsi bəhs edilən illərin məhsullarıdır. Ümumiyyətlə, 1976–1982-ci illərdə Şuşada tikinti-abadlıq işlərinə 20 milyon manat vəsait ayrılmışdır ki, bu da 1971–1975-ci illərlə müqayisədə 2 dəfə, 1965–1969-cu illərdə isə müqayisədə 10 dəfə artıq demək idi [10]. Bütün bunlar isə ümummilli liderimiz H.Əliyevin Vətənimizə, onun keçmişinə vurğunluğu, tarixi abidələrimizə olan sevgisi ilə əlaqədar idi. Bu böyük sevginin, vurğunluğun nəticəsi idi ki, H.Əliyev 1982-ci ildə Şuşa şəhərində 2 dəfə olmuşdur. 1982-ci il yanvarın 14-də Şuşa şəhərinə gələn H.Əliyev, ilk növbədə M.P.Vaqifin yerli mərmərdən tikilmiş 20 metr hündürlüyündə olan əzəmətli məqbərənin açılışında iştirak etmişdir [4]. Bu zaman Respublikamızın 400-dən çox ədəbiyyat, incəsənət və elm xadimi də həmin abidənin açılışında iştirak etmişdilər [6]. Həmin vaxt H.Əliyev «Baş plan»da nəzərdə tutulmuş və bərpa edilmiş tarix və mədəniyyət abidələrinə baxış keçirmişdir.

Elmə, sənətə və sənətkara qiymət verən dahi insan Heydər Əliyev həmin ildə ikinci dəfə 1982-ci il iyulun 28-də ailə üzvləri ilə birlikdə Şuşa şəhərinə gəlmiş bir sıra mədəniyyət abidələrinin və obyektlərin açılışında iştirak etmişdir [13]. H.Əliyev M.P.Vaqifin poeziya bayramında iştirak etmiş, şairin dərs dediyi mədrəsəni, şəkil qaleriyasını, Ü.Hacıbəyovun ev muzeyini, məscidləri, X.B.Natəvanın büstünü ziyarət edərək görülən işlərdən razı qaldığını bildirmişdir. Dövlət başçısı qarşıda görüləcək işlər barədə öz tapşırıqlarını vermiş, konkret vəzifələr, təşkilati tədbirlər müəyyənləşdirmişdir.

Beləliklə, ulu öndərimiz Heydər Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi tədbirlər nəticəsində Şuşa şəhərinin tarixi abidələri bərpa olunmuş, böyük mehmanxana, çoxmərtəbəli yaşayış binaları, inzibati binalar tikilmiş, Şuşa Ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdir. Lakin çox təəssüflər olsun ki, Azərbaycanın cənnət məkanı, qədim Oğuz-Türk diyarımız Şuşa şəhəri 1992-ci ildə erməni vandalları tərəfindən ələ

*keçirilmiş, qədim* tarixi abidələrimiz dağıdılmış və yandırılmışdır. Bu gün dünya ictimaiyyətində «Əzabkeş», «Humanist» obrazı yaratmağa çalışan ermənilər tariximizin yaddaşı, alınmaz qala olan Şuşa şəhərini yerlə-yeksan etmişlər. Xan qızı Natəvanın, Bülbülün, Cabbarın uyuduğu torpaq, sevimli Üzeyirimizin, Fikrətimizin qədəm açıb yeridiyi məkan, Vaqifin yadigarı olan Cənnət diyar, Azərbaycanın üzük qaşı, konservatoriyamızın beşiyi, qədim tarixə malik Şuşamız bu gün dardadır, əsirlikdədir və bizdən kömək diləyir. Bu təmiz torpaq yad əlləri, yad dilləri, yad nəfəsi qəbul edə bilmir. Biz bu torpaqda doğulmuşuq, böyümüşük və bu torpağı düşmən tapdağında qoya bilmərik. Biz inanırıq ki, qeyrətinə arxalandığımız, ümid bağladığımız, Koroğlu, Babək, Nəbi nəslinin davamçıları olan mərd oğullarımız, gənc və istedadlı Prezidentimizin ətrafında sıx birləşməklə Oğuz-Türk diyarımız gözəl Qarabağın cənnət torpağı, əfsanəvi və tükənməz sərvətlər xəzinəsi, alınmaz Qala – Şuşamızı və bütün Qarabağımızı tezliklə əsarətdən xilas edəcəklər.

Azərbaycan tarixinin qaranlıq səhifələrinin işıqlandırılmasında muzeylərimizin rolu əvəzsizdir. Muzeylərimiz tariximizin öyrənilib-öyrədilməsində, mədəni sərvətlərimizin toplanıb qorunması və təbliğində çox böyük işlər görmüşlər və görürlər. Ümummilli liderimiz Heydər Əliyev çıxışlarından birində bu müqəddəs məbədlərin (muzeylərin) əhəmiyyətindən bəhs edərək göstərmişdir ki, «Muzeylər mühüm mədəniyyət ocaqlarına, zəhmətkeşlərin, xüsusilə cavan nəslin ideya-siyasi və mənəvi tərbiyəsinin mərkəzlərinə çevrilmişdir. Muzeylər, söz yox ki, hər bir vətəndaşın öz diyarının, rayonunun, kəndinin tarixinə bələd olması üçün vacibdir... Muzeylərimiz Azərbaycan xalqına məxsus milli sərvətlərin tarix və mədəniyyətimizlə bağlı dəyərlərin, ulu keçmişimizi özündə yaşadan yadigarların toplanması, qorunması, öyrənilməsi və gənc nəslin tərbiyəsində istifadə edilməsi üçün çox böyük əhəmiyyətə malikdir...» [15]. Tanınmış dünya siyasətçisinin çox böyük uzaqgörənliklə irəli sürdüyü bu fikirləri əldə rəhbər tutaraq dövlətimiz ötən əsrin 70-ci illərində muzeylərimizin inkişafına diqqət və qayğını artırdı.

Azərbaycanda muzeylərin inkişafı 1970-ci illərdən başlamışdır. Dövlətimizin bu sahəyə göstərdiyi qayğı və diqqət nəticəsində 1970–1985-ci illərdə Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda müxtəlif profilli muzeylər yaradılmışdır. Xüsusi olaraq, XIX əsrdə 95 şairə, 22 musiqişünasa, 38 xanəndəyə, 100 nüsxəbəndə, 19 xəttata, 16 nəqqaşa, 18 memara, 5 astronoma, 16 həkimə, 42 müəllimə və yüzlərlə qədim tarixi abidələrə məxsus [16] Şuşa şəhərində muzeylərin inkişafı 70-ci



illərdə Respublikamıza rəhbərlik edən dövlət başçısının xüsusi diqqət mərkəzində olmuşdur. Hətta 70-ci illərdə zəngin sənət incilərinə malik Şuşa şəhərində memarlıq abidələrinin bərpa və inkişafı ilə bağlı Azərbaycan KP MK və Respublika Nazirlər sovetinin xüsusi qərarı da olmuşdur. Başdan-başa tarixi abidələrlə dolu olan Şuşa şəhərinin hər kvadrat kilometrinə 327 tarixi abidə düşürdü. 1977-ci ildə şəhərin 190 hektar sahəsini əhatə edən tarixi hissəsi Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Tarixi Memarlıq Qoruğu elan edilmişdir. Qoruq zonasına 198 Respublika dərəcəli köhnə tarixi abidə, 549 qədim bina, uzunluğu 1203 metr olan daş döşənmiş küçə, 15 məscid, 18 məhəllə bulağı, 6 karvansara, 2 qəsr, 4 türbə, 9 qala bürcü, 900 daş küçə, 36 tarixi abidə, 202 memarlıq abidəsi, 160 incəsənət abidəsi daxil idi [18]. Əlbəttə, bunların içərisində tarix, ölkəşünaslıq və ev muzeylərinin yaradılması, bərpası və inkişafı xüsusi əhəmiyyət kəsb edirdi.

Bəhs etdiyimiz dövrdə Şuşada yaradılmış muzeylərdən biri «Yaşıl Aptek muzeyi»dir. Muzeydə 1892-ci ildə Sankt-Peterburqda çap olunmuş «Ümumi terapiya», 1901-ci ildə yenə orada çap olunmuş «Canlı mineralların və bitkilərin təsviri», professor Horbert Otnerin «Daxili xəstəliklərin xüsusi terapeyası üzrə mühazirələr»i və digər tibbə aid nadir kitablar nümayiş etdirilirdi [19]. Muzeydə, Şuşada bitən müalicəvi əhəmiyyətli bitki nümunələri səliqə ilə səbətlərə yığılmış, divardakı xüsusi lövhələrdə həmin bitkilər haqqında məlumat öz əksini tapmışdır. «Yaşıl Aptek muzeyi»nin başqa bir guşəsində isə XVIII–XIX əsrlərə aid qədim əczaçılıq əşyaları, gülab qabları, mis parçalar, daş çaynik və s. toplanmışdır. Muzeyin daş döşəməsi öz qədimliyini qoruyub saxlamışdır. 1877-ci ildə Peterburq Tibb-Cərrahlıq Akademiyasını bitirmiş, Peterburq klinik hərbi xəstəxanasında həkim işləmiş, 1883-cü ildə Şuşaya qayıdaraq həkimlik peşəsini davam etdirmiş tədqiqatçı alim Kərimbəy Mehmandarovun portreti və onun haqqında məlumat da muzeyin eksponatları arasında idi.

1980-ci ildə Şuşa Dövlət Tarixi Memarlıq Qoruğu İdarəsi əməkdaşlarının təşəbbüsü və Şuşa şəhər əhalisinin köməyi ilə «Gəncə qapısı»nın mühafizə zonasında xarakterinə görə Respublikamızda birinci olaraq «Açıq muzey» təşkil olundu [20]. Burada ulu babalarımızdan bizə yadigar qalmış qədim əşyalar nümayiş etdirilirdi. Muzeyin eksponantları milli naxışlı bəzək daşlarından, müxtəlif məmulatlardan yonulmuş kitabələrdən, sütun pilləkənlərdən və başqa gözəl memarlıq nümunələrdən ibarət idi.

Bəhs edilən illərdə Şuşada yaradılmış muzeylərdən biri də, 1849-cu ildə məşhur memar Kərbalayi Səfixan Qarabaği tərəfindən inşa edilmiş

Mehmandarovların qonaq evlərində «Xalça muzeyi»nin təşkili olmuşdur [21]. Binanın özü memarlıq ənənələrini qoruyub saxlamışdır. Beş qapıdan, səkkiz pəncərədən ibarət olan Muzeyin tavanının orta hissəsində gül xonçası həkk edilmiş və bir əsr yarım əvvəl rənglənməsinə baxmayaraq, öz gözəl ornamentlərini itirməmişdir. Muzeyə respublikanın xalq rəssamı Lətif Kərimov rəhbərlik edirdi. Bir vaxtlar Paris, Berlin, Vyana, Peterburq, Moskva incəsənət sərgilərində nümayiş etdirilərək medallara layiq görülmüş Qarabağ xalçaları 1970–1980-ci illərdə xalça muzeyinin əsas eksponatlarını təşkil edirdi. Eksponatlar arasında «Fatma xanım», «Ləpə», «Güzgülü zili», «Balıq xalı», «Xanlıq», «Göllü kilim» və digər xalçalar diqqəti daha çox cəlb edirdi. Şuşa «Xalça Muzeyi»ndə təkcə qədim xalçalar deyil, həm də yundan toxunmuş yaşı əsrlərə bərabər olan xurcunlar, farmaşlar, at çulu, yəhərüstülər, cəhrə, daraq, kirkit, iy, dükcə, yumaq, qayçı və digər əşyalar nümayiş etdirilirdi.

Yeri gəlmişkən onu da qeyd edək ki, XVIII–XIX yüzilliklərdə Şuşa xalçaları bütün dünyada məşhur idi. Təəssüflər olsun ki, Şuşa xalçalarını dünya bazarına çıxarıb böyük məbləğdə gəlir əldə edən məkrli erməni tacirləri, bu sənət incilərini özününküləşdirməyə çalışmışlar. Hətta 1985-ci ildə Texasda Kimbella muzeyində keçirilən sərgidə nümayiş etdirilən Şuşa xalçaları çox böyük məharətlə ermənilər tərəfindən saxtalaşdırılmış, bu gözəl sənət incilərinin müəlliflərini erməniləşdirmişlər. Lakin mənfur siyasət sahibləri bir məsələdə yanılırlar ki, gözəl Şuşa xalçalarında xalqımızın həyatı, məişəti, dünyagörüşü, siması əks olunur, onun nəfəsi (türkçülük, müsəlmançılıq) duyulur. Ona görə də xalqımızın bacarıqlı əlləri ilə yaratdığı sənət inciləri öz ünvanını heç vaxt dəyişməyəcək.

1981-ci ildə Şuşada istifadəyə verilmiş «Rəsm Qalereyası» şəhərin Ocaqqulular məhəlləsində yerləşirdi [22]. 1750-ci ildə tikilmiş, üç mərtəbədən ibarət, tacir Abbasqulu ağa Zöhrabbəyova məxsus möhtəşəm on otaqlı bina öz gözəlliyini və tarixiliyini qoruyub saxlamışdır. Şuşa şəhər Rəsm Qalereyasına SSRİ rəssamlar ittifaqının üzvü Rövşən Bayramov rəhbərlik etmiş və muzeyin eksponantlarla zənginləşdirilməsində xeyli işlər görmüşdür. Rəsm Qalereyasında 500-dən artıq rəsm əsəri nümayiş etdirilmişdi. Burada dünyanın ən mahir fırça ustalarının şedevrləri ilə yanaşı, respublikamızın, o cümlədən yerli rəssamların da əsərləri özünə həmişəlik ünvan tapmışdır. Muzeydə Şuşalı rəssamlar Rövşən Bayramovun, Tofiq Zeynalovun, Valeh Məmmədovun və başqalarının işləri çox maraq doğururdu. Hətta yerli rəssamların əsərləri 1985–1986-cı illərdə Moskva sərgisində nümayiş etdirilmişdir. Rövşən Bayramovun «Şuşada küçə», «İllər keçdi», «Köhnə şəhərdə məscid», «Günorta», «Şaxtaçı» və digər əsərləri böyük maraqla qarşılanmışdır. Şuşanın keçmişinə həsr edilmiş əsərlər Qalereyada daha çox diqqəti cəlb edir və qədim Şuşa haqqında aydın təsəvvür yaradır. Muzeydə təbiət təsvirləri, dumanlı dağlar, qalın meşələr, yaşıl otlaqlar, qırmızı lalələri, qədim binalar, qədim əşyalar və digər rəsmlər Şuşa haqqında sanki maraqlı xatirələr nəql edir. S.Bəhlulzadə, S.Salamzadə, N.Əbdürrəhmanov, M.Rəhmanzadə və digər görkəmli rəssamların əsərləri Rəsm Qalereyasının qiymətli eksponatların təşkil edirdi. Qalereyada müxtəlif məişət əşyaları, daş məmulatları və mis qablar da nümayiş etdirilirdi. Bütün bunlarla yanaşı, Rəsm Qalereyasında Üzeyir Hacıbəyova həsr olunmuş «xüsusi guşə» yaradılmışdır. Dahi Üzeyir sənətinə dərin hörmət əlaməti olaraq burada görkəmli bəstəkarın portreti, «Leyli və Məcnun» əsərinə reproduksiya, «Uzun ömrün akkordları» filminə çəkilmiş illüstrasiyalar, «Arşın mal alan»dan səhnə və digər əsərlər nümayiş etdirilmişdi [23].

Qədim tarixə malik Şuşa şəhəri, həm də görkəmli ədiblər, şairlər, yazıçılar məskənidir. Təsadüfi deyildir ki, XIX əsrin sonlarında Şuşada 95 şairin olması qeydə alınmışdır. 1970-ci il məlumatına görə isə Qarabağdan 15 nəfər akademik, 16 nəfər bəstəkar, 32 nəfər yazıçı, 20 nəfər xalq artisti, 62 nəfər əməkdar incəsənət xadimi, 100 nəfər elmlər doktoru, 23 nəfər general çıxmışdır [24].

Qarabağın zümrüd tacı olan Şuşa torpağı M.P.Vaqif, X.B.Natəvan, M.M.Nəvvab, N.Vəzirov, Ə.Haqverdiyev, F.Köçərli, M.M.Xəzani, M.Rzaqulubəy, Mirzə Ələsgər, A.Asi, H.Qarabaği, M.Cəfərqulu xan, S.S.Axundov, Mirzə Xosrov, Y.V.Çəmənzəminli kimi görkəmli ədiblər yetişdirmişdir.

Həmin böyük şəxsiyyətlər, onların yazdığı əsərlərlə bağlı mövcud materialların toplanması, qorunması, öyrənilməsi və təbliğ edilməsi üçün 1970-ci ilin sonlarından Şuşada «Poeziya Evi» yaradılmağa başlamış və 1982-ci ilin yanvarından həmin muzey açılmışdır [25]. Muzeydə görkəmli Şuşa ədiblərinin həyat və fəaliyyətinə aid sənəd və eksponatlar nümayiş etdirilmişdir. Poeziya evində hər şey bir vaxtlar M.P.Vaqifin lirik misralarının səsləndiyi və ya Xurşudbanu Natəvanın öz rübailərini oxuduğu şeir məclislərinin şəraitini xatırladırdı. Burada kiçik taxta kətillərin üzərində açıq şeir kitabları qoyulmuşdur. Həmin kitabların səhifələrini şamdanlarda yanan şamların sarımtıl şöləsi işıqlandırırdı. Poeziya evində Şuşanın şair və yazıçılarının həyat və fəaliyyətinə, yaradıcılığına aid kitablar, əlyazmalar, şəkillər, ədiblərin qiymətli əşyaları, səs lentləri və digər materiallar qoyulmuşdur.

Şuşa, həm də özünün musiqiçiləri ilə şöhrət qazanmışdır. Haqlı olaraq Şuşanı Azərbaycanın təbii konservatoriyası, musiqi sətəninin ocağı adlandırırlar. Təsadüfi deyildir ki, Şuşanın saf suyu və təmiz havası dünyanın əksər dövlətlərində tanınan 60 musiqişünas-xanəndə yetişdirmişdir [26]. Bunlara misal olaraq, Q.S.Sədrəddinqızını, Y.A.Quliyevi, Ə.Zülalovu, Ə.Ə.Məşədi Cəmili, S.Ələsgərovu, K.Məhəmmədi, H.Hüsnü, H.Malıbəylini, M.Məmmədi, Z.Hacıbəyovu, S.Hacıbəyovu, R.Behbudovu, X.Şuşinskini, S.Şuşinskini, Bülbülü, H.Qurbanovu, C.Qaryağdıoğlunu, Q.Primovu, Ü.Hacıbəyovu və digərlərini misal göstərə bilərik. Məşhur musiqişünas Vinaqradov yazırdı ki, «Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil Şərqin başqa ölkələrində təmsil etmişlər. Qarabağın baş şəhəri olan Şuşa Zaqafqaziyanın konservatoriyasıdır» [13].

Elmə, mədəniyyətə, sənətə, sənətkara düzgün qiymət verməyi bacaran tanınmış dünya siyasətçisi Heydər Əliyev Şuşa musiqiçilərinin həyat və fəaliyyətini öyrənmək, qorumaq və gələcək nəslə çatdırmaq məqsədilə Ü.Hacıbəyovun və Bülbülün ev muzeylərinin açılması haqqında xüsusi qərar vermiş və həmin muzeylərin açılışında iştirak etmişdir. Şuşada tarixi abidələrin bərpa olunması, 1980–1981-ci illərdə M.R.Vaqifin böyük məqbərəsinin ucaldılması, Natəvanın heykəlinin qoyulması da məhz H.Ə.Əliyevin adı ilə bağlıdır [27].

Azərbaycan professional musiqisinin banisi Ü.Hacıbəyovun Şuşadakı ev muzeyinin görkəmi xüsusi olaraq diqqəti cəlb edirdi. Ü.Hacıbəyovun ev muzeyi yaradılarkən Azərbaycan milli-memarlıq sənətinin ünsürlərindən çox zövqlə istifadə edilmişdir. Muzeyin ətrafı mərmərlə döşənmişdir. 5 otaqdan ibarət olan muzeydə Ü.Hacıbəyovun ilk yaradıcılıq illərinə aid zəngin materiallar, onun şəxsi əşyaları, qohum, ailə üzvlərinin fotoşəkilləri, həmçinin böyük sənətkarın lent yazıları vardır.

Ü.Hacıbəyovun dövlət mükafatları, orden və medalları, paltarları, anasının sandığı da nümayiş etdirilən eksponatlar arasında idi. Ən mühüm diqqəti cəlb edən məsələlərdən biri də ondan ibarətdir ki, Ü.Hacıbəyovun doğulduğu, yaşadığı və ev muzeyinin yerləşdiyi küçəyə görkəmli sənətkarın adı verilmişdir.

Dahi sənətkar unudulmaz Bülbülün ev muzeyinin də yaradılması bəhs etdiyimiz dövrün məhsuludur [28]. Bülbülün ev muzeyinin yaradılması işində Adilə xanımın böyük əməyi olmuşdur. Kənd evini xatırladan bu həyətdə yerdən təndir, saray, odunxana, surahili və kürsülü taxta döşəməli eyvan, palıd sütunlarla əhatə olunan qarğıdan hörülmüş tavan Bülbülün yaşadığı evin öz təbiiliyini qoruyub saxladığını bir daha nümayiş etdirirdi. Otaqlarda taxça, kürsü, şkaf və rəflərin üzərində çoxlu eksponatlar, böyük sənətkarın həyatından xəbər verən əşyalar, fotoşəkillər, lent yazıları, albomlar və digər qiymətli şəxsi əşyalar nümayiş etdirilirdi.

Şuşa şəhərinin əbədi yadigarlarından biri də Tarix-Ölkəşünaslıq Muzeyidir. Şuşa Tarix muzeyinin zəngin eksponatları XVIII əsrdə inşa edilmiş binada toplanmışdır. Şuşa Tarix Muzeyinin ekspozisiyası muzeyə gələn tamaşaçıları Azərbaycan xalqının çoxəsrlik tarixi ilə tanış edir. Təsadüfi deyildir ki, 70-ci illərdə dövlətimizin qayğısı nəticəsində yerli əhalidən pulla alınan əşyalar hesabına Şuşa tarix muzeyində saysız-hesabsız qədim və təsirli eksponatlar toplanmışdır [29]. Toplanmış əşyaların müxtəlifliyi muzeyin şöbələrə bölünməsinə səbəb olmuşdur. Qarabağın qədim dövr tarixini özündə əks etdirən salonda müxtəlif rayonlarda, kəndlərdə və Şuşanın özündə aparılan qazıntı işləri nəticəsində əldə edilmiş arxeoloji materiallar, maddi mədəniyyət abidələri, məişət və mədəniyyəti əks etdirən əşyalar, qədim sikkə, maket, fotoşəkillər və digər köməkçi materiallar nümayiş etdirilirdi.

Digər salonda isə Qarabağın orta əsrlər dövrünə həsr edilmiş materiallar toplanmışdır. Burada nümayiş etdirilən əşyalar arasında həmin dövrə aid əmək alətləri, silahlar, saxsı məmulatlar, sənətkarlığa aid əşyalar, Qarabağın görkəmli xadimlərinin fəaliyyətinə dair sənədlər, elm, ədəbiyyat və incəsənət xadimlərinin əlyazmaları, şair və dövlət xadimlərinə aid materiallar var idi.

Şuşa Tarix Muzeyinin digər salonlarında XIX–XX yüzilliklərə aid materiallar nümayiş etdirilmişdi. Burada, Şuşada dünyaya göz açmış və Azərbaycan mədəniyyətinə böyük töhfələr bəxş etmiş görkəmli mədəniyyət xadimlərinin həyat və fəaliyyətinə aid materiallar qoyulmuşdur. Muzeyin 1941–1945-ci illərə həsr olunmuş salonunda Dağlıq Qarabağ və Şuşa əhalisinin ön və arxa cəbhədə göstərdiyi qəhrəmanlıqları əks etdirən materiallar nümayiş etdirilmişdir. Həmçinin muzeydə, xalq təsərrüfatının bütün sahələrində əldə edilmiş nailiyyətləri özündə əks etdirən materiallar, Şuşanın flora və faunasına, yeraltı və yerüstü təbii sərvətlərinə aid materiallar, əmək qəhrəmanları, sənaye müəssisələri haqqında maraqlı məlumatlar var idi.

Beləliklə, 70-ci illərdə və 80-ci illərin birinci yarısında Ümummilli liderimiz Heydər Əliyevin çoxcəhətli dövlət idarəçiliyi sayəsində DQMV-nin iqtisadi və mədəni tərəqqisinə diqqət artırılmış, Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul olunmuş, şəhərin tarixi abidələri bərpa

olunmuş, yeni muzeylər yaradılmış, çoxmərtəbəli yaşayış və inzibati binalar tikilmiş, Şuşa şəhəri ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdir. Şəhərdə tikinti, abadlıq, bərpa işlərini şəxsən nəzarətə götürən H.Ə.Əliyev 12 yanvar 1979-cu ildə və 14 yanvar 1982-ci ildə bir qrup ədəbiyyat, incəsənət və elm xadimi ilə birgə Şuşada olmuş bir sıra abidələrin açılışında iştirak etmiş və muzeyləri gəzmişdir [30]. H.Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Şuşada M.P.Vaqifin məqbərəsi, Ü.Hacıbəyovun abidəsi, *Bülbülün*, X.Natəvanın büst abidələri yaradılmışdır. 1982-ci il iyulun 28-də ailə üzvləri ilə birlikdə Şuşaya gələn H.Əliyev Vaqifin dərs dediyi mədrəsəni, Rəsm Qalereyasını, Ü.Hacıbəyovun ev muzeyini, X.B.Natəvanın büstünü, məscidləri və digər obyektləri gəzmiş, bərpa işindən razı qaldığını bildirmişdir [31].

Ümumiyyətlə, 1970–1985-ci illər ərzində DQMV-də muzeylərin sayı 2,3 dəfə artaraq 3-dən 7-ə, muzeyə gələnlərin sayı isə 35 min nəfərdən 152 min nəfərə çatmışdı [32]. 1980-ci illərin sonlarında Azərbaycanda 124 muzey fəaliyyət göstərirdi [33].

Mədəni-maarif müəssisələri arasında muzeylərin çox böyük əhəmiyyəti vardır. Belə ki, muzeylərin daxilində keçirilən elmi-kütləvi iş, habelə muzeylərin təşkil etdikləri ekskursiyalar, səyyar sərgilər, müharibə veteranları və əmək qəhrəmanları ilə görüşlər əhalinin ideya-siyasi tərbiyəsində mühüm rol oynayır. Eyni zamanda xalqımızın tarixi, mədəniyyəti, böyük şəxsiyyətləri ilə bağlı dəyərlərin gənc nəslə çatdırılmasında muzeylərimiz əvəzsiz rol oynayırlar. Bu baxımdan AMEA Azərbaycan Tarixi Muzeyinin bugünkü fəaliyyətini Azərbaycan xalqı çox yüksək qiymətləndirir. Çünki Azərbaycan Tarixi Muzeyi dünənimiz və bu günümüzlə bağlı dəyərləri toplayır, dəyərli materiallarla zənginləşdirir və gələcək nəsillər üçün qoruyub saxlayır.

Çox təssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə bağlı qədim abidələr diyarı olan Şuşa 1992-ci il mayın 8-də erməni vandalları tərəfindən ələ keçirildi [34]. Bu zaman Şuşanın 27 sənaye və tikinti müəssisəsi, 103 mədəni-maarif ocağı, 31 kənd və qəsəbəsi, 249 tarixi abidəsi və muzeyi erməni quldurlarının əlinə keçdi [35]. Ümumilikdə isə Qarabağ savaşı zamanı Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizi işğal edildi. İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi, 6000 istehsal obyekti, ümumi sahəsi 9 min kvadrat metr olan 180 min yaşayış binası [36], 1010 təlim-tərbiyə müəssisəsi, 4545 mədəni-maarif ocağı, 667 tibb müəssisəsi, 927 kitabxana, 464 tarixi abidə və muzey, 40 mindən artıq muzey eksponatı, 100-dən artıq arxeoloji abidə, 



6 dövlət teatrı və konsert studiyası erməni vandalları tərəfindən dağıdıldı [37]. Qarabağ savaşında 20 min Azərbaycan vətəndaşı həlak olmuş, 100 min nəfər yaralanmışdır. 1 milyon 200 min Azərbaycan vətəndaşı öz doğma vətənində qaçqın və köçkünə çevrilmişdir. Bu zaman 4959 nəfər həmvətənimiz itkin düşmüş, 4 min nəfər girov götürülmüşdür [38].

Lakin Respublikamızın XX yüzilliyin sonları, XXI yüzilliyin əvvəllərində istər daxili və xarici siyasətdə, istərsə də iqtisadi, siyasi və mədəni həyatda əldə etdiyi uğurlar Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa olunacağından xəbər verir. Biz, Heydər Əliyev siyasətini uğurla davam etdirən, gənc və istedadlı Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşməklə Şuşam və bütün Qarabağ torpaqlarını düşmən təcavüzündən azad edə bilərik və edəcəyik!!!

İnanırıq ki, tezliklə torpaqlarımız düşmən tapdağından azad olacaq, xalqımızın məbədgahları olan muzeylərimiz bərpa olunaraq yenidən xalqımıza xidmət edəcəkdir.

# IX FƏSİL

## DAĞLIQ QARABAĞIN RAYONLARINDA ŞƏXSİ YARDIMÇI TƏSƏRRÜFATLARIN İNKİŞAFI

### *(XX yüzilliyin 20–80-ci illəri)*

Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin iqtisadi, sosial və mədəni həyat həqiqətlərinin tədqiqi bu gün olduqca vacib və önəmlidir. Bu, hər şeydən öncə bölgənin Ermənistan tərəfindən işğalı ilə bağlıdır. Ermənistan tərəfinin Azərbaycanın bu zəngin diyarının qədimdən onlara məxsus olması ideyasını vurğulaması, bölgənin iqtisadi-sosial «geriliyi», ermənilərin Azərbaycan rəhbərliyi tərəfindən «sıxışdırılmaları» və sair cəfəng, heç bir əsası olmayan fikirlərini bütün dünyada yayması Dağlıq Qarabağ tarixini obyektiv tədqiq etməyi zəruriləşdirmişdir. Tədqiqatlar sübut edir ki, Dağlıq Qarabağ Azərbaycanın qədim, təbii sərvətlərə malik bir hissəsidir və tariximizin heç bir mərhələsində Ermənistana aid olmayıb. Eyni zamanda XIX əsrdən bölgəyə məqsədli şəkildə köçürülən erməni əhalisinin sosial-iqtisadi durumu Azərbaycanın digər regionları ilə müqayisədə, hətta Ermənistanla, keçmiş ittifaqla müqayisədə birinci yerdə dayanmışdır. Dağlıq Qarabağ əhalisinin şəxsi təsərrüfatlarından əldə edilən gəlirin müqayisəli, obyektiv təhlili bu baxımdan böyük əhəmiyyət kəsb edir.

Azərbaycan İnqilab Komitəsinin torpaq haqqında 1920-ci il 5 may tarixli dekreti ilə bütün xan, bəy, vəqf torpaqları müsadirə edildi və ödənişsiz olaraq kəndlərin istifadəsinə verildi [2, f.379, s.3, i.37, v.10]. Meşələr, sular və yeraltı sərvətlər «milliləşdirilərək» dövlət mülkiyyətinə çevrildi. Lakin «milliləşdirmə» Azərbaycan iqtisadiyyatına ciddi zərbə vurdu. Ona görə də AİK-si 1921-ci il 17 may tarixli dekreti ilə Yeni İqtisadi Siyasət (YİS) tətbiq etdi [2, f.379, s.3, i.3787, v.11]. YİS hakim mövqelərin dövlətin əlində olması şərtilə ərzaq vergisi tətbiq olunmasını, ticarət azadlığına yol verilməsini, icarə sisteminin yaradılmasını, müştərək müəssisələrinin qurulmasını, xarici konsessiyaya yol verilməsini, kooperasiya, bank, kredit şəbəkəsinin yaradılmasını və sair iqtisadi tədbirləri tətbiq etməyi nəzərdə tuturdu. YİS-in tətbiq edilməsi Dağlıq Qarabağda kənd təsərrüfatı və sənayenin dirçəldilməsinə, ticarətin inkişafına, maliyyə sahəsində böhranlı vəziyyətin aradan qaldırılmasına şərait yaratdı.



1921-ci ildən Dağlıq Qarabağda müəssisələrin özünüidarə, özünümaliyyələşdirmə sisteminə keçməsi fəhlələrin maddi marağının, ruh yüksəkliyinin artmasına, bu da, öz növbəsində əmək məhsuldarlığının inkişafına, istehsalın genişlənməsinə səbəb oldu [1, f.27, s.1, i.303, v.171].

Dağlıq Qarabağda onlarla xırda istehsal və ticarət müəssisələrinin icarəyə verilməsi maliyyə sahəsində böhranın aradan qaldırılmasına səbəb oldu. Sahibkarlığın inkişafı isə bazar iqtisadiyyatının inkişafına imkan yaratdı və şəhərlə kənd arasında əlaqələr genişləndi. Bununla da Dağlıq Qarabağın iqtisadi həyatında nisbi iqtisadi sabitlik yarandı.

1920-ci ilin ikinci yarısından Dağlıq Qarabağın kəndlərində çətin iqtisadi böhran yarandı. Kənd təsərrüfatı məhsulları istehsalı təxminən 35 faiz azaldı [2, f.379, s.3, i.37, v.16]. Bunun ən başlıca səbəbləri ərazi iddiaları məqsədilə xalqımıza qarşı erməni cəlladlarının – Dro, Nijde və Andranikin törətdiyi cinayətlər, günahsız azərbaycanlıların güllələnməsi, repressiyalara məruz qalınası, kəndlərin yandırılıb xarabalıqlara çevrilməsi, kütləvi qarətlər, azərbaycanlıların mülkiyyətdən məhrum edilməsi, onların var-dövlətlərinin, torpaqlarının müsadirə edilməsi idi. Bu dövrdə daha çox zərər çəkən azərbaycanlıların qədim yaşayış məskəni və onların daha çox yaşadığı Şuşa ərazisi olmuşdur. Bunu ARDA-da saxlanılan, 1921-ci ilə aid sənəddən də görmək olar:

| Ərazilər | Təsərrüfatların sayı | Atlar (başla) | Öküzlər (başla) | Kəl (başla) | Xış (ədəd) | Kotan (ədəd) | Firqon (ədəd) | Araba (ədəd) |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi Dağlıq Qarabağ üzrə | 26227 | 1962 | 4347 | 14937 | 6637 | 1024 | 71 | 2677 |
| Şuşa | 1114 | 429 | 31 | 397 | 141 | 2 | 3 | 20 |
| Xankəndi | 7229 | 334 | 530 | 3319 | 1815 | 132 | 12 | 906 |
| Ağdərə | 5556 | 509 | 2294 | 3688 | 1373 | 482 | 17 | 117 |
| Xocavənd | 6378 | 447 | 1092 | 4156 | 1982 | 326 | 19 | 1277 |
| Hadrud | 5950 | 243 | 400 | 3377 | 1547 | 82 | 20 | 57 |

Cədvəldən göründüyü kimi keçən əsrin 20-ci illərində Ermənistanın əsassız ərazi iddialarından və erməni vandalizmindən ən çox zərər çəkən Şuşa rayonu olmuşdu.

Vəziyyətdən çıxmaq üçün Dağlıq Qarabağın kənd təsərrüfatında da YİS tətbiq edildi. 1922-ci il martın 1-dən Dağlıq Qarabağda müvəqqəti olaraq bölüşdürülməmiş və ehtiyat fondunda qalmış torpaq sahələri müddəti 3 ildən yuxarı olmaq şərti ilə müqavilə əsasında, xüsusi şərtlərlə icarəyə verildi. 1922-ci il iyunun 3-dən Dağlıq Qarabağda olan bağların bir hissəsi keçmiş sahiblərinə qaytarıldı [2, i.378, v.10]. Bütün bunlar kənd təsərrüfatının inkişafına səbəb oldu. Əkin sahələri genişləndi. Tədqiqatlardan məlum olur ki, 1921-ci illə müqayisədə 1926-cı ildə DQMV-də taxıl əkini sahəsi 58 faiz, mal-qaranın ümumi sayı 43 faiz, texniki bitkilərin səpini 32 faiz artdı. Həmçinin bu artım məhsuldarlıqda da özünü göstərdi. Bu dövrdə DQMV-nin kəndində sosial təbəqələşmə gücləndi. Kənddə ortababların xüsusi çəkisi yoxsul təbəqələrin hesabına xeyli artdı. Ortabablar bütün kəndlilərin 54 faizini təşkil etməklə ümumi məhsulun 67 faizini verir və kənd təsərrüfatı vergisinin çoxunu ödəyirdilər [2, s.3, i.37, v.18].

Beləliklə, keçən əsrin 20-ci illərinin birinci yarısında təsərrüfatların icarəyə verilməsi ilə insanlar yaradıcılıq, təşəbbüskarlıq və işgüzarlıq azadlığı aldılar. Bütün bunlar isə məhsul istehsalının və insanların əmək fəallığını artırmaq üçün maraq oyatdı. Nəticədə, Dağlıq Qarabağ iqtisadiyyatında canlanma baş verdi. Sənaye və kənd təsərrüfatı məhsulları istehsalının həcmi müharibədən əvvəlki səviyyəyə yaxınlaşdı. Əhalinin sosial vəziyyətində də müəyyən irəliləyişlər baş verdi. Lakin bu uzun çəkmədi.

Dağlıq Qarabağda YİS-in tətbiqi nəticəsində zəif cəhətlər də üzə çıxdı. Belə ki, vəziyyətdən səmərəli istifadə edən ermənilər ali hakimiyyət orqanlarına arxalanaraq, onlara məxsus olmayan müəssisələri icarəyə götürüb sahibkara çevrildilər və müəssisələrdə işləyən əliqabarlı azərbaycanlılara ögey münasibət göstərdilər. Bu isə onların narazılığına səbəb oldu. Həmçinin iri birlikləri ələ keçirən ermənilər min bir fırıldaqla daha çox varlandılar. Bu isə əhalinin narazılığına səbəb oldu. Eyni zamanda varlı təbəqənin yaranması yeni cəmiyyətin prinsiplərinə zidd idi. Bütün bunlara görə 1926-cı ildən etibarən şəxsi icarəyə verilən bütün təsərrüfatlar ləğv edilməyə, iqtisadiyyatda inzibati amillik metodlarının tətbiqinə başlandı [1, f.89, s.37, i.27, v.24].

Müharibə dövründə şəxsi və ictimai təsərrüfatlar maliyyə məngənəsinə düşmüşdü. Kolxozçuların öz həyətində saxladıqları məhsulların üzərinə böyük həcmdə vergi qoyulurdu. Ona görə də şəxsi təsərrüfatlarda mal-qara saxlamaq, meyvə ağacları yetişdirmək kəndliyə sərf etmirdi. Müharibədən sonrakı dövrdə kənd təsərrüfatını inkişaf etdirmək məqsədilə



bir sıra tədbirlər həyata keçirildi ki, bunlardan biri də «şəxsi təsərrüfatların inkişafı haqqında Tədbirlər planı» idi.

Sov. İKP MK-nın sentyabr (1953-cü il) plenumunda «kənd təsərrüfatının daha da inkişafı haqqında qərarı»na uyğun olaraq, kənd təsərrüfatı məhsullarının satınalma qiymətləri artırıldı [4]. Kəndlilərin şəxsi təsərrüfatlarda quş, mal-qara saxlaması üçün həvəsləndirmə tədbirləri həyata keçirildi. Kənd yerlərində yaşayıb-işləyən fəhlə və qulluqçuların həyətyanı təsərrüfatları üçün Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1962-ci il 19 may tarixli qərarına əsasən tikintilərin də sahəsi daxil olmaqla 0,15 hektar, kolxozçuların həyətyanı təsərrüfatları üçün isə 1963-cü il noyabr tarixli qərarına əsasən tikintilərin də sahəsi daxil olmaqla 0,25 hektar torpaq sahəsi müəyyən olundu [3, i.915, v.3]. Həmin qərarlara uyğun olaraq Dağlıq Qarabağda şəxsi təsərrüfatların əkin sahələri genişləndirildi. Bu artımı aşağıdakı cədvəldən də görmək olar: (hektarla) [6, 7, 10].

| **İllər** | **Cəmi vilayət üzrə** | **O cümlədən rayonlar üzrə** | | | | |
|---|---|---|---|---|---|---|
| | | **Şuşa** | **Ağdərə** | **Xankəndi** | **Xocavənd** | **Hadrud** |
| 1940 | 824 | 33 | 345 | 266 | 57 | 123 |
| 1950 | 1014 | 45 | 402 | 304 | 129 | 134 |
| 1960 | 1030 | 58 | 405 | 305 | 132 | 130 |
| 1970 | 1153 | 73 | 443 | 324 | 139 | 174 |
| 1980 | 1175 | 74 | 415 | 329 | 141 | 174 |
| 1988 | 1197 | 70 | 462 | 335 | 149 | 181 |

Cədvəldən göründüyü kimi bütövlükdə Vilayət üzrə şəxsi təsərrüfatların həcmi, ən aşağı göstərici Şüşa rayonunun payına, ən yüksək göstərici Ağdərə rayonunun payına düşmüşdür. Faktlara, materiallara əsaslanaraq deyə bilərik ki, DQMV-də şəxsi təsərrüfatlar ildən-ilə xeyli inkişaf etmişdi. Belə ki, 1940-cı ildə Vilayət üzrə ümumi əkin sahəsinin (81969 ha) təxminən bir faizini (824 ha) şəxsi təsərrüfatların əkin sahəsi təşkil edirdisə, 1988-ci ildə bu göstərici təxminən iki faizə yüksəlmişdir. Əkin sahələrinin təxminən 70 faizində kartof və tərəvəz əkilirdi. Aparılan hesablamalara

görə müəyyənləşdiririk ki, DQMV-də adambaşına düşən şəxsi təsərrüfatların həcmi ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Belə ki, bu göstərici DQMV-də 20 faiz öndə idi. DQMV-nin şəxsi təsərrüfatlarında kənd təsərrüfatı məhsullarının əksəriyyəti yetişdirilirdi. Heyvandarlıq, bağçılıq, bostançılıq, tütünçülük, arıçılıq, quşçuluq DQMV-də şəxsi təsərrüfatların mühüm sahələri idi.

Dağlıq Qarabağın şəxsi təsərrüfatlarında heyvandarlıq əsas aparıcı sahə hesab olunurdu. Kəndlilərin şəxsi təsərrüfatlarından alınan kənd təsərrüfatı vergilərinin azaldılması nəticəsində 1970-ci illərdə Dağlıq Qarabağ əhalisinin şəxsi mülkiyyətində mal-qaranın sayı 1940-cı il səviyyəsinə çatmış və bəzi kateqoriyalarda ötüb keçmişdir. Bu artımı aşağıdakı cədvəldən görmək olar: (min başla): [10, s.379; 6, s.96].

| Kateqoriyalar | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1940 | 1950 | 1960 | 1970 | 1985 | 1990 |
| İri buynuzlu mal-qara | 32 | 11 | 16 | 33 | 35 | 28 |
| İnək və buzovlar | 17 | 5 | 7 | 14 | 15 | 13 |
| Donuzlar | 9 | 4 | 7 | 14 | 14 | 9 |
| Qoyun və keçilər | 81 | 37 | 74 | 120 | 109 | 80 |
| Arı ailəsi | 2 | 4 | 5 | 3 | 3 | 1 |
| Quşlar | 250 | 167 | 190 | 250 | 275 | 150 |

Aparılan tədqiqatlardan məlum olur ki, DQMV-nin şəxsi təsərrüfatlarında saxlanılan iri buynuzlu mal-qara, vilayət üzrə saxlanılan iri buynuzlu mal-qaranın təxminən 40 faizini, inək və buzovlar 50 faizini, donuzlar təxminən 30 faizini, xırda buynuzlu mal-qara 28 faizini, arı ailəsi təxminən 50 faizini, quşlar isə 70 faizini təşkil edirdi [8, 9, 10].

Arxiv sənədlərinə, dövrü mətbuat materiallarına, tədqiqatlara əsaslanaraq deyə bilərik ki, Dağlıq Qarabağın Şuşa rayonunda əhalinin şəxsi təsərrüfatlarında saxlanılan mal-qara Vilayətin digər rayonlarından çox aşağı səviyyədə olmuşdur. Bu, ilk növbədə azərbaycanlıların daha çox yaşadığı Şuşa rayonunda şəxsi yardımçı torpaqların azlığı ilə bağlıdır. Həmçinin ermənilərin daha çox cəmləşdiyi Ağdərə, Xankəndi, Hadrud,



Xocavənd rayonlarına nisbətən Şuşa rayonunda yaşayan əhalidən alınan vergilərin həcmi daha çox idi. Məlum acı həqiqəti qeyd etməliyik ki, 1813, 1828-ci illərdə dünyanın müxtəlif bölgələrindən Dağlıq Qarabağa köçürülən ermənilərə böyük güzəştlər verildi ki, bunlardan biri də, şəxsi torpaqlardan alınan vergilərin həcminin məhdudlaşdırılması idi. Təəssüflər olsun ki, çar hökumətinin bu mənfur, ikili siyasəti sovet dönəmində də öz «aliliyini» qoruyub saxlamışdır. Eyni zamanda geniş otlaq sahəsinə malik ermənilər bundan çox məharətlə istifadə etmişlər. Dağlıq Qarabağın ayrı-ayrı rayonlarında şəxsi yardımçı təsərrüfatlarda saxlanılan mal-qaranın sayını aşağıdakı cədvəldən də görmək olar (min başla):

| İllər | Cəmi vilayət üzrə | Bundan rayonlar üzrə | | | | |
|---|---|---|---|---|---|---|
| | | Şuşa | Ağdərə | Xankəndi | Xocavənd | Hadrud |
| 1940 | 139 | 8 | 51 | 44 | 21 | 15 |
| 1950 | 57 | 2 | 24 | 15 | 9 | 7 |
| 1960 | 104 | 3 | 46 | 31 | 13 | 11 |
| 1970 | 181 | 10 | 68 | 53 | 24 | 26 |
| 1985 | 173 | 8 | 68 | 54 | 21 | 22 |
| 1990 | 130 | 5 | 52 | 41 | 12 | 20 |

Keçən əsrin 80-ci illərinin sonlarından başlayaraq Ermənistan dövləti Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürdü, müharibəyə başladı. Azərbaycanlılar yaşayan bütün kəndlər təcavüzə məruz qaldı. Minlərlə günahsız azərbaycanlı erməni təcavüzünün qurbanına çevrildi, öldürüldü, əsr götürüldü və yaşayış yerini tərk etməli oldu. Bütün bunlar isə 1988-ci ildən başlayaraq şəxsi təsərrüfatlarda geriləməyə səbəb oldu. Ayrı-ayrı rayonların şəxsi təsərrüfatlarında saxlanılan mal-qaranın saymı nəzərdən keçirərkən məlum olur ki, ən yüksək göstərici Ağdərə rayonunun, ən aşağı göstərici isə Şuşa rayonunun payına düşmüşdür. Araşdırmalardan məlum olur ki, DQMV-nin şəxsi təsərrüfatlarında saxlanılan mal-qaranın adambaşına düşən sayı ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır.

1970–1980-ci illərdə DQMV-nin şəxsi təsərrüfatlarında heyvandarlıq, tərəvəzçilik, bağçılıq daha da inkişaf etmiş və məhsul istehsalı təxminən

2 dəfə artmışdır. Bu artımın ən başlıca amili Respublika rəhbərliyinin Vilayətdəki aqrar sahəyə dərin qayğısının nəticəsində əldə edilmişdir. Bəhs olunan illərdə DQMV şəxsi təsərrüfatlarından əldə edilmiş məhsul istehsalının artım tempini aşağıdakı cədvəldən də aydın görmək olar: (min tonla) *[10, s.380; 7, s.110–118].*

| Məhsulların növləri | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 1970 | 1975 | 1980 | 1985 | 1988 |
| Tərəvəz | 0,1 | 0,8 | 2,1 | 2,2 | 2,5 |
| Üzüm | 15,3 | 17,1 | 25,3 | 37,2 | 37,3 |
| Ət və ət məhsulları | 1,4 | 1,5 | 3,7 | 4,1 | 4,5 |
| Süd və süd məhsulları | 4,3 | 5,9 | 14,4 | 15,1 | 18,1 |
| Yumurta (milyon ədəd) | 10 | 12 | 15 | 18 | 20 |
| Yun (ton) | 36 | 39 | 114 | 120 | 190 |

DQMV-nin iqliminin məqsədə müvafiqliyi, suyun bolluğu, torpağın məhsuldarlığı, əhalinin zəhmətsevərliyi, dövlətimizin diqqət və qayğısı şəxsi təsərrüfatlarm bütün sahələrinin inkişafına səbəb oldu. Sənədlərə, materiallara əsaslanaraq deyə bilərik ki, 1988-ci ildə DQMV-nin şəxsi təsərrüfatlarından əldə edilmiş məhsul ümumi Vilayət üzrə istehsal olunan məhsulun: ət və ət məhsulları üzrə təxminən 35 faizini, süd və süd məhsullarının 30 faizini, yumurtanın 75 faizini, yunun 30 faizini, tərəvəzin 50 faizini, üzümün təxminən 30 faizini verirdi [10, s.381]. Yuxarıda qeyd edilən kateqoriyalarla yanaşı, DQMV-nin şəxsi təsərrüfatlarında tutçuluq, şərabçılıq, baramaçılıq, tütünçülük, arıçılıq və digər sahələr də inkişaf edirdi.

Müqayisələr və təhlillər apararaq Dağlıq Qarabağın rayonlarında şəxsi yardımçı təsərrüfatlarından əldə edilmiş tərəvəz, üzüm, ət, süd məhsulları, yumurta, yun məhsulları istehsalında böyük fərqlər olduğunun şahidi oluruq. Azərbaycanlıların daha çox yaşadığı Şuşa rayonunda şəxsi təsərrüfatlardan istehsal edilmiş kənd təsərrüfatı məhsulları istehsalının həcmi Vilayətin digər rayonlarmdan aşağı səviyyədə idi. Yuxarıda qeyd etdiyimiz kimi çarizmin Azərbaycanda müstəmləkəçilik siyasətinin nəticəsi olaraq dünyanın müxtəlif dövlətlərindən erməniləri bölgəyə köçürmüş və Qarabağda, 1823–1832-ci illərdə ermənilərin xüsusi çəkisi 8,4 faizdən 34,8 faizədək artmışdır. Köçürülən ermənilərə çox böyük imtiyazlar verilmiş, onlar hər cür vergi və mükəlləfiyyətlərdən azad edilmiş, lazımi səviyyədə vəsaitlə təmin olunmuşlar. Qarabağ bəylərinə məxsus torpaqların çox hissəsi onların əlindən alınaraq gəlmə ermənilərə verilmişdir. Tədqiqatlardan məlum olur ki, ermənilərə verilən torpaqlar əlverişli şəraitdə münbit, məhsuldar torpaqlar idi. Mərkəzdən dəstək alan və Dağlıq Qarabağın erməni rəhbərliyinə arxalanan ermənilər sovet hakimiyyəti illərində də, öz «mötəbərliklərini» qoruyub saxlamışdılar. Bütün bunların nəticəsi idi ki, ermənilərin daha çox məskunlaşdıqları ərazilərdə şəxsi təsərrüfatlardan daha çox məskunlaşdıqları ərazilərdə şəxsi təsərrüfatlardan əldə edilən məhsullar digər ərazilərdə müqayisədə üstün olmuşdur. Bunu aşağıdakı cədvəldən də görmək olar. (1985-ci il şəxsi təsərrüfatlardan əldə edilmiş göstəricilər):

| Məhsullarm növləri | Cəmi vilayət üzrə | Rayonlar üzrə | | | | |
|---|---|---|---|---|---|---|
| | | Şuşa | Ağdərə | Xankəndi | Xocavənd | Hadrud |
| 1. Tərəvəz (min ton) | 2,2 | 0,1 | 0,9 | 0,6 | 0,3 | 0,3 |
| 2. Üzüm (min ton) | 37,2 | 1,1 | 15,2 | 3,2 | 9,1 | 9,2 |
| 3. Ət məhsulları (min ton) | 4,1 | 0,4 | 1,4 | 0,8 | 0,7 | 0,8 |
| 4. Süd məhsulları (min ton) | 15,1 | 0,5 | 5,3 | 3,1 | 3,1 | 3,3 |
| 5. Yumurta (milyon ədəd) | 18 | 1,1 | 9,2 | 2,2 | 2,8 | 2,7 |
| 6. Yun (ton) | 120 | 4 | 46 | 25 | 23 | 22 |

Bütün bunlarla yanaşı, Dağlıq Qarabağ əhalisi öz şəxsi təsərrüfatlarında sənətkarlığın müxtəlif növləri ilə də məşğul olurdular. Bölgədə toxuculuq sənətinin ayrı-ayrı sahələri, xüsusilə xalçaçılıq, keçəçilik, ipəkçilik, şərbaflıq, boyaqçılıq və sair inkişaf etmişdi.

İstehsal texnikasına, naxış və çeşni çalarlarının rəngarəngliyinə, bədii tərtibatın zənginliyinə görə Şuşa xalçaları bütün dünyada məşhur idi. Bu-

rada gəbə, *kilim*, palaz, fərmaş, vərni, ladı və sair toxunurdu. Dağlıq Qarabağın azərbaycanlı əhalisi tərəfindən toxunan bu xalçalar dünya bazarında çox həvəslə alınırdı. Lakin çox təəssüflər olsun ki, dələduz qonşularımız burada da öz məkrli niyyətlərindən əl çəkməyərək həmin xalçaları «özününküləşdirmiş»lər.

Dağlıq Qarabağın əhalisi dəriçiliklə də məşğul olurdular. Emal olunmuş dəridən papaq, kürk, ayaqqabı, çəkmə, çarıq, qayış, yüyən, yəhər ələvələri, qamçı, tərlik və sair hazırlanırdı. Bundan əlavə, aşılanmış dəridən köçmə maldar elatlar öz daxili ehtiyacları üçün istifadə olunan dağarcıq, eymə, tejən, tuluq, cılğı, motal hazırlayırdılar. Dağlıq Qarabağda dəmirçilik sənəti əhalinin qədim sənəti idi və son dövrlərə qədər fəaliyyət göstərirdi. Dəmirçilər həm kənd təsərrüfatı alətləri, həm də ev-məişət avadanlıqları düzəldirdilər [11, s.68].

Zərgərlik, nalbəndlik, daşişləmə, ağacişləmə və digər sənət sahələri də, əhalinin şəxsi təsərrüfatına daxil olmuşdur. Təsadüfi deyildir ki, Qarabağımızın tacı olan Şuşada dəmirçi, papaqçı, zərgər, boyaqçı, toxucu və digər məhəllələr son dövrlərə qədər qalmaqda idi.

XX yüzilliyin 60–70-ci illərində DQMV-nin şəhər və rayonlarının iqtisadi yüksəlişi xalqın rifahının yaxşılaşdırılmasına şərait yaratmışdır. Bəhs etdiyimiz dövrdə fəhlə və qulluqçuların orta aylıq əməkhaqqı 1,5 dəfə artmışdır. 70–90-cı illərdə ictimai istehlak fondlarından əhaliyə verilən ödənc və güzəştlərin məbləği üç dəfə çoxalmışdı. Qocalara, əlillərə, əmək qabiliyyətini müvəqqəti itirənlərə, əmək və müharibə veteranlarına, başçısını itirmiş uşaqlı ailələrə, tək analara maddi yardım ilbəil artırdı. Təkcə 1970-ci ildə Respublikamızda qocalığa və əlilliyə görə dövlətdən təqaüd alanların sayı 643 min nəfər idi ki, bunun 25 min nəfəri Dağlıq Qarabağın payına düşürdü. Lakin ermənilərin məkrli niyyəti bu sahədə də özünü büruzə verirdi. Tədqiqatlardan məlum olur ki, eyni yerdə, eyni vaxtda işləyən azərbaycanlı ilə erməni arasında təqaüd alınarkən xeyli fərqlər olmuşdur. Yüksək qrup təyin ediləndə isə həmin insanın erməni olması kifayət edirdi. Araşdırmalardan məlum olur ki, qrupu təyin edən həkim ekspert komissiyasının tərkibində bir nəfər də olsun azərbaycanlı yox idi. Onlar isə mənafelərinə uyğun olan qərarı çıxarırdılar. Təkcə 1968-ci ilin sənədlərini nəzərdən keçirməklə aşağıdakı cədvəli tərtib edir və yuxarıda deyilənlərin şahidi oluruq:



| Ödəniş və güzəştin adı | Cəmi vilayət üzrə | Rayonlarda | | | | |
|---|---|---|---|---|---|---|
| | | Xankəndi | Ağdərə | Xocavənd | Hadrud | Şuşa |
| Təqaüdçülərin sayı O cümlədən | 24281 | 7387 | 7283 | 4716 | 3527 | 1368 |
| 1. Qocalığa və əlilliyə görə təqaüdçülərin sayı | 6906 | 3271 | 1520 | 836 | 775 | 504 |
| 2. Əmək qabiliyyətini itirən təqaüdçülərin sayı | 2234 | 862 | 574 | 337 | 330 | 130 |
| 3. Müharibə veteranları və onlarm ailələrinin sayı | 2861 | 750 | 802 | 665 | 545 | 190 |
| 4. Əmək təqaüdçülərinin sayı | 12280 | 2494 | 4337 | 2878 | 2068 | 443 |
| 5. Çoxuşaqlı ailələrdə birdəfəlik dövlətdən müavinat alanlar | 2253 | 626 | 691 | 463 | 273 | 200 |
| 6. Çoxuşaqlı ailələrə verilən müavinatın miqdarı (min man.) | 147,1 | 36,3 | 47,4 | 30,4 | 17,9 | 15,0 |

Cədvəldən göründüyü kimi Şuşa rayonunda təqaüd alanların sayı Xankəndi və Ağdərə rayonları ilə müqayisədə 6 dəfə aşağı olmuşdu.

Beləliklə, çoxsaylı arxiv sənədlərinə, elmi tədqiqat işlərinə, elmi ədəbiyyata, dövrü mətbuata əsaslanaraq deyə bilərik ki, DQMV-də şəxsi təsərrüfatlar Azərbaycanın digər regionları ilə müqayisədə üstün və sürətlə inkişaf etmiş, bu isə öz növbəsində əhalinin güzəranının yaxşılaşmasına şərait yaratmışdır. Təkcə bir faktı qeyd edək ki, 1950–1980-ci illərdə DQMV-də əmanət kassalarının sayı 2,5 dəfə, əmanətçilərin sayı 4,2 dəfə, kassalarda saxlanılan əmanətlərin miqdarı isə 64 dəfə artmışdı [4, s.232, i.70, v.22]. Bu göstərici ümumrespublika səviyyəsində birinci yer demək idi. Eyni zamanda DQMV-də məişət xidmətinin hər nəfərə düşən həcmi ümumrespublika göstəricilərindən 1,4 dəfə artıq olmuşdur [4, s.23, i.8, v. 172]. Bəhs olunan illərdə bütün sahələrə istər vəsait ayrılmasının həcmində, istər sosial-iqtisadi inkişaf göstəricilərində, istərsə də mədəni-məişət xidməti göstəricilərində DQMV-i ümumrespublika səviyyəsində həmişə birinciliyi qoruyub saxlamışdır. Bütün bunlar isə erməni siyasətçilərinin «DQMV-də yaşayan erməni əhalisinin sosial-iqtisadi vəziyyətinin geriliyi» tezisinin ağ yalan olduğunu göstərir. Qərəzsiz olaraq statistikaya, faktlara, materiallara əsaslanaraq deyə bilərik ki, DQMV-də şəxsi təsərrüfatların inkişafında başlıca amil Azərbaycan hökumətinin Vilayətə göstərdiyi

dərin qayğı və bölgənin bol yeraltı-yerüstü təbii sərvətlərə malik olması ilə bağlı idi. Çox təəssüflər olsun ki, bol təbii sərvətlərə malik olan Qarabağımız Ermənistan tərəfindən işğal edilmiş və bu gün tayı-bərabəri olmayan həmin sərvətlər çox qəddarcasına mənimsənilir. Lakin biz inanırıq ki, xalqımızın birliyi düşmən əsarətində olan bütün torpaqlarımızı əsarətdən, işğaldan azad edəcəkdir!

Arxiv sənədlərinə, dövrü mətbuat materiallarına, elmi-tədqiqat əsərlərinə əsasən müəyyən edirik ki, sovet hakimiyyəti illərində Vilayətin erməni başçılarının qatı millətçilik siyasətinin nəticəsində azərbaycanlılar yaşayan qədim yaşayış məskənlərinə daimi ögey münasibət göstərilmiş və 1920–1970-ci illərdə bölgədə yaşayan azərbaycanlıların sayında çox cüzi artım müşahidə edilmişdir. Dağlıq Qarabağın şəhər və rayonlarında aparılan tədqiqatlar yuxarıda deyilənləri təsdiq edir (min nəfərlə):

| Rayon və şəhərlər | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 1926 | 1939 | 1959 | 1965 | 1969 |
| Bütün vilayət üzrə əhalinin sayı | 123,3 | 150,8 | 130,4 | 145,4 | 150 |
| Xankəndi rayonunda | 27,4 | 39,8 | 40,4 | 47,1 | 49,2 |
| Xankəndi şəhərində | 3,2 | 10,5 | 19,7 | 26,2 | 28,4 |
| *Şuşa rayonunda* | 10,4 | 10,8 | 10,6 | 11,9 | 12,4 |
| Şuşa şəhərində | 5,1 | 5,4 | 6,1 | 6,9 | 7,2 |

Cədvəldən göründüyü kimi 1926-cı illə müqayisədə 1969-cu ildə Xankəndi rayonunda əhalinin artımı 85%-dən çox, Şuşa rayonunda 20%-ə yaxın, Xankəndi şəhərində artım 9 dəfə, Şuşa şəhərində isə təxminən 40% olmuşdu. Təəssüflər olsun ki, bu gün Dağlıq Qarabağda bir nəfər də olsun azərbaycanlı qalmamışdır.



# X FƏSİL

# DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ VƏ İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİMİZİN AZAD EDİLMƏSİ UĞRUNDA MÜBARİZƏ

## *(1993–2009)*

XX yüzilliyin 80-ci illərinin ortalarında Azərbaycan xalqının özünüdərk prosesi dərinləşmiş və onların hüquqlarının tapdalanmasına, sərvətlərinin talan olunmasına etirazı güclənmişdi. Mərkəz Azərbaycan kimi «yağlı tikə»ni itirməmək üçün müxtəlif iqtisadi konsepsiyalar («Yenidənqurma», «Aşkarlıq», «Sürətləndirmə», «Demokratikləşmə») qəbul etsə də, bu, heç də vəziyyətdə dönüş yaratmadı. Əksinə, «Yenidənqurma» və «Aşkarlığın» yaratdığı imkanlar Azərbaycanda demokratik hərəkatın inkişafına təkan verdi. Bunun gələcəkdə türk dünyasının daha da güclənməsinə səbəb olacağından ehtiyat edən sovet rəhbərliyi Azərbaycanın DQMV-də milli münaqişə ocağını alovlandırdı. Azərbaycan torpaqları hesabına «Böyük Ermənistan» yaratmaq planlarını həyata keçirmək üçün başda «Daşnaksütyun» partiyası olmaqla, bütün millətçi erməni təşkilatları və komitələri fəaliyyətlərini genişləndirdilər.

1988-ci ildə erməni separatizminin növbəti, iyrənc dalğası başlandı. Sovet imperiyasının dağılma prosesinin yaratdığı əlverişli şəraitdən istifadə edən erməni separatçıları Azərbaycana qarşı yeni ərazi iddialarına başladılar. Onlar dünyanın müxtəlif bölgələrindəki havadarlarının köməyindən istifadə edərək Qarabağın Dağlıq hissəsini Ermənistana birləşdirilməsi kimi antikonstitusion bir hərəkatı reallaşdırdılar. Bununla da, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlandı. Bu münaqişənin əsl mahiyyəti ümummilli liderimiz H.Ə.Əliyev tərəfindən belə qiymətləndirilmişdir: «Bölgəmizdə bəzi siyasi qüvvələrin qərəzli məqsədlərlə törətdikləri münaqişələrin, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin heç bir dini və ya etnik səbəbi yoxdur. Bu, ölkəmizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə qənim kəsilmiş qüvvələrin apardıqları separatçılıq siyasətinin nəticəsidir [6].

Əvvəlki dövrlərdə olduğu kimi, yenə də milli ədavətin ilk qurbanları Ermənistanda yaşayan azərbaycanlılar oldu. Ermənistanda dövlət səviyyəsində xüsusi silahlı dəstələr yaradıldı ki, həmin dəstələr azərbaycanlıların

öz doğma el-obasından qovulmasında fəal rol oynadılar. 1988-ci ildə Ermənistan SSR ərazisindən öz dədə-baba yurdundan – 185 kənddən 230 min azərbaycanlı qovuldu, onlara məxsus 31.000 ev, şəxsi təsərrüfat, 165 kolxoz və sovxoz əmlakı talandı, 214 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi [2]. Bu zaman 15 mindən çox kürd və bir neçə min rus Ermənistandan çıxarıldı. Ermənistan monoetnik bir respublikaya çevrildi.

1988–1993-cü illəri əhatə edən Qarabağ müharibəsi maraqlı dövlətlərin Azərbaycanda mənafelərinin toqquşması, həmçinin Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi səbəbindən baş verdi və xalqımızı böyük faciəyə düçar etdi. Azərbaycan xalqı «Qarabağ savaşı»nda 20 mindən çox övladını itirdi. Ərazilərimizin 20 faizi işğal edildi. Bir milyondan artıq soydaşımız öz vətənində qaçqın və köçkün həyatını yaşamağa məcbur oldu. İşğal olunmuş ərazilərdə ermənilər «torpağı viran qoymaq» taktikasından istifadə edərək evləri, müəssisələri, kommunikasiya vasitələrini talan etmiş, dağıtmış və yandırmışdılar. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 5 min nəfər əlilə çevrilmiş, 4861 nəfər isə erməni vandalları tərəfindən əsir və girov götürülmüşdür. Acınacaqlı hal ondan ibarətdir ki, əsir və girovların 3/4 nəfəri qadın, 58 nəfəri uşaq, 255 nəfəri qoca idi [3]. Girov götürülənlərdən 1357 nəfəri əsirlikdən azad edilmiş, 783 nəfəri isə bu gün əsir qalmaqdadır. Beynəlxalq Qırmızı Xaç Komitəsinin məlumatına görə 439 nəfər azərbaycanlı əsirlikdə ağır işgəncələrlə öldürülmüşdür [1]. Erməni faşistləri əsir və girovların həqiqi sayını beynəlxalq humanitar təşkilatlardan gizlədir, onlarla qeyri-insani rəftar edir, qul kimi işlədir, təhqir edir, alçaldırdılar. Bütün bunlar isə 1949-cu il «Cenevrə Konvensiyası» və onun 1977-ci il tarixli «Protokolları»na ziddir. Xatırladaq ki, Azərbaycan Respublikası 1993-cü ildən «Cenevrə Konvensiyasına» qoşulmuşdur. Eyni zamanda Azərbaycan Respublikasının «Cinayət Məcəlləsi»nin VII bölməsinin 116-cı maddəsinin müddəalarını əldə əsas tutaraq azərbaycanlılara qarşı törədilən ağır cinayətlərə görə, xüsusi olaraq qəsdən adam öldürdüklərinə, azərbaycanlılara qarşı verdikləri işgəncələrə, əsirlərlə qeyri-insani münasibətə, yaralılara, xəstələrə, mülki vətəndaşların sağlamlığına mənfi təsir göstərməklə ölümlə nəticələnən bədənə fiziki cəhətdən ağır xətər yetirmələrinə və ağır cinayətlərə görə erməni vandallarım ömürlük həbs cəzası gözləyir. Eyni zamanda erməni faşistləri bir məsələni də yaddan çıxarmamalıdırlar ki, onlar xalqımıza qarşı törətdikləri ağır cinayətlərə görə beynəlxalq humanitar hüquqla mühakimə oluna bilərlər. Necə ki, İkinci Dünya müharibəsindən sonra Nurnberq tribunalarında əsas hərbi canilər mühakimə edilmiş, onların 12-nə ölüm hökmü, qalanlarma müxtəlif müddətli həbs cəzaları verilmişdir [13]. Təsadüfi deyildir ki, 1998-ci ildə Romada keçirilmiş «Diplomatik Konfrans»da daimi beynəlxalq cinayət məhkəməsinin «Statusu» (Nizamnaməsi) qəbul edilmişdir. Hərbi cinayət törətmiş şəxslərin tapılıb mühakimə edilməsi, həmin qurumun səlahiyyətlərinə daxildir. İnanırıq ki, tezliklə xalqımıza qarşı törətdikləri ağır vəhşiliklərə görə cinayətkarlar öz layiqli cəzalarını alacaqlar.

Ermənistan silahlı birləşmələrinin Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində Azərbaycana ciddi maddi ziyan dəymişdir. Hərbi təcavüz nəticəsində Respublikamızın 17 min kvadrat kilometrlik ən məhsuldar torpaqları işğal edilmişdir. Ermənistanın işğal etdiyi ərazilərdə 900 yaşayış məskəni, 7 min sənaye və kənd təsərrüfatı obyekti, 131 min ev, 1025 məktəb, 798 səhiyyə ocağı, 800 km avtomobil yolu, 160 körpü, 23 min km su və 15 min km elektrik xətləri təcavüzün qurbanı olmuşdur. Bundan əlavə 280 min hektar meşə, 1200 irriqasiya sistemi işğalçıların əlinə keçmişdir. Təcavüzkarlar, işğal edilmiş ərazilərdə olan 22 muzeyi, 4 rəsm qalereyasını, tarixi əhəmiyyəti olan 9 sarayı qarət etmiş və yandırmışlar. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunmuş, 44 məbəd və 9 məscid dağıdılmışdır. 927 kitabxanada 4,6 milyon kitab və qiymətli tarixi əlyazmalar məhv edilmişdir. İşğalçılar tərəfindən 220 min baş iribuynuzlu mal-qara Ermənistana aparılmışdır [1,2,3]. İşğal olunmuş ərazilərimizdə nadir flora və faunaya malik meşə sərvətləri və çox qiymətli su mənbələri amansızcasına qarət olunaraq Ermənistana daşınır. İlkin hesablamalara görə işğal nəticəsində Azərbaycan öz iqtisadi potensialının 16 faizini itirmiş və ölkəmizə 60 milyard ABŞ dollarında ziyan dəymişdir. Oğurlanmış və məhv edilmiş tarixi-mədəni sərvətlərimizin dəyərini isə pulla qiymətləndirmək mümkün deyildir. Ermənistan bu gün də, Dağlıq Qarabağ ərazisində öz işğalçılıq siyasətini davam etdirir. Onlar işğal olunmuş ərazilərdə yanğınlar törədir, narkotik maddələr yetişdirir, yeraltı və yerüstü sərvətlərimizi mənimsəyirlər. Ümummilli liderimiz H.Ə.Əliyev çıxışlarından birində göstərmişdir ki, «faşistliyin, vəhşiliyin dərəcəsi yoxdur. Erməni işğalçılarının hərəkətləri məhz bunu sübut edir» [6].

Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş və separatçı «Dağlıq Qarabağ Respublikası»nın nəzarətində olan torpaqları dünya terrorizminin təlim meydanlarına və müxtəlif növ kimyəvi silahların sınaq düşərgəsinə, eyni zamanda nüvə tullantılarının basdırıldığı əraziyə çevrilmişdir. Tədqiqatlardan məlum olur ki, Yuxarı Qarabağda nüvə, bioloji,

kimyəvi, kompyuter terrorizmi üzrə qruplar fəaliyyət göstərir və bütün bunlar bəşəriyyət üçün təhlükəyə çevrilmişdir [4]. İşğal olunmuş Azərbaycan ərazilərində işğalçı ordunun dərhal, tamamilə və *qeyri-şərtsiz* çıxarılması tələbi BMT TŞ-nın 1993-cü il 30 aprel 822, 29 iyul 853, 14 oktyabr 874, 11 noyabr 884 saylı qətnamələrində öz əksini tapsa da, Ermənistan müxtəlif bəhanələrlə həmin qətnamələrin qərarlarını yerinə yetirməkdən imtina *etmişdir* [5].

Dövlətimizin «olum və ölüm» şəraitində xalqın tələbi ilə *ümummilli liderimiz H.Ə.Əliyev* Azərbaycanda hakimiyyətə gəldi. H.Əliyevin yenidən Azərbaycanda hakimiyyətə gəlməsi respublikamızda baş verə biləcək daha böyük faciələrin qarşısını aldı. Azərbaycanda baş verən dövlət çevrilişlərinə cəhdlər xalqımızın Prezidentinin ətrafında sıx birləşməsi nəticəsində baş tutmadı. Heydər Əliyev Azərbaycanın haqq işini, onun günahsız faciələrə düçar edilməsinin səbəblərini dünyaya çatdırdı, dövlətçiliyimizi qorudu və inkişaf etdirdi. Azərbaycan dünya birliyində layiqli yerini tapdı.

XX yüzilliyin 90-cı illərinin ortalarında Azərbaycan Respublikasına qarşı informasiya blokadasının yarılması, Dağlıq Qarabağ probleminə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın dünya siyasətində, dünya dövlətləri arasında özünə layiq yer tutması, respublikanın ərazi bütövlüyünün sülh, danışıqlar yolu ilə təmin edilməsi istiqamətində ümummilli liderimiz H.Ə.Əliyevin başçılığı ilə gərgin və səmərəli iş aparıldı. H.Ə.Əliyevin diplomatiyası beynəlxalq münasibətlər sistemində yaranmış dəyişikliklər, qloballaşma meyilləri, dövlətlərin Cənubi Qafqaz regionundakı maraqlarının Azərbaycanın maraqları ilə uzlaşdırılması kimi praqmatik əsaslar üzərində quruldu. Azərbaycanın dövlət başçısı dövlətimizin üzv olduğu beynəlxalq təşkilatların sessiyalarında, zirvə toplantılarında iştirak etdi. Qısa bir müddətdə Heydər Əliyev 68 ölkənin prezidenti, hökumət başçısı ilə görüşlər keçirdi [7].

Azərbaycan Respublikasının Prezidenti H.Əliyev uğurlu diplomatiyası, milli ordunun yaradılması və güclənməsi nəticəsində düşmən və onun havadarları artıq münaqişəni zorakı vasitələrlə həll etmək cəhdlərinin *perspektivsizliyini* dərk etdilər. 1994-cü il mayın 12-də cəbhələrdə atəşkəsə nail olundu [6]. Müharibənin dayandırılması, daxili vəziyyətin nizamlanması, ictimai siyasi sabitliyin möhkəmləndirilməsi və regionda Azərbaycanla qonşu dövlətlər arasında yaranmış gərginliyin normal məcraya salınması Azərbaycanın müstəqil dövlət kimi yaşamasını şərtləndirdi. Bundan sonra Dağlıq Qarabağ probleminə dair həqiqətlərin dünya ictimaiyyətinə



çatdırılması, respublikanın ərazi bütövlüyünün sülh, danışıqlar yolu ilə təmin edilməsi istiqamətində H.Əliyev gərgin və səmərəli iş apardı.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli Heydər Əliyevin bütün ölkələrin dövlət başçıları ilə görüşlərində mühüm mövzulardan birincisi olmuşdur. Təsadüfi deyildir ki, Heydər Əliyev 1993–2000-ci illərdə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsi məsələsini ABŞ rəhbərliyi ilə 18, Fransa ilə 16, Rusiya ilə 28, Türkiyə ilə 78 dəfə əsaslı müzakirə etmiş, problemin həll edilməsi üçün mümkün variantlar araşdırmışdır [7]. Heydər Əliyev BMT-dəki çıxışında, türkdilli dövlət başçılarının, İslam Konfransı Təşkilatının, NATO-nun sammitlərində, MDB dövlət başçılarının bütün görüşlərində Ermənistan–Azərbaycan Dağlıq Qarabağ məsələsinə toxunmuş və məsələnin obyektiv həlli üçün geniş imkanlar açılacağını vurğulamışdır. Aparılan qətiyyətli və səmərəli işin nəticəsi olaraq bütün dünya dərk edə bildi ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib. Bu baxımdan «Yeni Müsavat» qəzetinin 17 oktyabr 2001-ci il tarixli sayında AŞPA-nın sədri Lord Rossel Constondan alınan müsahibə çox böyük maraq doğurur. Belə ki, L.R.Conston həmin müsahibəsində açıq etiraf etmişdir ki, «bu gün beynəlxalq ictimaiyyətdə belə bir rəy formalaşıb ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ ərazisini işğal etmişdir [8]. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT-nin 49-cu sessiyasının tribunasından Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırdı [50, s. 8].

1994–2000-ci illərdə ümummilli liderimiz Heydər Əliyev ATƏT rəhbərliyi və onun Minsk qrupu təmsilçiləri ilə 130-dan artıq görüş keçirmişdir. ATƏT-in Budapeşt (dekabr 1994) və Lissabon (dekabr 1996) sammitləri Ermənistan–Azərbaycan Dağlıq Qarabağ Münaqişəsinin Minsk qrupu vasitəsilə ədalətli, beynəlxalq prinsiplərə əsaslanaraq həllinin vacibliyini təsdiq etdi. ATƏT-in Budapeşt Sammitində H.Əliyevin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində belə bir qərar qəbul edildi: Ermənistanla Azərbaycan arasında sülhə nail olmaq üçün bölgəyə sülhməramlı çoxmilli beynəlxalq qüvvələr yerləşdirilməli, Minsk qrupu həmsədrlərinin təsisatını təşkil etməli. Nəticədə ATƏT-in Minsk qrupu həmsədrlərinin təsisatı yaradılmış, vasitəçilərin fəaliyyətində əlaqəsizlik aradan qaldırılmışdır. ATƏT-ə üzv olan dövlətlərin münaqişənin həllinə yönəldilmiş səylərinin əlaqələndirilməsi mexanizmini işə salmışdılar. Sammitdə qəbul edilən mühüm məsələlərdən biri də münaqişəni dinc yolla nizama salmaq üçün xüsusi qüvvələrin yaradılması olmuşdur [10]. Beləliklə, H.Əliyevin gərgin və əhatəli işinin nəticəsi olaraq ATƏT-in Budapeşt Sammiti Dağlıq Qara-

bağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun həlli haqqında əhəmiyyətli qərar çıxardı [39, s. 50].

ATƏT-in 1996-cı ilin dekabrında keçirilmiş Lissabon Sammitinin nəticələri Azərbaycan diplomatiyasının mühüm nailiyyəti olmuşdur. Zirvə görüşündə Heydər Əliyevin qətiyyətli mövqeyi və siyasi uzaqgörənliyi sayəsində ATƏT-ə üzv olan 54 ölkədən 53-ü Dağlıq Qarabağ münaqişəsinin həllinə dair qəbul edilmiş Bəyanatda Azərbaycanın ərazi bütövlüyü prinsipi dəstəklənmişdir. Zirvə görüşündə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün 3 mühüm prinsip irəli sürülmüşdür: 1. Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması; 2. Dağlıq Qarabağa Azərbaycan Respublikası tərkibində yüksək dərəcədə özünüidarə statusu – muxtariyyət hüququ verilməsi; 3. Dağlıq Qarabağın bütün əhalisinə təhlükəsizlik təminatı verilməsi [11]. Lissabon Sammitindən sonra Minsk qrupu işini fəallaşdırmaq üçün ona üç nüfuzlu dövlət – ABŞ, Rusiya və Fransa həmsədrlik etməyə başladı. 1997-ci ilin ilk 6 ayı ərzində Minsk qrupunun həmsədrləri «Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş» adlı layihəni hazırlayıb iyunun 11-də hər 2 tərəfə təqdim etdilər. Lakin «layihə»ni nəzərdən keçirən dünya siyasətçisi H.Əliyev burada Azərbaycan dövlətinin mənafeyinə uyğun olmayan bəndlərin olmasını həmsədrlərin diqqətinə çatdırdı [12]. Belə ki, sənəd BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlum qətnamələrinə əsaslanmamış və hüquqi baxımdan icbari xarakter daşıdığı vurğulanmışdır. İşğal olunmuş ərazilərin boşaldılması və status məsələlərinin dəqiq mexanizmi və konkret zaman çərçivəsinin göstərilməməsi təqdim olunmuş layihənin əhəmiyyətini azaltmışdı. Azərbaycanın ərazi bütövlüyü çərçivəsində təqdim olunmuş «Paket təklif»i isə Ermənistan tərəfi qəbul etmədi [13].

Minsk qrupunun həmsədrləri 1997-ci il sentyabrın 19-da «Dağlıq Qarabağda silahlı münaqişənin dayandırılması haqqında saziş» adlı ikinci layihəni Ermənistan və Azərbaycan tərəfinə təqdim etdilər. Həmin layihədə göstərilirdi ki, münaqişə mərhələlərlə aradan qaldırılmalıdır. İlkin mərhələdə Laçın rayonu istisna olmaqla Dağlıq Qarabağın inzibati hüdudlarından kənarda Ermənistan tərəfindən işğal edilmiş 6 rayon (Kəlbəcər, Qubadlı, Zəngilan, Ağdam, Füzuli, Cəbrayıl rayonları) işğaldan azad olmalı, məcburi köçkünlər öz ata-baba yurdlarına qayıtmalı, Ermənistanda və Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsində kommunikasiya vasitələrinin bərpa edilməsi nəzərdə tutulmuşdur [14]. İkinci mərhələdə isə Dağlıq Qarabağın statusu məsələsi, habelə Laçın, Şuşa rayonları ilə bağlı məsələləri nizamlamaq nəzərdə tutulmuşdur. Əvvəlki layihədən



fərqli olaraq, indiki «saziş layihəsi»ndə həyata keçiriləcək tədbirlərin dəqiq mexanizmi, konkret zaman çərçivəsi və prinsipləri pozan tərəfə qarşı «Sanksiyalar tətbiq olunması» planlaşdırılmışdır [15]. Azərbaycanın mənafeyinə uyğun olmayan bəzi müddəalar mövcud olmasına baxmayaraq, Azərbaycan tərəfi 1997-ci il oktyabrın 1-də Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin «mərhələli həlli» təklifinin danışıqlara başlamaq üçün razılığını bildirmişdi [16]. Ermənistan tərəfi də məsələyə öz müsbət münasibətini bildirdi. Daha doğrusu, istər Ermənistanda, istərsə də Dağlıq Qarabağda ağır iqtisadi durum, Heydər Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü xarici siyasət nəticəsində dünya dövlətlərinin əksəriyyətinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi, Azərbaycana qarşı aparıcı dövlətlərin iqtisadi və siyasi maraqlarının müsbət istiqamətdə dəyişməsi və bunun Ermənistan rəhbərliyi tərəfindən dərk edilməsi yuxarıda adıgedən məsələyə Ermənistan prezidentinin öz razılığını bildirməsinə səbəb oldu [17]. Azərbaycanın və Ermənistanın dövlət başçıları, ATƏT-in həmsədrlərinin 1997-ci il 19 sentyabr tarixli təkliflərinin müzakirəsi ilə oktyabrın 10-da Strasburqda danışıqları davam etdirmək üçün razılıqlarını bəyan etdilər. Lakin qondarma «Dağlıq Qarabağ Respublikası»nın liderləri məsələyə qəti etirazlarını bildirdilər [18]. Onlar ATƏT-in Minsk qrupuna Azərbaycanın ərazi bütövlüyünə zidd olan təkliflər verdilər ki, bu təkliflər Beynəlxalq Hüquq Normalarına zidd idi.

Təəssüflər olsun ki, ATƏT-in Minsk qrupunun həmsədrləri ərköyün Quqasiyanın (qondarma DQR-nin «prezidenti») və «vəfalı» L.Ter-Petrosiyanın (Ermənistan prezidenti) təklifləri əsasında Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin «mərhələli həlli» layihəsini yenidən işlədilər. Hazırlanmış «layihə» 1997-ci il dekabrın 2-də Azərbaycan və Ermənistan tərəflərinə təqdim olundu. Burada «Dağlıq Qarabağ Respublikası»nın münaqişə tərəfi kimi tanınması təklif olunurdu [19]. Lakin müdrik siyasətçi H.Əliyev təklif olunan variantın Azərbaycan xalqının mənafelərinə uyğun olmadığını və danışıqların əvvəlki variant üzrə aparılmasının mümkün olduğunu bildirdi [20].

1998-ci il noyabrın 9-da, əsasən, rusiyalı həmsədrlərin hazırladığı «Ümumi dövlət» adlanan təklif Azərbaycan və Ermənistan tərəflərinə təqdim olundu. ATƏT-in Budapeşt və Lissabon sammitlərinə zidd olan təklif paket xarakteri daşıyırdı. Təklif olunan «layihə»də Dağlıq Qarabağ ayrıca bir dövlət kimi təqdim olunurdu. Azərbaycan tərəfi təqdim olunan belə bir «ideal» təklifə razı olmadığını bildirdi [21]. Bütün bunlardan sonra haqq işi uğrunda mübarizə aparan Azərbaycan qeyri-konstruktiv mövqe tutmaqda təqsirləndirildi.

Prezident H.Əliyevi ATƏT-in Minsk qrupunun həmsədrlərinin «fəaliyyət»i qane etmirdi. Ona görə də 1999-cu ilin əvvəllərində H.Əliyev Minsk qrupunun həmsədrlərinə işlərində obyektiv olmağı və canlanma yaratmağı təklif etdi. Belə bir şəraitdə ABŞ prezidenti və dövlət katibi Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün «Yeni format» Proqramını irəli sürdü. ABŞ dövlətinin vasitəçiliyi ilə 1999-cu il ərzində Azərbaycan və Ermənistan prezidentləri bir neçə dəfə görüşüb məsələnin nizamlanması istiqamətində xeyli işlər gördülər və bəzi məsələlərdə razılığa gəldilər [22]. Razılaşdırılmış variant əleyhinə ərköyün erməni xalqının narazılığı genişləndi. Hətta 1999-cu il oktyabrın 27-də Ermənistan parlamentində terror da baş verdi. Belə bir vəziyyət isə prezident Koçaryanı qorxuzdu və əldə edilmiş razılaşmanın pozulduğunu bildirdi [39, s. 51].

Müdrik siyasətçi H.Əliyev Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün məsələni dəfələrlə nüfuzlu beynəlxalq təşkilatların müzakirəsinə çıxardı. Bu baxımdan H.Əliyevin BMT-nin 2000-ci ilin sentyabrında Zirvə toplantısındakı çıxışı çox böyük maraq doğurmuşdur. Azərbaycan Respublikasının Prezidenti H.Əliyev həmin çıxışında göstərmişdir: «BMT-nin TŞ qəbul etdiyi dörd qətnamədə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə təsdiqlənmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb etmişdir. Ancaq TŞ-nın qərarları 1993-cü ildən bu günə qədər kağız üzərində qalmaqdadır. Təcavüzlərdən, ərazi işğallarından və etnik təmizləmələrdən, təcavüzkar separatizmdən və terrorizmdən əzab çəkən dövlətlər tam hüquqla gözləyirlər ki, BMT ədalətli sülhün və təhlükəsizliyin bərqərar edilməsi və BMT Nizamnaməsi prinsiplərinin müdafiəsi üçün maksimum səmərəli təkliflər görəcəkdir» [41].

Zaman Ermənistanın xeyrinə işləmirdi. Ermənistanda iqtisadi və mənəvi durum gündən-günə pisləşdiyindən ölkəni 1,5 milyon əhali tərk etməli olmuşdur. Belə bir vəziyyət «xeyirxah» və «fədakar» erməni lobbisini fəallaşdırdı. Hətta erməni lobbisi Minsk qrupunun həmsədrlərinə necə təsir etmişdisə, Parisdə Azərbaycan və Ermənistan prezidentlərinin 2001-ci il 27 yanvar görüşündə onlar Azərbaycan Prezidenti H.Əliyevə «yazıq» və «kasıb» erməni xalqına bəzi «güzəştlərə» getməyi təklif etmişdilər. Lakin torpağını, xalqını ürəkdən sevən, ona bağlı olan H.Əliyev dövlətçiliyimizin mənafeyinə uyğun olmadığından həmin «təklif»i qəbul etmədi [23].



Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT-in Minsk qrupu 2001-ci ilin fevralında yeni «üç variantlı layihə» hazırlayıb Azərbaycan və Ermənistan tərəflərinə təqdim etdi. «Layihə»nin mətni 2001-ci il fevralın 21-də Azərbaycanın mətbuatında nəşr olunub ictimaiyyətə çatdırıldı [24]. Eyni zamanda fevralın 23-də Azərbaycan Respublikası Milli Məclisinin iclasında ümummilli liderimiz H.Əliyev də iştirak etdi. Qərara alındı ki, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ məsələsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Azərbaycan ziyalıları isə yuxarıda adıgedən məsələyə 2001-ci il mayın 30-da açıq bəyanatla cavab verdilər: «Biz sülh tərəfdarıyıq. Müharibə başlanmasının, qan tökülməsinin əleyhinəyik. Amma sülhdən daha vacib Vətənimizin əzəli torpaqlarının qaytarılmasıdır. Lazım gələrsə, bu yolda BMT Nizamnaməsinə uyğun olaraq təcavüzkara qarşı güc tərtib edilməsi də istisna olunmamalıdır» [25].

Bütün təzyiqlərə baxmayaraq, Heydər Əliyev qətiyyətli mövqe və müdrik siyasət nümayiş etdirərək «Dağlıq Qarabağ məsələsi» ilə bağlı Azərbaycanın mövqelərinin dəyişməyəcəyini ərazi bütövlüyü çərçivəsində həll olunacağını göstərmişdir. Prezident Heydər Əliyev 2001-ci il 4–6 mart Paris, 3 aprel Ki-Uest görüşlərindəki çıxışları bir daha deyilənləri təsdiq edir [26].

2001-ci il iyunun 6–7-də Yaltada GUÖAM təşkilatına üzv olan ölkə başçılarının Zirvə görüşü keçirildi ki, bu görüşdə ATƏT-in Minsk qrupu həmsədrləri də iştirak edirdi. Həmsədrlər problemin həllindən boyun qaçıraraq onu Azərbaycan və Ermənistan tərəflərinin öhdəsinə buraxdı. Prezident H.Əliyev görüşdən qayıdarkən jurnalistlərə müsahibəsində göstərmişdir ki, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində artıq «müharibə variantı» istisna deyil [27].

2002-ci il noyabrın 22-də Praqada Avropa Atlantika Tərəfdaşlıq Şurasına (AATŞ) üzvü olan ölkələrin Zirvə görüşü keçirildi. Görüşdə Azərbaycan Prezidenti H.Əliyev geniş məzmunlu çıxış etdi. H.Əliyev çıxışında göstərdi ki, «Nə qədər ki, gec deyil, dünya birliyi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunması əsasında münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün əlindən gələni etməlidir» [28]. Ümumiyyətlə, ümummilli liderimiz Heydər Əliyevin müdrik və uğurla həyata keçirilən daxili və xarici siyasəti nəticəsində Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi mövqeyi dəyişməz olaraq qalmışdır. 1993–2003-cü illərdə Heydər Əliyevin qətiyyətli siyasəti nəticəsində Azərbaycanın haqq işi, onun günahsız faciələrə

düçar edilməsi səbəbləri dünyaya çatdırıldı, Azərbaycanın suveren hüquqları, ərazi bütövlüyü beynəlxalq təşkilatlar tərəfindən təsdiqləndi, dövlətçiliyimiz qorunaraq inkişaf etdi və Azərbaycan dünyada layiqli yerini tapdı.

Bu gün Azərbaycan dövləti etibarlı əllərdədir. Heydər Əliyevin zəngin idarəçilik və siyasi məktəbini keçmiş layiqli davamçı, xalqın və dünyanın razılıqla qarşıladığı istedadlı dövlət xadimi, dərin biliyə, geniş dünyagörüşə, yüksək idarəetmə qabiliyyətinə malik gənc və istedadlı lider İlham Heydər oğlu Əliyev atasının siyasi xəttini inamla davam etdirir. İ.H.Əliyev prezident seçildiyi vaxtdan keçən dövr ərzində Azərbaycan həm siyasi, həm sosial-iqtisadi, həm də beynəlxalq münasibətlər sahəsində yeni-yeni nailiyyətlər qazanmışdır. Həmçinin prezidentimiz İlham Əliyevin xarici siyasəti sahəsində fəaliyyətinin əsas istiqamətlərindən biri «Dağlıq Qarabağ problemi»nin sülh yolu ilə həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda mübarizə təşkil edir. İ.H.Əliyev çıxışlarında dəfələrlə bəyan etmişdir ki, «Azərbaycan dövləti və xalqı Dağlıq Qarabağ məsələsini ədalətlə, sülh yolu ilə həll edilməsinin tərəfdarıdır. Lakin sülh imkanlarının tükənməsi Azərbaycanın işğal altında olan torpaqlarının silahlı yolla azad etmək hüquqlarından istifadə etmək məcburiyyətində qoya bilər. Güclü orduya malik Azərbaycan dövləti buna qadirdir. Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan ərazisində ikinci bir Ermənistan dövləti yaransın». Nicatımız birlikdədir, Azərbaycan xalqı prezidentin ətrafında sıx birləşərək ərazi bütövlüyünü bərpa edə bilər və edəcəkdir!!!

Aparılan ardıcıl və məqsədyönlü iş nəticəsində 2001-ci il yanvarın 25-də Azərbaycan Respublikası Avropa Şurasına tam hüquqlu üzv qəbul olundu [29]. Millət vəkili İlham Əliyevin başçılıq etdiyi Azərbaycan parlamentinin AŞ-da nümayəndə heyəti, bu təşkilatda səmərəli fəaliyyət göstərməyə başladı. Öz işgüzarlığı ilə Avropa Şurasında böyük nüfuz qazanmış İlham Əliyev iki ildən sonra – 2003-cü il yanvarın 27-də bu təşkilatın Parlament Assambleyası sədrinin müavini və büro üzvü seçildi [30]. Belə bir diqqətə səbəb, həm də Beynəlxalq Venesiya Komissiyasının sədri Puetro Aqounin qeyd etdiyi kimi, Azərbaycanda aparılan islahatların Avropada razılıqla qarşılanması olmuşdu. Bu təşkilatda Azərbaycan nümayəndə heyətinin əsas məqsədi Ermənistanın təcavüzkar kimi tanınmasına nail olmaq və onu işğal etdiyi əraziləri qaytarmağa məcbur etmək idi [32]. 2001-ci il aprelin 24-də Azərbaycan nümayəndə heyəti AŞ tribunasından Ermənistanın azərbaycanlılara qarşı soyqırımı siyasəti yeritdiyini, işğal olunmuş Azərbaycan ərazilərində, o cümlədən Dağlıq Qarabağda narkotik maddələr istehsal və ixrac etdiyini, bu vasitə ilə əldə olunan vəsaitlə təcavüzkar ordu saxladığını,



terrorçu dəstələr yaradıb onlara təlim verdiyini əsaslandırılmış şəkildə bütün dünyaya bəyan etdi. May ayında AŞ Nazirlər Komitəsinin 108-ci sessiyası konsensusla Azərbaycanın təşəbbüsü ilə Avropa dövlətlərinin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən xüsusi kommunike qəbul etdi [33]. İyun ayında AŞ Parlament Assambleyası sessiyasında İlham Əliyev Ermənistan dövlətinin Azərbaycanın işğal olunmuş ərazilərində tarix və mədəniyyət abidələrini dağıtmasını, təbiətin amansızcasına korlanmasına şərait yaradılmasını faktlarla ifşa etdi. AŞ Nazirlər Komitəsinə müraciət edildi ki, Ermənistanın AŞ prinsiplərinə zidd olaraq Azərbaycanın ərazi bütövlüyünü tanımamasına münasibət bildirilsin. Bu müraciət 43 ölkə nümayəndəsinin iştirakı ilə müzakirə edildi. Nazirlər Komitəsinin bununla bağlı qərarında qeyd olunurdu: «... Xalqların öz müqəddəratını təyin etmək hüququnda ... dövlətlərin ərazi bütövlüyünə dair normalara uyğun olaraq hörmət edilməlidir. ...Torpaq əldə etmək məqsədilə gücdən istifadə qəbuledilməzdir və ondan irəli gələn heç bir nəticə qanuni tanına bilməz» [34].

AŞ Parlament Assambleyasının 2001-ci il 25 sentyabr tarixli iclasında İlham Əliyev erməni terrorizmini, Ermənistanın Azərbaycana qarşı keçirdiyi terror və soyqırımı siyasətində terrorçu «ASALA» təşkilatının fəal iştirak etdiyini, törədilmiş 32 terror aktı nəticəsində 2000 adam öldürüldüyünü, on minlərlə adamın yaralandığını bildirdi, terroru dəstəkləyən Ermənistan dövlətini ifşa etdi [35]. Biz il yarım ərzində Avropa Şurası Parlament Assambleyasında Ermənistanın terrorçu dövlət adlandırıldığı 12 sənəd (bunlara üst-üstə AŞ PA-nın 300 deputatı imza atmışdır) qəbul olundu. 2002-ci il sentyabrın 26-da AŞ PA-nın sessiyasında müzakirə edilən Azərbaycan haqqında məruzədə ilk dəfə bu təşkilatın çox vacib sənədində açıq-aydın bildirilir ki, Azərbaycanın torpaqları işğal olunubdur. Ermənistan Azərbaycana qarşı təcavüz edibdir və bu işğal nəticəsində Azərbaycanın bir milyondan artıq qaçqını vardır [36].

2003-cü il avqustun 4-də Azərbaycanın müasir tarixdə yeni mərhələnin başlanğıcını qoymuş mühüm bir hadisə baş verdi. Dərin biliyə, geniş dünyagörüşünə, yüksək idarəetmə qabiliyyətinə malik olan 42 yaşlı gənc lider İlham Əliyev Respublikanın Baş naziri vəzifəsinə təyin edildi.

2003-cü il Azərbaycan dövlətinin siyasi həyatında növbəti prezident seçkiləri ili kimi əlamətdardır. Oktyabrın 15-də keçirilmiş prezident seçkilərində Baş nazir İlham Əliyev səslərin əksəriyyətini qazanaraq ölkə prezidenti seçildi.

Bu seçkiləri əvvəlki seçkilərdən fərqləndirən başlıca cəhət, onun yeni Seçki Məcəlləsi ilə keçirilməsidir. Bu məcəllə demokratik prinsiplərə və

beynəlxalq standartlara cavab verən köklü hüquqi və siyasi sənəddir. Bu sənədin əsas xüsusiyyətlərindən biri, beynəlxalq təşkilatların tövsiyə və təklifləri nəzərə alınmaqla hazırlanmasıdır. Artıq fəaliyyətdə olan Seçki Məcəlləsi prezident seçkilərinin, eləcə də gələcəkdə keçiriləcək digər seçkilərin azad və demokratik, şəffaf olmasına hüquqi təminat yaratmışdır.

2003-cü il dekabrın 12-də Azərbaycan xalqı, bütün türk dünyası ona üz vermiş böyük itkidən sarsıldı. Ümummilli lider Heydər Əliyev vəfat etdi. Onun dəfni ümumxalq matəminə çevrildi. Bu gün Heydər Əliyevin siyasi xətti onun davamçısı prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir. Ümummilli liderin xatirəsini əbədiləşdirmək üçün Respublikanın Milli Məclisi 2005-ci ilin aprelində «Heydər Əliyev ordeninin» təsis edilməsi haqqında Qanun qəbul etdi. Bu ordenlə ilk dəfə Prezident İlham Əliyev və türk dünyasının görkəmli şəxsiyyəti İhsan Doğramaçı təltif olundular.

İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasındakı işi ilə yaxından tanış olarkən ondakı enerjiyə heyran qalmaya bilmirsən. Bu yerdə Milli Məclisin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Daimi Komissiyasının sədri Səməd Seyidovun sözləri yada düşür: «Biz Strasburqda maraqlı, Azərbaycan üçün yaddaqalan, önəmli hadisələrin şahidi olduq. Strasburqa gedən parlament nümayəndə heyətinə millət vəkili İlham Əliyev rəhbərlik edirdi. Onun apardığı səmərəli, yaddaqalan işlərə görə minnətdarlığımızı bildiririk. Azərbaycanın bayrağı Avropa Şurasının binası qarşısında qaldırıldıqdan sonra Avropa Şurasının daxili nizamnaməsinə görə, Azərbaycan nümayəndə heyətinin rəsmi sənədləri təqdim olunmalı idi. Bu, müstəqil dövlətimizin səlahiyyətlərini təsdiq etmək üçün ən vacib məsələ idi. Həmin vacib sənədlər İlham Əliyevin səyi nəticəsində 24 saat ərzində hazırlanıb təqdim edildi. Bu faktın özü bir daha sübut edir ki, İlham Əliyevin siyasi aləmdə mükəmməl təcrübəsi var. O, beynəlxalq şəraitdə baş verən hadisələri dərhal analiz etmək və nəticə çıxarmaq qabiliyyətinə malikdir. Yanvarın 26-da Parlament Assambleyasının iclası öz işini davam etdirdi. Həmin iclasda Azərbaycan nümayəndə heyətinin səlahiyyətləri rəsmi olaraq səsə qoyuldu və təsdiq edildi. Ermənilər isə Avropa Şurasına daxil olmalarına baxmayaraq, tələb olunan sənədləri vaxtında təqdim edə bilmədilər. Ona görə də Ermənistan nümayəndə heyətinin səlahiyyətləri rəsmi olaraq təsdiq edilmədi və bu məsələ Parlament Assambleyasının yaz sessiyasına saxlanıldı» [37].

Qısa müddətdə Avropa Şurasında İlham Əliyevi demokratik dəyərlərə dərindən bağlı, təkcə öz ölkəsinin deyil, həm də Avropanın, dünyanın qlobal məsələlərinə həssaslıqla yanaşan və prinsipial mövqe nümayiş etdirən



bir lider kimi tanımağa başladılar. Müxtəlif məsələlərin müzakirəsində fəallığı və obyektivliyi gənc Liderə böyük nüfuz qazandırır.

İlham Əliyevin səmərəli xidmətləri nəticəsində Azərbaycan haqqında bu günə kimi erməni lobbisinin yaratdığı təsəvvürlər puç oldu. O, sübut etdi ki, dünya miqyaslı siyasətçinin layiqli şagirdi olmaqla bərabər, həm də yetkin, ağıllı, uzaqgörən bir siyasətçidir.

Avropa Şurası Parlament Assambleyasının payız iclasından sonra İlham Əliyev, demək olar ki, diqqət mərkəzində olan bir nömrəli siyasətçiyə çevrildi. Onun erməni xəbisliyinə qarşı kəskin çıxışı Azərbaycana dost olan dövlətlər tərəfindən böyük minnətdarlıqla qarşılandı. Bədxahlarımız isə onun intellektual bacarığı qarşısında təəccüblərini gizlədə bilmədilər.

Təqdirəlayiq haldır ki, İlham Əliyevin simasında Azərbaycan nümayəndə heyəti Avropa Şurası kimi mötəbər bir məclisdə elə ilk sessiyalardan fəallığı ələ aldı. Sentyabrın 25-də Ermənistan nümayəndəsi Hovanesyan Avropa Şurasının Parlament Assambleyasının iclasında Azərbaycanın ünvanına böhtan xarakterli iddialarla çıxış etdi. Onun çıxışı bütünlüklə yalan və qarayaxmalardan ibarət idi. Hovanesyanın çıxışını nümayəndə heyətimiz çox soyuqqanlılıqla dinlədilər və Cənab İlham Əliyev ona çox kəskin cavab verdi. Bildirdi ki, Ermənistan əsrlər boyu bütün siyasətini yalançı göz yaşları, süni məzlumluq, riyakarlıq əsasında qurub: «Bu gün, bu tribunadan çıxış edən erməni nümayəndələri və öz düşündüklərini deməkdən çox-çox uzaqdırlar. Onlar Ermənistandan edilən təzyiqlər nəticəsində danışırlar. Burada da təəccüblü bir şey yoxdur. Çünki onlar təcavüzkar, millətçi həmkarlarının istəklərinə uyğun danışmasalar, ağır nəticələrlə qarşılaşa bilərlər. Ermənistanın son illərdəki tarixində buna uyğun bir neçə terror hadisəsinin baş verdiyi hələ yaddaşlardan silinməyib» [38].

Erməni tərəfinin bu kəskin çıxışları müxtəlif ölkələrin nümayəndələri tərəfindən çox sərt reaksiya ilə qarşılandı. Hətta hislərini gizlətməyi bacarmayan belə nümayəndələrdən çoxu nümayəndə heyətimizə, onun rəhbəri İlham Əliyevə yaxınlaşaraq bildirdilər ki, onlar bu addımı çox pis qarşılayırlar. Hətta fikirlərini bir qədər də kəskin surətdə büruzə verərək bildiriblər ki, Avropa Şurasının tribunası belə yalan, böhtan xarakterli ifadələr üçün məqbul sayıla bilməz.

Ermənistan nümayəndə heyətindən sonra çıxış üçün söz verilən İlham Əliyev öz tutarlı faktları ilə təcavüzkar ölkənin nümayəndəsinin gətirdiyi «arqumentləri» sıfıra endirdi.

Gənc lider İlham Əliyev həmin sessiyada erməni deputatın cavabını kəsərli şəkildə verdi. Lakin dəhşətlisi o idi ki, erməni deputatı sessiyadakı

Azərbaycan əleyhinə olan çıxışını respublikamızda çıxan müxalifət qəzetlərinin qarayaxmaları əsasında qurmuşdu. Həmin məlumat ondan ibarət idi ki, guya Ben Laden ABŞ-da terror aktı törətdikdən sonra Azərbaycan Respublikasının ayrı-ayrı şəxsləri ilə altmış dəfə telefon əlaqəsi yaradıb. Erməni nümayəndəsinin ermənilərin dəyirmanına su tökən müxalifət mətbuatından götürdüyü bu uydurmalara isə İlham Əliyev çox kəsərli cavab verdi. Onun çıxışı böhtan pərdəsini dağıtdı, yalançı ittihamlara qarşı arqumentlərlə çıxış etdi: «Azərbaycan terrorizmdən çox əziyyətlər çəkmişdir. Ermənistanın təcavüzü başlandığı andan erməni terrorçu qrupları tərəfindən Azərbaycana qarşı 32 terror aktı törədilmişdir. Bu terror aktları nəticəsində Azərbaycanda 2 min adam öldürülmüş, on minlərlə adam yaralanmışdır. Azərbaycan xalqına qarşı terror aktları avtobuslarda, gəmilərdə, metro vaqonlarında törədilmişdir. Erməni terrorçularının Azərbaycan xalqına qarşı törətdikləri terror aktları Ermənistan silahlı qüvvələrinin Azərbaycana genişmiqyaslı təcavüzünün əsas elementlərindən biridir. Bu terrorizmin nəticəsi kimi on minlərlə azərbaycanlı öldürülmüş, bir milyon adam qaçqın vəziyyətinə düşmüş, Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur. Erməni terrorçu təşkilatı «ASALA» Ermənistanın Azərbaycana qarşı son 13 ildə həyata keçirdiyi terror və soyqırımı siyasətində çox fəal rol oynamışdır» [39].

Bu sözlər doğrudan da, ermənilərə sərt bir mesaj idi. Bundan sonra nümayəndə heyətimizin rəhbəri daha sərt mövqe tutaraq, erməni terrorizminə göz yuman bütün dünyanı təqsirləndirdi: «Göründüyü kimi, bu gün Avropa Şurasında terrorizm məsələsi müzakirə olunur. Bütün dünya terrorizmlə üz-üzə gəlmişdir. Halbuki illərdən bəri Türkiyə bu terrorizmin sıxıntılarını yaşayır. Erməni terror təşkilatı olan «ASALA» 1960-cı ildən 1984-cü ilə qədər Avropada, hətta Amerikada bir çox türk təmsilçilərini öldürmüşdür. Amma bu acı həqiqətdən dünyanın tükü tərpənmədi. «ASALA»nın fəaliyyəti davam etdirildi, Dağlıq Qarabağda azərbaycanlı qardaşlarımız yurdlarından didərgin salındı. Hazırda onlar qaçqın həyatı yaşayırlar. Dağlıq Qarabağda separatçı, terrorçu, işğalçı siyasəti həyata keçirən «ASALA»dır, onun qalıqlarıdır. Biz bütün dünyanın bunu bilməsini istəyirik. «ASALA» dəstəyini Ermənistan dövlətindən alan terrorçu təşkilatdır. Qarabağdakı işğal tamamilə terror faktıdır. Əgər dünya terrorizmə qarşıdırsa, onda bunu da nəzərə almalıdır» [39].

Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyev 2003-cü il sentyabrın 24-də Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında beynəlxalq dəstəyin qazanılmasının zəruri olduğunu nəzərə alaraq BMT Baş Məclisinin 58-ci sessiyasındakı çıxışında bəyan etmişdi:



«Azərbaycanın nümayəndə heyəti bu yüksək kürsüdən beynəlxalq icmanın diqqətini davam edən Ermənistan–Azərbaycan münaqişəsinə dönə-dönə cəlb etmişdir. Təhlükəsizlik Şurasının 4 qətnamə qəbul etməsindən artıq 10 il keçir. Bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edir». «Ermənistan bu qətnamələri saymamazlığı ilə beynəlxalq icmaya meydan oxuyur. BMT Təhlükəsizlik Şurası və ATƏT-in Minsk qrupu isə bununla bağlı heç bir adekvat qərar qəbul etmir [37, s. 74]. Azərbaycan münaqişənin beynəlxalq hüquq normalarına və prinsiplərinə əsasən sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildiribdir. Biz bu yöndə səylərimizi davam etdirməkdə israrlıyıq və beynəlxalq icmanın fəal iştirakına ümid edirik. Azərbaycan heç zaman «mövcud reallıqlar» əsasında «həll variantı» ilə razılaşmayacaq və torpağının bir qarışını belə heç kimə verməyəcəkdir. Azərbaycanın səbri sonsuz deyil və heç kim bundan sui-istifadəyə cəhd etməsin. Məsələnin həll olunmasına görə məsuliyyət işğalçı Ermənistanın üzərinə düşür, işğalın qurbanı olan Azərbaycanın üstünə yox. Beynəlxalq icmanın tutduğu passiv müşahidəçi mövqeyi yaranmış çıxılmaz vəziyyəti daha da gərginləşdirə bilər [37, s. 75].

«Təəssüf hissi ilə bildirirəm və bunu hamı anlamalıdır ki, beynəlxalq icmanın fəaliyyətsizliyi bu pozucu siyasəti davam etdirməkdə Ermənistanın özünə arxayınlığını gücləndirməyə xidmət edir. Həm ATƏT-in Minsk qrupu, həm də BMT-nin Təhlükəsizlik Şurası təcavüzkarın qarşısında geri çəkildilər və bununla öz fəaliyyətlərinin və niyyətlərinin ciddi surətdə davam etdirilməsini şübhə altına aldılar» sözlərilə davam etdirən cənab İlham Əliyev daha sonra demişdir: «İşğalçının cəzalandırılmaması nəinki bütün beynəlxalq təhlükəsizlik sistemini, həm də beynəlxalq hüququn prinsip və normalarını ciddi surətdə şübhə altına almağa başlayır. Bu cür münasibət beynəlxalq icmaya bir çox hallarda baha başa gəlir» [37].

Daha sonra öz çıxışını davam etdirən İlham Əliyev bildirmişdir ki, «Biz Təhlükəsizlik Şurasına müraciət edirik ki, yuxarıda sadalanan 4 qətnamə ilə bağlı lazımi tədbirlər görülməsini təmin etsin və gözləyirik ki, təmas xəttində, eləcə də işğal olunmuş ərazilərdə cinayətkar və təcavüzkar əməllərə son qoyulacaq, işğalçı qüvvələr Azərbaycan ərazilərindən qeyd-şərtsiz, dərhal və tamamilə çıxarılacaqdır» [37, s.181]. Gənc lider bu çıxışı ilə problemin həllinə daha ciddi yanaşılmasına diqqət artırdı.

2003-cü il 15 oktyabr prezident seçkilərində İlham Əliyevin inamlı qələbəsi beynəlxalq münasibətlərin yeni mərhələsinin formalaşmasına böyük təsir göstərdi. İlham Əliyevin dövlət başçısı kimi öz səlahiyyətlərinin

icrasına başlamasından sonra Azərbaycanın xarici, siyasi, iqtisadi və beynəlxalq əlaqələrinin genişlənməsi və maraqlarının təmin olunması prosesində inkişaf etdirildi. Prezident İlham Əliyevin dünyanın bir sıra söz sahibi olan dövlətlərinə rəsmi səfərləri və yürütdüyü uğurlu xarici siyasət nəticəsində BMT TŞ-ın üzvlərinin hamısı Azərbaycanın ərazi bütövlüyünün tanınmasına tərəfdar olduqlarını bildirdi. Hətta 2006-cı ilin dekabrında ABŞ prezidenti Corc Buş Azərbaycan hökumətinin Dağlıq Qarabağ münaqişəsinə dair siyasi xəttini bəyəndiyini bildirir. Bu uğur Prezident İlham Əliyev diplomatiyasının mühüm nailiyyəti idi [50].

İşğalçı Ermənistanın konstruktiv mövqe nümayiş etdirmək, münaqişənin həllinə təşəbbüs göstərmək əvəzinə Azərbaycan əleyhinə dünyanın istənilən yerində güclü təbliğat apardığı, böhtan, yalanlar yağdırdığı və tarixi təhrif edərək xalqımızı ləkələmək istədiyi bir zamanda Azərbaycan dövlətinin başçısı haqlı olaraq onlara tarixi proseslərin bəzi məqamlarını xatırlatdı və kəskin fikir söylədi: «Ermənistan on ildən artıqdır ki, Azərbaycan torpaqlarını işğal edib, indi isə Azərbaycanı işğal siyasətində ittiham edir. Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim Türk–Azərbaycan torpaqlarıdır. Əgər onlar öz xalqının gələcəyi haqqında düşünürlərsə, öz siyasətində dəyişiklik etməlidirlər. Azərbaycanın işğal olunmuş torpaqlarından qeyri-şərtsiz çıxmalıdırlar və Türkiyəyə qarşı əsassız ittihamlardan əl çəkməlidirlər. Əks təqdirdə, Ermənistanın özünün müqəddəratı sual altına düşə bilər. Azərbaycan heç vaxt Dağlıq Qarabağın itirilməsinə razılıq verməyəcək, nəyin bahasına olursa-olsun, doğma torpaqlarını azad edəcək. Ərazi bütövlüyünü bərpa edəcək. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənilər oraya XIX əsrin əvvəllərində köçürülmüşlər. Bir dəfə Azərbaycan, türk torpağında erməni dövləti yaradılıb, burada ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt imkan verməriк. Biz uzun illər ərzində danışıqlar yolu ilə çalışırıq ki, məsələni həll edək. Amma hələ ki buna müvəffəq olmamışıq. Biz öz siyasətimizi aparacağıq. Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil, olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü bərpa ediləcəkdir deməsi bu prosesin ölkəmizin xeyrinə irəliləməsinin perspektivliliyini göstərdi» [38, s.194].

Müstəqil Azərbaycanın mövqeyinin beynəlxalq hüquq normalarına əsaslanan və tam şəkildə bütün dünya birliyi tərəfindən, həm beynəlxalq təşkilatlar çərçivəsində, həm də ikitərəfli münasibətlərdə dəstəklənən siyasət yürüdən Azərbaycan Prezidenti mövcud durumu təhlil edərək demişdir: «Son dövrlərin siyasi təhlili göstərir ki, Azərbaycan dövlətinin hər bir ölkə ilə imzaladığı sənəddə Azərbaycanın ərazi bütövlüyünün tanınması və dəstəklənməsi onu göstərir ki, bütün beynəlxalq ictimaiyyət, dünyanın siyasi elitası bu məsələnin Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həll edilməsini mümkün sayır. Heç vaxt Azərbaycanın ərazi bütövlüyü pozula bilməz. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Əgər dünya birliyi 1990-cı illərin ortalarında – o vaxt Azərbaycan iqtisadi və siyasi cəhətdən o qədər də güclü deyildi – Dağlıq Qarabağın müstəqilliyini tanımayıbsa, bugünkü vəziyyətdə Azərbaycanın güclü dövlət olduğu bir dövrdə heç də bunu tanımayacaqdır». Bununla da danışıqların uzun illərdir getməsini, ciddi irəliləyişin görünmədiyini, Ermənistanın qeyri-səmimi, qeyri-konstruktiv siyasəti nəticəsində razılaşmaya nail olunmadığını bildirdi. Eyni zamanda bunu artıq bütün dünya ictimaiyyətinin və bu məsələ ilə bağlı bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrlərinin də gördüyünü bildirdi və danışıqların nəticələrinin uğursuz olmasının əsas səbəbinin açıqlanmamasına eyham vurdu.

Biz öz ərazi bütövlüyümüzü heç vaxt güzəştə getməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Azərbaycan rəhbərliyi və Azərbaycan xalqı heç vaxt bununla razı olmayacaqdır. Beynəlxalq ictimaiyyət isə Dağlıq Qarabağın müstəqilliyini heç vaxt tanımayacaqdır. Biz danışıqları bu istiqamətdə aparırıq. Sizə deyə bilərəm ki, danışıqların əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın zəbt olunmuş bütün torpaqları işğalçılardan azad edilsin, Azərbaycan vətəndaşları – məcburi köçkünlər həmin torpaqlara qayıtsınlar, o cümlədən də Dağlıq Qarabağa qayıtsınlar. Bu, bizim prinsipial mövqeyimizdir və bu mövqedən bir addım da kənara çıxmayacağıq. Ermənistan bunu nə qədər tez başa düşsə, onlar üçün bir o qədər yaxşıdır. Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Əgər Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratlarını həll etmək istəyirlərsə, onu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etsinlər, yaxud da əgər bunu istəmirlərsə, onda Dağlıq Qarabağdan çıxıb başqa yerdə özləri üçün ikinci dövlət yaratsınlar. Hər halda Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılması qeyri-mümkündür» [38].

Prezident İlham Əliyevin çoxcəhətli fəaliyyətinin mərkəzində işğal olunmuş torpaqlarımızın azad olunması və köçkünlərin doğma yerlərinə qayıtması dayanır. İlham Əliyev Ermənistan–Azərbaycan Dağlıq Qarabağ

münaqişəsinin həllində nəinki tutduğu mövqedən bir an belə geri çəkilmədi, hətta hücum diplomatiyasına rəvac verdi və hərtərəfli mübarizəyə başlamağa çağırdı. Prezidentin diplomatlarla görüşdə dediyi «Biz müdafiədən hücuma keçməliyik» fikri ermənilərin «Biz Dağlıq Qarabağ problemini indiki reallıqla razılaşmaqla həll etməliyik» tezisinə tutarlı cavab oldu. Azərbaycan Prezidentinin Türkiyədəki çıxışı bir daha göstərdi ki, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq qüvvələrin müsbət rəyinə etibar etsək belə, yenə də bu problemin həllində iki qardaş dövlətin məsuliyyəti ön planda olmalıdır. Prezident türk dövlətləri və cəmiyyətlərinin toplantısında Ermənistanın Türkiyə və Azərbaycana qarşı informasiya müharibəsinə cavab olaraq güclü informasiya hücumuna keçməyi tövsiyə etdi. Azərbaycan Prezidenti öz çıxışında vurğuladı ki, «Azərbaycanm işğal olunmuş torpaqları, Türkiyəyə qarşı əsassız ittihamlar, qondarma soyqırımının tanıdılması cəhdləri – bütün bunlar bizim xalqımıza qarşı yönəldilən əməllərdir. Soyqırımını törədən vəhşilər bizi soyqırımda ittiham edirlər və bəzi hallarda bu, uğur gətirir. Bir çox hallarda xarici ölkələrin onlar tərəfindən pulla, rüşvətlə ələ alınmış riyakar siyasətçiləri onların səsinə səs verirlər. Bu, ədalətsizliyin zirvəsidir. Bu, mənəviyyatsızlığın zirvəsidir. Biz buna qarşı mübarizə aparmalıyıq! ...Biz güclənməliyik, hərtərəfli – hərbi, iqtisadi, siyasi cəhətdən birgə fəaliyyət göstərməliyik!» [50]. Gənc lider İlham Əliyevin məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, dünya ictimaiyyəti Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş Ermənistanı təcavüzkar kimi tanımağa başlayıbdır.

Prezident İlham Əliyev xarici dövlətlərə rəsmi işgüzar səfərləri zamanı, beynəlxalq təşkilatların mötəbər məclislərində Ermənistanın mövqeyini dəlil-sübutlarla kəskin tənqid edərək, onun ədalətsiz, prinsipsiz yolunu bütün dünyaya bəyan etmişdir. Lakin erməni tərəfi Azərbaycan diplomatiyasının nümayiş etdirdiyi qətiyyətə cavab kimi işğal olunmuş ərazilərdə komanda-qərargah hərbi təlimlər keçirməklə, 2008-ci il avqustun 8-də isə Dağlıq Qarabağda yerli özünüidarəetmə orqanlarına qondarma seçkilər keçirməklə BMT-nin, ATƏT-in qərar və qətnamələrini bir daha ayaq altında qoymuş oldu. Bununla əlaqədar, problemin həlli ilə məşğul olan beynəlxalq təşkilatlara və dünya dövlətlərinə Azərbaycanın hakim partiyası olan YAP-ın etdiyi müraciətdə deyilirdi ki, belə fitnəkar hərəkətlər «Ermənistan tərəfinin beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair qəbul etdiyi sənədlərə və çağırışlara məhəl qoymadığını bir daha göstərməklə münaqişə regionunda vəziyyəti daha da mürəkkəbləşdirir, danışıqlar



prosesinə ağır zərbə vurur». Azərbaycan Prezidenti faktlarla sübut edir ki, ermənilər tarix boyu həmişə qonşuluqda nankorluq, nanəciblik göstərib, azərbaycanlılara onların yaxşılığı əvəzində pislik edib, dəfələrlə xalqımıza qarşı soyqırımı təşkil ediblər.

Davakar erməni separatizmi, xalqımıza və ölkəmizə olduqca böyük ziyan gətirmişdir. Dağlıq Qarabağ və ona bitişik 7 rayonu işğal edən ermənilər burada misilsiz talanlar, qırğınlar, ölçüyəgəlməz vəhşiliklər törətmişlər. Onlar öz qanunsuz hərəkətlərinə «qanuni» don geyindirmək üçün «millətlərin öz müqəddəratını təyin etmək hüququ»ndan yararlanmaq istəyirlər. Lakin bu siyasət Respublika Prezidenti İ.H.Əliyev tərəfindən dəfələrlə beynəlxalq səviyyədə ifşa edilərək bildirilmişdir ki, ermənilər artıq bir dəfə öz «müqəddəratlarını» təyin edərək Azərbaycanın qədim torpaqlarında «Ermənistan dövləti» yaradıblar. Bu acı həqiqətin təkrarlanmasına heç vaxt yol verə bilmərik. Dağlıq Qarabağ münaqişəsi artıq beynəlxalq səviyyə almışdır.

ABŞ-m Müdafiə naziri D.Ramsfeldin və Bolqarıstanın Müdafiə naziri N.Şvinarovun Bakıya səfərləri gedişində hərbi əməkdaşlıq məsələlərinin müzakirə olunması, ATƏT-in Minsk qrupu həmsədrlərinin və Avropa Parlamentinin Cənubi Qafqaz üzrə məruzəçisi Per Qartonun Bakıda Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair müzakirələr aparması və Prezident İlham Əliyevin Azərbaycanın öz ərazilərı üzərində suveren hüquqlarım bərpa etməsinə dair qətiyyətli mövqe nümayiş etdirməsi Azərbaycanın çoxşaxəli və fəal xarici siyasətini əks etdirən mühüm addımlardan idi [37, s. 16–17].

Beynəlxalq təşkilatların Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə ikili standartlarla yanaşmasını tənqid edən və buna son qoyulmasını tələb edən İlham Əliyev 2003-cü il noyabrın 15-də Prezident Sarayında Avropa Parlamentinin Xarici Əlaqələr, İnsan Hüquqları, Birgə Təhlükəsizlik və Müdafiə Siyasəti Komitəsinin Cənubi Qafqaz üzrə məruzəçisi Per Qartonu qəbul edərkən demişdir: «Biz ümidvarıq ki, Avropa İttifaqı, Avropa Parlamenti bu məsələdə fəal rol oynayacaqdır. Əlbəttə, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi region üçün böyük təhlükədir. Bu münaqişənin nəticəsində Azərbaycanm 20 faiz torpaqları işğal olunmuş və bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. ATƏT-in Minsk qrupu uzun illərdir ki, bu məsələ ilə məşğul olur, amma əfsuslar olsun ki, heç bir nəticə əldə edilməmişdir. Hesab edirəm ki, bu münaqişənin həll olunması üçün ilk növbədə, ikili standartlar siyasətinə son qoyulmalıdır, işğalçı dövlətdən işğal etdiyi torpaqlardan geri çəkilməsi tələb olunmalıdır. Sevindirici haldır ki, artıq Avropa

strukturlarında bu istiqamətdə işlər aparılır və Avropa Şurasının Ermənistanı işğalçı dövlət kimi tanıması bunu əyani şəkildə göstərir. Ümidvaram ki, digər Avropa strukturları da bu təşəbbüsə qoşulacaqlar və məsələyə öz mövqelərini birmənalı şəkildə bildirəcəklər» [37, s. 367]. Azərbaycan rəhbərliyi qəti şəkildə bütün dünyaya bəyan etmişdir ki, onlar Azərbaycanın bir qarış torpağını belə güzəştə getməyəcəklər.

İlham Əliyev 2004-cü il yanvarın 23-də «Fiqaro» qəzetinə verdiyi müsahibəsində bildirdi ki, «Rusiya Ermənistanla müttəfiq olmasına baxmayaraq, bu məsələnin həllində mühüm rol oynayan ABŞ və Fransa da vardır. Minsk qrupuna daxil olan bu ölkələr birlikdə təzyiq göstərməlidirlər ki, Ermənistan bizim əraziləri azad etmək məcburiyyətində qalsın, biz Qarabağın müstəqilliyini və onun Ermənistana birləşdirilməsini heç vaxt qəbul etməyəcəyik» [50].

Prezident İlham Əliyev yüksək sülh mədəniyyətinə malik şəxsiyyətdir. O, sülhün *mürəkkəb daxili quruluşunu, dinamikasını*, dramatizmini dərk edərək Azərbaycanın ərazi bütövlüyü üçün bütün incə yollardan, dinc vasitələrdən istifadə etmişdir və edir. 2004-cü il 26–27 iyunda NATO-nun İstanbul Zirvə Görüşü çərçivəsində «Avroatlantik İttifaqı yol ayrıcında» mövzusunda keçirilmiş beynəlxalq konfransda etdiyi çıxışında Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq qurumların rolu məsələsinə toxunan İlham Əliyev demişdir: «Biz istərdik ki, yalnız ATƏT deyil, Avropa Birliyi, Avropa Şurası və digər beynəlxalq təşkilatlar da məsələnin həllində fəal rol oynasınlar. Əlbəttə, ATƏT-in Minsk qrupunun məsələni həll etmək üçün mandatı vardır və biz bu mandata hörmətlə yanaşırıq. Amma düşünürəm ki, daha geniş beynəlxalq ictimaiyyətin bu yönümdə fəal rol oynamasının vaxtı çatmışdır». Sevindirici hal ondan ibarətdir ki, İlham Əliyev Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsini nizamlamaq üçün nüfuzlu beynəlxalq təşkilatları və aparıcı dövlətləri bu işə cəlb edə bilmişdi.

2004-cü il aprelin 28-də Polşanın paytaxtı Varşavada Dünya (Davos) iqtisadi sammitində iştirak edən Azərbaycan və Ermənistan prezidentləri yaranmış əlverişli fürsətdən istifadə edərək əvvəlcə Minsk qrupu həmsədrlərinin iştirakı ilə və eləcə də təkbətək görüşərək Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Praqa danışıqları əsasında müzakirələr aparmış, məsələnin həlli üçün konstruktiv şəkildə uğurlu addımlar atmışlar [5–].

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində Prezident İlham Əliyev 2004-cü ilin ikinci yarısında xeyli



məqsədyönlü iş aparmışdı. Belə ki, aprelin 28-də Davos görüşü, iyunun 21-də Praqa danışıqları, sentyabrın 16-da Astana toplantısı, noyabrın 19-da Berlin və dekabrın 9-da Brüssel danışıqları Ermənistan tərəfinin qeyri-konstruktiv mövqe tutması ucbatından heç bir nəticə vermədi. Bəzi dövlətlərin irəli sürdüyü «ümumi dövlət» təklifi və Rusiya ilə hərbi əməkdaşlığın vüsət almasına görə Ermənistanda yaranmış əhvali-ruhiyyə erməni tərəfində Azərbaycana qarşı öz şərtlərini diqtə etmək həvəsini bir az da gücləndirdi. Belə şəraitdə məsələnin sonsuzluğa qədər uzanacağından ehtiyat edən bəzi beynəlxalq təşkilatlar müxtəlif təşəbbüslərlə çıxış etməyə başladılar. AŞ PA-nın Siyasi Komitəsi Azərbaycana və Ermənistana çağırış ünvanlayaraq ATƏT-in himayəsi və səyi nəticəsində Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasının mümkünsüzlüyü mövcud olduğu təqdirdə məsələyə BMT-nin Beynəlxalq Məhkəməsində baxılacağı barədə xəbərdarlıq etdi [50].

Gənc lider İlham Əliyev öz çıxışlarında Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının münaqişənin həllinə, sülhün əldə olunmasına kifayət qədər diqqət yetirməməsini vurğulayır, işğal altında qalan ərazilərdə transmilli cinayətkarlığın güclənməsini, bəşəriyyət üçün yeni təhlükə mənbəyinə çevrilməsini diqqətə çatdırdı. Problemin nizamlanması istiqamətində Dünya birliyinin nümayiş etdirdiyi soyuqqanlılığın, sabah onları daha böyük təhlükələrlə qarşı-qarşıya qoyacağını anlatdı. İlham Əliyev BMT Baş Assambleyasının 59-cu sessiyasındakı çıxışında Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibətdə dövlətimizin mövqeyini bir daha açıqladı, Təhlükəsizlik Şurasının fəaliyyətinə iradlarını bildirdi və qeyd etdi ki, «Beynəlxalq qurumun bir çox hallarda problemə qeyri-konstruktiv münasibəti münaqişənin aradan qaldırılmasına, sülhün əldə olunmasına deyil, əksinə, Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları irəli sürməsinə, ümumilikdə regionda vəziyyətin daha da gərginləşməsinə zəmin yaradır. Belə ki, Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunduğu gündən etibarən Dünya birliyi ölkələrini Ermənistanın yeritdiyi işğalçılıq, soyqırımı və etnik təmizləmə siyasətinin qarşısını almağa, dövlətimizin beynəlxalq hüquq normalarına əsasən təsbit olunmuş hüquqlarının, məcburən daimi yaşayış yerlərini tərk etmiş vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsində konstruktiv mövqe tutmağa çağırsa da, beynəlxalq qurumların fəaliyyətsizliyi üzündən heç bir nəticə alınmamışdır. Halbuki BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünün, onun dövlət sərhədlərinin pozulmasının yolverilməz olduğu açıq göstərilmişdir» [37].

Prezident İlham Əliyevin dünyanın mötəbər kürsülərindən cəsarətlə «Aydın məsələdir ki, BMT-nin Təhlükəsizlik Şurasının, ATƏT-in və onun Minsk qrupunun problemə passiv və laqeyd münasibət göstərdiyi şəraitdə Ermənistan işğalçılıq əməllərindən və destruktiv mövqeyindən əl çəkməyəcəkdir» deməsi yüksək siyasi iradənin nümayişidir. Bu yerdə görkəmli siyasətçi Vrend Skoytroftuk 2002-ci ildə «Mən Azərbaycanın gələcəyinə nikbin baxıram. İlham Əliyev bizə güclü siyasətçi təsiri bağışlayır», fikrinin reallığa çevrildiyi təsdiqlənir [38].

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin uzun müddət beynəlxalq təşkilatların müzakirə obyektinə çevrilməsinə baxmayaraq, bu məsələ hələ də öz ədalətli həllini tapmamışdır. Lakin bütün bunlar möhkəm iradəli gənc Prezidentimizi bu yoldan çəkindirmədi. Azərbaycan Prezidenti İlham Əliyev bütün gücünü Azərbaycan dövlətinin ərazi bütövlüyünün bərpası yolunda əsirgəmədi.

2005-ci il yanvarın 3-də İlham Əliyev BMT-nin Təhlükəsizlik Şurasının iclasında Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması sahəsində proseslərin əlverişli istiqamətdə getməsinə nail olunduğunu və bu problemin Praqa prosesi əsasında həllində «yeni mərhələlərin» başlandığını bəyan etmişdir. Azərbaycan və Ermənistan respublikalarının Xarici İşlər nazirləri E.Məmmədyarov və V.Oskanyanın 2005-ci il yanvarın 11-də Praqa görüşündən sonra Strasburqda AŞ PA-nın Siyasi Komitəsində qurumun Dağlıq Qarabağ üzrə məruzəçisi Devid Atkinsonun Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin real nəticələrini obyektiv əks etdirən hesabatı dinlənildi. Hesabatda Ermənistanın işğalçı dövlət kimi tanınması məsələsinə bir daha toxunuldu. Dağlıq Qarabağ probleminin birdəfəlik ədalətli həlli istiqamətində beynəlxalq təşkilatlara, konkret olaraq ATƏT-in Minsk qrupuna səmərəli kömək etmək əzmində olduğunu bildirdi. «Praqa prosesi»nin nəticələrinə beynəlxalq ictimaiyyətin nikbin baxmasının əsasını təşkil edən Dağlıq Qarabağ probleminin mərhələli həlli variantının dövlət başçıları səviyyəsində müzakirəsinin başlanması (Varşava görüşü), ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin, habelə münaqişə üzrə prezidentlərin xüsusi nümayəndələrinin ardıcıl danışıqlar aparması mühüm mərhələ oldu. Amerika Birləşmiş Ştatlarının dövlət katibi Pauell Azərbaycan Xarici İşlər naziri E.Məmmədyarova göndərdiyi cavab məktubunda yazırdı: «Birləşmiş Ştatlar münaqişənin sülh yolu ilə həllinə sadiqdir və bu məqsədlə ATƏT-in Minsk qrupu çərçivəsində də daha geniş diplomatik səviyyədə fəal işimizi davam etdirəcəyik» [50, s. 11].



Azərbaycan Respublikası Prezidentinin apardığı siyasi mübarizəyə əsaslanan Azərbaycan diplomatiyası ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında daha da fəallaşdı. Bu diplomatik fəallıq ardıcıl və sistemli fəaliyyətin həyata keçirilməsi ilə müşayiət olunmağa başladı. Ermənistanın beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymayan işğalçı dövlət olması faktiki olaraq bir çox dünya dövlətləri tərəfindən qəbul edildi. Bu da münaqişə barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında çox mühüm amil kimi özünü göstərdi. Ermənistanın siyasi mövqelərinin sarsılmasına zəmin yaratdı. ATƏT-in Minsk qrupunun son illərdə öz fəaliyyətini xeyli dərəcədə gücləndirməsi dünyanın ən aparıcı beynəlxalq təşkilatlarının Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə daha çox diqqət ayırması bunu əyani şəkildə sübut etdi. Avropa Şurası, Avropa Birliyi, İKT kimi nüfuzlu beynəlxalq qurumlar, habelə BMT-nin problemin həllində ərazi toxunulmazlığı prinsipini önə çəkməsi respublikamızı beynəlxalq əməkdaşlıq mərkəzinə çevirdi. ABŞ-ın münaqişənin bu prinsip əsasında həllinə tərəfdar olması problemin həlli istiqamətində əhəmiyyətli nəticə oldu. Ermənistanın münaqişənin «Praqa prosesi», yəni «mərhələli həlli» modeli ilə razılaşmaq məcburiyyətində qalması Azərbaycan hökumətinin siyasi arenada nüfuzunu artırdı [52].

Bütövlükdə 2006-cı il Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycan tərəfinin fikirləri xarici dövlətlər üçün daha prioritet oldu. Qondarma «Dağlıq Qarabağ respublikası»nda keçirilmiş «referendum»un beynəlxalq təşkilatlar tərəfindən tanınmaması, BMT-nin Baş Assambleyasında Azərbaycan torpaqlarının işğal edilməsi faktının sənədlərdə əksini tapması, Azərbaycanın Qarabağ bölgəsində ermənilər tərəfindən törədilmiş yanğınlar haqqında sənədlərin ATƏT-də qəbul edilməsi və bu quruma daxil olan dövlətlərə göndərilməsi üçün qərarın qəbul edilməsi müsbət hal kimi qiymətləndirilməlidir.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq problemə çevrilməsi, onun sülh yolu ilə və birdəfəlik həlli üçün mühüm perspektiv sayılsa da, bu problemin xeyli vaxt keçməsinə baxmayaraq, hələ də həll edilməmiş qalmasının əsas səbəblərindən biri beynəlxalq təşkilatların bu məsələdə ciddi mövqe tutmaması, işğalçı Ermənistana qarşı sanksiyalar tətbiq etməməsidir. Ancaq beynəlxalq təşkilatların Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair qərar və qətnamələrini müsbət hal kimi qəbul etməklə münaqişənin birdəfəlik həllinə nail olmaq üçün perspektiv və potensial imkanları nəzərə alaraq bu problemin həlli istiqamətində mübarizənin gücləndirilməsinə böyük ehtiyac olduğu unudulmamalıdır.

Prezident İlham Əliyevin çıxışında bu məsələ konkret və məzmunlu şəkildə öz şərhini tapmışdır: «Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, əfsuslar olsun ki, 2007-ci ildə öz həllini tapmadı. Amma günah bizdə deyil, günah Ermənistanın qeyri-konstruktiv mövqeyindədir. Biz danışıqları aparırıq. Baxmayaraq ki, danışıqların hələ heç bir nəticəsi yoxdur. Sadəcə olaraq, biz çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək, beynəlxalq hüquq əsasında həll edək. Əfsuslar olsun, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi, işğalçı siyasəti imkan vermədi ki, biz 2007-ci ildə bu məsələni həll edək. Biz öz ərazi bütövlüyümüzü heç vaxt güzəştə getməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Azərbaycan rəhbərliyi və Azərbaycan xalqı heç vaxt bununla razı olmayacaqdır. Beynəlxalq ictimaiyyət isə Dağlıq Qarabağın müstəqilliyini heç vaxt tanımayacaqdır. Biz danışıqları bu istiqamətdə aparırıq. Sizə deyə bilərəm ki, danışıqların əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın zəbt olunmuş bütün torpaqları işğalçılardan azad edilsin, Azərbaycan vətəndaşları – məcburi köçkünlər həmin torpaqlara qayıtsınlar, o cümlədən də Dağlıq Qarabağa qayıtsınlar. Bu, bizim prinsipial mövqeyimizdir və bu mövqedən bir addım da kənara çıxmayacağıq. Ermənistan bunu nə qədər tez başa düşsə, onlar üçün bir o qədər yaxşıdır. Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Əgər Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratlarını həll etmək istəyirlərsə, onu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etsinlər, yaxud da əgər bunu istəmirlərsə, onda Dağlıq Qarabağdan çıxıb başqa yerdə özləri üçün ikinci dövlət yaratsınlar. Hər halda Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılması qeyri-mümkündür. Bizim prinsipial mövqeyimiz günü-gündən daha çox beynəlxalq dəstək qazanır. Eyni zamanda bir daha demək istəyirəm ki, biz danışıqlar prosesini bu istiqamətdə davam etdirəcəyik» [50].

Beləliklə, ABŞ-ın Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində daha perspektivli addımlar atması, dövlətimizin milli maraqlarına uyğun olaraq, respublikamızın beynəlxalq mövqeyinin güclənməsi, Dağlıq Qarabağ gerçəkliklərinin dünya ictimaiyyətinə çatdırılması, son dövrlərdə BMT-nin iradəsini ifadə edən ATƏT-in fəaliyyətindəki yenilikləri Minsk qrupunun təşəbbüsü ilə 2007-ci il Madrid danışıqları, 2008-ci il noyabrın 2-də Moskva bəyannaməsinin baza prinsiplərini özündə əks etdirən sənədin qəbul edilməsi Azərbaycan Respublikasının xarici siyasətinin uğurlu göstəricisi kimi qiymətləndirilməli və Prezident İlham Əliyevin xarici siyasətinin uğuru hesab edilməlidir. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük qətiyyətlə həyata keçirdiyi xarici siyasət kursu xalqımızın milli maraqlarına tam cavab verir. Respublikamızın beynəlxalq aləmdə daha da tanınmasına, sülh, əməkdaşlıq və tərəqqi mərkəzinə çevrilməsinə xidmət edir. Azərbaycanın malik olduğu iqtisadi potensial, dövlət rəhbərlərinin həyata keçirdiyi kompleks islahatlar kursunun milli maraq və mənafelərimizi daha etibarlı səviyyədə təmin etməsi, Azərbaycanın sürətli inkişafı Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində uğurlu nəticə əldə edilməsinə, problemin sülh yolu ilə, BMT nizamnaməsinə, ATƏT-in əsas prinsip və qərarlarına, beynəlxalq hüquq normalarına uyğun şəkildə, Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həll edilməsinə böyük inam yaradır. Bu gün ümummilli liderimiz Heydər Əliyevin möhtəşəm ideyaları reallığa çevrilir. Azərbaycan diplomatiyasının gərgin səyləri öz bəhrəsini verməkdədir. Azərbaycan sürətlə Avroatlantika məkanına intiqrasiya olunur. Qonşu Gürcüstan, Türkiyə, İran və Rusiya ilə münasibətlər daha da yaxşılaşmışdır. NATO ilə fərdi tərəfdaşlıq barədə razılıq əldə olunmuşdur. Azərbaycanın BMT, ATƏT, Avropa Şurası və digər nüfuzlu təşkilatlarda mövqeyi daha da möhkəmlənmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan dövləti və xalqı münaqişənin ədalətlə həll edilməsinin tərəfdarıdır. Lakin sülh imkanlarının tükənməsi Azərbaycanı öz torpaqlarını silahlı yolla azad etmək məcburiyyəti qarşısında qoya bilər. Güclü orduya malik olan Azərbaycan dövləti buna qadirdir. Bu gün Ana Vətən, sinəsi dağlı Qarabağ bizi intiqama çağırır. Əsirlikdə, darda olan Qarabağımız bizi intiqama çağırır, bizdən kömək diləyir. Bu torpaq yad əlləri, yad nəfəsi, özgə dili qəbul edə bilmir. Bu torpaq, indi doğma dildən çıxan bircə «Vətən» kəlməsinə həsrətdir. Biz də bu ulu torpağı düşmən tapdağı altında qoya bilmərik. Bizim hər birimizin ən böyük arzusu qələbədir, işğal olunmuş torpaqlarımızın, doğma Qarabağımızın geri qaytarılması, azad olunmasıdır. Biz inanırıq ki, həmin şad günü həsrətlə gözləyən, qələbə sevincini yaşamaq istəyən arzularımız gerçəkləşəcək, Qarabağ həsrətinə son qoyulacaqdır. Bunun üçün xalqımızın mübarizə əzmi və Ali Baş Komandan ətrafında sıx birliyi lazımdır!!!

# SON SÖZ ƏVƏZİ

XX yüzilliyin 20–30-cu illərində Azərbaycanın inzibati-ərazi quruluşunda böyük dəyişikliklər baş verdi. 1929-cu ilin aprelində keçirilmiş VI Ümumazərbaycan Sovetlər qurultayının qərarı ilə Azərbaycanda 13 qəza ləğv edildi. Onun yerində 8 mahal (Bakı, Quba, Lənkəran, Şirvan, Muğan (Salyan), Zaqatala–Nuxa, Gəncə və Qarabağ mahalları) yaradıldı. Lakin 1930-cu il iyulun 23-də SSRİ MİK və XKS «Mahalların ləğv edilməsi haqqında» qərar qəbul etdiyindən, 1930-cu ilin sentyabrında Azərbaycanda mahallar ləğv olundu. Onların yerində 63 inzibati rayon yaradıldı. Bu zaman Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində 5 rayon (Xankəndi, Ağdərə, Xocavənd, Hadrud və Şuşa rayonları) yaradıldı. 1932-ci ildə rayonların böyüdülməsi məqsədilə Azərbaycanın yeni rayonlaşdırılması «islahatı» aparıldı və respublika ərazisində rayonların sayı 47-yə endirildi. Mərkəzdən dəstək alan Dağlıq Qarabağın erməni rəhbərliyi qatı millətçilik siyasəti yeridərək 1963-cü ildə azərbaycanlıların daha çox yaşadığı Şuşa rayonunu ləğv edib, ərazisini Xankəndi rayonuna vermiş, lakin Şuşa əhalisinin təkidli tələbi ilə 1965-ci ildə Şuşa yenidən müstəqil rayon olmuşdur. Təəssüflər olsun ki, həmin vaxt Şuşa rayonunun bir neçə kəndi Xankəndi rayonunun tərkibində qaldı.

Xatırladaq ki, Mərkəzin diqtəsi və rəhbərliyi altında 7 iyul 1923-cü ildə Azərbaycan SSR-in tərkibində məqsədli şəkildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayəti öz «missiyası»nı layiqincə yerinə yetirərək Azərbaycan Respublikası Ali Sovetinin 26 noyabr 1991-ci il qərarı ilə ləğv edilmişdir. Ümummilli liderimiz H.Ə.Əliyev «Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti»ndə Azərbaycanın sovet hakimiyyəti dövrünə çox düzgün, siyasi qiymət vermişdir: «1922–1991-ci illər Azərbaycanda sovet hakimiyyətinin qurulması və 70 il ərzində Azərbaycanın sovet hakimiyyəti, sovet dövləti çərçivəsində yaşaması dövrünü əhatə edir. Bu illərdə Azərbaycanda çox zəngin iqtisadi və intellektual potensial yaranmış, təhsil, elm və mədəniyyət böyük inkişaf yolu keçmişdir. Təəssüflər olsun ki, həmin dövrdə yaradılmış o böyük potensial hərc-mərclik illərində dağıntılara məruz qaldı. Azərbaycanın düçar olduğu Dağlıq Qarabağ faciəsi vəziyyəti daha da ağırlaşdırdı».

DQMV-i, respublikamızın müasir sənayeyə, çoxcəhətli kənd təsərrüfatına, geniş sosial struktura malik yüksək inkişaf etmiş regionlarından biri olmuşdur. Azərbaycanın ümumi əhalisinin təxminən 2 faizini, ərazisinin 5 faizini təşkil edən DQMV-i respublikamızda istehsal olunan kənd təsərrüfatı



məhsullarının 5 faizini, sənaye məhsullarının təxminən 3 faizini istehsal edirdi. Hal-hazırda Şuşa, Xocalı, Xankəndi rayonları, respublika tabeçiliyində olan Xankəndi və Şuşa şəhərləri Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonuna daxildir. Dağlıq Qarabağ müxtəlif təbii şəraitə və zəngin təbii ehtiyatlara malikdir. Ərazinin çox hissəsini Qarabağ silsiləsi və ondan ayrılan silsilə və tirələr tutur. Burada dağ tirələri və silsilələri arasında geniş dağarası çökəkliklər yerləşir. Bunlardan ən böyüyü məhsuldar torpaqları olan Xocalı çökəkliyidir. Bölgənin şimalında Umudlu, cənubunda Qırmızı Bazar, Tuğ çökəklikləri var. Qarabağ silsiləsi, əsasən, Mezozoyun vulkan və qismən çökmə qatlarından, orta dağlıqlarından ibarətdir. Yalnız Ziyarət və Böyük Kirs yüksək dağlığa aid edilə bilər. Təbii qala sayılan Şuşa yaylası və Daşaltı kanyonu təkrarolunmaz gözəlliyə malikdir. Dağlıq Qarabağın maili düzənlikləri də vardır ki, bu da əkinə çox yararlıdır. Dağlıq Qarabağın iqlimi çox müxtəlifdir. Dağətəyi ərazilərdə quru subtropik, dağlıq ərazilərdə isə mülayim dağ iqlimi hakimdir. Yağıntının miqdarı 300–800 mm arasında dəyişir. Dağlıq Qarabağın rayonlarında suvarma və dəmyə əkinçiliyi, bağçılıq və heyvandarlıq inkişaf etmişdi. Ərazidən Tərtərçay, Xaçınçay, Qarqarçay, Köndələnçay, Quruçay və digər kiçik çaylar axır. Tərtər çayı üzərindəki SES və onun su anbarı suvarma üçün böyük əhəmiyyətə malikdir. Bölgədəki Turşsu, Şırlan və digər mineral sular sənaye əhəmiyyətlidir. Şuşa şəhəri yaxınlığında gözəl mənzərəli sıx meşədə yerləşən İsa bulağı, Şuşa şəhəri sakinlərinin və Düzən Qarabağ əhalisinin ən sevimli istirahət yeri idi. Dağlıq Qarabağın ən mühüm təbii sərvətlərindən biri palıd, vələs, fısdıq meşələridir. Bu meşələr ərazidə ağac emalı sənayesinin inkişafına səbəb olmuşdur. Erməni işğalçıları başqa sərvətlərimizi qarət etdikləri kimi, Qarabağ meşələrindəki bu nadir və qiymətli ağac növlərini də qırıb Ermənistana daşıyırlar. Dağlıq Qarabağın təbii sərvətləri içərisində Mehmana polimetal filiz yatağını, müxtəlif tikinti materiallarını, çox böyük ehtiyata malik olan mərmər, porfiritlər, civə, əhəngdaşı, sement xammalı, qum, çınqıl və sair göstərmək olar ki, bütün bunlar da, bu gün erməni vandalları tərəfindən qəddarcasına mənimsənilir.

Dağlıq Qarabağın kənd təsərrüfatının aparıcı sahələri üzümçülük, bağçılıq və heyvandarlıqdır. Üzüm plantasiyaları Dağlıq Qarabağın bütün rayonlarında var idi. Həmçinin təbii otlaqların zənginliyi heyvandarlığın da, inkişafına təkan vermişdir. Əlverişli təbii şəraitin mövcudluğu arıçılığın da inkişafına şərait yaradıb. Bölgədəki geniş yayılmış tut bağları baramaçılığın inkişafına səbəb olmuşdur. Bölgənin sənayesi, əsasən, yerli kənd

təsərrüfatı xammalına əsaslanır. Sənayenin strukturunda yüngül və yeyinti sənayesi aparıcı sahələr idi. Rayonlar şərabçılıq, müxtəlif meyvə-tərəvəz konserv sənayesi, unüyütmə, çörəkbişirmə, toxuculuq, tikiş, ipəkçilik, xalçaçılıq, ayaqqabı, gön-dəri sənayesi ilə təmsil olunurdu.

Dağlıq Qarabağın şəhər və rayonları arasında əlaqə əsas avtomobil yolları vasitəsilə həyata keçirilirdi. Horadiz–Füzuli–Xocavənd–Ağdam–Ağdərə–Tərtər, Yevlax–Bərdə–Kəlbəcər, Bərdə–Ağdam–Şuşa–Laçın şose yolları yüklərin və sərnişinlərin daşındığı əsas xətlərdir. Bu və ya başqa şose yolları rayonların daxili hissələrini Ələt–Culfa və Yevlax–Ağdam–Xankəndi dəmiryolu ilə əlaqələndirir. Xankəndində aeroport işləyir. Ərazidən Yevlax–Ağdam–Xankəndi–Laçın–Görüş–Naxçıvan qaz kəməri keçir ki, hazırda bölgənin işğalı ilə bağlı öz fəaliyyətini dayandırmışdır.

Təəssüflər olsun ki, xalqımızın zəhməti və dövlətimizin böyük vəsaiti hesabına yaradılmış yuxarıda adıgedən infrastruktur, bölgənin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı ilə bağlı məhv edilmiş, dağıdılmış və qarət edilmişdir.

Dağlıq Qarabağın, respublika tabeçiliyindəki Şuşa şəhəri Azərbaycanın ən məşhur mədəniyyət mərkəzlərindən biri olmaqla yanaşı, təkrarsız gözəlliyə malik olan bir şəhər və təbii qaladır. Azərbaycan musiqisinin beşiyi sayılan Şuşada xalqımızın böyük sənət ustaları Üzeyir Hacıbəyov və Bülbül kimi görkəmli sənətkarlar yetişmişdir. Erməni işğalçılarının xarabalığa çevirdiyi bu şəhərdə məşhur Şuşa məscidi, diyarşünaslıq muzeyi, musiqi məktəbi, pedaqoji institut, sanatoriyalar, turizm mərkəzi, böyük Vaqifin, Nəvvabın məzar abidələri, Şuşanın qala divarları, xan qızı Natəvanın, Mehmandarovun evi və bir sıra başqa abidələr yerləşirdi.

Məlum acı həqiqətdir ki, 1988–1993-cü illərdə Ermənistanın Azərbaycana əsassız ərazi iddiaları nəticəsində torpaqlarımızın 20 faizi işğal edildi. Ermənilər «torpağı viran qoymaq» taktikasından istifadə edərək işğal etdikləri ərazilərdə evləri, müəssisələri, kommunikasiya vasitələrini, təbii sərvətləri qəddarlıqla talan etdilər, dağıtdılar, yandırdılar. Müharibədə 20 min azərbaycanlı şəhid oldu, 100 min nəfər yaralandı, 5 min nəfər əlilə çevrildi, 5 min nəfər əsir və girov götürüldü. Qaçqın və köçkünlərimizin sayı bir milyon nəfəri keçmişdir.

Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş və separatçı «Dağlıq Qarabağ Respublikası»nın nəzarətində olan əraziləri beynəlxalq terrorizmin təlim düşərgələrinə və müxtəlif növ kimyəvi qırğın silahlarının sınaq meydanına, habelə nüvə tullantılarının basdırıldığı zonaya çevrilmişdir. İşğal olunmuş Azərbaycan ərazilərində nüvə, bioloji və kompyuter terrorizmi



üzrə qruplar fəaliyyət göstərir. Dağlıq Qarabağ ərazisində yerləşdirilmiş «C–300» və «Tayfun» raketlərini Ermənistan alimləri modernləşdirmişdilər. İşğal edilmiş Azərbaycan ərazilərində narkotik maddələr istehsal və ixrac olunur. Burada tarix və mədəniyyət abidələri dağıdılır, təbiət amansızcasına korlanır.

İşğal olunmuş Azərbaycan ərazilərindən işğalçı ordunun dərhal, tamamilə və qeyri-şərtsiz çıxarılması tələbi BMT Təhlükəsizlik Şurasının 1993-cü il 30 aprel 822, 29 iyul 853, 14 oktyabr 874 və 11 noyabr 884 saylı qətnamələrində öz əksini tapsa da, Ermənistan müxtəlif bəhanələrlə onları yerinə yetirməkdən imtina edir.

1993-cü ildə xalqın təkidli tələbi ilə Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə qayıdışı respublikamızın siyasi, iqtisadi və mədəni həyatında əsaslı irəliləyişlərə səbəb oldu. Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi, Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, ölkənin dünya birliyində layiqli yer tutması Prezident Heydər Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü xarici siyasətinin ana xəttini təşkil edirdi. İlk növbədə, real, çətin vəziyyətdən çıxmaq üçün 1994-cü il, mayın 12-də cəbhələrdə atəşkəsə nail olundu. Ordu möhkəmləndi, müasir hərbi texnika və bacarıqlı kadrlarla təchiz olundu, silahlı qüvvələrimizin şəxsi heyətinin döyüş qabiliyyəti artdı, hərbi hissələrdə nizam-intizam möhkəmləndi. Azərbaycan Prezidentinin müdrik və səmərəli xarici siyasət xətti nəticəsində respublikamızla dünyanın ən inkişaf etmiş ölkələri arasında bərabərhüquqlu dostluq və əməkdaşlıq münasibətləri yaradılmışdır. Heydər Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən daxili və xarici siyasət, ölkənin iqtisadiyyatının sürətli inkişaf yoluna düşməsi, milli ordu quruculuğu sahəsində irəliləmələr, regionla bağlı məsələlərin həllində iri dövlətlərin onunla hesablaşmağa məcbur olması ilə nəticələndi. Bununla da Azərbaycan Respublikası XXI əsrə Dünya birliyinin bərabərhüquqlu və suveren üzvü kimi, tutduğu müstəqillik və tərəqqi yolu ilə inamla addımlayan bir dövlət kimi qədəm qoydu.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ probleminin həllinin ikinci mərhələsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərhələsidir. Vahid prosesin bu mərhələsində İlham Əliyevin böyük qətiyyətlə davam etdirdiyi xarici siyasət kursu respublikamızın beynəlxalq aləmdə daha da tanınmasına, sülh, əməkdaşlıq və tərəqqi mərkəzinə çevrilməsinə xidmət etmişdir və artıq Azərbaycan belə bir mərkəzə çevrilmişdir. Azərbaycanın malik olduğu iqtisadi potensial, dövlət başçısının həyata keçirdiyi

kompleks islahatlar kursunun milli maraq və mənafelərimizi daha etibarlı səviyyədə təmin etməsi, bir sözlə, Azərbaycanın sürətli inkişafı Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində uğurlu nəticələr əldə edilməsinə, problemin sülh yolu ilə, BMT nizamnaməsinə, ATƏT-in əsas prinsip və qərarlarına, beynəlxalq hüquq normalarına uyğun şəkildə, Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həll edilməsinə böyük inam yaratmışdır.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh, danışıqlar yolu ilə həll edilməsi üçün sülhsevər siyasətçi Heydər Əliyevin möhtəşəm ideyaları reallaşmalıdır. Bunun üçün Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti açıqlanmalı, bu gün danışıqlar prosesində ermənilərin tutduğu qeyri-konstruktiv mövqe dünya ictimaiyyətinə çatdırılmalıdır. Bu məqsədlə dünyanın aparıcı dövlətlərini, xüsusilə ABŞ-ı, Rusiyanı və aparıcı beynəlxalq təşkilatları bu işə daha yaxından cəlb etməliyik. Eyni zamanda münaqişənin ədalətli həlli naminə Türkiyə Cümhuriyyətinin danışıqlar prosesinə fəal cəlb olunması təmin edilməli, Türkiyənin ABŞ-la strateji tərəfdar olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının ən ağır probleminin həllində Türkiyə dövlətinin yaxından iştirakı təmin olunmalıdır. Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini dünyaya çatdırmaq üçün Türkiyə–Azərbaycan diasporlarının birgə fəaliyyət mexanizmi işlənib hazırlamalı, xarici dövlətlərdəki Azərbaycan diasporunun və səfirliklərimizin gücündən tam, səmərəli istifadə etməliyik. Bütün bunlarla yanaşı, Azərbaycan hərbi potensialını gücləndirməklə, kütləvi informasiya vasitələrindən istifadə etməklə, beynəlxalq təşkilatlarla siyasi dialoqun inkişafına nail olmaqla, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc, siyasi vasitələrlə həlli gedişinə dair obyektiv informasiya mübadiləsi təşəbbüsünü ələ almalıdır. Gənc lider İlham Əliyev çıxışlarından birində Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövcud durumu çox uzaqgörənliklə belə işıqlandırmışdır: «Artıq xeyli vaxtdır ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib, indi isə Azərbaycanı ittiham edir. Ermənistana aid bütün torpaqlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiaları irəli sürmürük, sürə bilərik. Əgər Ermənistan rəhbərliyi öz xalqının gələcəyi haqqında düşünürlərsə, öz siyasətlərində dəyişiklik etməlidirlər. Ermənistan silahlı birləşmələri Azərbaycanın işğal olunmuş torpaqlarından qeyri-şərtsiz çıxmalıdırlar və Türkiyəyə qarşı əsassız iddialardan əl çəkməlidirlər. Əks halda Ermənistanın özünün müqəddəratı sual altına düşə bilər. Azərbaycan heç vaxt Dağlıq Qarabağın itirilməsinə razılıq



verməyəcək və nəyin bahasına olursa-olsun doğma torpaqlarını azad edəcəkdir. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənilər oraya XIX əsrin əvvəllərində köçürülmüşlər. Bir dəfə Azərbaycan torpağında erməni dövləti yaradılıb, burada ikinci bir erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik... Azərbaycanın ərazi bütövlüyü tezliklə bərpa ediləcəkdir... Azərbaycan dövləti və xalqı Dağlıq Qarabağ məsələsinin ədalətlə, sülh yolu ilə həll edilməsinin tərəfdarıdır, lakin sülh imkanlarının tükənməsi Azərbaycanı işğal altında olan torpaqlarını silahlı yolla azad etmək hüquqlarından istifadə etmək məcburiyyətində qoya bilər. Güclü orduya malik Azərbaycan dövləti buna qadirdir!!!»

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR


*I Fəsil*

1. Azərbaycan Sovet ensiklopediyası. VI cild. Bakı, 1982.
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. I hissə. Bakı, 2007, s.20.
3. ARDA, f.411, s.9, i.73, v.283–286.
4. ARDA, f.13, s.4, i.20, v.2.
5. Qeybullayev Q. Qarabağ. Etnik və siyasi tarixinə dair. Bakı, 1990.
6. Məmmədov N.R. Azərbaycan SSR-in DQMV-də ictimai-siyasi həyat, iqtisadi və mədəni inkişaf (1923–1991). Bakı, 2008.
7. Sovet Dağlıq Qarabağı. Bakı, 1983.
8. «Kommunist» qəzeti. 30.12.1976-cı il.
9. Кушнарева К.Х. Памятник медного века в Нагорном Карабахе. Советская археология. Т.26, 1954 г.
10. Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı, Azərnəşr, 1993.
11. http//az trend az/print 838289. html «Media forum».
12. http//az. Wikipedia org/wiki/A. Ağdərə-Vikipediya.

*II Fəsil*

1. ASE. X cild. Bakı, 1987, s.49.
2. «Azərbaycan» qəzeti, 17 yanvar 1998.
3. Cavanşir M.S. Qarabağ tarixi. Bakı, 1959, s.49–50.
4. DQMV-i rəqəmlərdə. Bakı, 1980.
5. DQMV-i 50 ildə. Bakı, 1979, s.72–73.
6. Xəlilov X.Ə. «Qarabağın elat dünyası». Bakı, 1992. s.13.
7. Qeybullayev Q. «Qarabağ». Bakı, 1990. s.159.
8. «Kommunist» qəzeti, 13 iyun, 1948, №117.
9. Məmmədov N. Azərbaycan SSR-in DQMV-də ictimai-siyasi həyat, iqtisadi və mədəni inkişaf (1923–1991). Bakı, 2008.
10. Əhmədov H. «XIX əsr Azərbaycan məktəbi». Bakı, 2006, s.9.
11. «Təşviqatçı» jurnalı. 1967, №1, s.18.
12. Достижения Нагорного Карабаха в девятой пятилетке. Баку, 1976.
13. Народное хозяйство Азерб. ССР. Баку, 1988, с.275–276.
14. «Известия» Аз.ФАН СССР, 1939, №4, с.78.





*III Fəsil*

1. ARDA, f. 411, s.9, i. 73, v.283–284.
2. ARDA, f. 13, s.4, i.42, v.11–13, i.20, v.2–5.
3. ARDSPİHA, f.1, s.232, i.70, v.22-23.
4. ARDSPİHA, f.2, s.121, i.30, v.51-54.
5. Azərbaycan Sovet Ensiklopediyası, X cild. Bakı, 1987, 576 s.
6. Azərbaycan EA-nın Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası), 1977, №3. 217 s.
7. Məmmədov N.R. Azərbaycan SSR-in DQMV-də ictimai siyasi həyat, iqtisadi və mədəni inkişaf (1923–1991). Bakı, 2008, 566 s.
8. Azərbaycan toponimləri, (birinci cild). Bakı, 2007, 612 s.
9. Quliyev C.B., B.S.Geverkov... Qardaşlıq ailəsində. «Azərnəşr», 1973, 291 s.
10. Азербайджан в цифрах (стат. сбор.). Баку, 1964, 394 с.
11. Нагорный Карабах за годы советской власти. Ханкенди, 1970, 199 с.
12. Нагорно-Карабахская Автономиая Область. Баку, 1970, 400 с.
13. http/www. 525 ci. com.

*IV Fəsil*

1. Azərbaycan Ensiklopediyası. Bakı, «Azərnəşr», 2007, 980 s.
2. Azərbaycan toponimləri. Bakı, «Şərq-Qərb», 2007, 598 s.
3. «Azərbaycan» qəzeti, 26 fevral 1997-ci il.
4. «Azərbaycan» qəzeti 26 fevral, 2002-ci il.
5. Асадов С., Мамедов И. Терроризм, прнчина и следствие. Баку, «Азербайджан», 2001 г., 289 с.
6. Ходжалы. Хроника геноцида. Баку, «Просвещение», 1993, 152 с.
7. «Xalq» qəzeti, 28 mart 1992-ci il; 27 fevral 1993-cü il.
8. «Xalq» qəzeti, 9 may 1992-ci il; 6 mart 1992-ci il.
9. Ermənistan Respublikası; terrorizm dövlət siyasətinin tərkib hissəsi kimi. Faktlar və rəqəmlər. Bakı, «İşıq», 2001, 256 s.
10. Минкевич – Мустафаева Н.В. Памятиики трех основных групп Ходжалы-Кедебекской культуры на территории Азерб. ССР и их датировка. Баку, «Элм», 1962, 168 с.
11. «Mühakimə» qəzeti. 1995.
12. Hacıyev N. Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı, «Gənclik», 2005, 190 s.

13. Nasiman Y. Xocalı qırğını. Bakı, «Azərbaycan nəşriyyatı», 1992, 128 s.
14. Süleymanov M. Azərbaycan Ordusu. 1991–1993, Bakı, «Qanun» nəşriyyatı, 1994, 302 s.
15. «Respublika» qəzeti, 26 fevral 2002-ci il.

*V Fəsil*

1. ARMDA, f.970, s.1, i.161, v.1.
2. ARMDA, f.970, s.1, i.162, v.22.
3. ARMDA, f.17, s.1, i.701, v.29.
4. ARMDA, f.2502, s.1, i.55, v.2.
5. ARMDA, f.456, s.16, i.129, v.32.
6. ARMDA, f.27, s.1, i. 649, v.190.
7. ARMDA, f.24, s.1, i.137, v.18.
8. ARMDA, f.460, s.1, i.11, v.45.
9. ARMDA, f.27, s.1, i.96, v.16.
10. ARMDA, f.420, s.1, i.173, v.24.
11. ARMDA, f.379, s.3, i.73, v.173.
12. ARDSPİHA, f.27, s.2, i.54, v.47.
13. ARDSPİHA, f.410, s.1, i.70, v.96.
14. ARDSPİHA, f.420, s.1, i.3, v.42.
15. ASE, IV cild, «Azərnəşr», Bakı, 1980, s.233.
16. «Azərbaycan» qəzeti, 5 oktyabr 2002-ci il.
17. «Azərbaycan» qəzeti, 10 may 1994, 29.04.1995.
18. «Azərbaycan» qəzeti, 13 may 1995-ci il.
19. Azərbaycan toponimləri. Birinci cild. Bakı, 2007, 566 s.
20. Ələsgərov A.K., Qasımov H.A. Müasir dövrdə Azərbaycan Sovet kəndində ictimai-iqtisadi irəliləmələr. «Elm», Bakı, 1973, 239.
21. Əliyev H.Ə. Azərbaycan XXI əsr və üçüncü minilliyin astanasmda. Bakı, 2001, 55 s.
22. Məmmədov N.R. Azərbaycan SSR-in DQMV-də siyasi vəziyyət, iqtisadi və mədəni inkişaf, Bakı, 2008, 584 s.
23. Азербайджан в цифрах (кр. ст. сбор.). «АГИ». Баку, 1964, 291 с.
24. Достижения Нагорного Карабаха в девятой пятилетке. Ханкенди. 1976, 150 с.
25. Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века. Москва, 1969, 116 с.
26. Похомов Е.А. Аскеран. «Известия», 1926, №2, 67 с.
27. http.525 ci.com.



*VI Fəsil*

1. ARDA, f.411, s.9, i.73, v.285-287.
2. ARDSPİHA, f.2, s.121, i.30, v.54-55.
3. AMEATİEA №1662, s.33.
4. Azərbaycan toponimləri. Bakı, 2007, 487 s.
5. «Azərbaycan» qəzeti 10 may, 1994-cü il.
6. «Azərbaycan» qəzeti 20 aprel, 1995-ci il.
7. «Azərbaycan» qəzeti 15 yanvar 2003-cü il.
8. Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007, 860 s.
9. Quliyev Ç.B., Geverkov B.S… Qardaşlıq ailəsində. Bakı, 1973, 120 s.
10. Məmmədov N.R. Azərbaycan SSR-in DQMV-də ictimai-siyasi həyat, iqtisadi və mədəni inkişaf. Bakı, 2008, 567 s.
11. Ələkbərov Ə.K., Qasımov H.A. Müasir Azərbaycan kəndində ictimai-iqtisadi irəliləyişlər. Bakı, 1973, 279 s.
12. Давудов Ю.Г. Достижения НКАО в девятой пятилетке. Баку, 1976, 149 с.
13. Народное хозяйство Азерб. ССР в 1988 году. Баку, 1990, 403 с.
14. Мкртычян Ш.М. НКАО. Баку, 1970, 68 с.
15. Нагорный Карабах за годы советской власти. Ханкенди, 1970, 199 с.
16. Http/ www 525 ci.com.

*VII fəsil*

1. Ağayev M. Şuşada «Azərbaycan işçi kəndli müxbiri», 1930, № 6–7, səh.23–24.
2. Ağamirov U. Şuşa kurortunun inkişafı, «Kommunist» qəzeti, Bakı, 23 iyul 1953, № 171.
3. «Azərbaycan» qəzeti, 22 fevral 1997-ci il, 10 may 1994, 25 dekabr 1992-ci il.
4. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri, departasiya, soyqırımı, qaçqınlıq, Bakı, 1998.
5. Abiyev V.A. Ucalığa gedən yol «Sovet kəndi» qəzeti, 20.10.1988.
6. Ağakişiyev A. Şuşa, «Kommunist» qəzeti, 08.01.1970.
7. Aslan Məmməd: Qarabağın zümrüd tacı, «Azərbaycan gəncləri» qəzeti, 30.03.1971.

8. Aslanov Qəşəm: Fərəhli nəticələr (Şuşa haqqında), «Ədəbiyyat və incəsənət» qəzeti, 08.02.1975.
9. Axundov P. Dağlar qoynunda şəhər, «Təşviqatçı» jurnalı, 1967, № 2, səh. 22–23.
10. Aslanov Q. Fərəhli nəticələr (Şuşa rayonu haqqında), «Ədəbiyyat və incəsənət» qəzeti, 12 oktyabr, 1990.
11. Axundov P. Yadigar qorunmalıdır: Şuşa abidələrlə də, məşhur şəhərdir. «Ədəbiyyat və incəsənət» qəzeti, 12 oktyabr, 1990.
12. Axundova M., Poladova M. Şuşanın əbədi yadigarları, «Elm və həyat jurnalı», 1986, № 2, səh.16-18.
13. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin astanasında, Bakı, 2001.
14. Əliyev H.Ə. DQMV-nin 50 illiyi «Kommunist» qəzeti, Bakı, 1973, № 277.
15. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, I–IV cildlər, Bakı 1997–*1998*.
16. Əliyev H.Ə. Şuşa və Laçın xəyanətlərini xalqımız heç vaxt bağışlamayacaq, «Azərbaycan» qəzeti, 15.05.1996.
17. Əhmədov C. Dağlar qoynunda (Şuşa haqqında) «Azərbaycan gəncləri» qəzeti, 11 sentyabr, 1957.
18. Əhmədov S. Şuşa haqqında qeydlər, «Ədəbiyyat və incəsənət» qəzeti, 15 oktyabr 1966.
19. Əkbərzadə Ş. Şuşam mənim, «Azərbaycan gəncləri» qəzeti, 13 yanvar, 1983.
20. Əliyev T. Şuşa daha da abadlaşır, «Sovet kəndi» qəzeti, 1 noyabr 1977.
21. Əliyev İ. Şuşada yeni binalar, «Sovet kəndi» qəzeti, 23 noyabr 1973.
22. Qasımov Ə. Şuşa əsl kurort şəhəri olmalıdır, «Kommunist» qəzeti, 3 avqust, 1965.
23. Quliyev V. Şuşadakı memarlıq abidələri, «Mədəni-maarif işi» jurnalı, 1985, № 3, səh.28–29.
24. Quliyev Z. Şuşanın işğalından 5 il keçir, «Azərbaycan» qəzeti, 8 may 1997.
25. Quliyeva Ç. Səfalı Şuşada, «Azərbaycan pioneri» qəzeti, 17 avqust, 1957.
26. Fərzəli Ə. Şuşa – işıq səhər, «Azərbaycan gəncləri» qəzeti, 2 sentyabr 1989.
27. Fərzəliyev Y. Dostluq və qardaşlıq diyarı, Bakı, 1985.
28. Fərəcova M. Şuşa kurort şəhəridir, «Kommunist» qəzeti, Bakı, 3 oktyabr, 1963, № 233.
29. Məmmədov N.R. Şuşa və şuşalılar. Bakı, 2004, 128 s.
30. Məmmədov A.Ə. Yeddiillik plan Lenin xarici siyasətinin ifadəsidir, Bakı, 1960.
31. Mahmudov Y.M. Azərbaycan dövlətçiliyinin xilaskarı, Bakı, 1998.
32. Мусаева Т.А. Революция и народное образование в Азербайджане (1920–1940). Баку, 1979.
33. Mirzə Adıgözəlbəy: Qarabağnamə, Bakı, 1950.
34. Mirzə Camal C. Qarabağ tarixi, Bakı, 1959.
35. Məmmədov N.R. Şuşa Qarabağın mərkəzi, mədəniyyət ocağıdır, APU xəbərləri, Bakı, 1998.
36. Məmmədov B. Şuşanın dünəni, bu günü, sabahı. «Azərbaycan» jurnalı, 1988, № 12, səh.155–162.
37. Məmmədov P. Daşaltı (Şuşa qayalığı), «Azərbaycan gəncləri» qəzeti, 2 avqust, 1977.
38. Məmmədov T., Bir daha Şuşa haqqında, «Kommunist» qəzeti, 20 yanvar, 1976.
39. Məhərrəmov S. Şuşanı abadlaşdıraq. «Azərbaycan qadını» jurnalı, 1958, № 1, səh.12–13.
40. Mirzəyev Ə. Şuşada tikinti işləri, «Kommunist» qəzeti, 24 avqust 1957.
41. Mahmudov Y.M. Odlar yurduna səyahət, Bakı, 1980.
42. Prilipko L.İ. Stepanakert və Şuşa rayonlarının dərman bitkiləri, «AEA-nın Xəbərləri», 1846, № 3.
43. Poladlı Ə. Səfalı Şuşada. «Azərbaycan müəllimi» qəzeti, 8 avqust 1957.
44. Paşazadə L. Şuşa üç il on bir aydan sonra, «Sovet kəndi» qəzeti, 25 noyabr 1980.
45. Vəliyev Ə. Şuşa barədə bəzi qeydlər, «Kommunist» qəzeti, 25–26 avqust 1970.
46. Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanda ipək emalı sənayesi (1900–1917), Bakı, 1977.
47. Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanda fəhlələrin vəziyyəti və tətil mübarizəsi, Bakı, 1998.
48. Виноградов В. Узеир Гаджибеков и азербайджанская музыка. Москва, 1938.

49. Veysəlli N. Qartal qanadlı şəhər (Şuşa), «Azərbaycan» jurnalı, 1985, № 6, səh.121–130.
50. Vasif Quliyev: Həkim-şair (Şuşalı həkim, müəllim, şair A.M.Sadıq), «Qarabağ» jurnalı, 9 yanvar 1992, № 2.
51. Bəhmənov N. Şuşaya qayıdanda vətən torpağını öpüb gözümün üstünə qoyacağam, «Azərbaycan» qəzeti, 14.05.1996.
52. Bəhmənov N. Şuşa və Laçın xəyanətlərini xalqımız heç vaxt bağışlamayacaq, «Azərbaycan» qəzeti, 8 may 1996.
53. «Səhər» qəzeti, 12 mart 1992-ci il.
54. Sultanov O.B. 80-ci illərin sonu 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə, Bakı, 1995.
55. Джафаров А.Г., Гасаиов А.А. Археологические находки из Шушинской пещеры. ДАН Азерб.ССР, т.32, 1976, № 1.
56. Dəlili H., Şuşanın tarixi, «Elm və həyat» jurnalı, 1977-ci il, № 7, səh. 32–33.
57. Dəmirli D. Şuşada birləşən yollar, «Sovet kəndi» qəzeti, 31 iyul 1965.
58. Kərimli K. Hələ Şuşalıykən. «Azərbaycan» nəşriyyatı, Bakı, 1995.
59. Kərimli K. Ürəyimin şüşəsi Şuşa. «Azərbaycan» nəşriyyatı, Bakı, 1993.
60. Nuriyev S. Şuşanın axşamları, «Təşviqatçı» jurnalı, 1986, №9, səh.43-45.
61. Xuduyev İ. Şuşadan şəhidlər xiyabanına, Bakı, 1997.
62. Xəlilov X.D. Qarabağın elat dünyası. Bakı, 1992.
63. Hacıyev Q.Ə. Bərdə şəhərinin tarixi. Bakı, 2000.
64. Həsənov Ə.Ə., Cəfərov Ə.Q. Şuşa mağarasından tapılan arxeoloji materiallar. DAN Az.SSR 32 cild, Bakı, 1976, № 1.
65. Hüseynov Q. və Sadıqov R. Şuşanın Kirov kəndi və onun əmək adamları, «Şuşa qəzeti», 30.09.1969.
66. Hüseynzadə Ə. İbrahim Xəlil xanın Şuşanı tərk etməsi səbəbi. Azərb.SSR EA-nın məruzələri, 1969, № 1, səh.41.
67. Həsənov F. Şuşa «Kommunist» qəzeti, 25 iyun 1959.
68. Hacıyev N. Nəğməkar torpaq (Şuşa şəhəri haqqında), «Kommunist» qəzeti, 30 may 1982.
69. Cəfərov Ə. Quruçay dərəsində. Bakı, 1990.
70. Cəfərov İ. Daş kahalar (Şuşanın Gülablı kəndində abidə), «Ədəbiyyat və incəsənət» qəzeti, 4 may 1984, səh.5.
71. Cavadlı C. Şuşa, «Azərbaycan pioneri» qəzeti, 18 sentyabr 1968.



72. Cavanşir M.C. Qarabağ tarixi, Bakı, 1959.
73. İmanov R.C. Sosialist Dağlıq Qarabağı, Bakı, 1961.
74. İsmayılov Y. Ziyalılar (Şuşa sakinləri haqqında), «Ulduz» jurnalı, 1988, № 4, səh.75–84.
75. İlyasov Vəli. Şuşa kimi alınmaz qala xəyanətin qurbanı oldu. «Azərbaycan», 09.05.2002.
76. İsmayılov Y. Şuşa etüdləri, «Azərbaycan gəncləri» qəzeti, 29 iyul 1975.
77. İmanov R. Çiçəklənən diyar. Bakı, 1984.
78. İbişov F. Azərbaycanın kəndində sosial-siyasi proseslər (1920–1930), Bakı, 1956.
79. Zeynalov T. Qədim Şuşanın gəncliyi. «Ədəbiyyat və incəsənət» qəzeti, 4 aprel 1980, səh.3.
80. Zeynalov T. Şuşa dağlar incisi olacaqdır, «Azərbaycan gəncləri» qəzeti, 15 yanvar 1967.
81. Zeynalov T. Şuşanın keçmişi, bu günü, gələcəyi, «Ulduz» jurnalı, 1981, № 10, səh.62–64.
82. Zeynalov T. Şuşanın landşaftı dəyişir, «Azərbaycan gəncləri» qəzeti, 6 mart 1973.
83. Tofiq Köçərli. Yaddan çıxmaz Qarabağ, Nəqşi-cahan Naxçıvan, Bakı, 1998.
84. Şuşinski F. Uca dağlar, sərin bulaqlar, «Azərbaycan pioneri» qəzeti, 29.01.1960.
85. Şuşinski F. Keçmişə də cavabdehik, gələcəyə də! (Şuşa abidələri haqda), «Azərbaycan gəncləri» qəzeti, 06.07.1978.
86. Şuşinski Seyid. Sənətkarlar vətəni Şuşa, «Azərbaycan gəncləri» qəzeti, 11.09.1957.
87. Şuşa Müəllimlər İnstitutunun birinci buraxılışı «Gənc işçi» qəzeti, 24.03.1941.
88. Şuşinski F. və Məmmədov G. Şuşanı abad və mədəni kurort şəhərinə çevirməli, «Kommunist» qəzeti, 28 sentyabr 1962.
89. «Yurd» jurnalı 1995, №1, səh.16.
90. «Respublika» qəzeti, 10 may 1994-cü il.
91. «Müxalifət» qəzeti, iyul, 1992-ci il.

*VIII fəsil*

1. ARDA, f. 349, s. 44, i. 68, v. 649.
2. Adıgözəlov M. Qarabağnamə. Bakı, 1950, s.28.
3. Azərbaycan tarixi, yeddicildlik. Yeddinci cild. Bakı, Elm, 2003, s.196.
4. Azərbaycan Sovet Ensiklopediyası. X cild. Bakı, 1987, s. 577–580.
5. «Azərbaycan» jurnalı. 1985-ci il, №6, s. 121–129.
6. «Azərbaycan» jurnalı. 1988-ci il, №10, s. 156–157.
7. Azərbaycan SSR EA məruzələri, 1976, №1, s.89.
8. Azərbaycan SSR EA xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası), 1987, №2, s.50–53.
9. Məmmədov N. Şuşa və şuşalılar. Bakı, 2004, s. 75, 104.
10. Əliyev H. Müstəqilliyimiz əbədidir, IV kitab. Bakı, 1997, s. 494.
11. Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. «Respublika» qəzeti, 20 dekabr 2000-ci il.
12. Hacıyev N. Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı, Gənclik, 2005, s.82.
13. Elm və həyat jurnalı. 1986-cı il, №2, s. 16–17.
14. Heydər Əliyev və muzeylərimiz. Bakı, 1999, s.38.
15. «Azərbaycan gəncləri» qəzeti. 21 noyabr 1987.
16. «Ulduz» jurnalı. Bakı, 1981, №10, s.62.
17. «Mədəni-maarif işi» jurnalı. Bakı, 1985, №3, s.28–29.
18. «Azərbaycan gəncləri» qəzeti. 21 noyabr 1987.
19. «Ulduz» jurnalı. Bakı, 1981, №10, s.63.
20. «Ulduz» jurnalı. Bakı, 1988, №4, s.76.
21. «Azərbaycan gəncləri» qəzeti. 1 avqust, 1991.
22. «Azərbaycan gəncləri» qəzeti. 13 yanvar 1983.
23. DQMV-i 50 ildə. «Azərnəşr», Bakı, 1973, s.92.
24. Sovet Dağlıq Qarabağı (Lenin milli siyasətinin təntənəsi). Bakı, 1983, s.124.
25. Məmmədov N.R. Şuşa və şuşalılar. Bakı, «Elm» nəşriyyatı, 2004, s.75.
26. Məmmədov N.R. Azərbaycanın Şuşa qəzası 1900–1917-ci illərdə. Bakı, 2005, s.175.
27. Azərbaycan Sovet Ensiklopediyası. X cild. Bakı, 1987, s.577.
